ƏLİ İBRAHİMOV



# Y.V.ÇƏMƏNZƏMİNLİNİN FƏLSƏFİ VƏ SOSİAL-SİYASİ GÖRÜŞLƏRİ

B A K I - 2008

**AZƏRBAYCAN MILLI ELMLƏR AKADEMIYASI**
**FƏLSƏFƏ VƏ SIYASI-HÜQUQI TƏDQIQATLAR INSTITUTU**
**«POLITOLOGIYA» ŞÖBƏSI**

---

**ƏLİ İBRAHİMOV**

# Y.V.ÇƏMƏNZƏMİNLİNİN FƏLSƏFİ VƏ SOSİAL-SİYASİ GÖRÜŞLƏRİ

**Monoqrafiya AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutunun Elmi Şurasının 3 oktyabr - 2008-ci il tarixli 10 saylı protokoluna əsasən çap olunmuşdur.**

**BAKI – «NURLAN»- 2008**

**Elmi redaktor:** ***Fəlsəfə elmləri doktoru, professor***
**ƏLIKRAM TAĞIYEV**

**Rəyçilər:** ***Fəlsəfə elmləri doktoru, professor***
**IZZƏT RÜSTƏMOV**
***Fəlsəfə elmləri namizədi, dosent***
**ARIF BƏŞIROV**

**Ibrahimov Əli. Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri. – Bakı: Nurlan, 2008. - 252 s.**

*Kitab Azərbaycanda görkəmli ədib, çox nüfuzlu jurnalist-publisist, böyük ictimai dövlət xadimi, ali təhsilli hüquqşünas, səfir-diplomat kimi tanınan Y.V.Çəmənzəminlinin görüşlərində fəlsəfi və sosial-siyasi məsələlərə həsr olunmuşdur. Müəllif haqsız repressiya məhrumiyyətlərinə məruz qalan şəxsiyyətlər içərisində Yusif Vəziri bugünkü milli müstəqillik işığında xalqa tanıtdırmaq kimi müqəddəs bir borcun öhdəsindən gəlməyə çalışmışdır. Çağdaş dünyamızın mühüm problemlərindən biri olan, milli intibah ideyaları üzərində formalaşan Yusif Vəzirin elmi-nəzəri yaradıcılığına kompleks şəklində yanaşılmış, onun sosial ədalət, milli mətbuat və milli dil kontekstində dövlətçilik və maarifçilik baxışları şərh edilmişdir. Əsaslandırılmışdır ki, Y.V.Çəmənzəminli maarifçilikdən milli müstəqilliyin gerçəkləşməsinə doğru uzun müddətli ideya təkamülü ilə müşaiyət edilən yaradıcı bir yol keçmiş, eyni zamanda o, ictimai-siyasi fikir tarixində ilk dəfə olaraq millətin və xalqın xeyrinə görülən bütün işlərin «milli məsələ» kimi başa düşülməsi qənaətinə gəlmişdir. Kitab fəlsəfə, siyasət, ədəbiyyat məsələlərinin tədqiqi ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.*

Q.n.
© Ə.I. Ibrahimov

## MÜNDƏRİCAT

REDAKTORDAN ........................................................................4
GIRIŞ.......................................................................................8

**I FƏSİL**

**Y.V.ÇƏMƏNZƏMİNLİNİN DÖVRÜ VƏ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ**..............................................26

1.1. Y.V.Çəmənzəminlinin dövrü və fəaliyyəti: aparıcı meyllər və istiqamətlər.............................................26
1.2. Y.V.Çəmənzəminlinin fəlsəfi-etik görüşləri...................... 55
1.3. Y.V.Çəmənzəminlinin sosial-siyasi görüşləri.....................79

**II FƏSİL**

**Y.V.ÇƏMƏNZƏMINLININ DÖVLƏTÇILIK VƏ MAARIFÇILIK IDEYALARI**......................................102

2.1.Sosial ədalət və milli idarəçilik məsələləri ..........................102
2.2.Təhsil, milli mətbuat və milli dil problemləri......................118

**III FƏSİL**

**Y.V.ÇƏMƏNZƏMİNLİ VƏ MİLLİ MƏSƏLƏ**.................142

3.1.Dövrün milli etnik mənzərəsinə münasibət .......................142
3.2.Bütöv Azərbaycan idealı...................................................176
3.3. Milli məsələnin qoyuluşu və həlli yolları ........................187

Nəticə.......................................................................213
Istifadə olunmuş ədəbiyyat.....................................................221
Summary...................................................................236
Rezöme....................................................................237
Kitaba verilən rəylər ................................................................239

# REDAKTORDAN

Azərbaycan MEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar Institutunun böyük elmi işçisi, fəlsəfə elmləri namizədi Ə.I.Ibrahimovun «Y.V.Çəmən-zəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda yazdığı monoqrafiyasında işin ümumi səciyyəsi, aktuallığı tədqiqatın qarşısında duran məqsəd və vəzifələr, onun elmi yeniliyi, tədqiqatın işlənmə səviyyəsi və s. məsələlər təhlil və tədqiq edilmişdir.

Ə.I.Ibrahimov Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixində spesifik mövqeyə malik olan görkəmli yazıçı və mütəfəkkir, jurnalist-publisist Yusif Vəzir Çəmənzəminlinin dünyagörüşündə fəlsəfi və sosial-siyasi məsələləri geniş və hərtərəfli araşdırmışdır.

Monoqrafiyanın birinci fəslində müəllif mütəfəkkirin dövrü və fəaliyyətini: aparıcı meyllər və istiqamətlərdə düzgün və mənbələr əsasında açıqlayır, onun dünyagörüşünün formalaşmasında XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda yaranmış sosial-siyasi şərait, başlanan milli oyanış prosesinin mühüm rol oynadığını qeyd etmişdir. Əsaslandırılmışdır ki, Y.V.Çəmənzəminli də müasirləri M.Ə.Rəsulzadə, Ə.B.Ağaoğlu, Əlibəy Hüseynzadə, Fətəli xan Xoylu və başqaları kimi XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələrin mərkəzində dayanan şəxsiyyətlərdən olub. Qeyd edək ki,

Azərbaycan Xalq Cümhuriyyəti dövrü və həmin dövrdə fəaliyyət göstərən şəxsiyyətlərin yaradıcılığının araşdırılması diqqət çəkən problemlərdəndir. AXC-nin o zamankı Ukrayna və Türkiyə dövlətlərinin səlahiyyətli və diplomatik səfiri işləmiş Y.V.Çəmənzəminli, cümhuriyyətdən sonrakı dövrdə - sovetlər dövründə də özünün dediyi kimi «vücuduna hakim kəsilən sağlam bir milli ruhla yaşamış, çox maraqlı zəngin yaradıcılığı ilə şöhrət tapmışdır. Monoqrafiyada Yusif Vəzirin dövlətçilik və maarifçilik ideyaları kontekstində sosial ədalət, milli idarəçilik, təhsil, milli mətbuat və milli dil problemləri şərh edilmişdir.

«Fəlsəfi-etik görüşləri»ndə tədqiqatçı əsaslandırmağa çalışır ki, Y.V.Çəmənzəminli filosof olmasa da onun yaradıcılığında bəşəriyyətə mütərəqqi ideyaları, zəngin dünyagörüşləri ilə xidmət edən elm və zəka korifeylərindən Aristotel, Sokrat, Demokrit, Herodot, Horatsi, Plutarx, Oqyust Kont, Nitsşe, J.J.Russo və başqalarının fəlsəfəyə, ədəbiyyata, tarixə dair əsərləri xüsusi yer tutur, çoxlu mütaliə etməklə onların mütərəqqi fikirlərinə yiyələnmişdir. «Studentlər» və «Qızlar bulağı» romanlarında «dünyanın vəhdətini» onun maddiliyində görən, həaytın daima diri və maddi bir qüvvə olması, maddə və həyatın bir-birindən ayrılmazlığı və s. filosofların bu və ya digər fikirlərini təsdiqləyən Yusif Vəzirin müdrik kəlamlarının düzgün əsaslandırılması məqamlarına toxunulmuşdur. Müəllif Y.V.Çəmənzəminlinin dinlə bağlı görüşlərini də açıqlamış, onun dinə yenilik donu

geyindirməklə kosmopolit din yaratmaq istəyən bəzi bəhayi və vəhhabi tərəfdarlarını qəti və konkret çıxışları ilə geri oturtduğunu, yalnız mənsub olduğu Islam dininə bağlı olduğunu əsaslandırmışdır.

Sonuncu «Y.V.Çəmənzəminli və milli məsələ» fəslində dövrün etnik mənzərəsinin təhlili verilir və açıqlanır ki, Y.V.Çəmənzəminli milli həmrəylik kontekstində xalqların və milli etnik qrupların öz milli müqəddəratlarını təyin etmək hüquqlarına hörmət və ədalətllə yanaşmağı vacib sayır. Monoqrafiyada Yusif Vəzirin eyni zamanda bütün fəaliyyəti boyu milli təəssübkeşlik və milli ideyaya sədaqət ifadə edən təəssüratları daha genişliyi ilə əhatə olunmuşdur.

Ə.I.Ibrahimov mövzu ilə bağlı bir sıra ümumi, vacib məsələlərin də təhlilini aparmışdır ki, bu da monoqrafiyanın elmi-nəzəri əhəmiyyətini artırır, həm də xalqımızın milli ideologiyasının formalaşmasında mühüm rol oynayır.

Bütövlükdə «Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda monoqrafiya müəllifin qarşısına qoyduğu tələblərə cavab verir, mütəfəkkir alimin dünyagörüşünün tədqiqi sahəsində gələcək perspektivləri müəyyənləşdirməklə ictimai-siyasi fikir tariximizdə sanballı mənbələrdən biri kimi ali və orta təhsil müəssisələri, həyatımızın müxtəlif sahələrində çalışan mütəxəssislər üçün faydalı vəsait olacaqdır.

*Fəlsəfə elmləri doktoru, professor*

**Ə.M.Tağıyev.**

*Tərlansan, göydən enməzsən,*
*Bu torpaqda sevinməzsən.*
*Mən dönərəm, sən dönməzsən,*
*Yaşa könül, yaşa könül!*

***Mikayıl Müşfiq***

***Dövran şairi elə bir məngənəyə salıb ki, burada azadlıqdan doğan milli hisslərin, hər cür sevginin qədir-qiyməti yox, insan diləyinin qanad açıb uçmasına əmin-amanlıq yoxdur. Sevdalı anlar yaşayan lirik qəhrəman üçün bütün yollar bağlı olsa da, o bütün gücü, qüdrəti ilə varlığına hakim kəsilən və ona əzəmət, məğrurluq cazibəsi bəxş edən büllur kimi saf eşqinə sığınıb onu göydəki tərlana-şahinə bənzədir. Şair dönməzliyi, vətən üçün əbədi çarpışanları, azadlıq uğrunda inadkar mübarizləri hamıdan uca tutur. Bu sevgi dolu amalı yaşadan sevdalı qəlbinə alqış, «yaşa» deyir. Onun üçün bu maddi həyatın heç bir dəyəri yoxdur, çünki minlərlə insan kimi o da bu torpaqda sevinməyənlər sırasındadır. Yusif Vəzir də M.Müşfiq kimi bu torpaqda sevinməyənlərdən olmuşdur. Ey insanlar! Sağlığında qiymət verib sevindirin insanları.***



*(Ə.I.)*

# G İ R İ Ş

Təqdim etdiyimiz monoqrafiyada göstərilir ki, milli müstəqilliyimizə nail olduğumuz hazırkı şəraitdə zəngin mənəvi irsimizə dərindən bələd olmaq və ondan bəhrələnmək həmişəkindən daha vacib və zəruridir. İctimai şüura «beynəlmiləlçilik» əqidəsinin yeridildiyi totalitar sovetlər dövründə həmin süni quruma daxil edilmiş digər xalqlar kimi Azərbaycan xalqının da tarixinin, ədəbiyyatının, fəlsəfi fikrinin marksizm-leninizm metodologiyası əsasında, həm də başlıcası milli zəmindən, milli təməlindən təcrid edilmiş halda tədqiq olunması heç şübhəsiz ki, ciddi təhriflərə və saxtakarlıqlara gətirib çıxarmışdır. Indi isə tariximizi, soykökümüzü, sözün əsl mənasında kimliyimizi olduğu kimi dərk etmək, tanımaq baxımından geniş imkanlar yaranmışdır. Bu cəhətdən özünün orijinal dəst-xətti, yaradıcılıq üslubu, dərin nəzəri təfəkkürü ilə seçilən Yusif Vəzir Çəmənzəminli irsi mühüm əhəmiyyət kəsb edir. Yusif Vəzir elə istedadlı şəxsiyyətlərdəndir ki, onun yaradıcılığına bütövlükdə dərindən nüfuz etmək həm xalqımızın keşməkeşli tarixinə, ictimai-mədəni inkişaf yoluna bələd olmaqda, həm də gələcək uğurları da dərk etməkdə əhəmiyyətli rol oynayır. Lakin etiraf etmək lazımdır ki, Y.V.Çəmənzəminlinin zəngin

yaradıcılıq yolu hələ də özünün layiqli qiymətini almamışdır. Bu, onun irsinə dönə-dönə müraciəti zəruri edən başlıca amillərdəndir.

Rus, fransız, türk, fars, özbək və Ukrayna dillərini mükəmməl bilən Yusif Vəzir qələmə aldığı əsərləri ilə Azərbaycan ədəbiyyatına, eləcə də ictimai-fəlsəfi fikrinə yenilik gətirməklə yanaşı, onun öz sözləri ilə desək, millətin varlığı üçün «zəruri və həyati» məsələləri ortaya qoymaqla cəsarətli və mətin addımlar atmışdır.

Yusif Vəzirin Azərbaycan ədəbiyyatında xidmətləri danılmazdır. Lakin geniş yaradıcılıq diapozonuna malik olan bu şəxsiyyətin indiyədək kölgədə qalan fəlsəfi və sosial-siyasi görüşləri ilə yaxından tanış olmaq təkcə elmimizə deyil, bütövlükdə Azərbaycan xalqının bir millət kimi formalaşması prosesinə aydınlıq gətirir. Təkcə bunu qeyd etmək yetərlidir ki, Yusif Vəzir Çəmənzəminli XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda milli intibahın və onun həqiqi aynası olan milli ədəbiyyatın aparıcı simalarından olmuşdur. O, elə bir mütəfəkkirlərdəndir ki, əsərlərini diqqətlə oxuyanda çoxlu mətləblər aşkar olur. Bu gün tam mənası ilə etiraf edə bilərik ki, Yusif Vəzir nəinki milli ədəbiyyatımızın tarixi mərhələlərini, qabaqcıl istiqamətlərini sərrastlıqla müəyyən etmiş, habelə, ictimai-fəlsəfi fikrimizin inkişafına da güclü təkan vermişdir.

Yusif Vəzir yaradıcılığını müstəqillik, demokratiya işığında xalqa təqdim etmək təxirəsalınmaz vəzifələrdəndir.

Bu, həm də gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda böyüməsi baxımından əhəmiyyətlidir.

Y.V.Çəmənzəminlinin qismətinə bir-birinə zidd olan üç mürəkkəb tarixi şəraitdə - Şimali Azərbaycanın çar Rusiyası tərəfindən işğalı, Demokratik Cümhuriyyət və sovetlər dövründə yaşayıb-yaratmaq düşmüşdür. Lakin onun qələmə aldığı istər bədii, istərsə də elmi və publisistik əsərləri həmişəyaşarlığı və həyatiliyi ilə seçilir, diqqəti daha çox cəlb edir. Y.V.Çəmənzəminlinin böyüklüyü və ölməzliyi məhz ondadır ki, o, həmişə millətin varlığı ilə bağlı olan problemlər ətrafında düşünmüşdür. Hələ öz sağlığında Azərbaycanın görkəmli ədəbi tənqidçilərindən olan Firudin bəy Köçərli və Seyid Hüseyn onun əsərlərinə «həm əxlaqımızı islah etmək», həm də «cavan yazıçılarımıza bir örnək olmaq» baxımından yüksək qiymət vermişlər.

Akademik K.A.Talıbzadənin yazdığı kimi, «talesiz şəxsiyyətlərdən» olan Y.V.Çəmənzəminli «çiçəklənən, kamilləşən, püxtələşən bir qələm sahibi» kimi sonralar «şəxsiyyətə pərəstişliyin amansız bəlasına düçar oldu» (143, s.423). Bu əslində heç də təsadüfü deyildi. Yusif Vəzirin faciəsi özünün dediyi kimi, onun bütün maddi və mənəvi varlığına hakim kəsilən vücudundakı milliyyət hissi və ölməz bir milli ruhla» (39, s. 219) millətə səmimi qəlbdən bağlılığında idi.

Çarizmin amansız hökmranlığı və planauyğun şəkildə ruslaşdırma siyasəti aparıldığı bir dövrdə milli tərəqqi və

azadlıq problemi ilə bağlı cəsarətli fikirlər söyləmək və bunları nəzəri cəhətdən əsaslandırmaq heç də asan deyildi.

Dünyagörüşü, siyasi əqidəsi baxımından Y.V.Çəmənzəminli Azərbaycan maarifçilərinin son nəslinə mənsubdur. Maarifçilik, feodal qayda-qanunlarının dağılması, kapitalizmin qərarlaşması dövrünün köhnə həyat normalarına və təsisatlarına qarşı özünün tənqidi münasibətilə fərqlənən mütərəqqi məfkurə forması kimi XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi, fəlsəfi və bədii fikrin inkişafında aparıcı istiqamət olmuşdur. Cəmiyyətin tərəqqisinə insanların savadlanması və tərbiyələndirilməsi yolu ilə nail olmağın mümkünlüyünə dərin inam maarifçiliyin başlıca səciyyəvi cəhətidir. Çəmənzəminli həm də Azərbaycanın Avropasayağı ali təhsil almış milli ziyalılarından olduğu üçün bu cəhətə xüsusi fikir vermişdir.

Milli mənlik şüurunun, milli vətənpərvərlik hissiyyatının formalaşmasında, milli özünüdərk və milli oyanış prosesində əvəzsiz xidmətlər göstərmiş Y.V.Çəmənzəminli kimi ilk ali savadlı milli ziyalılarımızın mənəvi irsinə həssas münasibət bəsləməyin, onu obyektiv və düzgün qiymətləndirib təbliğ etməyin zəruriliyini təfsilatı ilə əsaslandırmağa əsla lüzum yoxdur. Y.V.Çəmənzəminli müxtəlif tarixi dövrlərdə yaşayıb-yaratsa da, ziddiyyətli yaradıcılıq yolu, dərin ideya təkamülü keçsə də, həmişəyaşar mütəfəkkirlərdəndir. Onun həmişəyaşarlığı hər şeydən əvvəl

milli varlığa, Azərbaycan və azərbaycançılığa səmimi qəlbdən bağlılığndan irəli gəlir. Bu gün tam əsasla etiraf etmək olar ki, Yusif Vəzir azərbaycançılıq ideyasını hərarətlə təbliğ etmiş mübariz ilk ziyalılarımızdandır.

Yusif Vəzir yaşadığı tarixi dövrün övladı idi. Lakin zəkasına xas olan uzaqgörənlik qabiliyyəti onu həmişə müasir edir. Tarix olduqca mürəkkəb prosesdir. Odur ki, dünyanı hamı kimi dərk etməyən, ancaq özü kimi dərk edən, millətin dərdi ilə yaşayıb düşünən, yazıb-yaradan Yusif Vəzir kimi şəxsiyyətlərin yaradıcılığına həssaslıqla yanaşmaq və ondan yaradıcılıqla bəhrələnmək olduqca vacib məsələdir.

Yusif Vəzir demokrat, həm də bir maarifçi olmuş, insanın elm, maarif və tərbiyə vasitəsilə islah edilməsi sayəsində cəmiyyətin tərəqqisinə nail olmağın mümkünlüyünə səmimi qəlbdən inanmışdır. O, həmişə «qılınc gücünə» arxalanan orta əsr qayda-qanunlarına qarşı etiraz səsini ucaltmış, sinfi düşmənçiliyi qızışdıran, qan tökməklə, silahlı üsyanla hakimiyyətə gəlməyə can atan bolşevik ideoloqlarına qarşı çıxmış, milli həmrəylik, milli birlik ideyasını qızğın təbliğ etmişdir. Məhz bu cəhətdən Yusif Vəzir bu gün də bizə lazımdır və gərəklidir. Unudulmuşları ədalət naminə yad etmək, Yusif Vəzir kimi haqsız məhrumiyyətlərə məruz qalan və zərər çəkən şəxsiyyətləri bugünü milli müstəqillik işığında xalqa tanıtdırmaq yaradıcı ziyalılarımızın müqəddəs borcudur.

Yusif Vəzir Çəmənzəminli adətən görkəmli yazıçı-ədib kimi tanınır. Doğrudur, o, fəlsəfəyə dair bilavasitə xüusi əsər yazmamışdır. Lakin onun geniş həcmli əsərlərinə dərindən bələd olduqda böyük fəlsəfi təfəkkürün canlı şahidi olursan. Yusif Vəzir düşünən və düşündürən yazıçıdır. Onun kainatın sirləri, insanın yaranışı, əqlin qüdrəti, həyatın mənası və i.a. haqqında söylədiyi fikirlər bu gün də ibrətamizdir. Mütəfəkkir-ədibin yaradıcılığında inkar və təsdiq, tənqid və təbliğ üzvi vəhdət təşkil edir. Bu təzadın arxasında isə böyük bir ideal durur: milli azadlıq və milli istiqlaliyyət. Yusif Vəzirin irsini də məhz bu cəhətdən tədqiq edib öyrənmək lazımdır.

Y.V.Çəmənzəminli yeganə şəxsiyyət idi ki, dini mövhumatın və rus çarizminin müstəmləkəçilik siyasətinin hakim kəsildiyi bir şəraitdə azad, savadlı qadın-ana obrazında hərtərəfli inkişaf etmiş insan konsepsiyasını ortaya qoymuş və əsaslandırmışdı.

Onun yaradıcılığının baş mövzusu Azərbaycan və azərbaycançılıq olmuşdur. Bu gün milli ideologiya səviyyəsində formalaşan azərbaycançılıq ideyasını C.Məmmədquluzadə kimi müdafiə etməklə Yusif Vəzir ictimai-siyasi fikir tariximizə əslində yenilik gətirmiş olur. Bugünkü uğurlarımız hamımızın azərbaycançılıq ideyası ətrafında sıx birləşməyimizlə bağlıdır. Yusif Vəzirin zəngin irsini məhz bu prizmadan tədqiq edib öyrənmək olduqca faydalı və gərəklidir.

Həyatı boyu – «Bizim bütün məqsəd və amalımız Azərbaycanımızdır» – deyən mütəfəkkir sözün həqiqi mənasında Azərbaycanın azadlığı, istiqlalı uğrunda yorulmadan çarpışan fədakar mübarizlərdən idi. Tədqiqat işinin aktuallığı bir də onunla əlamətdardır ki, «Biz kimik və istədiyimiz nədir?» kimi suala cavab axtararkən böyük ideya təkamülü yolunu keçmiş Yusif Vəzir məşhur avtobioqrafik romanı olan «Studentlər»də Azərbaycanın ictimai həyatına ilk dəfə qədəm qoymuş, vətəndən xaricdə ali dünyəvi təhsil alan azərbaycanlı gənclərin milli ideyalar axtarışları yolunda yorulmaz əzmkarlıqlarının klassik nümunəsini yarada bilmişdir. Bu isə artıq milli oyanışdan, milli azadlıq hərəkatından və bu hərəkatın önündə getməyə layiq olan, xalqın tale yüklərini çiyinlərində daşıya bilən ilk milli ziyalıların təşəkkül tapmasından xəbər verirdi. Əfsuslar olsun ki, xidmətləri hələ də özünün layiqli obyektiv qiymətini ala bilməmişdir. Yusif Vəzir Çəmənzəminli də mübariz, qəlbi mənəvi saflıq və vətənpərvərlik eşqi ilə döyünən ilk milli ziyalılardan biri idi və onun özünəməxsus cəhətləri ilə seçilən, nəzər-diqqəti cəlb edən ictimai-fəlsəfi, sosial-siyasi görüşlərini də məhz bu əsasdan öyrənib tədqiq etməyin zamanı yetmişdir. Bu istiqamətdə əldə edilən hər bir uğurdan isə milli mədəniyyətimiz, elmimiz qazanacaqdır.

Y.V.Çəmənzəminlinin çoxcəhətli irsinin öyrənilməsi və təbliği, onun elmi məziyyətlərinin aşkar edilməsi, elmi axtarışların diqqət mərkəzində götürülən problemlərdən

olmuş və həmin istiqamətdə az işlər görülməmişdir. Ələlxüsus, 1966–1977-ci illərdə ədibin əsərlərinin çap edilməsi, hekayə və romanlarının ayrıca nəşr olunması bu sahədə tədqiqatçılar üçün geniş imkanlar açmışdır. Milli dövlət müstəqilliyinə nail olduğumuz ilk illərdə Y.V.Çəmənzəminlinin kommunist ideologiyasının hakim olduğu bir dövrdə nəşri yasaq edilmiş «Biz kimik və istədiyimiz nədir?» (1992), «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» (1993), «Müstəqilliymizi istəyiriksə…» (1994) kimi əsərlərinin bir-birinin ardınca işıq üzü görməsi onun zəngin yaradıcılığına artan elmi marağın əyani ifadəsi idi. Indi Azərbaycan ədəbiyyatının, ictimai-fəlsəfi fikrinin və publisistikasının digər görkəmli nümayəndələri kimi Y.V.Çəmənzəminlinin də yaradıcılığının elmi obyektivliyi ilə öyrənilməsində yeni mərhələ başlanmışdır.

Sovet dövründə Y.V.Çəmənzəminlinin yaradıcılığı, mənbələrdə qeyd edildiyi kimi əsasən üç məsələ – folklorşünaslıq, ədəbiyyat tarixi və milli publisistika ətrafında tədqiq olunmuşdur. Onun şifahi xalq ədəbiyyatına, etnoqrafiyaya, publisistikaya, etikaya və s. dair əsərləri geniş müzakirə obyekti olmuş, bu haqda çoxlu məqalələr, bir neçə kitab və dissertasiyalar yazılmış, ədibin ümumiyyətlə, Azərbaycan ədəbiyyatı və ictimai fikir tarixində yeri və rolunun müəyyən edilməsində ciddi addımlar atılmışdır [2; 8; 9; 10; 46; 63; 114; 49; 45; 44; 52; 53; 54 və s.].

Y.V.Çəmənzəminlinin dünyagörüşünün, o cümlədən, fəlsəfi, etik və sosial-siyasi görüşlərinin formalaşması XX əsrin əvvəllərində baş vermiş hadisələrlə bağlıdır. Buna görə də 1904 – 1905-ci illər rus – yapon müharibəsini, 1905–1907-ci illər rus burjua demokratik inqilabını, Səttarxanın başçılığı ilə Cənubi Azərbaycan milli azadlıq hərəkatını, Birinci Dünya müharibəsini qeyd etməmək olmaz. Onun Azərbaycanın bilavasitə tarixi gerçəkliyi ilə bağlı nəzəri cəhətdən araşdırdığı problemlərin, keçdiyi ideya təkamülü yollarının bu günümüzün ruhuna və tələblərinə uyğun olaraq yeni metodoloji mövqedən tədqiq olunmasına hələ də böyük ehtiyac vardır. Artıq bu istiqamətdə, yəni Y.V.Çəmənzəminlini olduğu kimi öyrənmək baxımından son vaxtlarda aparılan elmi-tədqiqat işlərini ayrıca qeyd etmək yerinə düşər. Bu cəhətdən prof. T.Hüseynoğlunun, A.Bayramoğlunun, L.O.Vəzirovanın və b. işlərini ayrıca qeyd etmək lazımdır [17; 68; 69; 73; 152; 153; 154 və s.].

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan tarixinə milli şüurun oyanması dövrü kimi daxil olmuşdur. Həmin dövrü tədqiq edən Azərbaycan alimləri mövcud ictimai-siyasi cərəyanları, milli-maarifçilik məfkurəsinin, milli burjuaziyanın və ziyalıların formalaşmasını, bədii, fəlsəfi, etik və sosial-siyasi fikirlərin inkişaf meyllərini, milli azadlıq, milli dil və milli mədəniyyət uğrunda mübarizə hərəkatını elmi-metodoloji mövqelərdən açıb göstərmişlər ki, bunların da Y.V.Çəmənzəminli irsinin öyrənilməsində

mühüm əhəmiyyəti vardır. Belə tədqiqatçılardan F.S.Qasımzadənin, H.N.Hüseynovun, M.M.Qasımovun, Ş.F.Məmmədovun, Z.B.Göyüşovun, Ə.M.Əhmədovun, F.Q.Köçərlinin, Z.A.Quluzadə, I.Ə.Rüstəmovun, F.F.Ramazanovun, M.F.Məlikovanın, Y.V.Qarayevin, A.A.Hacıyevin, Ə.M.Mirəhmədovun, K.Əzimovun, Ə.M.Tağıyevin, N.Cəfərovun, N.Şəmsizadənin, A.Balayevin və b. əsərləri diqqətəlayiqdir [94; 165; 173; 176; 90; 158; 89; 174; 134; 107; 171; 167; 105; 161; 144; 23; 139; 164; 129; 7; 14; 15; 16; 17; 22 və s.].

Monoqrafiyada Çəmənzəminlinin sosial-siyasi və fəlsəfi-etik görüşləri onun ideya sələfləri və eləcə də müasirləri olan M.F.Axundov, H.Zərdabi, N.Nərimanov, F.Köçərli, M.Ə.Sabir, M.Rəsulzadə, Ə.Hüseynzadə, C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyov və başqalarının yaradıcılığı ilə əlaqəli şəkildə təhlil edilmişdir. Mövzunun işlənməsində onların əsərləri də əsas götürülmüşdür. [7; 89; 108; 109 və s. ].

Görkəmli mütəfəkkirin əsərlərinin toplanıb nəşr və təbliğ edilməsində çəmənzəminlişünas alim, professor Tofiq Hüseynoğlu və filologiya elmləri namizədi Məryəm Axundovanın xüsusi əməyi olmuşdur.

Professor Tofiq Hüseynoğlunun «Tarixi roman ustası», «Ədəbiyyatla yaşayıram», «Yusif Vəzir Çəmənzəminli», «Söz tarixin yuvası», M.Axundovanın «Yusif Vəzir Çəmənzəminli», filologiya elmləri doktoru,

professor Kamran Məmmədovun «Məşələ dönmüş ömür», «Y.V.Çəmənzəminli (həyatı və yaradıcılığı)», filologiya elmləri doktoru Bəhlul Abdullanın «Yusif Vəzir Çəmənzəminli və folklor», Əli Ibrahimlinin «Y.V.Çəmənzəminli və milli məsələ», Leyla Məcidqızının «Yusif Vəzir Çəmənzəminli və rus mədəniyyəti» monoqrafiyaları və iki dissertasiya: fəlsəfə elmləri namizədi, dosent Davud Dəmirlinin «Yusif Vəzir Çəmənzəminlinin etik görüşləri», Leyla Vəzirovanın «Yusif Vəzir Çəmənzəminlinin publisistikası» nəzərdən keçirilmiş, onun dünyagörüşünün ətraflı öyrənilməsinə, sosial-siyasi və iqtisadi, etik-estetik, ədəbi və jurnalistlik fəaliyyətinin tədqiqinə diqqət yetirilmişdir. [66; 67; 68; 114; 115; 116; 146; 73; 76; 77; 82; 81; 123; 153 və s.].

Görkəmli alimin ədəbi yaradıcılığına dair M.Arifin, M.H.Təhmasibin, K.A.Talıbzadənin, Q.Xəlilovun və digərlərinin tədqiqatları da qiymətli mənbələrdir. [143; 13; 11; 12; 155; 156; 157; 126; 127; 102; 100 və s. ].

Yeri gəlmişkən deməliyik ki, D.Dəmirlinin «Çəmənzəminlinin etik görüşləri istisna olmaqla Çəmənzəminlinin irsinə aid olan tədqiqat materiallarının demək olar ki, hamısı onun ədəbi yaradıcılığına həsr edilmişdir. Yusif Vəzir dünyasının, sənətinin nadir inciləri barədə onun fəlsəfi və sosial-siyasi görüşləri əsasında daha ətraflı və yığcam araşdırmalar aparılmışdır.

Milli məsələ Y.V.Çəmənzəminlinin Azərbaycan ictimai-siyasi fikir tarixində ciddi həllinə çalışdığı problemlərdən ən başlıcasıdır. Bu da məlumdur ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində həmin problem bir çox mütəfəkkirlərin nəzərini cəlb etmiş və bu barədə fikirlərini əsərlərində aydın əks etdirmişlər. Problemə bu cəhətdən yanaşan fəl.e.n. M.Ağayev «Azərbaycan ictimai fikrində milli məsələ (1917-1920-ci illər)» dissertasiyasını o dövrə həsr etmiş, Azərbaycanda milli-azadlıq hərəkatına dair maraqlı araşdırmalar aparmışdır.

Tədqiq olunan problemlə bağlı yeni-yeni araşdırmaların olması arzuolunandır. Belə ki, Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri indiyədək kompleks şəklində xüsusi tədqiqat obyekti olmamışdır. Bu isə görkəmli mütəfəkkirin dərin fəlsəfi məzmunlu, milli və sosial-siyasi yönümlü irsinin bütövlükdə öyrənilməsində müəyyən boşluq yaradır. Aparılan mövcud araşdırmalar əsasında sənətkarı bütün yaradıcılığı boyu narahat edən varlıq və insan, şəxsiyyət azadlığı, sosial ədalət, azadlıq, istiqlaliyyət və bir sıra mühüm milli problemlər – «Azərbaycan və azərbaycançılıq», «milli oyanış», «milli muxtariyyət», «milli istiqlal», «milli qoşun», «milli şərqi», «beynəlmiləl əlaqə», «əfkari-ümumiyyə», «ədəmi-mərkəziyyət», «milli dilin və milli mətbuatın saflığı», «qadının hürr yaşamaq haqqı», «milli müəyyənlik» və s. məsələlər açıqlanır, onların istər Azərbaycan Cümhuriyyətinin ilkin dövrü, istərsə də indiki

dövr üçün müstəsna əhəmiyyətinin əsaslandırılması diqqət mərkəzində durur. [30; 31; 29; 39; 51; 56; 57; 58; 59; 60; 61; 63; 65; 96; 95; 97; 105 və s.].

Tədqiqatın əsas mənbəyi kimi Y.V.Çəmənzəminlinin «Müstəqilliyimizi istəyiriksə…», «Biz kimik və istədiyimiz nədir?», «Tarixi, coğrafi və iqtisadi Azərbaycan», «Ana və analıq», «Dil məsələsi», «Bizə ciddi mətbuat çoxdan lazım idi», «Studentlər», «Qızlar bulağı», «Qan içində», «Həzrəti-Şəhriyar» əsərləri götürülmüşdür. Mövzunun aktuallığı və əhəmiyyəti iş prosesində digər mənbələrə də müraciət etməyə əsas verdi. Rusiyanın «www. rambler.ru» saytından bir çox həqiqətlərin üzə çıxması kimi «Əli və Nino» romanının da heç bir yəhudi millətindən olan yazıçının yox, «Qurban Səid» imzası daşıyan məhz Yusif Vəzirə məxsus olduğu barədə verilən informasiyalar öyrənilmiş və əsaslandırılmışdır. [102;178;81]. Çəmənzəminliyədək maarifçilik və milli ideyalar carçısı kimi fəaliyyət göstərən XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində yaşayıb yaradan mütəfəkkirlərin əsərləri də tədqiqatın mənbələri sırasındadır.

Çəmənzəminlinin həyat və fəaliyyətinə dair Azərbaycan Prezidenti yanında Dövlət Idarəçilik Akademiyasında, M.Füzuli adına Respublika Əlyazmalar Institutunun arxivində, M.F.Axundov adına Respublika Kitabxanasında, Bakı Dövlət Universitetinin əsas kitabxanasının Şərq şöbəsində, Azərbaycan MEA və M.Ə.Sabir adına kitabxanalarda bir sıra materiallar onu deməyə əsas verir ki, bir çox alim və yazıçılar

öz tədqiqatlarında onun yaradıcılığına, şəxsiyyətinə yüksək qiymət vermişlər.

Tədqiqatın məqsəd və vəzifələri ilə əlaqədar aşağıdakı məsələlərin həllinə diqqət yetirilmişdir:

- Y.V.Çəmənzəminlinin bütövlükdə dünyagörüşünün, o cümlədən, ictimai-siyasi baxışlarının formalaşmasını, yaradıcılığının inkişaf meylini və ideya təkamülünü şərtləndirən tarixi səbəblərin və elmi-mədəni amillərin kompleks araşdırılması;

- Y.V.Çəmənzəminlinin özünəməxsus humanist qayəsi və ideya bütövlüyü ilə seçilən mənəvi irsinin Azərbaycan ictimai-fəlsəfi və sosial-siyasi fikir tarixində yeri və rolunun müəyyən edilməsi, onun müasir həyatımızla həmahəng səsləşən cəhətlərinin yeni dövrdə qabarıq verilməsi və obyektiv qiymətləndirilməsi;

- milli oyanış, milli özünüdərk, milli özünütəsdiq, sosial ədalət, idarəçilik və s. problemlər formasında təşəkkül tapmaqda olan milli ideologiyanın tərkib hissəsi kimi başlıca məsələlərə olan münasibətin sistemli və hərtərəfli işıqlandırılması sayəsində Y.V.Çəmənzəminlinin Azərbaycanın ictimai-siyasi fikir tarixində milli məsələ sahəsində yeni ənənənin banisi olmasının təsdiq edilməsi;

- Y.V.Çəmənzəminlinin yaradıcılığında və ictimai baxışlarındakı təbəddülatın və ideya təkamülünün izlənilməsi nümunəsində XX əsrin əvvəllərində Azərbaycanda milli mənlik şüurunun formalaşmasının, onun siyasiləşməsinin

qanunauyğunluğunun, daxili dinamizminin, ümumsosioloji və spesifik cəhətlərinin açıqlanması.

- Y.V.Çəmənzəminlinin anlamında «Azərbaycan» məsələsinin sosial-siyasi və mədəni həyatımızda rolunun, əhəmiyyətinin səciyyələndirilməsi ilə milli ideologiyamızda inkişaf etdirilməsi;

- Y.V.Çəmənzəminlinin «Bizə ciddi mətbuat çoxdan lazım idi», «Studentlər», «Qızlar bulağı», «Qan içində», «Həzrəti-Şəhriyar» və s. tanınmış əsərləri ilə yanaşı, elm aləmində nəzəri tədqiqata indiyədək kifayət qədər cəlb edilməmiş «Müstəqilliyimizi istəyiriksə…», «Biz kimik və istədiyimiz nədir?», «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kimi təqdirəlayiq əsərlərində öz orijinal ifadəsini tapmış fəlsəfi, etik, sosial-siyasi, ən başlıcası isə onun millətin varlığı üçün «zəruri və həyati» saydığı milli məsələnin qoyuluşunun və həllinin nə dərəcədə əks olunmasının araşdırılıb dəqiq müəyyənləşdirilməsi.

Tədqiq olunan mövzunun elmi yeniliyi hər şeydən əvvəl araşdırılan problemdən, işin məqsəd və vəzifələrinin özündən irəli gəlir. Monoqrafiyanın məzmununda ifadə olunan elmi yeniliklər əsasən aşağıda verilən ümumiləşdirilmiş müddəalar və əldə edilmiş nəticələrlə bağlıdır:

- Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi fikirləri o dövrün tarixi şəraitindən irəli gələn ictimai problemlərlə üzvi vəhdətdə araşdırılmaqla belə bir qənaət əsaslandırılır ki, onun istər bədii, istərsə də elmi-nəzəri irsi

zəmanəsinin mühüm və aparıcı hadisəsi olan milli oyanış prosesi zəminində formalaşmış və həmin prosesin şüurlu tərzdə istiqamətləndirilməsinə xidmət etmişdir. Deməli, Y.V.Çəmənzəminlinin yaradıcılıq fəaliyyətində milli ideyaların, milli məsələnin başlıca yer tutması qanunauyğun haldır;

- fəlsəfi baxışları ilə bağlı obyektiv aləmin və insan idrakının qüdrətinin təsvirinə daha çox meylli olan Y.V.-Çəmənzəminli təbiətdə və cəmiyyətdə obyektiv qanunauyğunluğun mövcud olması faktını qəbul etməsi əsasında ictimai tərəqqi ideyasını təbliğ etməklə elm və biliyə əxlaqi azadlığın bir növ ekvivalenti kimi baxması yaradıcılığında əsaslı yer tutan milli və sosial-siyasi problemlərin mənasının dərindən anlaşılmasına işıq salmaq qənaəti əldə edilmişdir;

- Mütəfəkkirin Azərbaycan ictimai fikrində bu gün də belə əhəmiyyətini saxlayan fəlsəfi və elmi-nəzəri mülahizələri ilə maarifçilikdən milli istiqlalçılığadək dərin və uzun ideya təkamülü yolunu keçməsi, eyni zamanda milli istiqlalçılığa milli birlik və həmrəylik yolu ilə çatmaq istəyi işıqlandırılmışdır;

- Y.V.Çəmənzəminlinin sosial ədalətin qorunmasında, insanların asudə, firavan yaşayışının təminində hərtərəfli düzgün siyasət yeridən milli idarənin olmasını, torpağımıza, xalqımıza söykənməyi başlıca amil kimi şərtləndirən m müsavilik, müasirlik, bərabərlik, ədalət və s. humanizm prinsipləri, habelə məktəb və təhsil problemləri, dünyəvi

elmlərin öyrənilməsi, bunların asan mənimsənilməsində Azəri türk dilinin rolu ilə bağlı konsepsiyalarının çağdaş həyatımız və milli mənafeyimiz üçün zəngin ideya mənbəyi olması əsas kimi götürülmüşdür;

- Y.V.Çəmənzəminlinin dövlətin təşkili üçün üç amili: torpaq, millət və hakimiyyəti əsas götürməklə ərazimizin ilkin sərhədlərinin müəyyənləşdirilməsi, onun nəsillərin yaddaşında yaşanması naminə bütöv Azəpbaycan ideyasının şüurlara aşılanmasında ideoloji mübarizənin vacibliyini önəmli iş hesab etməsi bu sahədə mövcud bilik və informasiyaların zənginləşməsində onun xidmətlərinin əvəzsiz olması əsaslandırılmışdır;

- Ictimai-siyasi fikir tariximizdə mütəfəkkirin ilk dəfə olaraq «millətin, xalqın xeyri üçün lazım olan işləri konkret olaraq «milli məsələ» ifadəsi ilə formulə edərək tam kəskinliyi ilə ortaya qoyması, bunu elmi fəlsəfi və sosial-siyasi cəhətdən əsaslandırmağa çalışması, yaradıcılığında milli məsələnin zəruri və həyati bir problem olaraq mövcud tədqiqatlarda vacib olan cəhətlərinin kölgədə qalması səbəbləri açıqlanmışdır;

- Y.V.Çəmənzəminlinin milli məsələ ilə bağlı və elm aləminə indiyədək az məlum olan əsərləri ilk dəfə olaraq müqayisəli şəkildə nəzərdən keçirilmiş, XX əsr milli məsələnin hansı prinsiplərinin daha aktual olması, onlardan hansının daha çox ziddiyyətlər törətməsi və bunun səbəbləri aydınlaşdırılmış, müqayisələr nəticəsində artıq XX əsrin

əvvəllərində milli məsələnin, mükəmməl siyasi fikir sisteminin mövcud olması qənaəti əldə edilmişdir. Bu baxımdan onun zəngin mənəvi irsindən müstəqilliyimizin indiki dövründə vacib olan məsələlərin həllində yaradıcılıqla istifadə etmək faydalıdır.

Tədqiqatın nəzəri və praktik əhəmiyyəti onun aktuallığı, elmi yeniliyi ilə sıx surətdə əlaqədardır. Monoqrafiyadan çəmənzəminlişünaslıq sahəsində, eləcə də respublikamızda milli şüurun və milli özünüdərkin formalaşması probleminin geniş və hərtərəfli araşdırılmasında, o cümlədən, tədris prosesində istifadə etmək olar. Tədqiqatın nəticələri gənc nəslin milli-mənəvi dəyərlərə sədaqət ruhunda tərbiyələndirilməsində yardımçı ola bilər. Y.V.Çəmənzəinlinin elmə az məlum olan milli məsələyə dair baxışlarının sosial-fəlsəfi aspektdə monoqrafiyada ilk dəfə tədqiqi nəinki bu böyük şəxsiyyətin, habelə, Azərbaycanın görkəmli maarifçi mütəfəkkirlərinin dünyagörüşünə yeni baxışın yaranıb inkişaf etməsinə imkan verə bilər. Aparılan tədqiqatın müddəa və nəticələrindən milli məsələnin mənşəyi və mahiyyəti, onun tarixi rolu və ictimai-siyasi fikir tariximizdə maarifçilikdən qopub ayrılan bir problem olması ilə maraqlanan tədqiqatçılar tərəfindən istifadə edilə bilər.

Tədqiqatın metodoloji əsasını araşdırılan məsələlərə obyektiv, sistemli və müqayisəli şəkildə yanaşma prinsipləri, tarixilik, məntiqilik, analogiya və fərqləndirmə, empirik-nəzəri metodlar təşkil edir.

✵ꕤ ✵ ꕤ✵

# I FƏSİL

# Y.V.ÇƏMƏNZƏMİNLİNİN DÖVRÜ VƏ İCTİMAİ-SİYASİ GÖRÜŞLƏRİ

## 1.1. Y.V.Çəmənzəminlinin dövrü və fəaliyyəti: aparıcı meyllər və istiqamətlər

Azərbaycan elminin, ədəbiyyatının, ictimai-siyasi, fəlsəfi-estetik və etik fikrinin inkişaf tarixində özünəməxsus yeri və rolu olan şəxsiyyətlərdən biri də Yusif Vəzir Çəmənzəminlidi (1887 – 1943). Görkəmli yazıçı, alim, etnoqraf, demokrat və diplomat, pedaqoq kimi tanınmış Y.V.Çəmənzəminli özünün zəngin yaradıcılığı və dəyərli ictimai-siyasi fəaliyyəti ilə diqqəti həmişə cəlb edən simalardandır. Mütəfəkkir alimin yaradıcılığındakı çoxşaxəlilik bunu deməyə əsas verir ki, onun toxunduğu mövzular nəinki problemliliyi, həm də aktuallığı, məna dərinliyi ilə seçilir və bunlardan irəli gələn məlum səbəblər üzündən o da

xalqımızın digər görkəmli nümayəndələri kimi haqsızlıqlara məruz qalmış, repressiyanın qurbanlarından biri olmuşdur.

XX əsrin əvvəllərində Rusiyada baş verən inqilabi proseslər, Irandakı milli-azadlıq hərəkatında və bu kimi siyasi aksiyalarda azərbaycanlı ziyalıların iştirakı şüurlarda güclü təbəddülat oyatmış, istiqlal məfkurəsinin, milli mənlik şüurunun dirçəlişinə mühüm təkan vermişdi. Dövrün ictimai-siyasi hadisələrini ciddi surətdə izləyən və onlara özünün şəxsi münasibətini bildirən Yusif Vəzir çarizmin müstəmləkəçilik əsarətinə baxmayaraq, eləcə də adından, dilindən, etnik mənsubiyyətindən («Qafqaz müsəlmanları», «Qafqaz türkləri», «Tatarlar» və s. adlandırılmalarından) asılı olmayaraq xalqının millət halında formalaşmasını labüd və zəruri hesab edirdi.

Azərbaycan xalqının bu dövrdə milli özünüdərkinə müxtəlif ictimai-siyasi, mədəni, mənəvi-psixoloji və s. amillərin güclü təsiri olmuşdur. Burada ümummilli ədəbi dilin təşəkkülü, milli mətbuatın və teatrın, anadilli məktəblərin və i.a. yaranması, milli ziyalıların və milli burjuaziyanın həyat səhnəsinə atılması kimi amillər müstəsna rol oynamışdır. Onu da qeyd etmək vacibdir ki, tarixi-coğrafi mövqeyinə görə Avropa ilə Asiyanın, Şərqlə Qərbin ayırıcında yerləşən Azərbaycanda istər Qərb dünyasında, istərsə də Şərq aləmində gedən proseslərin əks-sədası özünü göstərməyə, özünəməxsus siyasi-mənəvi iqlim yaratmaya bilməzdi. Təbii ki, Rusiya imperiyasını dağıdan inqilabi mübarizələr digər

milli ucqarlarda olduğu kimi Azərbaycanda da istiqlal hərəkatının qabaqcıl dünyagörüşlü ziyalılarına, ideya fədailərinə, o cümlədən Yusif Vəzirə mütərəqqi düşüncələrinin milli zəmində reallaşdırılmasına imkan yaratmışdır.

Azərbaycan ictimai-siyasi fikir tarixinə dair tədqiqatlarda XIX əsrin sonu – XX əsrin əvvəlri əsasən ölkədə kapitalist istehsal münasibətlərinin təşəkkül tapması, neft sənayesinin yaranması və onun kapitalistcəsinə inkişafı ilə əlaqədar olaraq milli burjuaziyanın və proletariatın meydana gəlməsi kimi hadisələrlə xarakterizə edilir. Halbuki, həmin dövrün ən mühüm və əlamətdar hadisəsi, o zamankı ictimai fikrin, fəlsəfi, bədii və publisistik yaradıcılığın da mövzusunu, inkişaf meylini müəyyən edən tarixi-məntiqi faktoru, son illərin də müvafiq elmi ədəbiyyatında qeyd olunduğu kimi, Azərbaycan xalqının millət halında təşəkkül tapmasından, yeni tipli ziyalıların meydana gəlməsindən, milli şüurun oyanmasından ibarət olmuşdur. Vaxtilə bu cəhətə önəm verən M.Ə.Rəsulzadə yazır ki, həmin dövr Azərbaycan üçün mahiyyətcə «milli oyanış və mədəni müstəqillik qazanılması»nın başlanğıc dövrü idi [131, s.8].

Akademik Z.M.Bünyadovun və prof. Y.B.Yusifovun redaktəsi ilə 1994-cü ildə çapdan çıxmış «Azərbaycan tarixi»ndə qeyd edilir: «Burjuaziya millətinin yaranması azərbaycanlıların həyatında mühüm hadisə idi. Bu, azərbaycanlıların milli şüurunun da formalaşmasına səbəb

oldu. Milli şüurun formalaşması isə müstəmləkə zülmünə qarşı, torpağın suverenliyi uğrunda mübarizə üçün çox vacib idi» [14, s.613].

Bu mübarizənin başlıca aparıcı, istiqamətləndirici və hərəkətverici qüvvəsi Rusiyanın və Avropanın nüfuzlu ali məktəblərində, eləcə də məşhur Qori seminariyasında mükəmməl təhsil almış, daima millətinin taleyini düşünən qabaqcıl dünyagörüşlü milli ziyalılar idi. «Onlar öz əsərləri ilə, mətbuat vasitəsilə xalqın gözünü açmağa, onu cəhalətdən qurtarmağa çalışırdılar» [14, s.613]. Belə ziyalıların görkəmli nümayəndələrindən biri də Y.V.Çəmənzəminli olmuşdur. O, çar imperiyasının əsarəti altında olan qeyri-rus xalqlarının milli oyanışına güclü təkan vermiş 1905 – 1907-ci illər inqilabı zamanı Ə.Ağayev, Ə.Hüseynzadə, Ə.Topçubaşov kimiləri tərəfindən başlanğıcı qoyulmuş milli hərəkata böyük rəğbət bəsləmiş, gələcək fəaliyyətini məhz bu istiqamətdə qurmuşdur. Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda uzun illər iftiralara məruz qalmış millətçilik heç də digər qonşu xalqlarda olduğu kimi mürtəce şovinizm təkəb-büründən, özgə xalqların torpaqlarını, özlərinə dövlət yaratmaq niyyəti ilə zəbt etmək kimi bədnam əməllərdən deyil, yadellilərin boyunduruğu altında milli varlığın məhv olması təhlükəsindən, doğma torpaqların azad edilməsi amalından yaranmış, ilk anlarından belə humanistliyi, beynəlmiləlçiliyi, tərəqqipərvər məramı ilə fərqlənmişdir. Çəmənzəminli də bu zəmində milli hərəkatı özünə başlıca

fəaliyyət seçimi kimi qəbul etmiş, bütün varlığı ilə «milli ruha bağlı»lığını önəmə çəkmişdir.

Y.V.Çəmənzəminli hər şeydən üstün bildiyi milli mənafe naminə daima yenilik axtarışında olan ziyalılardan idi. Akad. K.A.Talıbzadə yazır ki, özünün «demokratizmi ilə seçilən» Yusif Vəzir «gecəli-gündüzlü əməyinin nəticəsi idi ki, …dövrünün hərtərəfli biliyə, məlumata malik ziyalısı kimi yüksələ bilmişdi. O, rus, fransız, türk, fars, özbək, türkmən, tatar və Ukrayna dillərini bilirdi. Təkcə «Azərbaycan ədəbiyyatına bir nəzər» kitabının mənbələrinə bir nəzər salmaq kifayətdir. Hələ 1919-cu ildə, son dərəcə müxtəlif dilli və xarakterli mənbələrdən, xüsusən Avropa və Şərq məxəzlərindən bu dərəcədə geniş ölçüdə faydalanmaq ədəbiyyat elmimiz üçün yeni hadisə idi» [143, s.424]. Bu deyilənləri bütövlükdə Y.V.Çəmənzəminlinin ictimai-siyasi görüşlərinə də aid etmək olar. Onun çoxşaxəli yaradıcılığının hər bir sahəsində yeniliyə meyli təbii ki, dövrün tələbləri ilə yanaşı, aldığı tərbiyədən, mənimsədiyi elmi biliklərdən irəli gəlirdi. Burada obyektivlə subyektiv amillərin vəhdəti faktoru əsla istisna edilməzdir.

Yuxarıda qeyd olunduğu kimi, Y.V.Çəmənzəminlinin bədii, elmi, publisist yaradıcılığa başladığı dövr tarixilik baxımından ilkin milli oyanış dövrüdür. Və şübhəsizdir ki, zəmanəsinin qabaqcıl vətənpərvər simalarından biri kimi o, bu oyanış prosesindən və onun millətin gələcək taleyi üçün doğurduğu həyati əhəmiyyətli problemlərdən kənarda qala

bilməzdi. Müstəmləkə rejimi şəraitində həlli heç də asan olmayan belə problemlərin sırasında xalq təhsili, milli dil və mətbuat, milli-mədəni tərəqqi, milli özünüdərk, şəxsiyyət və fikir azadlığı və i.a. kimi problemlər, o cümlədən mütəfəkkirin özünün də ümumi şəkildə etiraf etdiyi milli məsələ ön planda dururdu. Bütün bunlar isə öz növbəsində kompleks halında milli azadlığın, milli istiqlaliyyətin müqəddəm şərtlərini təşkil edirdi. Y.V.Çəmənzəminlinin də milli mənafe naminə xidmət edən zəngin yaradıcılığının tədqiq edilən dövrünün mövzu dairəsini, mündəricəsini məhz həmin problemlər müəyyən etmişdir. O, yaradıcılığı boyu milli-ictimai geriliyi, ətaləti, nadanlığı, mövhumatı, haqsızlığı, zülmü, yadelli əsarəti və s. sadəcə tənqid etməyə, mövcud vəziyyətdən çıxış yollarının tapılmasına daha çox üstünlük vermişdir. Bir çox ideeya sələflərindən fərqli olaraq optimizm mövqeyindən çıxış edən Çəmənzəminlidə köhnəliyin tənqidindən çox, yeniliyin təsdiqi, onun ideya-nəzəri cəhətdən əsaslandırılması meyli daha güclü olmuşdur.

Bir görkəmli şəxsiyyət və əqidə sahibi kimi Yusif Vəzir Çəmənzəminli də hər şeydən əvvəl xalqının övladı, mənsub olduğu ictimai mühitin, dövrün yetirməsi idi. Onun yaşayıb yaratdığı dövr isə olduqca mürəkkəb, keşməkeşli və təzadlı olmuşdur. Tarix elmləri doktoru, prof. I.Z.Ismayılov 1995-ci ildə çapdan çıxmış «Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri» kitabının «Giriş»ində yazır: «Azərbaycanın XX əsr siyasi tarixində 1905-ci il inqilabının

təsiri ilə milli azadlıq mübarizəsinin genişlənməsi, Bakı kommunası adlanan süni bir qurumun təşkili və süqutu, Azərbaycan Demokratik Respublikasının yaranması, 70 illik sovet hakimiyyəti dövrü və nəhayət 80-ci illərin sonundan başlanan müstəqil Demokratik Azərbaycan uğrunda mübarizə mərhələləri xüsusi yer tutur. Göründüyü kimi, bu əsr Azərbaycan üçün çox ziddiyyətli və təzadlarla zəngin bir dövr olmuşdur. Bu yüzillikdə Azərbaycan üçün bir-birindən üç dövr səciyyəvidir: əsrin ilk 20 ili və bu ilk iyirmi illiyin sonunda təzadlarla dolu siyasi hadisələr dövrü, əsrin son 10 ilini əhatə edən müstəqillik uğrunda mübarizə dövrü» [87, s.4].

Y.V.Çəmənzəminli də məhz belə bir «çox ziddiyyətli və təzadlarla zəngin» əsrin əvvəlki iki mərhələsində yaşayıb-yaratmış, fəaliyyət göstərməli olmuşdur. Heç şübhəsizdir ki, dövrün bu cür ziddiyyətli, təzadlı xarakteri, onun əsas qayəsi, aparıcı meylləri Y.V.Çəmənzəminlinin bədii, publisistik yaradıcılığında, bütövlükdə onun ictimai-siyasi görüşlərində ifadəsini tapmaya bilməzdi. Bunu onun ideya təkamülündən də aydın müşahidə etmək olur. Lakin ömrünün sonuna kimi o, özünün əqidəsinə, məsləkinə, vətənpərvərlik, millətsevərlik amalına sadiq qalmışdır.

Burada Y.V.Çəmənzəminlinin dövrü və fəaliyyəti ilə bağlı məsələlərə bəzi aydınlıqlar gətirmək baxımından bunu da qeyd etmək yerində olar ki, onun qismətinə təkcə müxtəlif tarixi dövrlər deyil, həm də dünyagörüşünün, əqidəsinin for-

malaşmasında, ideya istiqamətinin müəyyənləşməsində mühüm rol oynamış müxtəlif ictimai mühitlər (Şuşa, Bakı, Aşqabad, Kiyev, Istanbul və s.) düşmüşdür. Bütün bunların hamısı isə ona birtrəfli mənada deyil, kompleks halında zaman ardıcıllığı ilə bir görkəmli zəka və əməl sahibi kimi püxtələşməkdə biri digərini tamamlamaqla özünəməxsus təsir göstərmişdir. Bu baxımdan onun öz sözləri ilə deyilərsə, «o zaman əyalət şəhərləri içərisində ən mədənilərindən biri sayıl»an, «realni məktəbi, orta qız məktəbi, şəhər məktəbi, erməni seminariyası, teatrı» olan [48, s.267], lakin müsəlmanların bunlardan məhrum olduğu Şuşa mühiti təbii ki, ilkin əsas olmuşdur. Burada fəaliyyətləri bilavasitə Şuşa ilə bağlı olmuş Əhməd bəy Ağayev, Haşımbəy Vəzirov, Əbdürrəhimbəy Haqverdiyev və b. kimi görkəmli maarifçi millət xadimlərinin də adlarını qeyd etməmək olmaz. Məhz başlanğıc olaraq bu təzadlı mühit Y.V.Çəmənzəminlinin gələcəkdə bütövlükdə vətəni Azərbaycanın tərəqqisi və azadlığı uğrunda göstərməyə başladığı çoxşaxəli dəyərli fəaliyyətinin təməlində durur.

Y.V.Çəmənzəminli yaradıcılığının başlıca istiqamət və sahələrinə toxunmazdan əvvəl qeyd etmək lazımdır ki, onun gərgin fəaliyyətinin məzmununu məhz dövrünün ortaya qoyduğu və həlli hər şeydən əvvəl xalqın, ümumən millətin taleyi və mənafeyi ilə bağlı olan problemlər idi. Bu səbəbdəndir ki, nicat yolunu təqdir etdiyi milli demokratik azadlıq hərəkatında, milli istiqlalçılıqda görürdü. Məhz

sinfilik yox, milli həmrəylik onun bütün şüurlu fəaliyytinin ruhunu, onun məğzini, aparıcı meylini təşkil edir. O, istər ədəbi-bədii, istərsə də elmi-publisistik fəaliyyətini məhz bu milli istiqlalçılıq amalı üzərində qurmuş və azad Azərbaycan idealının gerçəkləşməsinə yönəltmişdir.

Y.V.Çəmənzəminli də xaricdə – Rusiyanın və Avropanın qabaqcıl ali məktəblərində təhsil alan bir çox gözüaçıq gənclər kimi təhsilini başa vurub Vətənə qayıtdıqdan sonra milli demokratik hərəkatın inkişafında, milli şüurun oyanışında yaxından və fəal iştirak etmişdir. Mükəmməl elmi biliklərə yiyələnməsi, Avropanın qabaqcıl ideyaları, onun dünyəvi mədəniyyəti, həyat tərzi ilə bilavasitə tanışlığı, bələdliyi onda belə bir yəqinlik hasil etməyə imkan vermişdir ki, böyük ideallara qovuşmaq üçün ilk növbədə qan yaddaşına qovuşmaq, özünü dərk etmək, millətin tarixini, mənəvi dəyərlərini öyrənmək, şüurlara aşılamaq lazımdır. Gənc yaşlarından onun Azərbaycan folkloruna, etnoqrafiyasına, ədəbiyyatına, tarixinə, coğrafiyasına böyük marağı da bundan irəli gəlirdi. Onun bu istiqamətdə apardığı araşdırmalar və tədqiqatlar indi də əhəmiyyətini saxlamaqdadır.

Qeyd etmək lazımdır ki, Y.V.Çəmənzəminli Azərbaycan folkloru, tarixi, xalqın milli-mədəni tərəqqisi və azadlığı ilə bağlı fikir və mülahizəni yaradıcılığının birinci və ondan sonrakı dövründə yazdığı bədii əsərlərində – tarixi romanlarında qəhrəmanlarının dili ilə izhar etmişdir. Bir

sözlə, Azərbaycan idealı, Azərbaycan mövzusu onun yaradıcılığının baş mövzusu, azərbaycançılıq və istiqlalçılıq ideyası fəaliyyətinin leytmotivi olmuşdur. Y.V.Çəmənzəminlinin zəngin, çoxcəhətli fəaliyyətindəki elmi-nəzəri, ədəbi-bədii, publisistik və ictimai-siyasi kimi aparıcı sahələr bir-birindən nəşət etmiş, milli-mədəni tərəqqi, milli azadlıq məqsədinə xidmət etməkdə biri digərini tamamlamışdır.

Çarizmin qatı millətçilik və ictimai zülmü şəraitində xalqı milli özünüdərk istiqamətində maarifləndirib tərbiyə etmək əlbəttə, olduqca çətin və mürəkkəb bir iş olub böyük cəsarət və fədakarlıq tələb edirdi. Bütün bunlara baxmayaraq hələ ali məktəb tələbəsi ikən Y.V.Çəmənzəminli həmin işdən əsla çəkinməmiş, bundan ötrü bütün var-qüvvəsini səfərbər etmişdir. Tərəqqi və azadlıq uğrunda hərəkatda milli özünüdərkə, milli özünütanımaya M.Ə.Rəsulzadə kimi mübariz istiqlalçılarla yanaşı birinci dərəcəli əhəmiyyət verən Y.V.Çəmənzəminli 1921-ci ldə Istanbulda nəşr etdirdiyi «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabında yazır: «Milli hərəkatın inkişafı üçün ən əvvəl özümüzü tanımalıyıq. Bunun üçün də keçmişimizi addım-addım tədqiq edib, məmləkətimizin maddi və mənəvi məhsullarını meydana çıxarmalıyq. Bu gün nefti ilə aləmşümul olan Azərbaycan min sənə əvvəl məbədləri ilə Şərqin qibləsi idi. Yəni nəsilləri qədim məbədlərimizə doğru götürüb, onun qüvvəti ilə təkrar yüksəlməli və mənəviyyatımızı yenə aləmşümul etməli» [24, s.46].

Soykökünə bağlılıqda milli varlığın ümdə şərtini görən Y.V.Çəmənzəminlinin yaradıcılığının ilk illərindən Azərbaycanı öyrənmək, onu tanıtmaq kimi bu gün də aktual olan məsələni daha çox düşündürməsi əhəmiyyətlidir. Prof.T.Hüseynoğlu alim-yazıçının bir qədər yuxarıda adı çəkilən və uzun müddət elmi diqqətdən kənarda qalan əsərinin 1993-cü ildə Bakıda təkrar nəşrinə yazdığı giriş məqaləsində qeyd edir: «Y.V.Çəmənzəminli 1917-1919-cu illərdə Azərbaycanı öyrənib, onu tanıtmaq, haqqında geniş ictimai rəy doğurmaq sahəsində xeyli əmək sərf etmişdi. Onun Bakıda çap olunan «Azərbaycan muxtariyyəti», «Biz kimik və istədiyimiz nədir?» kitabları, 1918-ci ildə «Millət» qəzetində çıxan «Azərbaycan və azərbaycanlılar», 1919-cu ildə isə «Azərbaycan» qəzetində dərc edilən «Xarici siyasətimiz», «Milli və mədəni işlərimiz» adlı silsilə məqalələri də məhz bu məqsədlə yazılmışdır. «Xarici siyasətimiz» silsiləsi «Qüvvətli istiqlal» adlı məqaləsi ilə başlanır… bütün silsilədə milli istiqlalı qüvvətləndirən cəhətlərdən… geniş bəhs edir» [74, s.6]. Bu cəhətlərin isə o, «torpaq, millət və hakimiyyət» kimi üç başlıca amildən ibarət olduğunu bildirmişdir.

Yuxarıda gətirilən bu iqtibasdan da göründüyü kimi, Y.V.Çəmənzəminli qələmə aldığı bütün yazılarında, eləcə də ictimai-siyasi fəaliyyətində milli-mədəni tərəqqi, milli istiqlaliyyət problemlərini əsas düşüncə obyekti kimi seçmiş,

ön plana çəkmiş, bu istiqamətdə yorulmadan fəaliyyət göstərmişdir.

XX əsrin əvvəllərində Azərbaycan ziyalılarını milli oyanış və azadlıqla əlaqədar ən çox məşğul edən problem milli-mədəni tərəqqi problemi idi. Bu da təsadüfi deyildi. Ölkə əhalisinin başdan-başa savadsız olduğu, mövhumatın, cəhalətin, nadanlığın, köhnəlmiş qayda-qanunların şüurlara hakim kəsildiyi bir zamanda sadədil insanları kütləvi halda birdən-birə milli oyanış, milli qurtuluş uğunda mübarizəyə cəlb etmək heç də asan məsələ deyildi. Üstəlik xalqın əsrlər boyu müstəqil dövlətçiliyindən, dövlətçilik məfkurəsindən məhrum edilməsi, milli müstəmləkə zülmü problemini daha da qəlizləşdirir, onun həlli yolunda əngəllər, maneələr, keçilməz sədlər yaradırdı. Bu səbəbdən də həmin vaxtlarda milli ziyalıların görkəmli nümayəndələri, eləcə də Y.V.-Çəmənzəminli də XIX əsrin ikinci yarısı maarifçi realistlər kimi qələmə aldıqları mövzuları əsasən elm və maarifin üstünlüyü mövqeyindən işıqlandırır, elmin və maarifin ictimai həyatda rolu, xalqın tərəqqisində əhəmiyyəti, təlim və tərbiyə, yeni məktəb və təhsil, milli dil və mətbuat, insanların mənəvi-əxlaqi keyfiyyətlərinin yaxşılaşdırılması və təkamülü kimi məsələlərə daha çox diqqət yetirirdilər. Çünki «vətən, millət, məktəb, elm, maarif idealı hələ yaşayırdı, cəmiyyətdə bu ideal uğrunda başlanan mübarizə hələ başa çatmamışdı, əksinə yeni real məzmun kəsb etmiş, dövrün ən inqilabi

məsələlərini həll etmək üçün vacib ideya-estetik bir vasitəyə çevrilmişdi» [143, s.84].

Əlbəttə, formalaşmaqda olan qabaqcıl dünyagörüşlü milli ziyalıların bütün fəaliyyətini təkcə həmin problemə müncər etmək olmaz. Belə ki, onlar özlərinin çoxcəhətli yaradıcılıqlarında elmin müxtəlif sahələrinə, təbiətşünaslıq məsələlərinə, fəlsəfi-dünyagörüşü xarakterli problemlərə, sosial-iqtisadi mövzulara və i.a. heç də az yer ayırmamışlar. Lakin bütün bu kimi məsələlər əsasən bir məqsədə – milli-mədəni tərəqqiyə nail olunmağa xidmət edirdi. Milli-mədəni tərəqqi problemi sanki digər ictimai-siyasi, sosial-iqtisadi məsələlərin başlanğıcını təşkil edir, onları özündə ehtiva edirdi. Bu problemə hər şeydən əvvəl ağır müstəmləkə rejimi şəraitində milli nicatın çıxış nöqtəsi, milli-azadlıq hərəkatına hazırlıq mərhələsi kimi baxırdı. C.Məmmədquluzadənin «Molla Nəsrəddin»i, Ə.Hüseynzadənin «Füyuzat»ı, M.Ə.Sabirin satirası, Ü.Hacıbəyovun operası, Y.V.Çəmənzəminlinin ilk tənqidi hekayələri, publisist yazıları və s. məhz həmin məqsədə, amala xidmət etmişdir. Elm və maarifə çağırışların arxasında kütlələrin şüuruna təsir etmək, onları milli oyanışa sövq etmək niyyəti dururdu.

Çar üsul-idarəsinin hələ də iqtidarda olduğu, siyasi irticanın intişar etdiyi bir dövrdə Azərbaycanda milli hərəkat, prof. Ə.M.Tağıyevin ifadəsincə desək, «öz yaranışının ilk illərində hələ siyasi xarakter kəsb etməmişdi. Bu hərəkat sırf maarifçilik mövqeyində idi və ona görə də Rusiya

müsəlmanlarının Rusiyadan ayrılıb müstəqil bir dövlət qurmaq planları da irəli sürülmürdü» [145, s.11]. Bu o vaxtlar üçün heç də mümkün deyildi və bunun üçün lazımi tarixi şərait hələlik yetişməmişdi. 1905-ci il inqilabından sonra artıq çar imperiyasının müsəlman türk ziyalıları «milli-mədəni muxtariyyət», bir qədər sonra isə məlum olduğu «milli məhəlli muxtariyyət» kimi ideyalarla çıxışlar etməyə başlamış, «rus türklərinin» milli dildə təhsil alıb elmə, savada yiyələnməsinə çalışmışlar. Son vaxtların elmi tədqiqatlarında doğru olaraq qeyd edildiyi kimi, XX əsrin birinci onilliyində yayılmaqda olan türkçülük, islamçılıq, müasirləşmək kimi milli ideyalar hələlik maarifçilik sədlərini aşa bilməmişdir. Bu yalnız əsrin ikinci onilliyinin iki mühüm inqilabi çevrilişlərindən (1917-ci il fevral və oktyabr) sonra mümkün olmuşdur. Bu əsnada yaranmış yeni tarixi şəraitin diktəsi ilə artıq yeni siyasi tələblər irəli sürmək mümkün olmuşdur. Milli hərəkatın demokratik mərhələsində, yeni – istiqlalçılıq mərhələsinə qədəm qoyulması, ictimai fikrin siyasiləşmə istiqamətində inkişaf etməsi nəticəsində isə dövrün problemlərinin həlli üçün mədəni-maarifçilik xətti artıq fəaliyyətin əsas və ümumi istiqamətini müəyyən edə bilmirdi. Indi milli azadlığın, o cümlədən milli-mədəni tərəqqinin, milli ideallarının gerçəkləşməsinin əsası və rəhni milli-müstəqil dövlətçilikdə görülür. Bunun tarixən həqiqiliyini öncə Azərbaycan milli idealının ilk təcəssümü olan və qurulması uğrunda mübarizədə Y.V.Çəmənzəminlinin də şəxsən fəal

iştirak etdiyi müsəlman Şərqində ilk demokratik tipli respublika olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti müddətində təsdiq etmiş, indi isə özünün uğurlu addımlarını atan, beynəlxalq aləmdə günbəgün nüfuzu artmaqda olan çağdaş Azərbaycan Respublikası timsalında bir daha yeni əsasda təsdiq olunmaqdadır.

Milli-müstəqil dövlətçilik ideyası, əlbəttə ki, XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi fikri üçün səciyyəvi olan uzunmüddətli, keşməkeşli və gərgin ideya axtarışlarının uğurlu nəticəsi idi. Dos. N.M.Isayevin yazdığı kimi, rus çarizminin süqutundan sonra «Azərbaycanda milli müstəqil dövlətçilik problemi – istiqlaliyyət uğrunda mübarizə piramidasının son həddi kimi meydana qoyulur. Müsavatçı istiqlalçılar nicatı, hürriyyəti müstəqil milli demokratik dövlətin qurulmasında görmüş, bunu milli varlığın, milli azadlığın və tərəqqinin ümdə şərti, yeganə qarantı hesab etmişlər» [85, s.261]. Bu sözlər qeyd-şərtsiz bütün şüurlu fəaliyyəti boyu ümummilli mənafe naminə çalışmış Y.V.Çəmənzəminliyə də tamamilə aiddir ki, bu da monoqrafiyanın sonrakı müvafiq fəslində özünün ətraflı şərhini tapmışdır. Lakin Y.V.Çəmənzəminlinin dövrü və fəaliyyəti ilə bağlı olan aparıcı meyllərə və istiqamətlərə bir daha aydınlıq gətirmək məqsədilə burada ayrıca qeyd etmək lazımdır ki, M.Ə.Rəsulzadə başda olmaqla digər «Müsavat»çılar kimi Y.V.Çəmənzəminli də milli müstəqil dövlətçilik ideyasına heç də birdən-birə gəlməmiş, bu tarixi şəraitə, zamanın

tələblərinə uyğun olaraq böyük, həm də ziddiyyətli ideya təkamül yolunu keçmiş və bunu özünün proobrazını yaratdığı tarixi romanı «Studentlər»də aydın göstərmişdir.

Y.V.Çəmənzəminli yaradıcılıq fəaliyyətinə milli mA-arifçilik hərəkatı zəminində gəlmiş, sonralar isə ictimai fikrin dərindən siyasiləşməsi prosesində məfkurəcə daha da püxtələşmiş, formalaşmışdır. Maarifçilik hərəkatı Azərbaycanda milli-istiqlalçılıq hərəkatının təşəkkül tapmasında mühüm rol oynamış, bunun üçün əlverişli zəmin hazırlamışdır. Bu haqda ətraflı bəhs etmək hazırkı tədqiqatın başlıca məqsədinə aid olmasa da, diqqəti cəlb edən bir cəhətə də nəzər salmaq lazımdır ki, XX əsrin əvvəllərində maarifçilik Azərbaycan ictimai-fəlsəfi, sosial-siyasi fikrinin inkişafında özünün son mərhələini yaşasa da, bir ideya meyli, istiqaməti kimi təsirini heç də itirməmişdir. Bu münasibətlə prof. I.Ə.Rüstəmov yazır ki, «XX əsrin əvvəllərində Azərbaycanda marksizm-leninizm ideyalarının geniş yayıldığı bir sırada maarifçilik hərəkatı hələ öz tarixi rolunu oynamaqda idi. Cəmiyyətdə elm və mədəniyyətin, ictimai-fəlsəfi fikrin inkişafı üçün, xalqın maariflənməsi, nadanlıq və cəhalətin aradan qaldırılması, ölkədə geniş məktəb şəbəkəsinin yaradılması üçün ciddi fəaliyyət göstərilməsi demokratik maarifçilik hərəkatının xarakterik xüsusiyyətlərindən idi. Maarifçilərdən bir çoxu, əlbəttə, elə başa düşürdü ki, əhali içərisində elmi biliklərin yayılması ilə onların düçar olduqları nadanlıq və cəhalət, digər ictimai

bəlalar dərhal aradan qalxacaqdır… Bu dövrdə təbii-elmi fikrin inkişafı maarifçiliklə sıx surətdə bağlı olub, maarifçilik ideyalarını yaymağın vasitələrindən biri kimi özünü göstərirdi» [134, s.9].

Y.V.Çəmənzəminli iqtibasda göstərilən «ənənəvi maarifçilərdən bir çoxu» kimi eyni sadəlövh mövqedən çıxış etməsə də, ictimai-siyasi faliyyətinin ilkin anlarında millətin taleyüklü məsələlərini çiyinlərinə götürmüş əksər ziyalılar kimi mövcud quruluşun siyasi qurumlarına toxunmadan milli bəlaları, dövrün vacib problemlərini mədəni-maarif yolu ilə, xalqın savadlanması, mənəvi təkmilləşmə və təkamülü yolu ilə aradan qaldırılmasına ümid bəsləmiş, bu yolda əzmlə çalışmışdır. Bu meyli, bu cəhəti onun başlıca olaraq 1917-ci ilə kimi yazdığı bədii, elmi və publisist əsərlərinin obyektiv təhlilindən bir daha aydın görmək olur.

Yusif Vəzir bir həqiqi vətənpərvər və millətsevər ziyalı kimi Azərbaycan xalqının çarizmin müstəmləkə əsarəti altında inləyən məhkum bir millət olduğuna qəlbən acımış, xalqını müstəmləkəçilik siyasətinin ağır nəticələrinin təsirindən mümkün qədər uzaqlaşdırmaq onun öz soykökünə qayıtmaq, milli ruhunu qoruyub saxlamaq və inkişaf etdirmək naminə qarşısındakı vəzifənin çox məsuliyyət tələb etdiyini anlamış, özünün istiqlal görüşlərində bunları aydın ifadə etmişdir: «Əsrlərlə qılınc zərbəsi ilə istila olunub, millətlərin qan və göz yaşları ilə bir-birinə bitişdirilən torpaqlar başsızlıq sayəsində məhv olub gedir. Şəddadın zülmü ilə abad olunmuş

imarət uçur, dağılır. Böyük ölkə bir-birinə dəyir. Rusiyanın qiyaməti qopur… Sabit idarə yox, nizam yox, qayda yox, əmin-amanlıq yox. Güclü gücsüzü döyür, əzir və təhdid eləyir; abrı və namusu ara yerdə gedir. Başsızlıq gündən-günə ölkəni ağzına alır, nahaq qanlar tökülür, abadanlıqlar talan olur…» [38, s.23]

Başqa ucqarlar kimi, Azərbaycanın da iqtisadi, siyasi və mədəni yüksəlişinə böyük əngəl törədən çarizm ölkənin məhsuldar qüvvələrinə buxov olan feodal-patriarxal münasibətlərini, köhnə əxlaq normalarını yaşatmağa çalışır, xalqlarda milli oyanmanın baş qaldırmasına imkan vermirdi. Lakin çarizm orta əsr həyat tərzini mühafizə etməyə can atıb ümumi inkişafı ləngitsə də, onun qarşısını almağa qadir deyildi.

Milli məsələ ilə bağlı, ümumiyyətlə, bütün problemlərin həlli istiqamətində Azərbaycanda bərabərlik, düzlük, doğruluq, ədalət, hidayət yolu seçmək, din, milli dil və milli mətbuata obyektiv münasibəti bərqərar etmək, «milli şərqi», həyatın təşkilində qeyri-millətlərdən geri düşməmək ənənəsinə sadiqlik Yusif Vəzirin ictimai-siyasi görüşlərinin leytmotivini təşkil edir ki, bunların da ayrıca fəsil və abzaslarda işıqlandırılmasına səy göstərilmişdir.

Iki mühüm tarixi hadisə Y.V.Çəmənzəminlinin həyatında, yaradıcılıq fəaliyyətində, eləcə də bütövlükdə dünyagörüşünün formalaşmasında dərin izlər buraxmışdır. Biri 1904–1905-ci illər rus-yapon müharibəsində Yaponiyanın

Rusiyaya qalib gəlməsi idi. Ikincisi isə Rusiyada baş verən 1905-ci il inqilabı idi ki, bu da «xalqlar həbsxanası» sayılan çar Rusiyasını başdan-başa sarsıtmış, onun imperiya rejiminin sütunlarını laxlatmışdı.

Birinci hadisə ilə əlaqədar olaraq Yusif Vəzir 1916-cı ildə «Açıq söz» qəzetində çap etdirdiyi «Bizə ciddi mətbuat çoxdan lazım idi» məqaləsində qeyd edir: «Yaponların Uzaq Şərqdə qələbə çaldıqları cəmi Asiyaya əcib bir təsir buraxdı: əsrlərcə yuxuya getmiş qövmlər hərəkətə gəlib, ayılmağa başladılar. Islam aləmi də bu hərəkətə bac verib tərpəndi, gözlərini açdı, kəsalətli üzündə dirilik nişanələri göstərdi. Rusiya türkləri «maarif» deyə səsləndilər. Məktəb, mətbuat, xeyriyyə və maarif cəmiyyətləri ortalığa çıxdı» [43, s.175].

1905-ci il inqilabı hər yerdə olduğu kimi Yusif Vəzirin böyüyüb boya-başa çatdığı Şuşada da öz təsirini göstərməyə başlayırdı və bu təsir onun oxuduğu realni məktəbində daha aydın nəzərə çarpırdı. O, sonralar – 1936-cı ildə qələmə aldığı «Həyatın 20 ili»ndə qeyd edir ki, Şuşa realni məktəbinin tələbələri inqilabi ruhlu müəllimlərlə məktəbdəki dözülməz rejimə, ayrı-seçkiliyə, təhqiramiz «tatar» ləfzinə» qarşı çıxır, xoşları gəlməyən mürtəce ruhlu müəllimləri qovurdular. Tələbə ixtişaşına cavab olaraq rus əsgərləri məktəbə təzyiqlər göstərir, dərslər kəsilirdi. Həmin hadisə Şuşa əhalisini ayağa qaldırırdı. Atası da Yusifi inqilabi çağırışa qoşulmaq inadından döndərə bilmirdi. Yusif Vəzir bu xüsusda yazır ki, «axırda Mirhəsən tətili davam

etdirəcəyini qəti olaraq bildirdi. Mən də eyni fikri ifadə edib məclisi tərk etdik. O gündən etibarən bəylər bizə düşmən oldular» … 1905-ci il inqilabı bütün türklər (azərbaycanlılar nəzərdə tutulur) üçün intibah dövrü oldu. Bakıda türkcə qəzetlər çıxır, hər yerdə cəmiyyətlər, məktəblər açılırdı, türk işçiləri də inqilaba sarılmağa başlamışdı. Bu yeniliklər bizi sevindirir, çar məmurlarını əndişəyə salırdı. «Şeytənət toxumu səpilməyə başladı. Bunun nəticəsi olaraq, Bakıda milli çarpışma baş verdi. Bu acı hadisə haman hər yerə əks təsir etdi… 1905-ci ilin yayında Şuşada vuruşma düşdü. Polis və hökumət əsgərləri bu düşmənçiliyə qarşı laqeyd qaldığı üçün xalq bir-birini qırıb bir çox evlər yıxdıqdan sonra barışdılar» [43, s.307-308].

Hələ o vaxtlar dövrünün ictimai-siyasi hadisələrini təhlil edərkənYusif Vəzir düşünürdü ki, müəyyən bir ərazidə yaşayıb milli xüsusiyyətləri ilə bir-birinə bağlanan xalqların keşiyində duran möhkəm istehkamlı dövlət yaradılmalıdır. Elə dövlət ki, yaranmış çətinlikləri, problemləri həll etməyə qabil ola bilsin. Lakin fəaliyyətinin ilkin mərhələsində o, bunun çar istibdadı rejimində qeyri-mümkünlüyünü hələ özünə tam aydınlaşdıra bilməmiş və bilməzdi də. Yalnız özünün mürəkkəb ideya təkamülünün sonrakı gedişatında dövrün, zamanın zəruri tələblərini getdikcə dərindən başa düşməsi sayəsində o, qeyd olunduğu kimi, milli müstəqil dövlətçilik qənaətinə gələ bilmişdir. Bunun üçün o, uzun və çətin axtarışlar yolunu keçməli olmuşdur. Bu yolu tarixi

zaman etibarilə mərhələ-mərhələ izlədikdə çox şey aydın olur.

Məsələn, 1905-ci ilin iyununda Yusif Vəzirin Aşqabadda «Ictimaiyyun-inqilabiyyun firqə»sinə daxil olması, burada da hər bir sadə əməkçi insanın ağır dərdlərə düçar olmasını görməsi ona çox şeylər öyrədir və o da məlum olur ki, mürəkkəb, ziddiyyətli həyatda onun bilmədiyi hələ çox məsələlər var: «Axırda mənə çox şeylər lazım olması aşkar oldu. Mənə bilgi və yenə bilgi lazımdır. Məlumat toplanmalıdır. Çoxlu kitablar qiraət etməli. Ya bilgi, ya ölüm» [42, s.215].

Bu sözlər Yusif Vəzirin həmişə yenilik naminə ideya axtarışında olduğuna dəlalət edir. Gündəliyindəki qeydlərindən də məlum olur ki, o, bir an da olsun belə düşüncələrindən əl çəkmir, daim düşüncələr aləmində azadlıq və müstəqilliyin, yenilik və tərəqqinin şirin duyğularından vəcdə gəlir. Lakin o bu işdə bir realist kimi tam romantizmə qapılmır, imkanları götür-qoy edir, vəziyyətdən çıxış yollarını arayıb-axtarır, əməli tədbirlərə əl atır.

Y.V.Çəmənzəminli Azərbaycanın yeni dövr ictimai-siyasi fikir tarixinin nümayəndəsidir. Onun dünyagörüşünün formalaşmasında yaşadığı dövrü, mühiti, aldığı təhsili ilə yanaşı, yeni mədəni inkişaf dövrünü yaşayan Avropanın böyük təsiri olmuşdur. Bu böyük sənətkarın dövrü, mühiti və fəaliyyəti ilə bağlı çoxlu əsərlər yazılsa da, bu cəhətdən hələ də həllini gözləməkdə olan məsələlər də az deyildir. Avropa

mədəniyyətinə meyl, avropalaşma istəyi Y.V.Çəmənzəmin-linin yaradıcılığında xüsusi rol oynamışdır.

Yaşadığı Şuşa mühiti, aldığı təhsil, çar hökuməti idarələrində haqsızlıqlar və ədalətsizliklər, Şuşa şəhərinin məhəllələrində yaşayan ermənilərə üstünlük verilməsi, yerli müsəlmanlara qarşı diskriminal münasibətlər gənc yaşlarında Yusif Vəzirin gözünü açır, onun dünyagörüşündə təbəddülatların yaranmasına, onda milli təəssübkeşlik his-slərinin baş qaldırmasına səbəb olur.

Y.V.Çəmənzəminlinin bütövlükdə yaradıcılığında, onun gələcək fəaliyyətində Bakı mühitinin böyük rolu olmuşdur. O vaxtlar Rusiya imperiyasında yaşayan müsəlmanlar, o cümlədən gənc tələbələr üçün işıqlı bir mərkəz rolunu oynayan Bakı bütün Azərbaycan üçün ədəbiyyat, incəsənət və mətbuat meydanına çevrilmişdi. Ən qabaqcıl milli ziyalılar bu şəhərə toplaşırdı. Xalq arasında böyük nüfuza malik olan C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, A.Səhhət, A.Şaiq, S.S.Axundov, N.Nərimanov kimi ədiblər ana dilinin və ədəbiyyatının tədrisinə yaxından və böyük köməklik edir, müxtəlif dərsliklər, dərs vəsaitləri yazır, lüğətlər tərtib edir, qiraətxanalar açırdılar. Çarizmin milli-siyasi təzyiqlərinə, yeritdiyi ruslaşdırma siyasətinə baxmayaraq, qabaqcıl maarif xadimləri anadilli yeni məktəblərin sayının artırılması istiqamətində əllərindən gələni əsirgəmirdilər. Milli operamızın banisi Ü.Hacıbəyov isə Azərbaycan teatrına

yaşamaq hüququ qazandırmışdı. Bütün bunlar isə öz növbəsində Azərbaycan xalqının millət halında təşəkkülündə, milli özünüdərkdə, milli oyanış prosesində mühüm rol oynamışdır.

XIX əsrin sonlarında artıq iri sənaye mərkəzi olan Bakı nəinki Azərbaycan mədəniyyətinin, eləcə də millətinin formalaşması mərkəzinə çevrilmişdi. Burada 70-ci illərdən başlayaraq neft sənayesinin inkişafı, xarici kapitalın axını, çoxsaylı mədən və zavodların yaranması böyük işçi qüvvəsinin cəmləşməsinə səbəb olmuşdur. Məsələn, 1907-ci ildə mətbuatda məlumat verilir ki, «Bakı neft mədənləri bütün Rusiya yerlərinin hamısından böyük bir sənaye və ticarət mahalıdır. Bu mədənlər hər bir yerdən – uzaq ölkələrdən özünə fəhlələr yığır. Bu axırıncı 15 ilin ərzində gəlmə fəhlələrin ədədi artıb indiki zamanda hesabları 65 minə çatıb» [63, s.161]. Bu haqda Çəmənzəminlinin özü belə yazırdı: «Azərbaycanlıların mədəni tarixində Bakının böyük rolu var… Azəri sərmayədərlərinin mərkəzi, Avropa təhsili görmüş əksər münəvvərlərimizin iqamətgahı Bakıdadır. Bakı Azərbaycanın maddi və mənəvi anasıdır» [24, s.17-18]. Azərbaycanın milli azadlıq, milli dövlətçilik hərəkatı tarixində Bakının həqiqətən də özünəməxsus yeri və rolu vardır.

Y.V.Çəmənzəminlinin həyat və fəaliyyətində dərin iz buraxmış amillərdən biri də hüquq üzrə ali təhsil aldığı Kiyev mühitidir. Burada o, nəinki yüksək səviyyədə elmi biliklərə

yiyələnmək, həmçinin qabaqcıl Avropa mədəniyyəti, həyat tərzi ilə yaxından tanış olmaq, bundan bəhrələnmək imkanlarını əldə edə bilmişdir. Doğma vətənindən uzaq olsa da, o həmişə Azərbaycada baş verən hadisələri diqqətlə izləmiş, gördüyü mədəni yeniliklərin vətənində də həyata keçirilməsi arzusunda olmuşdur. Onun həyatının Ukrayna, Türkiyə və Parislə bağlı anları Qərblə əlaqəsinin genişlənməsi ilə xarakterizə olunur. Əqidəcə müsavatçı olan Yusif Vəzir Kiyevdə ali təhsil alarkən dünyagörüşünü zənginləşdirmək istiqamətində Qərb dünyasının, Şərqi və Qərbi slavyan mədəniyyətinin, o cümlədən rus və Ukrayna elminin, sosial-fəlsəfi fikrinin inkişafı ilə ciddi maraqlanmışdır. Kiyev universitetində oxuyarkən o, Siseron, Plutarx, Sokrat, Platon, Aristotel, Demokrit, Herodot, Horatsi, Empedokl, Meterlinq, Siciliyalı Diodore, Darmsteder, Bartold, Marko Polo, Raffi, Kautski, Jores, Renan, Spinoza, Nitsşe, Lev Tolstoy, Şopenhauer, Volter, O.Kont, K.Marks, F.Engels, V.I.Lenin və b. görkəmli şəxsiyyətlərin elmi-nəzəri irsinə yiyələnməyə müvəffəq ola bilmişdir. Lakin müsəlman Şərqinin və Azərbaycanın klassik mədəni-elmi nailiyyətləri onun həmişə diqqət mərkəzində olmuş, həyati baxışlarının formalaşmasında əvəzsiz rol oynamışdır. Yaradıcılığında baş verən təbəddülatlar, sosial-siyasi baxışlarındakı köklü dəyişikliklər, əsərlərinin ideya istiqaməti onu deməyə əsas verir ki, Yusif Vəzir federalist

mövqedən istiqlalçılığadək tərəddüdlərlə müşayiət olunan böyük təkamül yolunu keçmişdir.

Y.V.Çəmənzəminlinin dünyagörüşünün formalaşmasnda rus və Avropa elmi, fəlsəfəsi, ictimai-siyasi fikri, ədəbiyyatı mühüm rol oynayıb. Lakin o, hər şeydən əvvəl öz xalqının, millətinin övladı olduğu üçün çar imperiyasının sütunlarını laxladan 1905–1907-ci illər inqilabı kontekstində cərəyan edən hadisələrin Azərbaycanın da ictimai həyatına güclü təsir göstərəcəyinə dərin inam bəsləmiş, milli oyanış üçün əlverişli zəmin, geniş imkanlar olacağına şübhə etməmişdir. Azərbaycanda milli və inqilabi proseslər doğma torpaqlarımıza əzəldən göz dikən bədnam düşmənlərimizin, erməni daşnaklarının dəfələrlə törətdikləri milli qırğınlar (1905–1918) sayəsində qat-qat gərgin və mürəkkəb şəraitdə baş verirdi. Bunların isə inkişafı sosial-siyasi fikirdə öz əksini tapmışdı.

Həmin dövrdə yaranan canlanma, milli oyanış, siyasiləşmə prosesinin dərinləşməsi əqidələrin, baxışların haçalanması ilə müşayiət olunurdu. Ideyaca bir-birinə yaxın və zidd olan islamçılıq, türkçülük, azərbaycançılıq, inqilabi demokratizm, marksizm, bolşevizm, menşevizm, anarxizm və s. kimi ideoloji cərəyanlara müvafiq olaraq müxtəlif siyasi və milli partiyaların yaranması da bunu aydın göstərirdi. «Azərbaycanda fəaliyyət göstərən partiyalar, - f.e.n. M.Ağayevin haqlı qeyd etdiyi kimi, - yaranmış şəraitdən, xalq kütlələrinin narazılığından istifadə edərək, mübarizəyə

qalxmış qüvvələri öz tərəflərinə çəkməyə və mübarizədə üstünlük əldə etməyə çalışırdılar. Bu partiyalardan hər biri özünü əzilən, istismar olunan xalqın müdafiəçisi kimi qələmə verir, kütlələrin hüququnun tapdalanmasına qarşı mübarizə apardığını iddia edirdi» [4, s.71]. Hadisələrin bu cür siyasi burulğanında batıb qalmamaq, verilən yalançı vədlərə uymamaq üçün azadlıq uğrunda baş qaldırmış mübarizənin həqiqi milli məcrasına salınıb ideya-nəzəri cəhətdən düzgün istiqamətləndirilməsi problemi Y.V.Çəmənzəminlinin də üzvü olduğu «Müsavat» partiyasının qarşısında tam kəskinliyi ilə dururdu.

Bəhs edilən dövrdə ictimai-siyasi fikirdə və mübarizə hərəkatında yolları müxtəlif, amalları isə ümumi olan inqilabi demokrat «Molla Nəsrəddin»çilər, sosial-demokrat «Hümmət»çilər, milliyyətçi «Füyuzat»çılar və «Müsavat»çılar daha mühüm cazibə qüvvəsinə malik olmuşlar. Lakin milli hərəkat inkişaf etdikcə və bu hərəkata əhalinin geniş demokratik və zəhmətkeş təbəqələri cəlb edildikcə siyasi cəhətdən təşkilatlanmış «Müsavat»çıların mövqeyi də getdikcə artırdı.

Yerli sosial-demokratlar isə rus bolşevizminin təsiri ilə ictimai-siyasi problemlərə, eləcə də milli məsələyə dair marksist-leninçi təlimini rəhbər tutaraq, yabançı və uydurma prletar beynəlmiləlçiliyi ideyasını və sinfi mübarizə prinsipini qızğın təbliğ etmiş, «millətçiliyi proletar beynəlmiləlçiliyin və sinfi mübarizənin ən qəddar düşməni» saymış, «onu

gərəkdir öldürmək» kimi iddialar irəli sürmüş [64, s.163] Çəmənzəminlinin «Studentlər»ində qeyd olunduğu kimi «milli müqəddəratı… əməkçilərin taleyinə bağlama»ğı tələb etmişlər [40, s.89]. Halbuki, Azərbaycan sosial-demokratlarının lideri N.Nərimanovun özü hələ 1919-cu ildə yazdığı «Qafqazın zəbt edilməsinə baxış» adlı məqaləsində Bakı kommunasının məğlubiyyətinin səbəblərindən bəhs edərkən bolşevik ideyalarının milli mənafeyə zidd, «tamamilə yabançı ünsür olan siyasət» olduğunu qeyd etmişdir [177, s.125].

M.Ə.Rəsulzadə kimi, Y.V.Çəmənzəminli də bunu vaxtında başa düşmüş, milli həmrəylik, milli istiqlalçılıq ideyalarının təbliği, şüurlara aşılanması yolunda əzmlə çalışmışdır.

Qeyd etmək lazımdır ki, Y.V.Çəmənzəminlinin ideyaca püxtələşməsində özünün demokratik və milli yenilikçilik ruhu ilə səciyyəvi olan Azərbaycan maarifçiliyi bir nəzəri mənbə kimi mühüm rol oynamışdır. Çəmənzəminli möhkəm əqidəli milli istiqlalçılıq mövqeyinə məhz milli maarifilik platformasından gəlmişdir. O, hələ maarifçilik mövqeyindən çıxış edərkən, 1905-ci il rus inqilabından sonra ictimai-siyasi fikir tariximizdə millətin varlığı üçün «zəruri və həyati olan məsələləri» – milli məsələ kimi formulə edərək irəli sürmüşdür [43, s.320]. Maarifçi sələflərindən fərqli olaraq, o, milli oyanışın, milli nicatın yolunu təkcə maariflənməkdə deyil, milli istiqlaliyyətdə görmüşdür.

Müasirləri C.Məmmədquluzadə, M.Ə.Sabir, Ə.Hüseynzadə, M.Ə.Rəsulzadə kimi Y.V.Çəmənzəminli də mütərəqqi demokratik ideallarınn gerçəkləşməsi imkanlarını millətin müstəqilliyində axtarırdı. Onun qənaətincə vətənin, torpağın, milli varlığın qorunması, millətin öz müqəddəratını təyin etməsi hüququ məhz millətin özünəməxsus işi olmalıdır. Milli köləliyə, mürtəce ruslaşdırılma siyasətinə qarşı mübarizənin ideoloqları, milli hərəkat baniləri tərəfindən «millətin haqqını yalnız millətin özü müdafiə etməlidir» – kimi önəmli bir ideyanın siyasi burulğanlar içərisindən qoparıb üzə çıxarılması bacarığı çox haqlı olaraq XX əsrin əvvəlləri Azərbaycan ictimai-siyasi fikrinin mühüm nailiyyəti sayılır [144, s.47]. Məhz bu ideya əsasında sonralar milli müstəqil dövlətçilik ideyası yüksəlmişdir.

Yusif Vəzirin hazırkı tədqiqatın əsas obyekti kimi götürülən yaradıcılığının brinci mərhələsi 1907–1920-ci illər ictimai-siyasi hadisələrinin çox ziddiyyətli və olduqca mürəkkəb bir dövrünə təsadüf edir. Bir tərəfdən Rusiyadakı qısa – onillik bir müddət ərzində müxtəlif sosial-siyasi xarakterli inqilabi hadisələrin bir-birini əvəz etməsi, əvvəlcə çarizmin devrilməsi, «burjua-demokratik» müvəqqəti hökumətin, sonra isə proletar diktaturasını qurmaq məramı ilə bolşeviklərin hakimiyyətə gəlməsi, o biri tərəfdən Bakı kommunasının yaradılması, digər tərəfdən isə Azərbaycanda milli-azadlıq hərəkatının «müsavat» inqilabı adı ilə getdikcə geniş vüsət alması və nəhayət milli-müstəqil demokratik res-

publikanın qurulması istiqamətində gərginləşən çarpışmalar Yusif Vəziri dərindən düşündürməyə bilməzdi. Hansılara qoşulmaq sualına cavab vermək çoxları üçün heç də asan deyildi. Ancaq bu ona yaxşı məlum idi ki, «Müsavat» öz fəaliyyətinin, öz işinin proqramında hamının «musəvi» – yəni, «bərabər», eyni hüquqlu olmasını tələb edir, xoşbəxt gələcək üçün, xalqın milli mənafeyi naminə, sinfi və silki ədavətin aradan qaldırılması üçün çalışır, bundan ötrü çox şeyləri vəd edirdi, həm də demokratik ruhlu bir dövlət qurumu yaratmaqla özünü bütün dünya dövlətlərinə tanıtmaq və tanıtdırmaq üçün uğurlu və sağlam siyasət yeritməyi qarşısına məqsəd qoymuşdu. Məhz bu məqsədlə də Yusif Vəzir hələ ali məktəb tələbəsi ikən üzvü olduğu və Kiyevdə şöbəsini yaratdığı «Müsavat» partiyasının məramının həyata keçirilməsində Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında yaxından və fəal iştirak etmişdir. O, bu dövrdə – yəni 1919 – 20-ci illərdə Ukraynada və Türkiyədə fövqəladə işlər üzrə səfir-diplomat vəzifəsində fəaliyyət göstərmişdir.

Y.V.Çəmənzəminlinin dövrü və fəaliyyətinin aparıcı meylləri və istiqamətlərindən bəhs edərkən burada Azərbaycan ictimai-ədəbi fikir tarixində tənqidi realizmin təməl daşını qoymuş, ideya-siyasi istiqaməti ilə inqilabi-demokratik bir xətt tutmuş, milli oyanış, milli istiqlalçılıq və azərbaycançılıq ideallarının carçısı «Molla Nəsrəddin» jurnalının özünəməxsus yeri və rolunu qısa da olsa qeyd etməmək olmaz. Birinci rus inqilabnın təsiri ilə meydana çıxan (1906) bu jurnal Yusif Vəzirin sanki gözünü açmış, yaradıcılıq fəaliyyətinə, ictimai-siyasi görüşlərinə ideya istiqaməti verən güclü bir vasitə olmuşdur. Onun ilk karikaturası və ilk mətbu əsəri olan «Müdiri möhtərəm» felyetonu da bu jurnalın səhiflərində

dərc edilmişdir. 1909-cu ildən başlayaraq yazıçı-ədibin məqalə, hekayə və felyetonları ardıcıl olaraq mətbuatda «Çəmənzəminli», «Əliquluxan», «Yazıçı», «Sərsəm», «Student», «Yusif Vəzirov» imzaları ilə dərc edilir. Çəmənzəminlinin belə səpkilərdə yazılarının ruhunu realizm istiqaməti təşkil etmişdir.

Ədib-alimin yaradıcılığının ikinci mərhələsi ölkənin iqtisadi-siyasi və mədəni-elmi həyatının yeni illəri ilə əlaqədardır. Daha dəqiq desək, ADR-in öz yerini xalqa «daha yaxşı, daha xoş günlər» vəd edən Azərbaycan sovet hakimiyyətinə təhvil verməsi illəri ilə bağlıdır.

Çəmənzəminli bu dövrdə yarımçıq qalmış «Studentlər», «Qızlar bulağı»», «Qan içində» romanları ilə yanaşı, bir sıra maraqlı hekayə və məqalələr yazmışdır. Habelə, «Həzrəti-Şəhriyar» komediyasını da tamamlamışdır. O, həm də 25 illik bir dövrü, təqribən 1905–1930-cu illər ərzində həyatımızda baş verən mühüm ictimai-siyasi hadisələrə həsr etmək istədiyi roman silsiləsi yaratmaq fikrində olmuşdur. Artıq Yusif Vəzir Çəmənzəminli «arxaya baxıb həsrət» çəkmir. Çünki onun milli istiqlalçılığa yönəlmiş bəşəri ideallardan, xalqımızın qədim və zəngin mənəvi dəyərlərindən bəhrələnmiş fəlsəfi-etik görüşləri, sosial-siyasi fikirləri müasir müstəqil, demokratik Azərbaycan gerçəkliyində yeni əsaslarla öz təsdiqini tapmaqdadr.

## 1.2. Y.V.Çəmənzəminlinin fəlsəfi-etik görüşləri

Y.V.Çəmənzəminlinin fəlsəfi görüşlərindən, hər şeydən əvvəl onun varlığa və idraka, maddi olanla mənəvinin münasibətinə dair baxışlarından bəhs etməzdən qabaq qeyd

etmək lazımdır ki, bütövlükdə götürdükdə o, fəlsəfi problemlərə dair xüsusi əsər yazmamışdır. Lakin çoxsaylı publisistik yazılarında, «Studentlər», «Qızlar bulağı», «Bir gəncin dəftəri» və s. kimi əsərlərində onun ontologiya və qnoseologiya məsələlərinə, dialektikaya, səbəbiyyətə, tərəqqiyə, təbiətə, cəmiyyətə, insana, həyat və ölümə, sonlu və sonsuzluğa və i.a. dair dərin fəlsəfi məna daşıyan və indinin özündə belə aktual səsləşən dəyərli fikirləri, orijinal mühakimələri heç də az deyildir. Bütün bunların sistemli təhlili isə onun fəlsəfi görüşləri haqqında ayrıca danışmağa tam əsas verir.

Mənimsədiyi və təqdir etdiyi fəlsəfi ideyalar, prinsiplər Y.V.Çəmənzəminlinin dünyagörüşünün, dünya-anlamının, dünya – insan probleminə münasibətinin əsl mahiyyətini ifadə edir. Əxz etdiyi fəlsəfi biliklər onun ictimai-siyasi mövqeyinin, həyati amalının müəyyənləşməsində mühüm rol oynadıqlarından, elmi-nəzəri cəhətdən araşdırmaları baxımından təqdirəlayiqdir. Ancaq bu aspektdə aparılan tədqiqatlar, çıxarılan ümumiləşdirmələr nəticəsində Y.V.Çəmənzəminlini birmənalı filosof və ya idealist kimi qələmə vermək düzgün olmazdı.

M.F.Axundov kimi Y.V.Çəmənzəminli də özünü heç vaxt filosof hesab etməmişdir. Lakin antik dünyanın Sokrat kimi böyük müdriklərindən gələn fəlsəfi ənənəyə sadiq qalaraq həqiqətin dərkinə müstəsna əhəmiyyət vermişdir. Ali məktəbdə təhsil aldığı illərdə zəngin fəlsəfi biliyə yiyələnə

bilmiş, fəlsəfi əsərlərə həmişə dərindən maraqlanmış Y.V.Çəmənzəminli fəlsəfi təbiətli, maarifçi-istiqlalçı, məsləkli mütəfəkkir ədib idi. Bunu onun zəngin yaradıcılıq irsinin hərtərəfli araşdırılmasından aydın görmək olar.

Y.V.Çəmənzəminlinin dünyagörüşünə dair sovet dövrünün tədqiqatlarında o, ən çox «cəmiyyəti idealistcəsinə anlamaq»da günahlandırılır, ictimai inkişafda elm, bilik, maarif kimi mənəvi amilləri ön plana çəkməyi onun yaradıcılığı üçün başlıca qüsur bilinir. Halbuki, yaradıcılığının ilkin, yəni çar istibdadına, yadelli müstəmləkə zülmünə təsadüf etdiyi, Azərbaycanın özünün dövlətçiliyini itirdiyi bir dövrdə və xalqın M.F.Axundovun dili ilə desək, «tamamilə və başdan-başa nəinki elmsiz və biliksiz… hətta savadsız [7, s.159] olduğu bir şəraitdə Çəmənzəminlinin də özünün bir çox ideya sələfləri və M.Şahtaxtlı, E.Sultanov, F.Köçərli, Ö.F.Nemanzadə, C.Məmmədquluzadə, Ə.Ağayev, Ə.Hüseynzadə və başqa məsləkdaşları kimi «əqillərin maarifləndirilməsi» yolu ilə ictimai həyatı dəyişdirməyin, tərəqqiyə və azadlığa nail olmağın mümkünlüyü fikrində olması tamamilə təbii bir hal idi.

Azərbaycan maarifçiliyinin ideya əsaslarını yaratmış M.F.Axundovun yeganə arzusu bu olmuşdur ki, «müsəlman tayfaları da başqa xalqlar kimi savadlanmaq imkanı əldə edib, məişət işlərində məlumat sahibi olsunlar» [17, s.159]. Belə «məlumatın» arxasında isə Azərbaycanın azadlıq, istiqlaliyyət idealı dururdu. Y.V.Çəmənzəminli də məhz bu

ideal naminə fəlsəfəyə müraciət etmiş, fəlsəfi düşüncələrini irəli sürmüşdür.

Y.V.Çəmənzəminli realist sənətkar idi və o, «Biz kimik və istədiyimiz nədir?» kimi ortaya qoyduğu suala məhz həmin mövqedən cavab verməyə çalışmışdır. Realizmin yeni dövr ədəbi-estetik fikrində aparıcı cərəyan kimi yer tutması tarixi gerçəkliyin obyektiv dərki və təhlili, ictimai fikrin real insani düşüncələrlə zənginləşdirilməsi tələbatından irəli gəlirdi. Zəmanənin özü ideya təsirlərinin yeni-yeni yollarını və vasitələrini axtarıb tapmağı tələb edirdi. Belə bir tələbatın nəticəsi idi ki, tədqiqatlarda qeyd olunduğu kimi XIX əsrin ikinci yarısı – XX əsrin əvvəllərində artıq orta əsrlərin aparıcı təsir ideyaları olan sentimentalizm, klassisizm, sufi-panteist və i.a. kimi baxışlar «öz yerini realist maarifçilik baxışlarına verdi» [6, s.65].

XX əsrin birinci rübündə mövcud ictimai həyat tərzinin barışmaz, inkaredici tənqidi və inqilabi demokratik çalarlar kəsb etməsi ilə əlamətdar olan milli realizmin başlıca qayəsini dövrün ortaya qoyduğu problemlərin həlli yollarının axtarış səyləri təşkil edir. Digər Avropa ölkələrində olduğu kimi Azərbaycanda da realizm milli mənlik şüurunun təşəkkülünə, milli özünüdərkə xidmət etmişdir. Y.V.Çəmənzəminli də xalqın milli ruhuna əsaslanaraq istiqlalçılıq ideyalarının şüurlara realizm prinsiplərindən aşılanmasını önəmli bilmişdir.

Bu da bir həqiqətdir ki, Yaxın Şərq xalqlarında olduğu kimi, Azərbaycanda da ictimai-siyasi və fəlsəfi-etik fikir bədii yaradıcılıqlar, sənətlə əlaqədar surətdə yaşayıb inkişaf etmişdir. Ayrıca fəlsəfi sistem yaratmaq fikrinə düşməyən Y.V.Çəmənzəminlinin fəlsəfi fikirləri də müxtəlif janrlı əsərlərində toplanmışdır. Bu əsərlərin elmi təhlili göstərir ki, o, fəlsəfi düşüncələrində əsasən materialist meylli olmuşdur və buna da yeni dövr fəlsəfəsinin təsirindən irəli gələn bir əlamət kimi baxmaq olar. Belə ki, fəlsəfə tarixindən məlum olduğu kimi, XVII əsrdən başlayaraq yeni dövr fəlsəfəsinin formalaşması Avropada kapitalist istehsal münasibətlərinin təşəkkül tapması, təbiət elmlərinin, ələlxüsus mexanikann inkişafı ilə əlaqədar olmuşdur. Dövrümüz indi təbiət elmlərinə, real gerçəkliyə əsaslanan yeni dünyagörüşün formalaşması zərurətini irəli sürür. Yeni dövr ingilis fəlsəfəsinin banisi F.Bekonun materilizmi, məşhur XVIII əsr fransız materializmi belə bir tələbatdan yaranmışdır. Bu təmayül dünyanın digər ölkələrinə, o cümlədən Azərbaycana da öz təsirini göstərməyə bilməzdi. Və təbiidir ki, bir dünyəvi ali təhsilli ziyalı kimi Y.V.Çəmənzəminli bundan kənarda qala bilməzdi. Lakin həyatında o, etiqadına, əqidəsinə daim sadiq qalmış, bunu bədii əsərlərində də özünəməxsus tərzdə ifadə etmişdir.

Hələ inqilabdan əvvəl yazmağa başladığı, 1933-cü ildə başa çatdırdığı «Qızlar bulağı» romanında Y.V.Çəmənzəminli qədim insanların – zərdüştilərin sadəlövh fəlsəfi

düşüncələrinə xüsusi yer vermiş, materializm ilə idealizmin ilkin mübarizəsini obrazlı şəkildə təsvir etməyə müvəffəq olmuşdur. Müəllim Xanburabi şagirdlərə başa salır ki, «həyat həmişə diri və maddidir. Beş hiss vasitəsilə duyulan və təyin edilən maddədən başqası qeyri-maddi, qeyri-mövcuddur. Maddə və həyat bir-birindən ayrılmazdır, «maddi olandan kənar həyat yoxdur». Fəlsəfədə «materiya» anlayışı ilə ifadə edilən «maddi olan» deyilənin əhəmiyyətini anlaşıqlı dillə izah edən Yusif Vəzir ətrafdakı aləmin obyektivliyini, habelə insan zəkasının bu aləmi dərk etməsinin mümkünlüyünü təsdiq edən dünyagörüşün əsas prinsiplərinin düzgün anlaşılmasına çalışmışdır. Varlıq haqqında mükəmməl fəlsəfi bilikləri birtərəfli metafizik materializmə və idealizmə qarşı qoyan Yusif Vəzir «dünyanı iki qeyri-maddi qüvvələrin mübarizəsi məhsulu» kimi hesab edən arilərin – zərdüştilərin, qeyri-maddi şeylərə inanan misirlilərin, «göylərdə altun arabalı qüvvələr» görən hindlilərin mifik təsəvvürlərini nəsrə çəkməklə, fəlsəfi biliklərin formalaşmasının ibtidai qaynaqlarına işıq salır. O, belə bir fikri daha qabarıq verir ki, obyektiv aləmin ötəki tərəfi boşdur, xəyaldır, yəni qeyri mövcuddur… Həyatın şəraiti mövcudiyyət törədir». «Insan tam bir varlıqdır, onu yaşamağa sövq edən amillər öz varlığına bağlıdır. Yemək, içmək, oxumaq kimi daxili arzuları olduğu təki, bu daxili tələbləri lazımınca yerinə yetirmək üçün insanın zahirdən qüvvə alan arzuları da var. Yaxşı yemək üçün yaxşı çalışmalı, suyu durultmalı, ov üçün

şücaət göstərməli… Xülasə, hər bir daxili ehtiyacı dəf etmək üçün zahirdə bir çox ehtiyaclar vardır» [40, s.343].

Y.V.Çəmənzəminlinin maddi və mənəvi, insan və dünya, həyat və ölüm kimi əbədi dünyagörüşü və xarakterli məsələlərlə yanaşı, insan və cəmiyyət haqqında fikir və mülahizələri də dərin hikməti ilə seçilir. O, özünün tarixi romanlarında belə insanı daima düşündürən bu cür məsələləri geniş müzakirə obyektinə çevirir, bu haqda sanki həyat təcrübəsindən, çoxlarına məlum olanları özünəməxsus tərzdə fəlsəfi mühakimələr vasitəsilə oxucuya çatdırır.

Həyatın mənasını «dirilikdə və maddilikdə» görən Y.V.Çəmənzəminli də bir çox təbiətşünas alimlər kimi, insan anlayışını, onun ömrünü bitki və heyvan kimi üzvi və canlı aləmlə müqayisədə izah edir. Həyatın ayrı-ayrı fərdlər timsalında müvəqqəti, ölümün isə «əzəli və əbədi» olduğunu söyləyən mütəfəkkir cəmiyyət halında, yeni-yeni insan nəsillərinin yaranması sayəsində həyatın əzəliliyini etiraf edir. Bir çox romantiklərdən fərqli olaraq, onun həyat və ölüm probleminə dair baxışları realist cəhəti ilə daha çox seçilir. Belə ki, o, maddi başlanğıclardan, yaşamaq üçün zəruri olan maddi nemətlərdən kənarda həyatı təsəvvür etmir. O, belə bir fikri müdafiə və dönə-dönə təkrar edir ki, maddi nemətlərin istehsalı insan həyatının başlıca həlledici şərtidir. Hər hansı bir cəmiyyət işi bir müddət dayandırsaydı məhv olardı. Dünyanı dialektik inkişafda görən Çəmənzəminli yazır ki, daim diri və maddi olan həyatda yalnız «mübarizə

baqidir» və bu bütün canlılar, bitkilər aləmi üçün ümumidir. Onun fikrincə, «insan yaşayışı, heyvan yaşayışı … bir-birinin eynidir. Bir yarpağın budaqdan üzülüb düşməsi, bir heyvanın gəbərməsi, bir insanın ölümü eyni mənadır. Həyatdan məhrum olmaq əzəli və əbədidir. Ölən dirilməz. Həyat baqidir, ancaq şəkillər dəyişilir. Bir ot saralar, yerinə başqası bitər, adam ölər digəri doğular… [40, s.342].

Y.V.Çəmənzəminli özünün ifadə etdiyi «yaşamaq öz-özlüyündə bir məqsəddir» [40, s.343], – fikrini tam mənasında açıqlayıb əsaslandırmasa da, haqlı olaraq insanın fərdi həyatını cəmiyyətdən kənarda təsəvvür etmir. O, fərd ilə cəmiyyətin münasibətini təkcə ilə ümuminin münasibəti kimi şərh edir və bunların bir-birilərini qarşılıqlı surətdə şərtləndirməsini ön planda verərək yazır: «Hər bir yaranan yaşamalıdır, lakin yaşamaq fərdi və xudbini deyil, ictimai olmalıdır. Fərd yaşarkən cəmiyyət içərisində yaşar və fərdi deyil, cəmiyyət faydasına çalışaraq yaşar. Çünki cəmiyyət ümumiyyət, fərd isə xüsusiyyət deməkdir. Cəmiyyət fərdlərdən qüvvətlidir… Insanlar sadəcə həyatın məqsədini mürəkkəbləşdirir…» [40, s.343].

Y.V.Çəmənzəminlinin mütləq inamınca «həyat hər an, hər dəqiqə qabağa getməkdədir və bu gedişdə də xeyli tələbat irəli gəlir» [43, s.35]. Tələbatların ödnilməsi isə bəşər varlığının ümdə şərtidir. Çəmənzəminlinin bütün monoqrafiya boyu izlənilən və ictimai, siyasi və etik baxışlarının əsasını məhz bu fəlsəfi müddəalar təşkil edir.

Beləliklə, həyatı bütövlükdə, dünyanı daimi inkişafda götürməsi Y.V.Çəmənzəminliyə bir çox məsələlərdə düzgün qənaətə gəlmək imkanını vermişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Çəmənzəminlinin dünyagörüşünün erkən vaxtlarında əsaslı dönüşün yaranmasında qardaşı Əbülhəsənbəyin böyük rolu olmuşdur. Namaz qıldığı, Allaha kor-koranə ibadət etdiyi vaxtlarda kainat, insan təfəkkürü, həyatdakı bütün qanunauyğunluğun əzəli və daimi olması barədə qardaşından öyrəndikləri və onun məsləhəti ilə oxuduğu müxtəlif fəlsəfi-etik, sosial-siyasi mövzularda yazılmış kitablar və xüsusən də «Qurani – Kərim»in surələri ilə «Tövrat»ın və «Incil»in müqayisəli elmi şərhləri əsasında mənimsədiyi, faydalandığı biliklərlə dünyagörüşünü zənginləşdirmiş, daha sonralar yüksək təhsil səviyyəsində yiyələndiyi sistemli elmi bilikləri inkişaf etdirmişdir.

«Qızlar bulağı»nda «durğun həyat»ın düşməni olan Çopo və Ceynizin fəlsəfi mühakimələri, ərənlərin hekayələrində toxunulan idrak məsələləri, sovet hakimiyyəti dövründə yazdığı «Studentlər» romanı və digər əsərləri göstərir ki, Çəmənzəminli ictimai inkişafda ideyaların rolunu əsasən düzgün anlamış, əxlaqın ictimai şüur formalarından biri olduğunu dərk etmişdir. O, ən ali insani keyfiyyət kimi hesab etdiyi şüuru həmişə təkamüldə, təkmilləşmədə nəzərdən keçirmişdir. Onun fikrincə, insan özü də təbiətin bir parçası, ən ali beynə malik olan şüurlu hissəsidir. Insan nəinki obyektiv aləmi, özünü də dərk etməyə qadirdir.

Yusif Vəzirin araşdırıb tədqiq etdiyi məsələlərlə bağlı, məsələn, alman filosofu Nitsşenin «Zərdüşt belə söyləmiş», inqilis filosofu Spenserin «Dimaği-ruhani (mənəvi zövq) və cismani tərbiyə» kimi əsərlərə istinad etməkdə, təqribən üç min illik tarixə malik olan Azərbaycanın «o dövrə dair məlumatlarını qədim yunan müvərrixlərindən (tarixçilər) Herodot, Seysel, Ksenefon və başqalarından öyrənməyi» zəruri bilməkdə özünün «Arvadlarımızın halı» əsərində bütün bəşər qadınlaranın ən qədim dövrlərdən başlayaraq məruz qaldıqları məhrumiyyətləri barədə yunan tarixçisi və filosofu Plutarxin (təq.46-127) təsvirində «yaradılışda baqi (əbədi) olan dörd amilin: od, su, hava, torpağın» olması barədə bu fəlsəfi nəzəriyyənin yunan materialist filosofu Aqrigentli Empedoklun (e.ə. 490-430) Irandan əxz etməsini ondan əvvəl yaşayan Herodotun fikirləri ilə əsaslandırmaqda məqsədi dünyanın görkəmli zəka sahiblərinin təsiri ilə insanların bəzi nəzəriyyəçilərin zərərli təsirinə düşməməsinə çalışmaq idi. O, nəinki publisist məqalələrində, həmçinin bədii əsərlərində də bu xətti yeritmişdir.

Yusif Vəzir «Studentlər»də öz proobrazı Rüstəmbəyin dilində kainatın yaradıcısı və bu yaradanın kürreyi-ərzimizdə yaratdığı bütün canlı-cansızların hamısına zaman bərabərliyi, «etidalı-dəm»lə yanaşması haqqında çox maraqlı mülahizə irəli sürür: «Allah doğmayıb və doğulmayıb, - dedi, deməli var imiş, var və olacaq. Böyükdür və küllün cəmidir. Ondan ayrı bir şey yoxdur. Hamısı onda mövcuddur. Hamıya da o

nüfüz edir. Allah hər şeyə etidali-dəmlə baxır, acıq və intiqam, rəhm və əvəz onda yoxdur. Günah, savab allah yanında bərabərdir, onun üçün fərq mənası mövcud deyil. Belə olduqda, allah bizim ibadətimizə möhtac deyil. Onun üçün bizim dua və diləyimizi eşitmək də ağıla müvafiq gəlməyən işlərdəndir, çünki allah qanunu, təbiət nizamı sabit və sarsılmazdır» [40, s.22 – 23].

Yusif Vəzir kainatın, həmçinin yer kürəsinin yaranmasına səbəb olan bir ali qüvvənin varlığına şübhə etmirdi. Bu ali qüvvə hər şeyə, bütün təbiət qanunlarının sabitliyinə öz qüdrət və gücü ilə cavab verən qeyri-adi, bütün insanların təsəvvüründə canlanan Allahdır ki, onun da yaratdığı bütün kainat cisimlərinin, təbiət hadisələrinin, bütün məxluqatların hərəkətlərində, fəaliyyətlərində həm müsbət, həm də mənfi xüsusiyyətlər, həm yaxşı, həm pis cəhətlər, həm günah, həm də savab işlər, həm bədbəxtlik, həm də xoşbəxtlik halları, həm soyuqluq, həm istilik, həm qəddarlıq, həm xeyirxahlıq, həm xəstəlik, həm sağlamlıq və il axır və sair bir-birinə zidd paradoksların yaranmasına səbəb olmuşdur. Məhz bunların mövcudluğu ilə kainatın qanunları sabit və dəyişməzliyə mübtəla olmuşdur. Bu qanunauyğunluqlar zərrə qədər pozularsa, bu, nizam-tərəzinin azacıq qeyri-dəqiqliyi nəticəsində fəsadlar, fəlakətlər, müsibətlər, partlayışlar, daşqınlar, yanğınlar və s. baş verə bilər. Mütəfəkkir mühitində yaşayan hər kəsin düşüncəli, ağıllı olmasını təbiət və cəmiyyətin qarşılıqlı münasibətində

laqeydliyi etinasızlığı mühakimə etməyi qarşısına bir məqsəd qoyur. O, daha sonra yazırdı: «Təbiət imtiyaz (müstəsna üstünlük) tanımaz. Daş da adam kimi durduğu yerdən özü özbaşına göyə qalxmaz, hər kəs etiqad eləsə imtiyaza iman etmiş olur və bununla da allahın ədalətinə inanmır» [40, s.23]..

Romandan götürülən bu iqtibasa dərindən münasibət bildirməklə heç də müəllifə tam haqq qazandırmaq olmaz. Çünki islam dünyasının milyonlarla imanlısı etiqadında heç də niyyət eləmir ki, məhz yaşadığı bu dünyada əvəzində imtiyaz qazanacaq, onların etiqadlarında əsas niyyətləri qeyri-maddi olan o dünyanın – əbədiyyət dünyasının imtiyazlarına malik olmaqdır.

Əsərin qəhrəmanı Rüstəmbəyin «iman etdiyi» bircə allah idi. Onu özünə əzəmətli, ağıl, zəka, yaradıcı bir qüvvə kimi təsəvvür edir, lakin lazımınca tərif və tövsif (tanıtma) edə bilmirdi. Ona Tövrat, Incil, Quran və qeyri din mənbəyi olan kitabları oxumaq, fəlsəfə ilə dürüst tanış olmaq lazım gəlirdi». [40.23]

Yusif Vəzir bütün gücü və qüvvəsi ilə hələlik cavab tapa bilmədiyi dövrün bütün sosial-siyasi, fəlsəfi-etik məsələlərinə dolğun münasibətlər bildirməklə ona yardımçı ola bilən ali mütərəqqi ideyalar və ideallara aydınlıq gətirmək üçün lazım olan mətləbləriə əxz edib ümumiləşdirməyə nail ola bilmişdir. Fəlsəfə ilə dürust tanış olmaq istəyi də onda

buradan yaranmışdı. Onun əsərlərində elm və bilik əxlaqi azadlığın bir növ ekvivalenti kimi ifadə edilmişdir.

Yaradıcılığı şifahi xalq ədəbiyyatı ilə bağlı olan mütəfəkkirin əsərlərində istifadə olunan folklor nümunələri göstərir ki, onun etik ideyaları xalq müdrikliyindən, şərə, ədalətsizliyə, zülmə qarşı mübarizə aparan xalq qəhrəmanlarının arzu və ideallarından ayrılmazdır. Ictimai haqsızlıq əleyhinə mübarizəni hələ anasından eşitdiyi nağıllardan öyrənən Yusif Vəzir sonralar bunları «Avesta» kimi bir xəzinə ilə müqayisəli şəkildə təhlil etmişdir.

Yusif Vəzir Nizami və Füzulidən tutmuş M.F.Axundov və H.B.Zərdabiyə, inqilabçı demokratlara qədər ədəbiyyatımızdakı və xalqımızın qabaqcıl fikrindəki ən gözəl ideyaları yeni şəraitdə uyğun şəkildə davam və inkişaf etdirməklə fəlsəfi və sosial-siyasi fikrimizi xeyli zənginləşdirmişdir. O, bu ölməz sənətkarların ideyalar aləminə yaxından bələd olmuş, həm də onların əsərlərindəki əməksevərlik, xəlqilik, humanizm və vətənpərvərlik fikirlərini mənimsəyib yüksək qiymətləndirməklə «Azərbaycan ədəbiyyatına bir nəzər» adlı tədqiqat əsəri ilə klassiklərimizi xaricdə də tanıtmış, onların elm və ədəbiyyatın qarşısına qoyduqları problemləri həyata keçirmək uğrunda böyük inamla çalışmışdır. Nəcib əxlaqi sifətlər bütün dövrlərdə əhəmiyyətini saxladığı kimi Yusif Vəzirin bədii yaradıcılığında da öz əksini tapmışdır

Çəmənzəminli öz yolu ilə gedərək ömrünü xalq işi uğrunda mübarizəyə sərf etmişdir. O da zəhmətkeşlərin ictimai- milli zülmdən qurtulması, həmvətənlərinin maddi və mənəvi cəhətdən təmin olunması üçün elmi biliyi və maarifi nicat yolu saymışdır. O, əsərlərində əxlaq məsələlərinə, tərəqqiyə, yeniliyə, inkişafa doğru aparan əxlaqi keyfiyyətləri təqdir edir, ata-babalardan bizə miras qalan nizam-intizamın böyüklər və kiçiklər arasında yaratdığı səmimiyyət, mehribançılığı təbliğ edir, lakin yeri gəlmişkən köhnəlmiş bəzi yaramaz adətlərin ifrat dərəcədə tətbiqinə dözmürdü. Mütəfəkkir alimin etik ideyaları H.B.Zərdabinin «biz hamımız quluq və buna səbəb bizim ata-baba adətləridir» – fikrinin müəyyən mənada desək davam və inkişafıdır.

Istər Zərdabinin və istərsə də Çəmənzəminlinin adət-ənənələrimizin bəzi məqamları barədə mülahizələrinə tələsik yox, bir qədər dərindən münasibət bildirsək, çox şeylərə aydınlıq gətiriləcək. Hər iki alimin ictimai-siyasi görüşlərində bəşəriyyətin mütərəqqi ideyaları ilə çulğalaşan arzular və ideallar mövcuddur. Bu ideallar ata-baba adətlərimizin ləğvinə yox, onların müasirləşməsinə, bəşəri idealların mütərəqqi cəhətləri ilə əlaqəli yaşanmasına xidmət edir.

Ölməz sənət ustası M.F.Axundov dram əsərinin məqsədini insanların əxlaqını yaxşılaşdırmaqda, oxucu və dinləyiciləri ibrətləndirməkdə görürdü, şerə nisbətən bu janrın üstünlüklərini söyləyir, xalqın gözünü açmaq üçün ədəbiyyat və incəsənətin ictimailəşdirici rolunu yüksək

qiymətləndirirdi. «Molla Nəsrəddin» jurnalının mövhumata, insanın heysiyyətini tapdalayan istismarçı quruluşa qarşı mübarizəsinin Yusif Vəzirə qüvvətli təsiri olmuşdur.

Azərbaycanın etik fikir tarixinə daxil olan ideyaları, M.F.Axundov realist məktəbinin əxlaqi baxışlarını və C.Məmmədquluzadə kimi gülüş ustasının mütərəqqi ictimai fikirlərini əxs edən Yusif Vəzirin dünyagörüşünün formalaşmasında rus klassikləri də mühüm rol oynamışlar.

Y.V.Çəmənzəminlinin hekayələri, publisistik məqalələri «Qızlar bulağı», «Bir cavanın dəftəri», «Studentlər» və başqa əsərlərində istənilən qədər əxlaqi məsələlər var və bunlar ona xalqının mənəvi, əxlaqi inkişafı, tərəqqisi üçün olduqca əhəmiyyətlidir. Əsas ideya mənbəyini dahi Nizaminin hikmət xəzinəsindən götürən mütəfəkkir alimin nəzərində hər şeydən uca, hər şeydən üstün olan bilikdir ki, bununla da insan səadətinin təntənəsinə çatmaq mümkündür. Bilik almaqdan ötrü yeni məktəblər açmağın zəruriliyi fikrini irəli sürən yazıçı əxlaqi tərəqqidə biliyin misilsiz əhəmiyyəti olduğunu dönə-dönə qeyd etmişdir: «Dünyada xoşbəxt ömür sürmək istəyiriksə, bilik toplamalıyıq» [48, s.265]. Xalqın nadanlığının səbəbini onun bilik yoxsulluğunun nəticəsi kimi başa düşən mütəfəkkir bilik uğrunda mübarizəni əxlaqi keyfiyyətlər uğrunda mübarizə tək başa düşmüşdür. Insan idrakının, biliyin, eləcə də fəzilət və qəbahətin nisbiliyini yaxşı bilən Yusif Vəzir insanı ən yüksək məxluq saysa da, adamın təbiətində və obyektiv aləmdə hələ

kəşf edilməmiş və kəşf edilməkdə olan saysız-hesabsız sirrlər olduğuna təəssüf hissi ilə yanaşırdı. Adlarına «millətpərəst intelligentlər» deyilən bir sıra adamlar müqəddəs ziyarətlərdən sonra daşıdıqları «kərbəlayi» və «məşədi» adlarına layiq deyillər. «Millətpərəstlər» hekayəsində «əlində çantası olan xırda bir qız uşağına yanaşıb yanağından tutub «ay bərəkallah, kimin qızısan?», yaxud «bala, sən kimin balasısan» deməklə öz iyrənc mənəviyyatlarını nümayiş etdirənləri, atalıq, «balalıq» simasını itirib «millətpərəstlik» pərdəsi altında gizlənənləri lənətləyən ədibin üsyankarlığını açıq hiss etmək olur.

Əxlaq və etika məsələləri Y.V.Çəmənzəminlinin dünyagörüşündə mühüm yer tutur və bu məsələlərin elmi cəhətdən obyektiv araşdırılmasının bütövlükdə onun yaradıcılığının və fəaliyyətinin düzgün dərk olunmasında prinsipial əhəmiyyəti vardır. Onu da qeyd etmək lazımdır ki, Çəmənzəminlinin etik görüşlərinə dair sovet dövrünün tədqiqatlarında o dövr üçün xarakterik olan belə bir fikir yürüdülür ki, guya o, «millət, mədəniyyət və milli məsələ» problemlərinin həllində büdrəyir. Bu da onun etik baxışlarına da təsir etməyə bilməzdi. Bunun isə səbəbi Çəmənzəminlinin vaxtı ilə proletar hərəkatndan uzaq düşməsi ilə izah edilir. Halbuki, Çəmənzəminlinin yuxarıda adları çəkilən məlum problemlərin həlli istiqamətində nəzəri müddəaları Azərbaycan Xalq Cümhuriyytinin iki illiyə yaxın hakimiyyətinin praktikasında öz müvafiq əksini tapmışdı.

Y.V.Çəmənzəminlinin etik görüşlərinin mərkəzində köhnəliklə yeniliyin mübarizəsi problemi dururdu. O öz əsərlərində nəinki köhnə cəmiyyətin iyrənc əxlaqi sifətlərini kəskin tənqid etmiş, eyni zamanda zəhmətkeşlər üçün xarakterik olan əxlaqın əsas cəhətlərini də göstərməyə çalışmışdır. Çəmənzəminli öz əsərlərində əməyin rolu məsələsinə olduqca böyük əhəmiyyət vermiş və onu insanlarda müsbət əxlaqi keyfiyyətlərin yaranmasının, əxlaqi saflıq və mənəvi oyanma əmələ gəlməsinin xüsusi aləti hesab etmişdir.

Yusif Vəzir «çalışanlar» və bacaranları çalışmayanlar, tənbəllər və acizlərə qarşı qoyur, əməyə mənfi münasibət bəsləyənlərin dost-aşna yanında biabır olduqlarını israr edir. «Qızlar bulağı» romanının «Qoç» qəbiləsində bir valideynin nəsihəti ilə cəmiyyət üçün, xalq üçün çalışmağın və tənbəlliyin nə demək olduğu aydınlaşır:

« - Çopo, sən sabah bizdən ayrılırsan. Get xoşbəxt ol, salamat səsin gəlsin! Ancaq həyat tuhaf bir şeydir. O, çalışanların və bacaranların malıdır. Çalışmayanlar, acizlər, tənbəllər və acı təbiətlilər həyatda müvəffəq olmazlar. Ailə həyatına gəldikdə, bu da tuhaf bir şeydir… Yaxşı zənn etdiyin fənaya dönə bilər, fəna görünən də yaxşı çıxa bilər. Hər halda Qızlar bulağında özünə həyat yoldaşı seçərkən zahiri gözəlliyə çox da uyma. Zahir müvəqqəti bir şeydir, bu gün var, sabah yox ola bilər» [40, s.372].

O, həyatda hadisələrin inkişafında, əməyə münasibətlərdə ikili xüsusiyyətin yaranmasında nisbiliyi

əsaslandırır. Həyatda əməksevərliyi, zəhmətkeşliyi nə qədər qiymətləndirsək də, bizdən, şüurumuzdan asılı olmayaraq bir o qədər də tənbəlliklər, acizliklərlə qarşılaşırıq. Yusif Vəzir fəlsəfənin qanunları ilə yanaşı, onun bir sıra mövcud kateqoriyalarını da cəmiyyətin inkişafı ilə bağlı nəzərimizə çatdırır. O, zahiri gözəlliyə, yəni formaya uymamağı, aldanmamağı, məzmun gözəlliyinə daha çox bağlanmağı tövsiyə edir və deyir ki, zahir cəlbedici də olsa müvəqqətidir, tez dəyişəndir, aldadıcıdır. Məzmun, yəni batin isə daimidir, çevikdir, mütəhərrikdir. Insanın formasını məzmun müəyyən etməlidir. «Zahir batinin təzahüründən ibarət olmalıdır» [40, s.382]. Daha sonra Yusif Vəzir «eşq» məfhumu üzərində dayanır: «Eşq qeyri-sabit bir amal və ələləksər coşmuş ehtiras uydurmasıdır. Eşqə bel bağlamaq ayıqlığa vida deməkdir. Eşq cazibəsinə çox da aldanma! Lakin var deyib, inansan, inamında davam et, şübhələrə meydan vermə. Eşq sönmüş də olsa onu alovlandırmağa çalış. Çünki insanın xəyalı olmazsa həyat məhsulsuz bir səhraya dönər» [40, s.372].

Mütəfəkkir alim mücərrəd məfhum kimi anlaşılan «eşq»ə olan bu izahlarında da huşyar olmağı, ağıl və zəka sahiblərini, ümumiyyətlə, mərifətliləri, həyatı düzgün qavrayanları çılğınlıqdan qaçmağı məsləhət bilir. Eşq aldadıcı da ola bilər, həqiqi də ola bilər. Lakin ona bağlılığın meyarını pozmaq, əndazəni aşmaq uçurum yaradır. Dahi Füzulinin «Leyli və Məcnun»unda «eşq»ə verilən təriflə başlanan bir qəzəl də deyilənlərin təsdiqi üçün əyani bir sübutdur:

Can vermə qəmi-eşqə ki, eşq afəti-candır,
Eşq afəti-can olduğu məşhuri-cahandır. [148,s.42]

Çəmənzəminliyə görə «eşq» deyilən boş «ləfz»dən (sözdən) irəli gəlməyib. Əslində eşq yoxdur, eşq şairlərin boş xəyallarının məhsuludur. «Eşq bir xəyaldır. Xəyalla ömür keçirmək isə işsizlərin işidir. Öyrəniş və alışma var. Bir adam bir adama öyrənişir, alışır, onu görmədikdə könlü sıxılır» [40, s.111]. Deməli, Yusif Vəzirin düşüncəsində «eşq» ləfzi xəstəlik, xəyal və işsizlikdir.

Bu xəstəliyin səbəblərini çox aydın və elmi izahatlarla əsaslandıran mütəfəkkirin əsas məqsədi insanları ayıq salmaq, onları hələ də yaşadıqları cəmiyyətdə boş və əsassız xülyalara çəkib aparan süstlük, ətalət kimi halların baş alıb getməsində müqəssir bilinən nadanlıqdan, gerilikdən və avamlıqdan çəkindirməkdir. Çəmənzəminli göstərirdi ki, «yaradılışda anlaşılmaz bir sirr var, bu törəmək və artmaq sirridir. Hər yaranan yaşamalı və nəslinin baqiliyinə çalışmalı – təbiətin hökmü budur. Hiss təbiət qədər əzəlidir, bir anadan doğmuş əkizdir. Hiss təbiət zəkasının təzahürüdür, təbiət istədiyini hiss vasitəsilə görür. Yaranmışlar müəyyən yaşa çatıb törətmək qabiliyyəti duyar-duymaz hiss onları idarə etməyə başlayır. Gənc zəka vücuda rəhbərlik etmədə acizlik göstərir, hər şey yolundan sapıb, həqiqi aləm bir başqa şəkildə görünür, vücud xəstə bir şəkil alır – yuxusuzluq, göz yaşları başlayır» [40, s.112].

Çəmənzəminliyə görə «eşq» məfhumunu mübaliğəli təsvir edənlər hisslərinin quluna çevrilib ağıllarına kölgə salan müvazinətlərini itirənlərdir. Onlar bədənləri mövhum hisslərlə idarə olunmaqla əsl həqiqəti görə bilmirlər. Insan bu vəziyyətdə ifratla təfrit (israf, nöqsan) arasında aciz və avara qalır. Üzvlər vəzifələrini lazımınca ifa edə bilmirlər. Bədən salamatlığını qaib eləyir; ayıqlıq və fəaliyyət məhv olur; yuxusuzluq, göz yaşları kimi xəstəlik əlamətləri baş verir. Çəmənzəminli əxlaqı şəxsiyyətin tələb və ehtiyacları ilə uyğunlaşdırırdı. Əsl insan odur ki, özünə xoşbəxt həyat yarada bilsin, habelə başqaları üçün şərait yaratsın. Insan özünün hərəkətləri üçün məsuliyyət daşımalı, özünü yaxşı, ağılla idarə edə bilməlidir. Ehtiraslarını cilovlamalı, nəfsini saxlaya bilməli, intizamlı olmalıdır.

Yusif Vəzir insanları daim ayıqlıq və fəaliyyətə səsləyir. Çünki bu yolda axtarışlıq var, yaxşı yaşamaq üçün stimullar var. Insana əmək, zəhmətə qatlaşmaq ona görə zəruridir ki, o, təmiz havada gəzməklə daha sağlam və gözəl olar, onu pis adətlərdən və avaraçılıqdan xilas edər. O, habelə insanı işgüzar gələcəyə hazırlayır.

Yaradılışda ikiliyin olması barədə fikirləri Zərdüştün «Avesta» adlı kitabından əxz edən Çəmənzəminli sözün əsl mənasında həyatın bu ikilik üzərində bərqərar olmasına tərəfdar kimi çıxış edir: «Zərdüştilər yaradılışda ikilik olduğuna inanırlar. Cəməsb də buna tərəfdardır. Ancaq

Cəməsb ağıl irmədiyi yerlərə girişmir. Dünyanı cismani bir xilqət deyə qəbul edir və xoşbəxt yaşamaq yolları arayır» [40, s.333].

Yeni dövrdə görkəmli alman filosofu Hegel metafizik baxışlara qarşı çıxaraq inkişafda ziddiyyətlərin rolunu açıb göstərdi. Əksliklərin vəhdəti və mübarizəsi qanununu formulə elən Hegel ziddiyyəti hər cür hərəkətin və həyatiliyin kökü adlandıraraq bildirirdi ki, mütləq ideya yalnız özündə ziddiyyətə malik olduğuna görə hərəkət edir, impulsa və fəallığa malik olur. Hegel ziddiyyəti gerçək aləmdə görməyərək onu təfəkkürdən, mütləq ideyadan çıxarırdı.

Məhz bu məsələdə bir-birilə əks olan iki baxışlar sistemi – inkişafın metafizik və dialektik konsepsiyaları meydana çıxır. Metafizik konsepsiya inkişaf prosesində yeni keyfiyyətin yaranmasını qəbul etməyərək ona yalnız kəmiyyətcə artma və azalma, böyümə və kiçilmə kimi, əmələ gəlmiş yeniyə sadəcə olaraq köhnənin təkrarı kimi baxır.

Bunun əksinə olan dialektik konsensiya isə inkişafın mənbəyini predmet və hadisələrin daxilində axtararaq göstərir ki, bu onları təşkil edən əks tərəflər, meyllər, qüvvələr arasındakı mübarizədir [103, s.115].

Y.V.Çəmənzəminli də inkişafın dialektik konsepsiyalarına sığınmaqla yaradılışda ikilik olduğunu deyərkən bir-birinə əks olan qüvvə və hadisələri nəzərdə tutur, həyatın bunlarsız ötüşə bilmədiyini bəyan edir. O, ağılla dərk oluna bilməyənlərə girişmir. Lakin dərk oluna bilmə-yən şeylərin yüksək inkişaf edən hadisələrin sürətli məcrasında dərk oluna biləcəyinə şübhə etmirdi. Xoşbəxt yaşamaq istəyən insanların yeni yollar arayıb axtarmasını zəruri hesab edirdi.

Çəmənzəminli məzmunla formanın qarşılıqlı əlaqəsinə dair mülahizələrində belə hesab edirdi ki, hər bir hadisə və predmetin özünəməxsus məzmun və forması vardır. Bunlarsız predmet və hadisələri təsəvvürə belə gətirmək olmaz. Məzmun və forma vəhdət təşkil edir. Əgər vəhdət pozularsa, bunlar arasında ziddiyyət yarana bilər. Məzmun inkişaf edib irəli getdiyi halda, forma müəyyən vaxtlarda köhnəlib, ondan geri qalır, lakin forma məzmundan uzun müddət geri qala bilməz, mütləq

o yeni məzmuna uyğunlaşmalıdır. Həm də yeni məzmunla köhnə forma arasında mübarizə köhnə formanın məhv edilməsi yolu ilə başa çatır, çünki təzə məzmun öz tələblərinə görə köhnə forma içərisində yaşaya bilmir.

Yusif Vəzir özünün bu kimi rasional düşüncələri ilə əslində insanları – xalqı, milləti saflaşdıran əməllərə doğru çağırışında acizlik, tənbəllik, yaltaqlıq, mütilik kimi pis sifətləri rədd edir, köləlik əxlaqının girdabından xilas olmağın yollarını göstərir.

Çəmənzəminli əxlaq tərbiyəsində əməyin roluna xüsusi diqqət yetirmiş, tərbiyənin hazır şəkildə verdiyi şeylərdən savayı qalan maddi və mənəvi nemətləri insan əməyinin məhsulu adlandırmışdır. Onun etik fikirlərində əmək, bilik, çalışqanlıq bir-birinə yaxın mənada səslənir. O, müftəxorluğu, tamahkarlığı acgözlüyü, tənbəlliyi mənfi sifətlər sayır, «Sidi», «Rus qaçqının dəftərindən», «Qazanc yolunda» və digər hekayələrində insanları əmək azadlığı uğrunda mühazirəyə çağırırdı.

Yüksək əxlaqi keyfiyyətlərin ictimai inkişafa əhəmiyyətli təsirini qeyd edən mütəfəkkir əməyi xoşbəxtliyin mənbəyi hesab edir, əməksevərliyi və çalışqanlığı təbliğ edərək deyir: «Yalnız bir həqiqət öyrəndim – azad yaşamaq; tox yaşamaq iştə, o həqiqət. Bu iki amili də təmin edən əməkdir. Çalışmalı, yaşamalı, yaşatmalı» [43, s.375].

Humanizm, rəhmdillik, insana hörmət, sadəlik və təvazökarlıq Yusif Vəzirin əxlaqi baxışlarında geniş yer tutur. O, istedadsız və tənbəl adamların az iş görüb çox hay-küy saldıqlarını, əməksevər, sadə və təvazökar şəxslərin öz müvəffəqiyyətlərinə çox vaxt inanmayıb bunu adi bir iş hesab etdiklərini yazır və faktlarla əsaslandırırdı.

Xalqı nəcib əxlaqi prinsiplər əsasında tərbiyə etməyə, onun mənəvi yüksəlişinə nail olmağa çalışan Çəmənzəminli müsəlman ətalətinin naqisliyin fəsadlarını göstərməklə bu geriliyin, əxlaqi yoxsulluğun daşını atmağa çağırırdı.

Insana maddi və mənəvi sarsıntı verən, tərəqqiyə mane olan adətləri yaşatmaq Çəmənzəminliyə görə, böyük ədalətsizlikdir. Şəriət

qanunlarının təhrifinə çalışanlar daim öz nəfslərinə qulluq etmişlər. Bunlar ondan irəli gəlirdi ki, bir para adamlar, məsələn, «ehsanı qazanc mənbəyi hesab edir, bundan sui-istifadə hallarına yol verir, şəriətin bununla bağlı incə məqamlarını, «etidala riayəti» unudurlar. Adət-ənənələrə yeni baxışlarla yanaşılmalı, bir sıra dini ayinlərdə təkmilləşmələr, dəqiqliklər aparılmalıdır.

Tüfeyliliyin, müftəxorluğun ən zərərli bir hal olduğunu dönə-dönə söyləyən Çəmənzəminli «Gələcək səhər» əsərində təsvir etdiyi cəmiyyətin iqtisadi, mədəni cəhətləri ilə bərabər, bu, azad aləmdə yaşayanların əxlaq problemlərini də nəzərdən qaçırmamış, bu səhərdə insanların yalan, hiylədən uzaq olduğunu göstərmişdir. «Yalan, adam aldatma, tənbəllik və bu kimi fəna sifətlərə biz yalnız tarixdə rast gəlirik» deməklə Çəmənzəminlinin Nizami Gəncəvidən öyrəndiyinə heç şübhə etmək olmaz.

Y.V.Çəmənzəminlinin etik görüşlərində məhəbbət, insaniyyət, etibar, əhdə vəfa, comərdlik, səxavət, dəyanət, təmkinlik, səbr və ümid, müdriklik kimi mühüm əxlaqi keyfiyyətlər xüsusilə diqqəti cəlb edir. O, bu cür fəzilətlərin öyrədilməsini mühüm bir vəzifə sayır və göstərirdi ki, «tərbiyə insanın bütün gələcəyini özündə təcəssüm etdirir: xarakteri, dözümü, iradəni… məhz o, möhkəmləndirir» [49, s.65].

Intizamlı, səmimi, diqqətli olmağı bir tələb kimi qarşıya qoyan yazıçı öz qələm yoldaşlarını I.S.Turgenev və M.F.Axundov kimi görkəmli sənətkarlardan nümunə götürməyə səsləyib təəssüflənir ki, özünə arxiv düzəltməyən bəzi yazıçılar insanpərvər və səliqəli olmamışlar. Onun fikrincə, insan üçün səliqə və intizam başlıca şərtdir.

Y.V.Çəmənzəminlinin sosial-fəlsəfi görüşləri sistemində onun mədəniyyətlə bağlı fikirləri də xüsusi yer tutur. O, teatr məsələlərinə ciddi maraq göstərmiş, onu cəmiyyətin inkişafının, əxlaqi kamilliyin mühüm vasitələrindən biri hesab etmişdir. Onun xatirələrində Əbdürrəhim bəy Haqverdiyev Şuşa kimi şəhərə mədəni bir həyat bəxş edən güclü bir şəxsiyyət təsiri bağışlamışdır. Çəmənzəminli «Teatr pərəstişkarı»

məqaləsində dönə-dönə Əbdürrəhim bəyin təbiətinə görə «mütəvaze» (təvazökar) demokrat bir adam olduğunu qeyd edir, teatr məşqlərində sevə-sevə öyrətdiyi və həvəsləndirdiyi rollara olan tələblərində mehribançılığını da nəzərdən qaçırmırdı. Çəmənzəminlinin də Həsənbəy Zərdabi kimi əqidəsincə teatr təkcə maddi təminat deyil, o, eyni zamanda cəmiyyətin mütərəqqi inkişafına kömək edən, avam kütləri cəhalət yuxusundan ayıldaraq firavan həyata ayaq qoymalarına səbəb ola biləcək mühüm mənəvi amillərdən, mədəni təsir vasitələrindən biri olmalıdır.

Ictimai şüur formalarından biri olan incəsənət təkcə teatrla yox, rəssamlıq, heykəltəraşlıq, musiqi və ədəbiyyatla əlaqədardır. Onun «Milli şərqi» məqaləsində musiqi yatmış duyğuları pərvazlandıran bir vasitə kimi qiymətləndirilir [40, s.384]. Yusif Vəzirə görə insanlar da musiqiyə münasibətdə iki cür olur. Elə insan var ki, onun ruhunda ahəng doğuran ilhamlı musiqi sədası sayəsində o, dağı dağ üstünə qoymağa qabil bir pəhləvan işini görə bilir. Belə insanlarda ilham güclü olur. Digər insanlar da var ki, onlarda «vergisiz ruh» mövcuddur ki, bu da «ahəng atəşi»ndən uzaqdır. Deməli, musiqini biri ilhamla qəbul edir, digəri isə adi sənət kimi qəbul edir [40, s.384]. «Musiqi zəhməti nəşələndirmək üçündür. Həyat çətinlikləri qarşısında musiqi insanda ruh yüksəkliyi və mübarizə hissi oyadırsa, böyük bir amil olduğunu isbat edər. Iştə, musiqimizin məqsədi bu!» [40, s.385].

Estetik zövq mənbəyini insanda, təbiətdə və sənətdə görən ədib o gözəlliyi yüksək qiymətləndirir ki, o adamın mənəvi-əxlaqi təkmilləşməsinə təsir etmiş olsun.

Musiqi zövqündən bəhs edərkən, mütəfəkkir gözəllik anlayışı ilə əxlaqi gözəlliyi eyniləşdirmir, bunlardan birincisinin bütün obyektiv varlığı, ikincisinin isə yalnız insanın mənəvi keyfiyyətlərini əhatə etdiyini söyləyir. Gözəlliyin bir çox cəhətləri zahirdə olduğu halda, əxlaqi gözəllik onlara nisbətən batində, mənəviyyatdadır.

Bu kimi fikirləri ilə Y.V.Çəmənzəminli həm də özünün sosial-siyasi baxışlarını əsaslandırmağa çalışmışdır.

## 1.3. Y.V.Çəmənzəminlinin sosial-siyasi görüşləri

Y.V.Çəmənzəminli cəmiyyət hadisələrinin izahına, onun inkişaf qanunauyğunluqlarının dərk edilməsinə mühüm əhəmiyyət vermiş, öz dövrünün böyük ictimai xadimi səviyyəsinə qədər yüksələrək, xalq və millətinin ictimai həyat hadisələri haqqındakı maraqlı fikir və mülahizələr söyləmiş, zülmün, haqsızlığın, çar mütləqiyyət rejiminin ifşa edilməsi, mütərəqqi maarifçilik və demokratik ideyaların təbliğini zəruri bilmişdir. Lakin o bu yolda böyük sarsıntılara məruz qalmışdır. Belə ki, 1905-ci il inqilabından sonra keçirdiyi mənəvi-psixoloji böhran, onu doğuran əsas səbəblərin məhz «bolşevizm qorxusu» ilə əlaqədar olduğunu özü də sonralar açıqlamışdır. Onun sosial-siyasi baxışlarının mühüm tərkib hissələrindən biri kimi «bolşevizm» bəlasının cəmiyyətdən kənarlaşdırılması problemi olub. Çünki «bolşevizm əsrlərlə yığılıb toplanan acıqlar və intiqamların dalğalanması, əsrlərin aləti, keçmiş səhvlərin mənfi nəticələridir» [33,s.63]. Çəmənzəminliyə görə, bu səhvlər təkrarlanmamalıdır. «Yıxıcılıq üzərində quruculuq adlandırılan bu bolşevizm rus vulkanı olaraq başqa millətin də malı ola bilərmi?» sualına Yusif Vəzir Macarıstan hadisələri ilə cavab verərək bildirir ki, «bolşevizm qorxusu» başqa millətlərə də sirayət edə bilər. Bütün bunların hərtərəfli araşdırılması və diqqətlə

öyrənilməsi onun dünyagörüşünü düzgün başa düşməyə imkan verir.

Y.V.Çəmənzəminli öz əsərləri və məqalələrində daim işğalçı müharibələr əleyhinə çıxış etmiş, müharibələrin bəşəriyyət üçün böyük bəla olduğunu, cəmiyyətin iqtisadi inkişafını ləngidən mənfi bir amilə çevrildiyini göstərmişdir [33, s.63].

Prof. I.Ə.Rüstəmova görə görkəmli Azərbaycan mütəfəkkirləri ictimai-fəlsəfi fikrin lap qədimlərdən gələn müsbət ənənələrini davam etdirmiş və dövrün ahənginə, ictimai hadisələrin gedişinə və meylinə uyğun olaraq öz ictimai-fəlsəfi və təbii elmi baxışlarını inkişaf etdirmişlər. Lakin bunu da nəzərə almaq lazımdır ki, XX əsrin əvvəllərində ümumi milli hərəkatın güclənməsi inqilabi hadisələrin geniş vüsət alması ictimai-fəlsəfi, təbii elmi fikrin inkişafına xüsusi təkan verir və onu müəyyən dərəcədə istiqamətləndirirdi»…[134, s.8]. Bu sözləri Y.V.Çəmənzəminliyə də tərəddüdsüz aid etmək olar.

XX əsrin əvvəllərində xalqın öz milli mənliyini dərk etməsində Y.V.Çəmənzəminlinin öz yeri, öz dəsti-xətti olmuşdur. Onun sosial-siyasi görüşlərinin bu baxımdan şərh olunmasının əhəmiyyəti ayrıca qeyd edilməlidir. Çarizm üsul-idarəsinin tənqid və ifşa edilməsi, Səttarxan milli-azadlıq hərəkatına, 1904–1905-ci il rus-yapon müharibəsinə münasibət, gələcək cəmiyyət haqqında fikirlər, mövhumat və cəhalətə qarşı ardıcıl mübarizə Çəmənzəminlinin ictimai-

siyasi görüşlərinin mühüm tərkib hissələrindəndir. Bunların hərtərəfli araşdırılıb öyrənilməsi şübhəsiz ki, onun dünyagörüşünün düzgün başa düşülməsinə imkan yaradar.

Çəmənzəminlinin çarizm rejiminə son qoyulması və yeni cəmiyyətin necə olması haqqında fikirləri və düşüncələri demokratik azad dövlət quruculuğu şəraitində həllini tapa bilən zərurətlərdən doğur. Onun «Müstəqilliyimizi istəyiriksə…», «Biz kimik və istədiyimiz nədir?» kitablarında və məqalələrində dövlət, idarəçilik, rəzalətin aradan qaldırılması yolları, maarifçiliyin yayılması, məktəb, təhsil işlərində islahatçılıq və s. məsələlərə toxunulmuş, azad, demokratik dövlət kontekstində bir cəmiyyətin qurulması arzu edilir. Belə bir cəmiyyətdə insanlar istismar olunmamalı, bir tikə çörəyə möhtac qalmamalı azadlıqdan tam surətdə istifadə etməlidir, onların maddi və mənəvi inkişafları üçün kifayət qədər imkanlar olmalıdır.

Y.V.Çəmənzəminli Azərbaycan xalqını digər qabaqcıl millətlərlə bir səviyyədə olmağa, elm və maarifi inkişaf etdirib onlara çatmağa çağırırdı. O deyirdi ki, bu mübarizədə tüfəng, top yaramaz, onun vasitəsi əql və elmdir. Yusif Vəzir yaşayış uğrunda mübarizə adı altında əzilən kütləri, zəhmətkeşləri öz istismarçılarına qarşı mübarizəyə – öz insan hüquqlarını əldə etmək uğrunda mübarizəyə çağırırdı: «Cəmi millət öz yükünü təpəyə vurub və vurur. Biz isə köhnə ətalət və rəzalət ilə yaşayırıq. Indiyə kimi bizim nə mərkəzi şuramız, nə də bir milli idarəmiz var. Qafqazda sayda

hamıdan artıq ola-ola, əlahiddə bir millət təşkil edə-edə, mal və dövlətə malik ola-ola öz milli işimizi əlimizə ala bilmirik. Ey nəcib türk milləti, ayıl! Bir rəşadətli balalarını yad et! Şan və şövkət ilə ömür sürülməlidir. Köhnə rus məmurlarının çəkməsi altında tapdalanmağın kifayət edər» [33, s.23]. O, zəhmətkeşlərin kimə qarşı mübarizə aparmalı olacaqlarını gizlətməyərək istismarın baş alıb getməsində «ətalət, süstlük, fil qulağında yatmaq kimi yaramaz adətlərə qarşı çıxırdı. Yusif Vəzir dövrü ilə mühiti arasında oxşarlıq olsa da, fərqlər də az deyil. Onun dövrü üçün səciyyəvi sayılan cəhətlərdən biri zəhmətkeş kimi qələmə verilən insanların artıq siyasi həyatın bütün təzahürləri ilə formalaşan bir millət, xalq kimi fəaliyyətdə götürülməsidir.

Y.V.Çəmənzəminlinin «Azərbaycan Muxtariyyəti» silsiləsindən olan məqalələr məcmuəsi 1918-ci ildə Bakıda «Açıq söz» mətbəəsində kitabça şəklində çap olunmuşdur. Kitabçanın «Ayılın, toplaşın!» müqəddiməsi ilə «Açıq söz» qəzetinin 20 noyabr 1917-ci il tarixli 6 – 10-cu nömrəsində ayrıca məqalə kimi də çapdan çıxıb. Millətin, xalqın azad fikirliləri tərəfindən müstəqilliyin əldə edilməsi yollarında hər cür məhrumiyyətlərə dözməklə güclü muxtariyyətə əsaslanan dövlət yaratmaq naminə türk xalqına, türk millətinə xitabən söylənilənlər çox maraqlı və diqqətə layiqdir. Bu baxımdan Şeyx Şamilin yada salınması çox yerinə düşən, arzu olunan bir hadisədir. Dərəbəyliklər, özbaşınalıqlar, gücsüzə zor göstərməsinə son qoymaq əzmi uğrunda

mübarizəyə qalxanlar içərisində Yusif Vəzirin özünəməxsus yeri var. Bir an olsun belə azadlıq, müstəqillik, muxtariyyət barədəki düşüncələrindən əl çəkməyən, azadlıq, müstəqilliyin şirin duyğularından vəcdə gələn Yusif Vəzir xalqı mütəşəkkilliyə, istiqlal uğrunda mübarizəyə səsləyir.

Xalqlar arasında milli xüsusiyyət, milli xarakter fərqlərinin azlığı və çoxluğu müəyyən tarixi amillərdən, bu xalqların təmasından da asılıdır. Əsrlər boyu dini qanunların şüurlara təlqin etdiyi ehkamlar eyni dindən olan millətlərin mənəviyyatında, psixologiyasında bir-birinə yaxın izlər qoyur. Bu işlər sivilizasiya ilə əlaqədar olaraq azalmağa doğru gedir. Iqtisadi, mənəvi cəhətdən bir-biri ilə təmasda yaşayan qonşu xalqların qədimdən başlayan yaxın məişət münasibətləri tədricən onların mənəvi aləmində, zövqündə də bir yaxınlıq əmələ gətirmişdir. Xalqlardakı bu cür yaxın məişət, mədəni münasibətlər onların beynəlxalq münasibətlərində müəyyən rol oynasa da, millilik çərçivəsində bu cür münasibətlər ikinci dərəcəli sayılır. Çar Rusiyasında müəyyən mərkəz idarələrə tabeçilik üsulu ilə çoxmillətli xalqların dövlət halında birləşməsində ədalət meyarı, milli müəyyənlik gözlənilmədiyindən, dövlətçilikdə sabit idarəçilik pozulduğundan aydın məsələdir ki, hərc-mərclik, xaos yaranırdı. Yusif Vəzirin anlamında güclü mərkəziyyətə tabe edilməyən, xalqların «göz yaşı ilə bir-birinə bitişdirilən torpaqlara hökmran kəsilən bir dövlət daimi yaşaya bilməz». [33,s.23]. Ictimai-siyasi, coğrafi şəraitin tarixi tale

yaxınlığının qonşu xalqların xarakterinin formalaşmasında müştərək keyfiyyətlər yaratdığı Zaqafqaziya, xüsusən də Azərbaycan, gürcü, ləzgi, çeçen millətlərinin simasında aydın nəzərə çarpır. Bu xalqların məruz qaldığı eyni tarixi məhrumiyyətlər, eləcə də zəngin təbii mühit milli xarakterə də öz möhürünü vurmuşdur. Milli xarakteri ancaq köhnə adət-ənənələrin daşıyıcısı kimi, donmuş halda təcəssüm etdirmək insan təbiətində öz milli kökü ilə əlaqəli şəkildə yaranan yeniliyə bir biganəlik olardı. Təhlillərdə milli xarakteri, əksinə, məhz inkişaf aspektində qiymətləndirərkən obrazın beynəlmiləl xüsusiyyəti də iqrar edilmiş olur.

Y.V.Çəmənzəminli bu aspektdən çıxış edərkən, 1905–1907-ci illər rus inqilabından sonra digər milli istiqlalçılar kimi milli muxtariyyt tələbi ilə çıxış edir. O bilirdi ki, müstəmləkə şəraitində bunu əldə etmək, zəngin təbiətə, ictimai-siyasi-coğrafi şəraitə malik Azərbaycanı ayıltmaq, onu dünya sivilizasiyasının fövqünə istiqamətləndirmək heç də asan iş deyil. Bunun üçün ilk növbədə mətbuata, maarif-mədəniyyətə, kütləvi informasiyanın digər vasitələrinə güc vermək lazımdır.

Azərbaycan realist ədəbiyyatında milli xarakter ümumiliyini parlaq boyalarla əks etdirən lövhələr az deyildir. Birinci rus inqilabı dövründə çar mütləqiyyətinin xalqların azadlıq hərəkatını boğmaq məqsədilə əl atdığı vasitələrdən biri qonşu xalqları vuruşdurub qüvvələri parçalamaq idi. Bu dövrdə Azərbaycan və erməni xalqları arasındakı konfliktlər

və vuruşmalar bunun bariz nümunəsini təsdiq edir ki, bu da hələ indiyə qədər səngiməkbilmir. Bir xalqın siyasi səbatsızlığından istifadə edib digər bir xalqın ərazisini onun hesabına genişləndirmək, zor gücünə bunu öz arzu, istəyinin tələbinə tabe etdirmək tamamilə ədalətsizlik və haqsızlıqdır. Həmişə, hər dövrdə cəmiyyətdə zaman-zaman özünü göstərən yeniliklər olmasa tərəqqi və inkişaf görünməz. Belə dəyişiklik milli xarakterin formalaşmasında mühüm rol oynayan adət-ənənələrin təbəddülatında daha aydın nəzərə çarpır. Yusif Vəzirə görə Ukrayna muxtariyyəti ona görə yarandı və qalib gəldi ki, burada mərkəziyyəti öldürüb ədəmi mərkəziyyət yaradıb davam etdirildi. Bu o deməkdir ki, idarəçilik mərkəzdən yox, dövlətin çöl tərəfdən, ətraflardan möhkəmlənməsinə əsas verir. Milli muxtariyyət qazanmış dövlətin ədəmi mərkəziyyət prinsipi ilə idarə olunmasında ətraf, çöl tərəflər, sərhədlərin möhkəmləndirilməsi, qorunması önəmə çəkilən başlıca vəzifələrdəndir.

Yusif Vəzir yazırdı: «Ey hümmətçilər! Ukraynanın cəmi firqələri ittifaq edib, Ukrayna muxtariyyətini yapdılar. Muxtariyyət olmasa, ölkə başsızlıq bəlasından xilas olmasa, orada firqə həyatı da olmaz. Bəs əqidə davası eyləmək zamanı deyil. Mərkəziyyəti öldürüb yerində ədəmi mərkəziyyət payidar (uzun zaman davam edən) edilməlidir. Milli idarə qoy çöl tərəfdən düzəlsin, sonra içini düzəltdikdə mübahisə edərik»… [33, s.24].

Yusif Vəzir hesab edirdi ki, möhkəmlənmiş bir dövlət yaranarsa, dərəbəylik, quldurluq qorxusu olmaz. Əmniyyət, rahatlıq üçün şərait yaranar. Möhkəmləndirilmiş bir dövlət üçün hamımızın səyi, cəhdi vacibdir.

Dövlətlilər, imkanlılar var-dövlətlərinin, sərvətlərinin əllərində qalması üçün güclü bir dövlətin olmasını hərçənd ki arzulayırlar. Bunun üçün birinci növbədə «millət sandığı» yada düşməlidir. Milli idarəmizin milli mənafeyimiz üçün həmin var-dövlətdən, sərvətdən müəyyən qədərini xeyriyyə məqsədlərinə xərcləməsi həm əmin-amanlığın bərpası, həm də namus-qeyrətimizin hifz olunması deməkdir. Yusif Vəzirin bu baxımdan qələmə aldığı əsərləri həm təbliğati, həm siyasi, həm də sosial-elmi baxımdan çox maraqlı və aktualdır. O yazırdı: «Ey dövlətlilər! Pul qazanmaq asandırsa da, saxlamaq bu saat çətindir. Çünki dərəbəylik zamanında heç kəsin canı və malı əmin-amanlıq tapmayacaq. Əgər istəyirsiniz ki, mal-dövlətiniz əlinizdə qalsın, qazandığınız pulların bir hissəsini millət sandığına verin, milli idarə yapmağa sərf eləsinlər. Inanın ki, milli idarəmiz olmasa, can, mal və namusumuz əldə qalmayacaq. Rusiyada törəyən işlərdən sizin xəbəriniz yoxdur. Bunun axırı çox pərişan olduqda da sədəməsi ancaq bizə toxunacaq. Çünki biz millət işinə nəzər yetirmirik. Ayılmaq vaxtıdır!» [33, s.24].

Yusif Vəzir bunu deməyi özünə borc bilirdi ki, necə olur-olsun, hansı vasitə ilə olur-olsun xalqı qəflətdən ayıltmaq vaxtıdır, mübariz olmaq dəmidir, qəflətdə yatmaq

millətə yaraşmaz. Başqa millətlərin iş təcrübəsindən istifadə etməklə tərəqqi yoluna düşməliyik. Heç kəs əvəzimizdə öz xalqımıza sadiq olmaz. «Ey cavanlar. Ədəmi-mərkəziyyət fikrinin başında toplaşın. «Müsavat» firqəsinə yazılın! Yatmışları oyadın. Onları federasiyon nuru ilə işıqlandırın! Durmaq zamanı deyil. Bir mərkəzə tabe Rusiya uçurum qarşısında durub, bizi də çəkib aparmaq istəyir. Məmləkəti bir haldan qurtarın, onun idarə ixtiyarının bir hissəsini Qafqazda gətirib öz əlinizə alın» [33, s.25].

Yusif Vəzir Çəmənzəminli mənsub olduğu Azərbaycan xalqının milliliyini çox gözəl və dərin başa düşdüyündən milliliyə daxil olan bütün məziyyətləri bacarıqla açır, milli mənsubiyyətimizlə bağlı hər şeyi əsərlərində rəngarəng vermişdir. Müəllif sənətin milliliyini azəri türklərinin dili, həyatı, təbiəti, arzu, istəkləri, problemləri, eləcə də bədii təfəkkürü, mədəni irsi ilə bağlılığında, doğmalığında axtarırdı. Onun əsərlərindəki milli müəyyənlik də məhz belə rişələr, müəyyən şərtlər əsasında xalqımızın mənsub olduğu milli dili, ərazisi, həyatı, təbiəti, arzu-istəkləri, problemləri, bədii təfəkkürü, mədəni irsi ilə bağlılığında və doğmalığında təzahür edir. Bütün bunları nəzərə alaraq Yusi Vəzir ziyalılara müraciətlə yazırdı: «Ey ziyalılar! Qafqaziyanın böyük və bərəkətli bir qismi biz Azərbaycan türklərinindir. Burada torpağın və mülkün çoxu bizim, dövlət bizim, onda yaşayan millətin çoxu bizim, ruhumuzu bəsləyən musiqi və ədəbiyyat bizim… Pəs Allahın o gözəl nemətindən

niyə üz döndərirsiniz? Cürət ediniz, iş görünüz! «Müsavat» şöbələrini hər şəhər və kəndlərə yayınız! Durmaq zamanı deyil; bir az səbr eləsəniz gözəl ölkəmiz fut olub əldən gedər» [33, s.25].

Zəngin dili olub dilini sevmək, bərəkətli torpaq, geniş çölləri, sıx meşələri, neft yataqları olan bir ərazidə yaşayıb həmin ərazini sevmək, dövlətə malik olub dövləti sevmək, ruhumuzu bəsləyən musiqi və ədəbiyyatı olub musiqi və ədəbiyyatını sevmək, xalq mənəviyyatının ən gözəl, ən nəcib keyfiyyətlərindən – vətənpərvərliyimizdən, azadlıq istəyimizdən, yüksək milli şüurumuzdan, əməksevərliyimizdən irəli gələn humanist meyllərimizdən doğmuşdur. Odur ki, həqiqətən milli olan əsərlər həqiqi bəşəri dəyər və vüsət kəsb edirlər.

Mənəviyyatımıza qida verən, ruhumuzu pərvazlandıran musiqini sevmək və sevdirmək hamımızın müqəddəs borcudur. Sevib-sevilməyə, əzizlənməyə nə varsa hamısı Vətənimizin milli varlığına söykənmiş və bu milli varlığı tamlaşdıran və bütövləşdirən güclü bir muxtariyyətin olması zəruridir. Çəmənzəminli bu məqsədlə yazır: «Ey bəylər, xanlar, mülkədarlar! Öylə güman eləməyin ki, Azərbaycan muxtariyyəti sizi uçurub dağıtmaq fikrindədir. Muxtariyyət uçurmaq üçün yaranmayıb. Muxtariyyət onun üçün düzəlir ki, dərəbəylik zamanında millətin mal və canı sağ və salamat qalsın. Muxtariyyət onun üçündür ki, namusumuz ayaqlar altına düşməsin.

Məgər neçə milyon türkün gücü yoxdur? Güc var. Ancaq dağınıq gücdür. Böylə güc faydalı olmaz. Toplanıb cəmi gücümüzü təşkilata tabe etməliyik. Ədəmi-mərkəziyyət qayəli Azərbaycanda bir idarə yaradılmalıdır ki, Dağıstan, Bakı, Gəncə, Irəvan, Batum və Qars vilayətlərindəki türklər mal və namusunu mühafizə eləsin. Həm hal-hazırda, həm də gələcəkdə asudə və səadətli yaşamağını təmin eləsin. Toplanın! Qoşun düzəldin! Zərurət vaxtı ölkəmizi əmin-amanlığa çıxardan milli əsgər olacaq. Ləngiməyin: «Fürsəti fot eləyən aqil deyil, divanədir» [33, s.25].

1917-ci ildə Rusiyada fevral burjua-demokratik inqilabından sonra hakimiyyətə burjualaşmış mülkədarların nümayəndələrindən ibarət yeni bir dövlət qurumu gəldi. Çar Rusiyasının şovinist təbiətinə, onun ikibaşlı siyasətinə, xırda millətləri parçalayıb məhv etmək məqsədinə yaxşı bələd olan demokratik ziyalılarımızın əksəriyyəti, o cümlədən Yəzir Vəzir də fevral burjua-demokratik inqilabından çox şey gözləyirdilər. Amma o da, onun qələm dostları da yanılırdılar. Kapitalizmin alçaq, zülmkar təbiətini, öz mənafeyi üçün hər cür alçaqlığa əl atmağa hazır olduğunu bilə-bilə yenə sadəlövhlük edirdilər. Yusif Vəzir doğru olaraq yazırdı: «Avropa davası göstərdi ki, kapitalizm və onun qoçusu militarizm qarşısında xırda millətlərin davam gətirməsi çətin işlərdən biridir. Kapitalizm şıltaq, öz kefi ilə iş görən xodkamdır. Öz mənfəətindən başqa ona başqa şey lazım deyil. Hərgah bu mənfəət yolunda bir millətin qanını

lazım olsa, tökməyə hazırdır. Kapitalizm üçün müqəddəs bir şey yoxdur. Zor onun üçün qanun, top onun üçün ədalətdir! Iti qılınc başımızın üstünü kəsdirib, hər dəqiqə düşüb başımızı bədənimizdən ayırmağa hazırdır. Sayıq olmalıyıq» [33, s.26].

Odessa şəhərində Denikin əks-inqilabçıları məğlub edildikdən sonra sovet hökuməti qafqazlılara öz vətənlərinə gəlməyə icazə verir. 1919-cu ilin əvvəlində Y.Vəzir Istanbula, oradan da Bakıya gəlir. Bu zaman Azərbaycanda Müsavat hökuməti – Demokratik Xalq Cümhuriyyəti fəaliyyət göstərirdi. Yusif Vəzir inanırdı ki, Müsavat hökuməti zəhmətkeş xalqın mənafeyini müdafiə edəcək, demokratiyanın, müstəqilliyin bərqərar olmasının təminatçısı olacaq. Buna görə də o, vətənində heç istirahət etmədən elçi-səfir təyin olunduğu Türkiyəyə böyük ruh yüksəkliyi ilə gedir. Istanbulda olduğu müddətdə siyasi məsələlərdən, istiqbal və istiqlal görüşlərindən bəhs edən əsərlərinin yazılışı ilə məşğul olur.

Azərbaycanda Demokratik Cümhuriyyətin fəaliyyəti cəmi bir il 11 ay çəkir. 1920-ci ilin 28 aprelində burada sovet hakimiyyəti qurulur. Yusif Vəzir Istanbulda təhsil alan azərbaycanlıları səfirliyin binasına yığıb vəzifəsinin artıq bitdiyini, istefa verdiyini elan edir. Nə edəcəyini, vətəninə qayıdıb başına nə gələcəyini dürüst müəyyənləşdirə bilmir, həm də ki, Müsavat hökuməti üçün işləyənlərin taleyinə yeni

sovet hökumətinin münasibətinin necə olacağına cavab tapa bilməyən ədib 1923-cü ilin əvvəlində Parisə getməli olur.

Professor Tofiq Hüseynoğlu «Söz tarixin yuvası» kitabında Y.V.Çəmənzəminlinin həyatında böhranlı anlarının əsas səbəblərini aydınlaşdıran yazılar təqdim etməklə ədibin «Müsavat»dan getməsi barədə mətbuat və elmi məcmuələrdə gedən məqalələrə aydınlıq gətirir. Müəllif yazır: «Bu cür qarşılıqlı hörmət və məhəbbət ədibin 1922-ci ildə Türkiyədə çapdan çıxmış «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabının əziz yoldaşı və böyük mürşidi M.Ə.Rəsulzadəyə ithaf etməsi ilə nəticələnmişdir. Y.V.Çəmənzəminlinin «Müsavat» liderlərindən Xəlilbəy Xasməmmədovla ixtilafı da məhz bu ildən başlamışdır. Bu ixtilaf və onun səbəbləri 1925-ci ildə yazdığı «Müsavatçıya cavab» adlı məqaləsində geniş bəhs edilmişdir. «Müsavatçıya cavab»dan görünür ki, Y.V.Çəmənzəminlinin 1923-cü ildə «Müsavat»dan çıxması da Xasməmmədovlar nəsli ilə ixtilafına görə olmuşdur. Böyük demokrat çox böyük inam və hörmət bəslədiyi M.Ə.-Rəsulzadə ilə 1923-cü ildə Parisdə görüşür və ona aydın olur ki, hətta M.Ə.Rəsulzadə də Xasməmmədovları «Müsavat»ın rüknü (etibarlı dayaq) adlandırır. Bundan sonra o, «Müsavat»ı da tərk edir. Daha sonra Y.V.Çəmənzəminli və M.Ə.Rəsulzadənin mətbuatda bir-birini tənqid edən məqalələri çap olunur» [73, s.8 - 9].

Sonralar mütəəssir vəziyyətdən xilas olmaq üçün vətənə dönən Yusif Vəzir siyasətdən əl çəkib ədəbiyyatla

yaşadığını söyləsə də, tanınmış çəmənzəminlişünas prof. Tofiq Hüseynoğlu «onun ədəbi-bədii əsərlərində və publisistikasında doğma xalqının, millətinin və vətəninin mənafeyini güdən, müdafiə edən siyasətdən heç vaxt uzaq düşmədiyini bildirir» [73, s.8 - 9]..

«Müsavat»dan getmiş olsa da, Yusif Vəzir əqidəsinə, milli istiqlalçılıq məsləkinə əsla xilaf çıxmamışdır.

Azərbaycanda milli mənlik şüurunun formalaşması müəyyən tarixi proseslər çərçivəsində püxtələşib inkişaf etdikcə, xalqımızın vətənə bağlılığı, doğmalığı, sevgi, məhəbbəti daha da artır və möhkəmlənir. «Azərbaycan» mövzusunun siyasi-ictimai və mədəni həyatımızda oynadığı rolu və kəsb etdiyi əhəmiyyətini yaxşı anlayan Çəmənzəminli o zamanlar nəşr edilən qəzet və jurnallarda bu mövzunu baş məsələyə çevirmək zərurətini qeyd edərək yazırdı: «Bizdə heç vədə milli məcmuə çap olunmayıb» desək səhv etmərik. Nə «Füyuzat», nə «Şəlalə», nə də sonra çıxan məcmuələr milli olmuşdur. Hansı məcmuə çıxmağa başlarsa, Hindistan və Misir camelərinin təsvirini qeyd edərək, ümumi islam aləminə aid şeylər yazar. Halbuki, birinci bizi həvəsləndirən məsələ Azərbaycanımız gərək olsun. Onun üçün Milli Məcmuə başdan-başa Azərbaycan ilə doldurulmalıdır. Bərəkət versin ki, tariximiz, ədəbiyyatımız, teatr və musiqimiz və başqa mədəni məhsullarımız çox-çox var. Bunlara dair yazılsa həm özümüzü, həm də əcnəbilər bizi tanıyarlar. Vətənimizdə bir çox tarixi binalar var. Hər

nömrədə bunun birinin rəsmini qeyd edərək ətraflıca məlumat verilməlidir… Milli məcmuədə əksər səhifələr Azərbaycana həsr olunmalı və sonra bütün aləmi-islama və Avropa mədəniyyətinə də millətimizin təbii ki, ehtiyacı var. Amma bu yolda heç bir şey yazılmır. Yazmalı, yazdırmalı, tərcümə etməli, yeni şeylər vücudə gətirilməlidir. Yeni şey də onda olar ki, əvvəlcə ərəb və fars aləmini təsvir etməkdən daşınıb, türk aləmini və bilaxassə Azərbaycanı təsvir edək» [33, s.66].

Çəmənzəminli Azərbaycanın iqtisadi potensialına yüksək qiymət verir və onu «Qafqaziya» mütəşəkkil dövlətlərin iqtisadca ən qüvvətlisi adlandırıldı. Indi isə 70 ildən sonra etiraf olunur ki, Azərbaycan keçmiş SSRI-də iqtisadi inkişafına görə güclü iki respublikadan biri olsa da, burada yaşayış səviyyəsi yoxsulluq girdabına mübtəla olmuş, digər respublikalardan asılı olmuşdır. Halbuki hələ Azərbaycan Demokratik Cümhuriyyəti illərində Y.V.Çəmənzəminli yazırdı: «…Bakının neft mədənləri aləm – şümuldur (əhatəlidir) və bundan başqa ipək, pambıq və yun məhsullarımız da az deyil» [24, s.40].

Azərbaycanın iqtisadi potensialında nevtin oynadığı və oynayacağı rolu xüsusi qeyd edən Yusif Vəzir düzgün və sağlam siyasətin yeridilməsi yolu ilə Azərbaycanın bu zəngin tükənməz sərvətini dünya bazarlarına çıxarmaq, xalqın mənafeyi naminə onun düzgün satışının tənzimlənməsinə nail olmağı əsas vəzifə sayırdı. Bakı nefti haqqında görkəmli coğrafiyaşünasların, müxtəlif tədqiqatçıların söylədiklərini

ümumiləşdirib müəyyən nəticələrə gələn Yusif Vəzir yazırdı: «Səkkiz rəngdə neft olur, lakin sarı neft qayət məqbuldur. Siyah (qara) neft şahlıqdır ki, əcəm diyarının Özbəkistan, Hindistan, Iraq, Kürdüstan, Gürcüstan, Dağıstan, Al-Osman sərhədlərindəki qələlərə bu qara nefti gətirib, ətraflarına çırağan edərlər. Əsgər üzərlərinə hücum etdikdə üzərlərinə və ayaq altlarına neftli yorğan və köhnə əşya atıb, atəşbazlıq edərlər…» [24, s.41].

Bakı nefti öz keyfiyyəti və kəmiyyətinə görə nəinki öz məkanında, habelə Azərbaycan sərhədlərindən çox-çox uzaqlarda səs-səda çıxarmış, buraya axışıb gələnlərin sayı-hesabı olmamışdır.

Çəmənzəminli Bakıya birinci olaraq rus tacirlərinin gəlişini qeyd edir və onların neft istehsalında texnikadan istifadə etməyin yaxşı nəticələr verdiyini qiymətləndirmişdir: «Bakı mədənləri birinci olaraq rus tüccarlarından Kukurev ismində birisi motor və borular vasitəsilə neft ixracını təcrübə etmiş və gözəl nəticələrə rast gəlmiş o zamanlardan bəri huruq istemalı ümumiyyət qazanıb. Bakının ən məhsuldar mədənləri dörd nöqtədədir. Balaxanı, Sabunçu, Ramana və Bibi-Heybət. Bu nöqtələrdə mövcud mədənlər azəri kəndlərinin adı ilə təcmiyə olunmuşdur» [24, s.41]. Çəmənzəminlinin Bakı neftinin ən məhsuldar mədənlərinin əsasən 4 nöqtədə olması barədə fikri, əlbəttə, XX əsrin əvvəllərinə aiddir. Neft hasilatı sonralar o dərəcə inkişaf etmişdir ki, yeni-yeni mədənlər, yeni yataqlar kəşf edilmiş,

hətta dənizin içərisində neft estakadaları ucaldılmışdır. Artıq neftin ən böyük kütləsi dənizdə – Xəzərin üç əsas neft ocaqlarında aşkar edilmiş və əsrin ən böyük kontraktında özünü göstərməkdədir.

Y.V.Çəmənzəminli milli sərvətimizin təkcə neftlə yox, həmçinin mis, ipək, pambıq, yun, xalı, balıq və kürü ilə də zəngin olduğunu bildirmiş və bunlardan məqsəd-yönlü şəkildə xalqın milli sərvəti kimi istifadə olunmasına tövsiyələr vermişdir. Zəngəzur və Gəncə qəzalarında mis mədənlərinin bolluğundan bəhs edən mütəfəkkir «Rəvan xanlığı düşdükdən sonra 1845-ci ildə Rozov adında bir rus məmurunun əhər-arx yerdə bir fabrika təsis etdiyindən söhbət açır və sonralar Trabzon şəhərindən gələn qreklərin (yunanların) Oxiçi çay və Səyyad daşı ətraflarında iki yeni fabrika inşa etdiklərini; bu fabriklərdə illik mis istehsalının min puta qədər qalxdığını dönə-dönə qeyd etmişdir.

1853-cü ildə Xacə Əmirovun Qatar kənd ətrafında yeni mis mədəni kəşf etməsi, ildə dörd yüz put və sonralar qreklər tərəfindən inşa olunan yeni bir fabrikanın ildə beş yüzə puta qədər mis istehsal edə bilməsi bir faktdır. Yeri gəlmişkən qeyd edilməlidir ki, Gəncə qəzasının Gədəbəy mədəninin hələ istehsal olunmamış misinin yekun miqdarının beş milyon puta gəlib çatdığını söyləyən Yusif Vəzir Zəngəzur Qatar mədənində daha çox – 40 milyon puta qədər hələ ixrac olunmamış misin mövcudluğundan xəbər verirdi. Belə zəngin faydalı qazıntılarla zəngin torpaqlarımızda

qreklər, ermənilər, almanlar, ruslar və digər millətlər yaşadıqları vaxt bu yerin füsunkar gözəlliklərinin, zəngin sərvətlərinin əsiri olmuşlar. Müəyyən ictimai-siyasi və coğrafi hadisələrin toqquşmasından məharətlə istifadə edən ermənilər digər millətlərin ərazimizdə yaratdıqları texniki qurğuları, fabrikləri öz adlarına yazmağa cəhd göstərirdilər. Yazıçıya görə bol sərvətli, iqtisadi potensiallı məmləkətimizin qədrini bilməyin, onun təəssübünü çəkməyin vaxtı çoxdan keçmişdir.

Azərbaycanda ipəkçilik və pambıqçılığın tarixindən aydın və maraqlı faktlar söyləyən Yusif Vəzir ipəkçiliyin Çində meydana çıxmasından, miladinin V əsrində Orta Asiya, Iran və Azərbaycana yayılmasından danışır: «Bərdənin ipək çarşafları, qaytanları o vaxtlar məşhur imiş. Görünür, məhsulu ilə birincilik qazanan Şamaxı imiş. Həft iqlimin qövlünə (qərarına) Şamaxı ildə iyirmi min yük ipək istehsal edirmiş. Bundan başqa Şamaxı Azərbaycanın, bəlkə bütün Şərqin böyük bir ipək bazarı idi. Buxara, Iran və Türkiyə ipəyi də burada satılırdı» [24, s.42]. Ipəkçilik Şamaxıdan

Azərbaycanın bir sıra bölgəsinə, o cümlədən Şəkiyə yayıldı.

Azərbaycan ipəkçiliyi ilə Rusiya, Italiya, Fransa, Yaponiya, Yunanıstan və digər ölkələr maraqlanaraq bu sahədə qarşılıqlı maraq doğuran məsələləri həll etməyə girişmişlər. 1887-ci ildə Tiflisdə «Ipəkçilik istasiyonunun» inşa edilməsindən sonra bir müəssisənin köməyi ilə ipəkçiliyə maraq daha da artmış və xalq arasında tərəqqi etməyə başlamışdı. Azərbaycan ipəkçiliyin inkişafı sahəsində darayı kəlağayı, yaylıqlar kimi qumaş və baş örtükləri ilə məşhurlaşmışdı.

Azərbaycanın pambıq sərvətindən danışarkən Çəmənzəminli qeyd etmişdir ki, Övliya Çələbiyə görə Naxçıvanın yeddi cür pambığı olmuşdur. Yusif Vəzir bunların altısının adını çəkir: «Zağı, münlayi, zəfərani,ləli, xas, bəyaz» [24, s.43].

O, pambıqçılığın inkişafına əngəl törədən səbəbləri də çox aydın və inandırıcı göstərmişdir. Aydın məsələdir ki, XIX əsrin ortalarında bir yandan rus istilası, o biri tərəfdən «Amerika daxili ixtilalı (qarışıqlıq üsyan), həm də azərbaycanlıların başqa

əkinləri buraxıb pambıqçılığa qurşanmaları, Amerika ixtilalı ilə zühur edən pambıqçılıq tərəqqisi ixtilalın izaləsi (uzaqlaşdırma) ilə məhv oldu. Xaricdən gələn pambıqlardan yüksək gömrük alınması da bu illərdə olmuşdur. Pambıqçılığın «təkamülü» inkişafının 1880-cı ildən başladığını yazan Yusif Vəzir Moskva manufakturistlərin pambıqçılıq mərkəzlərini öyrənib onun inkişafına çalışdıqlarını xüsusi qeyd edir və azərbaycanlıların bu yolda yeni əməklər sərf edib əski Iran qaraqozası əvəzinə, Amerika «qimiq» sortunun əkininə başladıqlarından bəhs edir. Yeni makinə və fabrikaların qurulması sayəsində vətənimizin pambıqçılığı yüksək inkişaf dərəcəsinə çatır ki, bunu da Yusif Vəzirin kitabındakı bir cümlə ilə söyləmək kifayət edər: «Məsələn, 25 sənə əvvəl az bir miqdarda məhsulu olan Gəncə vilayəti 1911-ci ildə 746 min put pambıq yetişdirdi. Muğan səhrası da yüz minlərlə putlar məhsul verir» [24, s.44].

Milli sərvətlərimizin içərisində yun və xalının da böyük zənginlik təşkil etdiyini əsaslandıran misallar çoxdur. Çəmənzəminlinin yazdığına görə,

«yunun illik miqdarını təyin etməyə hələlik əlimizdə sağlam rəqəmlər yoxdur. Lakin onun illik miqdarının yarım milyon putdan aşağı olmamaqla az bir hissəsi ölkədən ixrac olunur. Qalanı isə məhəlində işlənir: xalılar, keçələr, şallar, çuvallar, xurcunlar… Hər bu kimi şeylər toxunur. Azərbaycan ehtiyacını dəf etdikdən sonra, xalılar əcnəbi məmləkətlərinə də göndərilir» [24, s.40].

Yusif Vəzir Quba, Qazax, Bakı, Qarabağ xalılarının boyalarının vaxtı ilə qiymətli olduğunu, lakin sonralar bu boyaların dəbdən düşüb yerini ucuz və solğun «cövhər» boyalara tərk etməklə bir müddət hörmət qazanmasını qeyd edir. Həyatda, sənətdə nisbiliyin mövcudluğunu yaxşı dərk edən alim inanırdı ki, «rənglər işlənən yerlərin xalıları birinciliyini qaib etməyəcəkdir». O boyalar və o naxışlar təbii sayılır ki, onlar davamlıdırlar, solmurlar, bir çox əsrlərin şahidi olurlar. Belə xalı və xalçalar indi də təbiiliyinə, davamlılığına və nəfisliyinə görə seçilir, fərqlənir, əcnəbilərin dərin marağına çevrilir.

Azərbaycanın iqtisadiyyatında özünəməxsus rol oynayan və müəyyən əhəmiyyət kəsb edən digər sərvətlər də var ki, bunlar Yusif Vəzirin kitabında yazılmasa da, amma onların mövcudluğuna işarələr var. Azərbaycanın cənub bölgəsində Astara, Lənkəran, Masallı və Cəlilabad yerləşir. 70 illik sovet dövründə yaşıl qızılı-çayı və sitrus meyvələri ilə zəngin olan və hazırda bunlarla birlikdə taxılı: buğda və düyüsü, zəngin təbiəti ilə məşhurlaşan cənub bölgələrimiz dünyanın diqqət mərkəzində dayanmışdır. Milli sərvətlərimizin bütün Azərbaycan üçün, xalqımızın mənafeyi üçün ixrac və idxalında bərabərsizliyə, əyintiliyə yol vermək Yusif Vəzirin gözündə haqqa, ədalətə riayət etməməkdir. O, özünün fəlsəfi, sosial-siyasi mülahizələrində «bərabərliyi, müsaviliyi, düzlüyü, doğruluğu, vicdanlı olmağı daha çox qiymətləndirir və hamını, xüsusən dövlət məmurlarını bunlara riayət etməyə çağırır. Vicdan hər hansı bir əxlaqi hərəkətdən əvvəl, hərəkət zamanı və hərəkətdən sonra oyana bilər. Bu oyanma momentlərindən, motivdən, vasitələrdən, məqsəd və nəticələrdən asılı olaraq insanın vicdanına qiymət verilməlidir. Yusif Vəzir vicdana bütün dövrlər üçün ehkam ola bilən bir kateqoriya kimi də baxmır, ictimai-iqtisadi quruluş dəyişdikcə vicdan və namus sədlərinin də dəyişdiyini söyləyir. Vicdan əzabının peşmançılıqdan sonra daha dəhşətli olan mərhələsini görməmək üçün səbrə rəvac verməklə insan daxilən zənginləşir və fəsadların bəlasından xilas olur.

Bundan əlavə, Yusif Vəzir Xəzər dənizinin balıq və kürüsünü mis mədənlərimizi və bütün sərvətlərimizi misal çəkir və inamla qeyd edirdi ki, «müstəqil Azərbaycanda milli idarə sayəsində iqtisadiyyatımız o dərəcədə inkişaf edəcəkdir ki, millətimizin yüzdə doxsan beşi sərvət sahibi olacaq». T.Hüseynoğlu düzgün olaraq öz münasibətində Çəmənzəminlidəki bu inamı əsassız hesab etmir və bildirir ki, müstəqil Azərbaycan Cümhuriyyətində düzgün iqtisadi siyasət yeridilirdi ki, bütün məhsullar ən əvvəl daxili ehtiyacların ödənilməsinə sərf olunur, artıq qalanı isə yalnız bundan sonra xaricə çıxarılırdı. Lakin aydındır ki, müstəqil Azərbaycanın ömrü uzun sürmədi, ondakı həqiqi demokratik milli idarə yalançı «milli idarə» ilə – sovet imperiya idarəsi ilə əvəz edildi. Nəticədə «mütəşəbbis» (təşəbbüsçü) və zəki (ağıllı) bir millət, tüccar ruhlu və çalışqan bir xalq» kölə vəziyyətinə salındı. Millətimizin yüzdə doxsan beşi sərvət sahibi olmalı ikən, tam bu yoxsulluq girdabında çabalamağa başladı» [73, s.13].

Y.V.Çəmənzminlinin Azərbaycan və onun zəngin təbii sərvətlərinə dair istək və arzuları yalnız indi – müstəqil Azərbaycanda gerçəkləşməkdədir.

✵ℌ ✵ ☙✵

# II FƏSIL

# Y.V.ÇƏMƏNZƏMİNLİNİN DÖVLƏTÇİLİK VƏ MAARİFÇİLİK İDEYALARI

## 2.1. Sosial ədalət və milli idarəçilik məsələləri

Azərbaycan fəlsəfi, ictimai-siyasi və estetik fikir tarixində sanballı və çoxşaxəli cərəyanlardan biri də maarifçilikdir. Mənşəyini əsasən, Qərbdən götürən bu məfkurənin mahiyyət etibarilə əsas istiqaməti feodal-silki ənənələrə və dini xurafata qarşı insan zəkasının təntənəsi, yer üzündə fərəhli həyat sürmək hüququ uğrunda ümummədəni hərəkatın tərkib hissəsi kimi dərk edilir. Maarifçilik ideoloqlarına xas olan əsas prinsiplərdə sadə insan, onun həyat ehtirasları, mənafeyi və hissləri həmişə diqqət mərkəzində tutulur. Maarifçilər xeyirxah olmağı, ədalətə xidmət etməyi, qüsurları pisləməyi həyat devizi kimi qəbul edir. Rus mütəfəkkir-yazıçısı A.N.Radişşev maarifçilik ideyalarını təhkimçilik üsuli-idarəsinə qarşı inqilabi mübarizəyə bilavasitə çağırışlara qədər çatdırmışdır. B.Q.Belinski,

A.Y.Gertsen, N.A.Dobrolyubov, N.Q.Çernışevski maarifçiliyin ictimai-siyasi, ədəbi, etik-estetik prinsiplərini davam və inkişaf etdirmişlər. Maarifçilik feodalizmdən kapitalizmə keçid dövrünün fəlsəfi, ictimai-siyasi, hüquqi, əxlaqi, bədii-estetik ideyalar sistemi kimi ictimai həyatda fəal rol oynamışdır. A.Bakıxanov, M.Ş.Vazeh, M.Kazımbəy, M.F.Axundov, H.Zərdabi, N.Vəzirov, C.Məmmədquluzadə, M.Şahtaxtlı, Ö.F.Nemanzadə, E.Sultanov, F.Köçərli, T.Bay-rambəyov, Ə. Ağayev, Y.V.Çəmənzəminli və bu kimi milli maarifçiliyimizin görkəmli ideoloqları bütün şüurlu fəaliyyətlərini doğma xalqının, vətəninin dirçəlib, qəflətdən oyanmasına həsr etmişlər.

Maarifçilər «düşünən zəkanı» cəmiyyət üçün hər şey hesab edirdilər, çünki onun qüdrətində dərin inam, insan şəxsiyyətinə, ləyaqətinə dərin hörmət və ehtiram var. Fikir və düşüncə kimi ideyalar məhz buradan nəşət etmişdir. Azərbaycan maarifçi mütəfəkkirlərinin amalına xas olan bütün düşüncə tərzi, yüksək elmi baxışı Yusif Vəzir Çəmənzəminlinin dünyagörüşü üçün də ideal bir məfkurənin davamı hesab etmək olar.

Zəngin bədii, estetik-fəlsəfi-siyasi, əxlaqi ideyalar sistemi olan Azərbaycan maarifçiliyinə dair əsərlərdə əsaslandırılmışdır ki, maarifçilik fəlsəfi və ictimai-siyasi fikrinin kifayət qədər tədqiq olunmamış mütəfəkkirləri içəri-sində Y.V. Çəmənzəminli də vardır. Dünyaya maarifçiliyin klassik nümunəsini vermiş Fransadan və sair ölkələrdən fərqli

olaraq Azərbaycanda maarifçilik burjuaziyanın mənafeyini ifadə edən ideologiya deyil, ümumən, xalqın, millətin mənafeyini ifadə edən bir milli məfkurə kimi yaranmışdır. Çəmənzəminli də belə məfkurəyə xidmət edən sənətkar və dərin düşüncəli mütəfəkkirdir.

Azərbaycanın başqa inqilabçı-demokratları, maarifçi mütəfəkkirləri kimi Y.V.Çəmənzəminli də elm, mədəniyyət və maarifin inkişafını ön plana çəkmiş, vətən və xalq işi uğrunda mübarizəni hər bir şəxsin cəmiyyət qarşısında müqəddəs borcu, əxlaqı və davranışı üçün yüksək meyar sayırdı. Bir maarifçi kimi onun fikrincə, ictimai quruluş dəyişməsə, siyasi azadlıq əldə edilməsə şəxsiyyətin mənəvi azadlığından danışmaq yersizdir.

Yusif Vəzir elmi müddəalarında bunu da əsas bilirdi ki, hansı adamın əxlaqi hərəkət və davranışı xalqa xidmətə, cəmiyyətin obyektiv tarixi inkişafı mənafeyinə ziddirsə, onun hərəkətləri qəbahətdir. «Qızlar bulağı» romanı, «Biz kimik və istədiyimiz nədir?» kitablarında rast gəldiyimiz sosial ədalətin təbliği bu gün də xüsusi əhəmiyyət kəsb edir, cəmiyyət və fərdin qarşılıqlı münasibəti məsələsini düzgün əks etdirir: «Iradən mühit şəraitinə toxunub əzilərsə məyus olma, cəmiyyətə sarıl və şəraiti dəyişməyə çalış. Fərdi acizliyi yalnız cəmiyyət tövsiyə edə bilər. Cəmiyyət faydasını həmişə öz fərdi faydandan üstün tut» [40, s.380]. Lakin cəmiyyət naminə hər şeydən keçmək də müəyyən «etidal» meyarından olmalıdır. Yusif Vəzir şəxsiyyətin azadlığını

cəmiyyətin azadlığında, fərdin xoşbəxtliyini xalqın səadətində axtarmağı tövsiyə edir.

O, milli məsələdə məhəllə təəssübünü, yerliçiliyi, fərdiyyətçiliyi, ümumiyyətlə, proteksiyanı ictimai tərəqqiyə zidd sayır. «Studentlər» əsərində tələbələrdən biri həyatdan baş aça bilməyib deyir: «Hərə bir küncə qısılıb özbaşına yaşayır, hər küncün də özünəməxsus bir qaydası var. Qəribədir, hər ailənin, hər qövmün, hər məhəllənin, hər şəhərin öz-özlüyündə bir xüsusiyyəti var» [40, s.266].

Ayrı-ayrı bölgələrdə müxtəlif kənd və qəsəbələrdə yaşayanların xarakterlərindəki müxtəliflik, ifrat xüsusiyyətçilik «millət» adının normal mahiyyətinə əngəl törədirlər.

Azərbaycan maarifçilərinin sosial ədalət təbliğində Y.V.Çəmənzəminli ilə eyni mövqedə dayanmalarının müəyyən fəlsəfi-etik əsasları vardır. Vətən və xalq qarşısında vəzifələrini yerinə yetirməyənlərin insanlıq adına ləkə vurduqlarını söyləyən maarifçilərdən M.R.Mahmudbəyov, F.Köçərli, N.B.Vəzirov kimilərin yolunu davam etdirən Çəmənzəminli ictimai borcu nəzəri və əməli cəhətdən düzgün işıqlandırmışdır.

Xalqın və vətənin səadəti uğrunda mübarizəni zəhmətkeşlərin əməyinin nəticəsini mənimsəyən zülmkarlara, tüfeylilərə qarşı mübarizədən ayrı təsəvvür etməyən Çəmənzəminli vətənpərvərliyi əxlaqi borcun mühüm tərkib hissəsi sayırdı.

«Biz kimik və istədiyimiz nədir?» əsərində Y.V.-Çəmənzəminli yazırdı: «Böyük türk millətinin bir şöbəsini təşkil eləyirik. Millətə məxsus bir amillərə dəxi malikik: ayrıca dilimiz, adət və qaidəmiz, ədəbiyyatımız var. Əsrlərcə rəyasətpərvər hakim dairələr tapdağı olan xalqımız həmişə mədəni həyatında davam edib, milli simasını itirməyib..!» [25, s.19].

Göründüyü kimi, Azərbaycan milləti kimi formalaşan azərbaycanlılar harada yaşamağından, hansı millətlə birgə fəaliyyət göstərməyindən asılı olmayaraq öz milli dilini, adət-ənənəsini qoruyub saxlaya bilmiş, özgə xalqların mədəniyyəti ilə qarşılıqlı şəkildə inkişafında milli xüsusiyyətlərini hər şeydən yüksək tutmağı özünə mənəvi və əxlaqi borc hesab etmişdir. Yusif Vəzir millətin xoşbəxt yaşamasında əsas rol oynayan və bu xoşbəxtliyi təmin edə bilən bir amili nəzərdən qaçırmır. O millətin ki, «milli idarəsi» yoxdur, deməli onun azadlığının təminində əxlaqının saflaşmasında, istəyinin, tələblərinin yerinə yetirilməsində ümid yeri yoxdur.

«Vətən» hekayəsində doğma yurdunun təbii gözəlliklərini təsvir edən Yusif Vəzir göstərir ki, bu füsunkar mənzərəli vətəndə yaşayanlar bədbəxtdirlər. Əsərin qəhrəmanı vətənin xoş havasını uda-uda gəzdikcə addımbaşı bəd xəbər eşidib məyus olur. Bacısının talağı üstündə savaşan qardaşın qışqırtısı, arvadı həcəmət altında ölən qırmızısaqqal kişinin bağırtısı, atasının kürkünü qumarda uduzan oğlanın hay-harayı, orucluqda xəstə üstünə gətirilən rus həkiminin qab-

qacağı murdarlamasından deyinənlərin səsi, cavan arvadını döyən kişinin şappıltısı, qana-qan üstündə güllələnən gəncin faciəsi əsərin qəhrəmanını elə qorxudur ki, vətən torpağının üstünə yıxılıb ürəyi gedir. Vətən sözünün dırnaq içində göstərilməsinin bir mənası da budur ki, «öz vətəndaşları üçün cəhənnəmə dönən belə bir vətən heç kimə lazım deyildir». Belə bir vətəni əsil vətənə çevirmək, xalqın maddi və mədəni tərəqqisi uğrunda mübarizə aparmaq hər bir vətən övladının borcu olmalıdır.

Y.V.Çəmənzəminli sosial ədalətin bərqərar olunmasında insanların asudə, firavan yaşayışının təminində hərtərəfli düzgün siyasət yeridən milli idarənin olmasını zəruri hesab edirdi. Bu idarə milli torpaqda, yəni müəyyən bir ölkədə bərqərar ola bilər. Milli ölkədən məhrum olan xalqlar həmişə başıqapazlı olar. Azərbaycanın tərkibində sakinləşən xalq haqqında ədibin fikri olduqca maraqlı və aktualdır: «Bir xalq ki bir dinli, bir qanlı, bir adətli, bir tarixli oldu, o xalqın mənası artar. Azərbaycanda hamıdan artıq olan biz türkləri mülahizə etdikdə özümüzü xoşbəxt görürəm. Çünki torpağımıza və ölkəmizə pənah aparıb, xalqımıza söykənsək heç bir düşmən bizə xətər yetirə bilməz» [25, s.6]. Yusif Vəzirə görə xalqın, ölkənin müqəddəratı hakimiyyətdə olanlardan çox asılıdır. Əgər hakimiyyət min il bundan əvvəlki Azərbaycanda olduğu kimi yadların əlində olsa, öz əlimizdə olmasa başımızdan əskik olmayan bəlalardan üzülüşməyəcəyik. «Gəldi-gedər bir xanın və ya bir bəyin

əlinə keçən hakimiyyətdə öz faydamız ola bilməz. Həmçinin rusların hakimiyyəti bizi həm torpağımızdan, həm də millətimizdən məhrum etmək istədi. Vətənimiz rus köçəriləri ilə doldurulmuşdu. Azərbaycanın sovet dövründəki bütün ərazilərində elə bir kənd, qəsəbə və şəhər tapılmazdı ki, orada rus adları daşıyan yerlər olmasın. Milli adlarımız belə təhlükələrə məruz qallmışdı. Yusif Vəzirə görə türk ədəmi-mərkəziyyət firgəsi «Müsavatın əsl məqsədi Azərbaycanda hakimiyyəti ələ ala bilən «istiqlal yaratmaqdır. Ola bilər ki, öz ixtiyarımız öz əlimizə düşdükdə ədalətsizlik baş versin. Ədalətsizliyi yox etmək üçün Azərbaycan hakimiyyəti gərək xalqın öz istədiyi adamların əlinə keçsin» [25, s.6].

Çəmənzəminli xalq dedikdə fəhlələri və kəndliləri nəzərdə tutub onların vəziyyətini yaxşılaşdırmaq, təlim ilə təhsilin qayğısına qalmaq, əxlaqını saflaşdırmaq tələblərini irəli sürürdü. Bu tələblər özünün dediyinə görə həm Azərbaycanın xarici işləri, həm də daxili işlərinə dairdir». Müsavat firgəsinin proqramında da əsas istək budur ki, camaatın ehtiyacı nəzərə alınsın, onlar «ümumxalq» imtiyazlı siniflərin «keyfi-məişəsinə» qurban olmasın.

«Müsavat» firgəsində möhkəmlənmiş bəzi yalançı millətçiləri Yusif Vəzir kəsgin tənqid edir. Xəlil Xasməhəm-mədov, qoçu Məşədəlilər və bunlar kimi digər simasızları xalqı, milləti aldadan, onlara xoşbəxtlik vəd edib meydandan qaçan fərarilər hesab edir

Milli idarə sistemində millət vəkillərinin yazdığı qanunlarla ölkənin dolanacağını söyləyən Yusif Vəzir əsas diqqəti kənd zəhmətkeşlərinə verirdi. Çünki şəhərə nisbətən kəndin problemlərinin daha çox olduğunu anlayırdı. Qanunun aliliyinə riayət olunduqda hamı qanun qabağında bərabər olacaq, ögey-doğmalığa yer qalmayacaq. Zülm tamam aradan götürüləcək, çünki qanun özü bitərəf olduğu üçün zülmə yer qalmayacaq. O qanunlarımızın ən baş əsasları olan «hürriyyət, müsavat və ədalət»ə ideal nəzərlərdən baxırdı.

Ideal ədalətli cəmiyyət haqqında oxuduqlarını zəngin elmi mülahizələrlə əsaslandırıb ümumiləşdirən Yusif Vəzir yazırdı: «Vətənimizdə hamı azad olacaq, onları səbəbsiz tutub qazamatlarda saxlamayacaqlar. Hər kəsin təqsiri oldu, onu dustaq edə bilərlər. Təqsir də qanun və məhkəmə vasitəsilə məlum olar. Köhnə rus hökuməti bir donos (xəbərçilik) üstə adamı həbsə atırdı. Insanlar aylar və illər üzrə naməlum səbəblərə görə qazamatlarda yatırdılar. Vətənimizdə böylə ədalətsizliklər olmayacaq» [25, s.7].

«Zülm, ədalətsizlik, xunxarlıq, əliəyrilik, haram işlərə meyllilik, quldurluq, yalançılıq» kimi yaramaz hallar millətin, xalqın gözündə necədirsə Yusif Vəzirin də baxışlarında elədir. Dünyaya göz açdığı Şuşa şəhərinin bütün məşəqqətləri, məhəllə təzadları və təəssübləri ilə üz-üzə dayandığı mənzərələr ona bəlli idi.

Çəmənzəminlinin fikrincə, «qanunlar işlənsə» hərgah bir şəxs tutulub dustaq olsa, çəkdiyi zərərlər tutan adamdan

məcburən alınacaq, şəxs azad olan kimi onun sakin olduğu mənzil, evi-məskəni də asudə olacaq. Deməli, hər yetən gəlib, oranı axtarıb, alt-üst çevirməyəcək. Köhnə hakimiyyətin zamanında və inqilab vəqti evləri axtarmağı çox görürdük. Heç nahaq yerə gecəni «mülahizə eləməyib xalqın rahatlığını pozurdular.

Bu rahatlıq əsrlərcə pozulmuşdur. Insan idrakının, biliyin, eləcə də fəzilət və qəbahətin nisbiliyini yaxşı dərk edənYusif Vəzir insanı ən yüksək məxluq saysa da insanın təbiətində və obyektiv aləmdə hələ kəşf edilməmiş saysız-hesabsız sirlər olduğuna təəssüfünü bildirmişdir: «Dünyada yüksək bir məxluq olsaydı, insana «nə yazıqsan, yazıq!» [25, s.8 ] deyərdi.

Çəmənzəminliyə görə, demokratik cəmiyyətin «hər bir vətəndaşı yaşadığı, fəaliyyət göstərdiyi hər hansı bir məkanda və yaxud dairədə mövcud qanunların aliliyinə hörmətlə yanaşmalı, özünün hüquqlarının qorunmasında bunlardan istifadə etməlidir. Xalqın istirahət və asudə yaşayışı üçün milis və ya polisin xüsusi əhəmiyyət və rola malik olduğunu qeyd etməklə müəllif «evə qanunu pozmuş bir adamın – caninin girməsi zamanı polisin haray, aman səslərinə, yaxud bu səslər olmasa belə həmin evlərə daxil olub asayişi bərpa etmək səylərinə bəraət qazandırır, bununla da insan azadlığının tərəfdarı, onun maddi və mənəvi dayağı kimi çıxış edir: «Azərbaycanlı azad olduqda, özünün yazısı, iman və etiqadı da azad olacaq. Danışdığı söz üstə və yazdığı

şeylər üstə ona tənbeh olunmayacaq. Məsələn, Azərbaycanın idarəsi xoşuna gəlməzsə, o barədə keyfi istədiyi qədər danışıb yaza bilər» [25, s.7].

Çəmənzəminli bütün həyatı boyu fəaliyyətində müqəddəs bildiyi bir yola dərin etiqad bəsləyir. Bu yol «Allahın hidayət yolu» ilə uyuşan «müsavilik», «bərabərlik», «eynilik» yoludur. «Müsavat» firqəsinə qoşulması da buradan irəli gəlir. O, islama, ümumiyyətlə, dinə münasibətdə çox ehtiyatlı və obyektivdir. Ümumiyyətlə, Yusif Vəzir dinə olan baxışlarında səthiliyə yol vermir. O, rassional düşüncələrə əsaslanaraq mühüm dəlillərə daha çox diqqət yetirir.

Şəriət ehkamları ilə «Qurani-Kərim»dəki müddəaların çox zaman bir-birinə uyuşmadığı anlarda yaranmış neqativ meyllər, bir çoxlarında dindən sui-istifadə halları YusifVəzirin nəzərindən yayınmır. Şəriət onun nəzərincə «fırıldaqçı» bəzi üzdəniraq din nümayəndələrinin əlində oyuncağa, ən sadə şəkildə desək «nəfslərinə, tamahlarına uyğun şəklə saldıqları bu dini ehkamlar əsl həqiqətdə «Qurani-Kərim»in surə və ayələrinin əksinə çevrilmişdir.

Bu səthi yanaşmaların nəticəsində cəmiyyətdə baş verən faciələrin nakam həyatlarını, müsibətlər, fəryadlar, acınacaqlı ruzigar və səfalətlərin baş alıb getməsinə mütəfəkkir biganə qala bilməzdi. Bu geriliklərin səbəbini xalqın bilik yoxsulluğu ilə izah edirdi. Yusif Vəzir köhnə rus hökuməti zamanında etiqad üstə insanların dəstə-dəstə Sibirə göndərilməsini lənətləyir, etiqadın azad olmasını, çünki

«qanun bitərəf olduğu üçün məmləkətimizdə etiqadların heç birinə təzyiq olunmayacaq» fikrim irəli sürür və tezislərində göstərir: «Din insan ilə Allahın əlaqəsinə dair bir şeydir. Din bir müqəddəs yoldur ki, insanın gizli sirlərini, dua və diləklərini Allah hüzuruna aparır. Bu yolu hərə özünə bir növ təsvir eliyor. Din bir alətdir ki, oraya dünya qanunlarının qarışmağı lazımsızdır. Allah ilə insanın arasına girmək insanın azadlığına xətər yetirər. Ona görə Azərbaycanda etiqad və inamlara zor olmayacaq: hər kəs hansı məbədə üz döndərəcək döndərsin. Bizə onun sadiq vətən xadimi olması lazımdır» [25, s.7].

Yusif Vəzir dövlətçilik, idarəçilik işinin həlli məsələsi ilə yanaşı, dini firqələrə də münasibəti yaddan çıxartmır. O hesab edir ki, bir millətin, xalqın düzgün strukturalarına malik dövləti olması ilə yanaşı, onun dini ehkamlarının, milli mənsubiyyətinin hifz edilməsi yollarında ağıllı mütəşəkkil iş görülməlidir. Belə ki, islam dini təliminin başlıca tərəfi insanları vahid bir cəmiyyət halında birləşdirmək, ədalətli üsul - idarə yaratmaq, insanlar arasında münasibətləri qarşılıqlı hörmət, məhəbbət prinsipləri əsasında qurmağı vacib hesab etməklə Allaha sonsuz inam ifadə etməkdən irəli gəlir. Islam ümumi bəşəri dindir. Ən yeni kamil və monoteist din olmaq etibarilə onun prinsip və qanunları bütün bəşəriyyətə aiddir. Islamın ən birinci prinsipi, dayağı tövhiddir ki , bu da təkallahlığın, təktanrılığın iqrar edilməsi deməkdir.

Y.V.Çəmənzəminlinin dini firqələrə münasibətində ən önəmli cəhəti də islam dinimizin şərafətinin qorunmasına dövlət strukturlarının qüdrətini artırmaq səyidir. O yazırdı: «Ey dini firqələr! Islamiyyəti hər şeydən qabag tutursunuz. Bizim dinimiz sizin əqidəyə zidd deyil. Əlimizdə milli idarə olsa, din şərafəti də artar. Köhnə idarə tərəfindən dinimiz hər an, hər dəqiqə təhqir olunurdu. Yeni idarə üçün çalışmalı ki , daha bir də o qədim vaxtlar geri qayıtmasın!»(33, s. 24)

Yusif Vəzir milli idarəni nəinki mərkəzdə, habelə ucqarlarda, dövlətin sərhəd zolaqlarında, kəndlərdə, qəsəbələrdə mövcud ədalətsizlik hallarına göz yummamağa, hər cür nizamsızlığı, qeyri-normal halları yoluna qoymağa dəvət edir. Onun ideal sandığı həyatdakı bütün gözəlliklərin, təkamül prosesindəki bütün dəyişikliklərin insan zəkasının nəticəsi kimi qəbulunda ifrat «nəfs», tamaha uymaq hallarına yer yoxdur. Insanlar zatən «bərabər» doğulduqları kimi «bərabər» də yaşamalıdırlar. Milli idarə orqanları «köhnə hökumətdən – çar üsul-idarəsindən miras qalan bir sıra köhnə qanun-qaydalardan əl çəkməlidir. Vergi gəlirə görə alınmalıdır. Çox qazanclı, dövlətli ilə yoxsul, kasıba eyni cür verginin tətbiqi böyük ədalətsizlikdir [25, s.8].

Çəmənzəminli milli dövlət orqanlarında çalışanların əqidəcə təmiz, insaflı, namuslu və savadlı adamlardan ibarət olmasını arzulayırdı. Çünki hərtərəfli savada malik insanlar «Qurani-Kərimin» surə və ayələrində «ədalətə, hidayət yoluna» çağırışı əllərində bayraq kimi tuturlar. Deməli, hər

cür vergilərin hesablanması və onun tutulmasında diqqətlilik, düzgünlük, yanlışsızlıq tələb olunur. Bəzən birinə göydən düşmə kimi varisi olmayan bir qohumundan miras qalanda onun vergiyə cəlb olunmasında yubanırıq, yaxud da, ona başdansovdu yanaşırıq. Axı həmin şəxs üçün miras qalan minlərlə manat dəyərində mal və dövlətə o zəhmət çəkməyib, alın təri tökməyib, axı nə üçün bunun bir hissəsinin dövlət xəzinəsinə çatmasına nail olmayaq. Yusif Vəzir dövlət gömrük işçilərinin də nəzərinə yeni vəzifələr qoyurdu. Bir məmləkətdən o biri məmləkətə keçirilən mala qoyulan gömrük çox vəqti cəmaətə böyük ziyanlar verir. Görürsən Arazın o tayından xalq yağ-yavanlığı və qeyri-yemək şeylərini qoymağa yer tapmırlar. Amma bu tayda cəmaət korluq səkir. Hökumət sərhəddən mal keçirməyi qadağan etmək ilə iki tərəfi də zərərə salırdı. Iranlı malını satıb pul hasil edə bilmirdi. Qafqazlı da baha qiymətə alırdı. [25,s.8].

Çəmənzəminlinin istiqlal görüşləri ilə bağlı bu nəzəri məsələlər onun böyük həyat məktəbi keçməsi zəngin dünyagörüşündən irəli gələn sanballı tövsiyələridir.

Gömrük orqanlarındakı bu qeyri-obyektivlik, səthi və sağlam olmayan siyasətə meyllilik halları Azərbaycan, eləcə də Şərq dünyası üçün xarakterik bir xüsusiyyət kimi pislənilir və çağdaş həyatımızda demokratik ruhlu bütün insanlar üçün ən məqbul sayılan gömrük xidmətləri ilə müqayisədə qərəzli, ədalətsiz hallar kimi qələmə verilir.

Kitabın «Rəncbərlərə istədiyimiz» fəslində Çəmənzəminli yenə də ədalətsizlik doğuran halları ən sadə, anlaşıqlı misallarla şərh edir və belə nəticəyə gəlir ki, çoxlu torpağa malik olan torpaq sahibi ilə torpağı olmayan rəncbər (əkinçi) arasındakı sövdələşmə əsasında əkilən torpaqdan götürülən məhsulu iki qismə bölmək düzgün deyildir. Bu ədalətsizlik olardı. Çünki torpaq sahibi əlini ağdan qaraya vurmamaqla götürülən məhsulun yarısına şərikdir və üstəlik ümumi məhsulun vergisindən də azaddır. Bu misaldan məlum olur ki, bir şəxs zəhmət çəkir, o biri çəkmir və zəhmət çəkməyən zəhmət çəkənin alın təriylə əmələ gələn malına şərik çıxır. Mütəfəkkirin ictimai görüşlərindəki bu ədalət meyarı heç şübhəsiz ki, onun tərbiyə aldığı, bəhrələndiyi ictimai-siyasi və tarixi mühitin və həyat təcrübəsinin oyatdığı mütərəqqi və bəşəri ideallarından irəli gəlirdi.

Yusif Vəzir «Türk ədəmi – mərkəziyyət» «Müsavat» firqəsinin proqramlarında torpaq sahiblərinə və digər dövlətlilərə verilən imtiyazlara məhdudiyyət qoyulmasını tələb edirdi: «Torpaq işlərini ədalətli bir qaydaya salmaq üçün firqəmiz məsələni böylə həll ediyor. Azərbaycandakı cəmi torpaq (istər sabiq padşahın xəzinəsinin, istər qeyri-mülkədarların ola) pulsuz olaraq zəhmətkeşlərə paylanacaq» [25, s.8].

Insanın məqsədəuyğun fəaliyyəti olan əməyə, onun cəmiyyətdəki roluna yüksək qiymət verən Yusif Vəzir aydın görürdü ki, kapitalist ölkələrində əmək şəxsiyyətin inkişafına

kömək etməklə yanaşı, həm də istismarçılar üçün «sərvət mənbəyinə çevrilir, əməkçinin özünü taqətdən salır və onun mənəvi tərəqqisinə əngəl törədir.

El sözündə deyildiyi kimi «torpaqda izi olmayanın süfrədə üzü olmaz». Sağlam olub əmək fəaliyyətindən kənarda düran kiminsə qazandığına ortaqdır. O, düşdüyü bu hala görə özünü məzəmmət etməyib bunu həyatda məqbul bir iş hesab edirsə müftəxorların ən böyüyüdür. Yusif Vəzir xırdalığından, böyüyə qədər bütün bu incəlikləri təhlil edir, xalqı düşündürür bu cür ədalətsizliklərə yol verməməyə çağırıldı.

Insan bir tərəfdən öz daxilindən gələn həyat axınını dünyaya yaya bilmək üçün, digər tərəfdən isə bu axının dünya tərəfindən boğulmasını dəf edə bilmək üçün özünə mütləq, etibarlı və dəyişməz bir zəmin axtarır. Insanın dünya qarşısında məftunluq hissi də onun dünya qarşısındakı qorxu hissi qədər güclüdür. Insan dünyanı bir bütöv kimi qavramaq istərkən onun mahiyyətinin mütləqləşdirilməsinə ehtiyac duyur. Fəlsəfi təfəkkür bu ehtiyacdan doğulur. Yusif Vəziri yaşadığı zəmanənin və mühitin hakim dünyagörüşü və aparıcı dəyər yönümləri, davranış və düşüncə normaları qane etmir. O həmin dünyagörüşün, həmin dəyərlərin, həmin normaların mütləqliyinə şübhə edir və mütləq olan digər dünyagörüşü axtarır, onların varlığına, mütləqliyinə inanır.

Y.V.Çəmənzəminlinin əsərlərində sosial ədalət, dövlətçilik və idarəçiliklə səsləşən ideyaları izlədikcə hər bir

insan cəmiyyətdə özünü necə aparmağı müəyyənləşdirən qaydaları öyrənir və zənn edir ki, həmin qaydalarsız cəmiyyət bir gün də yaşaya bilməz. Bu qaydalar çox müxtəlifdir. Onlardan bəziləri texnikadan istifadə edərkən özünü bədbəxt hadisədən gözləmək üçün lazım olan şeylərdən bəhs edir, digərləri ictimai və şəxsi gigiyenaya aiddir, bir başqaları isə ədəb qanunlarını ifadə edir. Elə qaydalar da vardır ki, Yusif Vəzir onların dövlət tərəfindən verilən qanunlarda təsbit edildiyini bəyan edir. Bu qaydaları pozanlar cinayət məsuliyytinə alınır və ya hakimiyyət orqanları tərəfindən başqa yollarla tənbeh edilirlər. Belə qaydalara hüquq normaları deyilir. O, eyni zamanda qanunda yazılmayan çoxlu davranış qaydalarının mövcudluğunu da irəli sürür. Bu qaydalar cəmiyyətin şüurunda, ənənəsində, adət və xasiyyətində yaşayır.

Insanın istər ictimai, istərsə də şəxsi həyatının elə bir sahəsi yoxdur ki, əxlaq normaları olmadan keçinə bilsin. Bu normalar konstitusiyada yazılan qanunların, məcəllələrdəki maddələrin əsasını təşkil edir. Y.Vəzir «Qızlar bulağı»nda şəxsiyyətin azadlığı fikri ilə yaşayan qəhrəmanın dilindəki «Insana əsarət zənciri kəsilən adət və ayinləri, axmaq ənənələri tərk etməli. Sağlam ağıla müvafiq bir həyat sürməli» düşüncələri ilə məntiqi və iman atəşi ilə dolu sözləri ilə cəmiyyətin ali qanunlarına, bu qanunların təsbit etdiyi qaydalara, davranış mədəniyyətinə bağlanmağımızı zəruri hesab edirdi [40, s.393].

Yusif Vəzirin əsərləri ilə yaxından tanışlıq belə bir nəticəyə gətirir: «Hər kəs öz millətini sevməli, onun gələcəyinin parlaq olmasını arzu etməlidir. Bunun üçün birinci olaraq «ağıl və zəkaya meydan verilməlidir» deməklə Çəmənzəminli elmin bu və ya digər növləri ilə gerçəkliyin öyrənilməsini asan hesab edir, insan praktikasının inkişaf səviyyəsi ilə əlaqədar olaraq onun ətraf aləmi qavramaq vərdişlərini və bacarığını da təkmilləşdirməyi üstün tutur. O, cavanlara müraciətlə gələcək tərəqqimizin inkişafı naminə faydalı məsləhətlər verməyi lazım bilir: «Millətimizin gələcəyi üçün çalışmaq sizin vəzifənizdir. Siz ziyalılar camaatın ümidlərisiniz, pəs arvadlarımız barəsində də çalışmaq sizin borcunuzdur. Siz özünüzü təkmil edib avamlar üçün sərməşq (örnək) olmalısınız. Gələcəkdəki zövcələriniz özünüzlə müsavi bilib onlara həyat yoldaşı nəzəri ilə baxmalısınız. Gərək çalışasınız ki, arvadların mövqeyi ucalsın» [48, s.146].

Yusif Vəzir Azərbaycan xalqı arasında geniş yayılmış və haqqa, ədalətə sövq edən əxlaqi qaydaları milli dəyərlərimiz hesab etmiş, haqq, ədalət, azadlıq kimi mənəvi keyfiyyətləri ümumbəşəri dəyərlər kimi qiymətləndirmişdir.

## 2.2. Təhsil, milli mətbuat və milli dil problemləri

Y.V.Çəmənzəminlinin zəngin və çoxcəhətli yaradıcılığında təhsil, milli dil, milli mətbuat kimi problemlər

geniş yer tutur. Bu da təsadüfi deyildir. Çünki bir qədər əvvəldə qeyd olunduğu kimi bir maarifçi olaraq o, ilk növbədə nicat yolunu təhsildə görmüşdür. Dünyagörüşün bu və ya digər forması adamların yaşadığı və fəaliyyət göstərdiyi ictimai-iqtisadi, siyasi-mənəvi mühitdən, onların savad dərəcəsindən asılı olaraq yaranır. Məlumdur ki, Azərbaycanda milli maarifçiliyin vahid, qüdrətli bir sistem kimi təşəkküliü M.F.Axundovun adı ilə bağlı olduğundan o, doğma xalqının, ümumən müsəlman Şərq xalqlarının tərəqqidən geri qaldığına dözmür, vətəninin qabaqcıl Avropa ölkələrinin, həmçinin Rusiyanın iqtisadi-sosial və mədəni inkişaf səviyyəsinə çatdırmaqdan ötrü yollar arayırdı. Yusif Vəzir Çəmənzəminlinin də elmi dünyagörüşü məhz bu qaynaqlardan bəhrələnmiş və formalaşmağa başlamışdır.

Lakin o, kütlələr arasında təhsilin, savadın genişlənməsi, biliklərin kəmiyyətcə çoxalması uğrunda deyil, keyfiyyətcə yeni ideyaların təbliği uğrunda mübarizə aparırdı. Yusif Vəzir də insan ağlını, elmi biliyi ön plana çəkməklə milli tərəqqi işində ümidlərini xalqın kütləvi savadlanmasına bağlamış, xalq təhsili ideyasının həyata keçirilməsi uğrunda mübarizə aparmışdır. O, belə hesab edirdi ki, müxtəlif dünyagörüşlü insanların yaranması onların yaşadığı və fəaliyyət göstərdiyi ictimai-iqtisadi, siyasi-mənəvi tarixdən, onların savad dərəcəsindən asılıdır. Eyni zamanda elmin, texnikanın, iqtisadiyyatın, savadlılığın, milli adət-ənənələrin səviyyəsindən asılı olaraq bu və ya digər ölkədə

dünyagörüşün hansısa bir forması geniş yayılır və üstünlük təşkil edir.

Yusif Vəzirin «Bir cavanın dəftəri» əsərində Şuşa şəhərinin iki bir-birinə zidd, iki etnik dünyagörüşünün təzadlı mənzərəsinin təsviri ilə tanış oluruq: «Şəhərimiz ikiyə ayrılır: qərb tərəfində ermənilər, şərqdə müsəlmanlar yaşayır. Qocaların nağılına görə əvvəllər ermənilərlə müsəlmanlar qarışıq yaşamışlar… Indi ermənilər müsəlmannlardan ayrı yaşayırlar. Abad məhəllələri, gözəl küçələri, kaşanə evləri var. Şəhərin bütün ticarəti onların əlindədir, hər sahədə sənətkarları, mütəxəssisləri və elm adamları vardır. Məktəbə getməyənləri yoxdur. Hökumət və şəhər müəssisələri də erməni məhəlləsindədir… Müsəlmanlar isə köhnə çətənəliyində davam edir. Bir rus-tatar məktəbindən və bir neçə mollaxanadan başqa heç şeyə malik deyilik… Mədəni səviyyəmizi ölçmək üçün bunu bilməlidir: realnı mktəbdə oxuyan 300 – 400 tələbədən yalnız on beşi müsəlmandır, bunlar da bəy balalarıdır ki, dördüncü sinifdən yuxarı getmirlər; qızların da oxumaları şərən günah sayılır…» [43, s.227].

Bu müqayisələr göstərir ki, bir coğrafi mühitdə yaşayan belə təzadlı həyat şəraitinin formalaşmasında günahkar kimdir? Yusif Vəzirə görə çar hökumət dairələri və onların Qafqazdakı canişinləri və havadarlarıdır. Erməninin sılahlanması, ona himayəçilik və onun təəssübünü çəkmək müəyyən siyasətə bağlıdır. Əvvəllən ermənilərə dini

yaxınlığına görə, Qafqazdakı ağalığı və hökmranlığı əldə saxlamaq üçün sədaqətli olduqlarını nümayiş etdirdikləri üçün ruslar həmişə üstünlük vermişlər. Bütün bunlar müsəlmanlara nisbətən erməni uşaqlarının düşüncə tərzlərinin, elmi, dini dünyagörüşlərinin inkişafına və formalaşmasına təsir göstərir. Bu iki təzadlı dünyagörüşün konkret ideyanın, anlayışın, məfhumun, psixoloji hadisənin ətraf mühitlə, təbiət və cəmiyyətdəki cisim və hadisələrlə necə şərtləndiyini asanlıqla yəqin etmək olur. Təfəkkür beynimizin əlamətlərindən biridir, onun məzmununu isə haqqında fikirləşdiyimiz dövlət və ya cəmiyyət hadisələri təşkil edir. Cəmiyyət yaşayışının tipik bir nümunəsi olan Şuşa şəhərində təsis olunmuş iki təzadlı həyat şəraiti ilə Yusif Vəzir cəmiyyətin demokratik inkişaf yolunu buxovlayan uyğunsuzluqları, ədalətsizlikləri və qeyri-bərabərliyi lənətləyir, bunların insanlıq, humanizmdən çox-çox uzaq olduqlarını söyləyir. O, çarizmə, onun üsul-idarəsinə qarşı düşmən mövqeyi tutmuşdur. O özünün geniş fəaliyyəti dövründə, çarizmin ölkədə tətbiq etdiyi iyrənc «qayda-qanunları» öz gözləri ilə görmüş, onlara dərin nifrət bəsləmişdir. Bunun nəticəsi olaraq təqiblərə məruz qalmışdır.

Çar hökuməti idarələrində işləməsinə baxmayaraq, o, heç bir zaman çarizm və bolşevizmlə ideya sazihində olmamışdır, əksinə, onların həmişə mənfur, qeyri-insani təbiətini ifşa etmişdir. O, qəti olaraq inanmışdı ki, çarizm xalqın istər maddi və istərsə də mənəvi inkişafı üçün böyük

əngəllər yaradır, cəmiyyətin milli tərəqqi yoluna və inkişafına mane olur. Yusif Vəzir həm də yəqin etmişdi ki, digər Qafqaz xalqları ilə müqayisədə azərbaycanlılar daha çox istismar edilir, ikiqat əzilən məzlum xalqlar içərisində ən çox məhrumiyyətlərə düçar olurlar.

Yusif Vəzir elmi dünyagörüşün formalaşmasında, dini təsəvvürlərə, dini xurafata qarşı mübarizədə yeni tipli məktəbi başlıca tərəqqi vasitələrindən biri hesab edir. O, «tərəqqi zəmanəsi»nin tələblərinə uyğun olaraq, dünyəvi elmlərin dini elmlərdən üstün olmasını və məktəblərdə bunlara daha çox yer verilməsini məqsədəuyğun hesab edirdi. Yusif Vəzir «bu yazıq camaatı boş nağıllarla bəsləyən» mövhumatçıların, köhnə adət-ənənələri bayraq edən hoqqabaz mollaların yeniliyə, mədəniyyətə düşmən kəsildiklərini duymuş, tənqid hədəfinə çevirmişdi.

Vətənini dünyanın sivilizasiyalı ölkələri sırasında görmək üçün xalq Y.V. Çəmənzəminli kimi kamil insana, düşünən zəkaya böyük ümid bağlamışdır. Həmin məqsədlə də «mövcudatın ən şərəfli növü», əvəzsiz varlıq kimi səciyyələndirdikləri insan ideyasını maarifçilər qnoseoloji aspektdə də əsaslandırmağa çalışmışlar. Insanların idraki qüdrətinin mahiyyətini açmaq dünya və onun qanunlarını dərk etməyin forma və vasitələrini aydınlaşdırmaq, elmi biliklərin əldə etməyin insanın özünü, ətraf mühiti dərk etməsinin yollarını göstərmək Yusif Vəzirin də dünyagörüşünün diqqət mərkəzində götürülmüşdür. Idrakın

insan həyatında misilsiz əhəmiyyətə malik olduğunu anlayan Yusif Vəzir «Bir cavanın dəftəri», «Qızlar bulağı», «Həyatımın 20 ili», «Studentlər» və «Biz kimik və istədiyimiz nədir» əsərlərində insanların idraki fəaliyyətini yüksək qiymətləndirir.

«Maarif işlərində birtərəflik olan kimi azadəlik də gərək olsun. Məktəb elm ocağıdır, daha buraya heç kəsin qarışmağa hünəri yoxdur. Vətənimizdə Avropa qaydasında hər bir məktəblər açılmalıdır» [26, s.6] yazmaqla Yusif Vəzir hər yerdə insan ağlını, elmi biliyini ön plana çəkmiş, milli tərəqqi işində ümidlərini xalqın kütləvi savadlanmasına bağlamış, xalq təhsili ideyasını, onun həyata keçirilməsi uğrunda mübarizə aparmışdır.

Çəmənzəminli belə əqidədə idi ki, xalq kütlələri azadlığın, tərəqqinin, səadətin qədrini bilməkdən ötrü hökmən savadlanmalı, mədəniyyətə yiyələnməlidirlər. Mühitinin məhəlli müsəlmanları barədə Yusif Vəzirin yazıb qəzetə göndərmək istədiklərində böyük bir həqiqətin «elm və təhsillə» insanların səfalət və cəhalətdən qurtulması üçün zəruri sayılan şərtlərə əsaslandığı bəyan edilir: «Buranın müsəlmanları ya Mərakeş müsəlmanları, fərq yoxdur. Hamısının azarı avamlıqdır. Məktəb lazımdır. Məktəb olmasa fikirlər pasdan xilas ola bilməz. Bu nəsil gərək özbaşına qoyulsun, gələn nəslə tərbiyə və təlim verilməslidir. O böyüklükdə köhnə nəsil ölüb gedəcək və özü ilə də eyiblərini aparacaq. Ona görə bu nəsli tərpədib acıqlandırmamalı. Elə

etməli ki, övladlarını üsullu milli məktəbə göndərsinlər. Vəssalam. Yoxsa yüz min vəz (nəsihət) eləyəsən, Kərbəlayı Əsəd dönüb avropalı olmayacaq. Köhnə adamları təzələmək həm o adamlara ziyandır, həm millətə» [43, s.248].

Y.V.Çəmənzəminlinin dünyagörüşündə formalaşan zəngin həyat təcrübələrindən, maarifçilik görüşlərindən irəli gələn qabaqcıl mütərəqqi ideyaları XX əsrin əvvəllərində baş vermiş bir sıra məlum sosial-siyasi hadisələrin təsiri ilə əlaqədar olmuşdur ki, bunlar da onun «Bir cavanın dəftəri» əsərində aydın göstərilmişdir.

1905-ci il inqilabı azərbaycanlılar üçün intibah dövrü oldu. Bakıda Azərbaycan dilində qəzetlər, hər yerdə cəmiyyətlər, məktəblər açılır, azərbaycanlı işçilər də inqilaba sarılmağa başlamışdılar.

Bu inqilab xalqın maarifə, mədəniyyətə, incəsənətə, meylini qat-qat qüvvətləndirmişdi. Getdikcə xalq mənafeyinə daha çox xidmət etməyə başlayan bədii ədəbiyyat, maarif, elm, incəsənət, mətbuat inkişaf yoluna düşürdü. Lakin ucqarlarda maarifin inkişafına əhəmiyyət verməyən, çar hökuməti yerli məktəblərə çox az vəsait buraxırdı. Bunun nəticəsi olaraq əhalinin 90 faizi savadsız idi. Şuşa məktəbi tədris və təchizat etibarilə görkəmli yer tuturdu. Çarizmin təzyiqinə baxmayaraq qabaqcıl maarif xadimləri öz sələflərinin yolu ilə gedərək məktəblərin sayını artırmaqdan ötrü böyük səy göstərirdilər. Mollaxana və mədrəsələr hesabına müasir pedaqoji prinsiplərə əsaslanan yeni

məktəblər artmaqda idi. Həmin məktəblərdə dünyəvi elmlər, ana dili, bir çox yerlərdə rus dili tədris olunurdu. Mollaxanalardan və «üsuli-cədid» məktəblərindən əlavə «rus-tatar» məktəbləri də maarif şəbəkəsində mühüm yer tuturdu. Bu məktəblər çoxaldıqca ziyalıların sayı da artırdı.

Y.V.Çəmənzəminli maarif işləri ilə bağlı zəngin görüşlərini ifadə edərək məktəb üzərində daha çox dayanır, millətin tərəqqisini inkişafını və mədəniyyətini təhsildə görürdü: «Hər bir məmləkətə təzə qüvvə verən, onun qabağa getməsinə səbəb məktəb olur. Hansı məmləkətin məktəbi nizami olsa və sayca artıq olsa o biri məmləkətə qalib gəlir. Bu qalibiyyət istər davada, istər ticarətdə, istərsə də sənətdə özünü göstərməlidir. Məktəbsiz millət rişəsiz ağac kimidir: diriliyi üçün lazım olan qüvvəsi olmayıb, quruyub candan düşər. Məktəb təzə fikirli adamlar yetirir. Bunlar da camaətin məişətini dəyişməyə çalışırlar» [25, s.8].

Yusif Vəzirin dünyagörüşünün formalaşmasına ciddi təsir göstərən inqilabi hadisələr və xalq azadlığı uğrunda mübarizə ona savadsızlığın, təhsilsizliyin səbəblərini millətinin mənəvi geriliyində axtarmağı təlqin edirdi. Təzə fikirli, demokratik ruhlu insanların əhatəsində olmağı daim arzulayan Yusif Vəzir daim axtarışda, mütərəqqi ideyalarının reallaşması yolunda mübarizə aparanların önündə addımlamışdır. Onun nəzərində millət hamılıqla: qadınlı, kişili avamlıq, gerilik, nadanlıq və sadəlövhlüyün girdabından çıxmaq üçün təhsilə gəlb edilməli, məktəbləri

özlərinə ən doğma, yaxın və isti ocaq hesab etməli, işıqlı, mütərəqqi yolları buradan başlamalıdır: «Maarif işlərində din, millət, arvad və kişilik bilmərrə kənara qoyulmalıdır: elm yolunda hamı bərabərdir. Məktəb elm ocağıdır, daha buraya heç kəsin qarışmağa hünəri yoxdur. Vətənimizdə Avropa qaydasında hər bir məktəblər açılmalıdır»[25, s.9].

Yusif Vəzir uzun illər Ukrayna, Rusiya, Türkiyə, Fransa və başqa ölkələrdə yaşadığından bü ölkələrin milli dəyərlərindən, sosial-siyasi və mədəni xidmət sahələrindəki yeniliklərdən xəbərdar bir alim kimi azad demokratik baxışlarını ifadə edir. Onun bütün yaradıcılıq külliyyatı ilə tanışlıqdan hiss olunur ki, o, Avropa ölkələrində gender problemləri ilə də tanış olmuş, bu barədə ad göstərməsə də qarşıya qoyduğu məsələlər, həlli vacib problemlərə münasibətində bunu sezmək çətin deyil. Böyük demokrat məktəblərin açılması ilə millətin balalarının təhsilə cəlb edilməsində bütün idarə və müəssisələrin, camaatın fəallıq göstərməsinə israr edirdi. Məktəblərdə təhsilin verilməsi qaydası, təhsil pillələri barədə tövsiyyələri olduqca maraqlıdır: «Məktəblər öylə gərək düzülsün ki, aşağıdan ortaya və ortadan yuxarı məktəblərə keçmək asan olsun. Yuxarı məktəblər daxili işlərində azad olmalıdırlar. Hökumətin bu məktəblərin xüsusi idarəsinə qarışmağa ixtiyari olmamalıdır» [25, s.9].

Təhsilin aşağıdan ortaya qədər icbari, ortadan yuxarıya qədər azad, yəni qeyri-icbari təyin etmək tamamilə

düzgün və valideynlər üçün o vaxtlar məqbul sayılan bir layihə idi. Yusif Vəzir «xalqın oxumasına meydan vermək üçün aşağı məktəblərdə təhsilin məcburi və müftə olması tələbini irəli sürürdü. Bütün məktəbyaşlı uşaqların məktəblərə cəlb edilməsində liberallığa yol verməyin əleyhinə çıxış edən mütəfəkkir-alim valideynlərin də bu sahədəki məsuliyəətlərini artırmağı lazım bilir. «Hər bir ata və ya ana borcludur ki, övladını məktəbə göndərsin, məktəbin də borcu budur ki, uşağı pulsuz oxutsun. Ata və ana övladlarını məktəbə göndərməsələr, onlar da cərimə və tənbeh olunmalıdır» [25, s.9].

Y.V.Çəmənzəminli məktəb və təhsil problemlərin həlli istiqamətində dünyəvi elmlərin öyrədilməsi və bunların asan mənimsədilməsi, yollarında Azəri-türk dilinin əhəmiyyətindən yazmaqla bərabər, «xırda millətləri» də yaddan çıxarmır, məktəblərdə onlara öz dillərində dərs saatlarının verilməsini vacib sayırdı. Layihə şəklində gedən maarif, təhsillə bağlı onun mütərəqqi ideyaları həm Azərbaycan Demokratik Cümhuriyyəti, sovet hakimiyyəti, həm də müstəqillik qazandığımız 1991-ci ildən etibarən reallaşmış, gerçəkləşmişdir.

Y.V.Çəmənzəminli Saratov şəhərində yaşadığı vaxt şəhər məhkəmə palatasında məhkəmə namizədi vəzifəsində işə başlayır. Artıq universiteti başa vurmuş Yusif Vəzir Azərbaycan mətbuatının vəziyyəti ilə maraqlanır, xalqın dərdinə yanan, onu qəflətdən oyadan bir jurnalist kimi dövrün

zəruri məsələlərinə toxunmaq istəyirdi. Onun bu sahədə yazdığı «Bizə ciddi mətbuat çoxdan lazım idi», «Yaxın tarixdən», «Ilminski və məsləki», «Hürriyyət», «Iki aləm», «Zəruri məsələlər» və s. məqalələr ibrətamizdir.

«Bizə ciddi mətbuat çoxdan lazım idi» məqaləsini Çəmənzəminli 1916-cı ildə «Açıq söz» qəzetinin 160, 162 və 164-cü nömrələrində çap etdirmişdir. Azərbaycan mətbuatının vəziyyəti haqqında inqilabdan əvvəl yazılmış ən yaxşı əsərlərdən sayılan bu məqalə qısa şəkildə Azərbaycan dövri mətbuatının vəziyyəti və onun qarşısında duran vəzifələrdən danışır. Yusif Vəzir 1905–1916-cı illərdəki mətbuat tariximizin ümumi vəziyyətini səciyyələndirir: «Mətbuatımız xarab olmuş lampaya bənzəyir – gah yanır, gah keçir, yandıqda işıq vermir, işıq verdikdə isə şöləsi həmişə bərqərar olmur. Mətbuatımızın bu qeyri-sabit halı oxucuların və millətin halına da sirayət etməmiş olmur.

Mətbuatın tarixi bu müxtəsərcə sətirlər ilə qurtarıb gedir. Məsələ dürüst aşkar olmaq üçün bu sətirləri şərh etmək lazım gəlir» [43, s.175].

Məqalənin «Həyat dövrü və onun qüsuru» adlı birinci bölməsində rus-yapon müharibəsindən sonra ölkədə məktəb və mətbuatın, maarif cəmiyyətlərinin artdığını «Həyat» qəzetinin nəşrə başladığını və eləcə də onun fəaliyyətinin yarımçıq qalması səbəblərini göstərirdi. O, istər «Həyat», istərsə də «Füyuzat» qəzetinin anlaşılması çox çətin olan məqalələrində yad terminlərlə, ərəb, osmanlı, türk ləfzlərinə

lüzumsuz yer verilməsinə etiraz edir, və onlara başçılıq edən istedadlı alim və jurnalistləri xalqa yaxın yazıb yaratmağa dəvət edirdi: «Həyatın bağlanmağına ümdə səbəb müştəri azlığı oldu. Müştəri azlığı da onun üçündü ki, əvvəla Qafqazda savadlı adam az idi, ikincisi savadlı olsaydı da, qəzet alıb oxumağa camaat öyrənməmişdi. Üçüncü, «Həyat» elə bir dildə yazırdı ki, onu ancaq pursavad adamlar oxuyub feyz ala bilirdilər. Xalq isə az savadla belə qəzetləri oxuya bilmirdi» [43, s.176].

Bir yığın adamlar, xüsusən, Türkiyədə, Moskva, Peterburq, Şərq ölkələrində ali təhsil alıb ana dilində zəif danışan mühərrirlər, şair, yazıçılar qəliz xarici ibarələrin təsirindən çıxa bilmir, bəzən osmanlı, bəzən rus sözləri hesabına dilimizdəki ərəb, fars mənşəli sözlərin bir qismini sıxışdırıb çıxarır, beləliklə xalqı tərkibində yeni terminlər, qondarma sözlər olan məqalələrlə karıxdırır, onları mütaliədən uzaq salırdılar. Halbuki, Yusif Vəzir belə savadlı mütəxəssisləri, zəngin biliyə malik jurnalistlərimizi başqa cür görmək istəyirdi. «Həyat» bağlandısa da, onun təsiri mətbuatımızda dərin izlər buraxdı. Qəzetlərimiz xalq malı olmayıb, bir ovuc ibarəbazlara qulluq eləməyə başladı. Əlibəy Hüseynzadənin istedadı, məlumatı və tərcümeyi-halı gözübağlıca kimi oxucuların və ələlxüsus mühərrirliyə həvəslənənlərin ağıl və məsləklərinə qalib gəldi. Hamı bir ağızla onun dahiyi-əzim olmağını söyləyib inandılar. Mətbuatımızda təqlidçilik meydanı açıldı: qəliz ibarələr

ortalığa çıxdı. Dilimiz təzədən məhv olmağa başladı. Hüseynzadənin dövlətindən ərəbləşmiş osmanlı dili «əbədilik» iddiasına düşdü. Mətbuatımız bilmərrə xalqdan ayrıldı. Nə xalq qəzetlərin dilini bildi, nə də qəzetlər xalqın. Biçarə camaatımız dərdləri dərmansız bir halda can vuruşdurmaqda qaldı» [43, s.176].

«Əkinçi» qəzeti ilə ilk Azərbaycan mətbuatının təməlini qoyan Həsənbəy Zərdabidən böyük məhəbbət və hörmətlə danışan müəllif onun şəxsində Azərbaycan dilini korlayanlara qarşı qabaqcıl ziyalıların münasibətini kiçik bir misalda bildirirdi: «Deyirlər bir dəfə sabiq «Əkinçi» müdiri məşhur Həsənbəy Zərdabi «Füyuzat» məcmuəsinə baxıb soruşub:

- Bunu kimin üçün yazırsınız?
- Camaat üçün, - demişlər.

Həsənbəy gülümsəyərək demişdir:

- Elə isə camaatın dilində yazın ki, camaat da başa düşsün» [48, s.176].

«Ciddi mətbuat müvəffəqiyyətsizliklərinin qeyri səbəbləri» adlı ikinci məqaləsində Yusif Vəzir ciddi mətbuatın müvəffəqiyyət qazana bilməməyinin səbəblərini göstərmişdir. Bu səbəbləri o, qəzet nəşr edənlərin müəyyən məsləkə qulluq etməmələrində, xalqı yaddan çıxarmaları, kifayət qədər savada, mədəniyyətə malik olmamaları, dövri mətbuatın vəzifələrini layiqincə dərk etməmələri, boş, mə-nasız, vaxtı keçmiş məsələlər ətrafında uzun-uzadı mü-

bahisələr açmalarında görürdü. «Bunlar hələ az imiş kimi, mühərrirlər arasında şəxsi nifaqın qəzet sütunlarına çıxarılması, hər cür böhtan, iftira, biədəbliyə yol verilməsi bağışlanılmaz qüsurlar idi. Biçarə oxucular təngə gəldilər. Ümid bağlayıb göz dikdikləri adamların da nə dərəcədə şəxsi-qərəz və məsləksizliyə aludə olmalarını gördülər. Ciddi mətbuat nüfuzunu yavaş-yavaş itirməyə başladı» – deyən Yusif Vəzir bunun üçün bir sıra qurtuluş, nicat yolları aramağa başladı. O, Avropa mətbuatının müsbət xüsusiyyətlərindən, geniş oxucu kütləsini öz ətrafına toplamağı bacarmaq və qəzetdə böyük-böyük məsələləri həll etmək təcrübəsindən öyrənməyə çağırırdı. Lakin təəssüflə yazırdı ki, «mətbuatın Avropada olan qüdrət və qüvvəti bizlərdə yoxdur. Bunun ümdə səbəbi budur ki, mətbuatımız başında ləyaqətli adamlar durmurlar» [43, s.178].

Y.V.Çəmənzəminli məzhəkənəvisliyi əsas yazı üsulu kimi qəbul edən mətbuat xadimlərinin çıxardığı məzhəkə, gülgü jurnalları, xüsusilə də məşhur «Molla Nəsrəddin» barədə ayrıca və həm də məhəbbətlə danışırdı. Onun fikrincə, «mətbuatın əsl məqsədi haqqı intişar edib, nahaqqa qalib gəlməkdədir. Nahaq ilə də iki cür mübarizə etmək olar: ya ciddi məqalələr ilə, ya da məzhəkə təriqi ilə. Məqsədə çatmaq yolunda məzhəkə dəxi də məqbul görünür. Ona görə mətbuat tərəziyə bənzəyir: bir şaxəsi ciddi qəzet və məcmuələrdən, o birisi məzhəkə və həzl (lətifə, zarafat) jurnallarından ibarət olur» [43, s.178 - 179].

Yusif Vəzir yazırdı ki, ciddi mətbuatın məqsədi tikmək və yaratmaq olduğu kimi, məzhəkənəvisliyin də məqsədi ucuzlaşmaqdan ibarətdir. Məzhəkə ucuzdursa, ciddi mətbuat da tikməli və təmir etməlidir. Müvazinət itib, məzhəkə qüvvət tapdıqda köhnəlik uçular, yox olar. Lakin məqsədə nail olmaq olmaz. Nə üçün? Müəllif bu suala belə birtərəfli cavab verirdi ki, xalq «Molla Nəsrəddin» jurnalını sevinclə qarşıladı. Molla Nəsrəddinin şöhrət qazanmasının başqa ciddi səbəbləri də var idi. Yazıçıya görə jurnalın gözəl və cazibəli, məsləkinin sabit və səlamətliyi, yazıçılarının kamil və sevindirici və başqa xüsusiyyətləri idi. O, «Molla Nəsrəddin»lə biz ancaq fəxr edə bilərik», - deyirdi [43, s.180].

«Mətbuatımızdakı müvazinəsizliyin nəticəsi» məqaləsində Yusif Vəzir Azərbaycan xalqının milli həyatında çox kök salan bir sıra problemləri üzə çıxarır. Yazıçı «qından çıxıb qınını bəyənməyən» bir çox millət nümayəndələrini azərbaycanlı olub dilində danışmağı eyib hesab edənləri bir çox qəribə hesab edilən təbii hərəkətləri müsəlmanlığın ünvanına pis bir əməl kimi yazanları ifşa edirdi. Gözəl musiqiyə malik olub, tar çalmağı irad tutanlara, «ağaca çıxmağı» xaricilərin yanında ədəbsizlik hesab edənlərə, «Novruz» kimi gözəl el bayramı haqqında yazmağı lüzumsuz iş hesab edənlərə qarşı məzhəkənəvisliyi qoymağı əsas silah sayırdı. Niyə əcnəbilər öz millətlərinin nağıllarını yığıb kitab halına sala bilir və yaya bilirlər? Biz isə fil qulağında yatıb

gözəl nağıllarımızın millətimizin həyat, ədliyyə və xəyaliyəsinin məhsulu olduğunu düşünmədən onların hörmətdən salınmasına yol veririk». Müəllif avropalıları nümunə çəkməklə bütün mətbuat işçilərini ayağa qaldıraraq əməli iş görməyi məsləhət bilirdi: «Bunu düşünmürlər ki, nəsihət yazmaq qaydası mədəni millətlər arasında çoxdan dəbdən düşmüşdür, çünki uşağa quru nəsihət heç vaxt kar eləməz, uşaq gördüyünü götürər. Sən uşağın yanında yalan danış və uşağa tapşır ki, yalan danışmasın. Bunu uşaq heç vədə qəbul eləməz. Uşağın yanında doğru danışılmalıdır ki, o da doğruçuluğu öyrənsin. Yaxşı deyilmi ki, Avropanın əsrlərcə qazandığını biz də əxz eləyək. Dəxi zəmanəyə müvafiq olmayan fikirlərə niyə meydan veririk?» [43, s.182].

Əsrlərdən əsrlərə ata-babalarımızdan keçib gələn gözəl, uşaqlarımızın hərəkətlərinə, saflığına, sevinclərinə səbəb olan mənalı, məzmunlu el oyunlarının, «uşağın ağaca çıxmasının», «tar çalmağın» məsxərəyə qoyulması, tərbiyədə gerilik sayılması və s. son nəticədə ədibin fikrincə uşağın uşaqlıq aləmindən onun mənsub olduğu milli ruhdan məhrum olmasına aparıb çıxarır.

Sonuncu «Açıq söz» dövri məqaləsində müxtəlif qəzet və jurnal mühərrirlərini keçici hadisələrə az aludə olmağa, böyük məsələlərdən yapışmağa, xalqın mədəniləşməsinə, ayılmasına kömək edən əhəmiyyətli yazılar çap etməyə çağırırdı. Onun fikrincə, qəzetçilərimiz böyük məsləkçi Həsənbəy Zərdabinin əsərlərini hissə-hissə çap edərsə,

dərdlərimizin əlacına kömək edən məqalələr, məsələn, torpaqdan necə istifadə etmək, məhsulun çox olması üçün əkin-biçin işlərinə yeni qaydada baxmağa, zəhmətkeş xalqı soyan ruhanilərin fırıldağını açmağa, Avropa qaydası ilə tərbiyə məsələlərini öyrənməyə və bu kimi vacib məsələləri işıqlandıran məqalələrin çapına meydan verərsə, oxucuların rəğbətini qazana bilər: «Bizim camaat isə fəqirlik torbasını daşıyır. Elmsizliyinə görə hər kəs başına vurub onun çörəyini əlindən alır. Tamahkar xaricilər bir tərəfdən, müamiləçilər də bir tərəfdən yazıq millətin qanını sorurlar. Bu barədə qəzetlərdə yazan yox, iş görən yox» [43, s.183].

Öz tövsiyəsində Çəmənzəminli, əsasən, bunda dayanırdı ki, oxucularını təkcə Avropa davası ilə məşğul etmək fayda verməz. Bu ötəri bir şeydir. Bu gün var, sabah yoxdur. Bizə varlığımız ilə həmişə bağlı olan məsələlərin müzakirəsi lazımdır. Əsas diqqəti də məhz bura vermək lazımdır. Yusif Vəzir xalqın istək və arzularını əks etdirən təzə mətbuat orqanlarının yaradılmasını vacib sayırdı: «Məzhəkənəvislik yıxdığı binalar təzədən tikilməlidir. Mətbuat müvazinətini düzəltməlidir. Bunun üçün də ləyaqətli qəzet və jurnallar nəşr edilməlidir» [43, s.184].

Sosial və milli tərəqqi vasitəsi və yolları XIX əsrin ikinci yarısında Azərbaycanın ictimai fikrinin mərkəzi problemini təşkil edir. Bu problem XX əsrin əvvəllərinə qədər öz aktuallığında qalmaqla maarifçiliyin tədricən milliliyə gətirib çıxarmasına və formalaşmasına təkan vermişdir.

Təbii ki, milli oyanış dövrünün hərtərəfli ünsiyyət vasitəsi kimi bu zaman milli dil daha kamil olmalıdır; o, milliyəqədərki dövrlərin dil zənginliklərini ümumiləşdirir və müasirliklə dolğunlaşdırılaraq öz ideal kamilliyini və ictimai funksional imkanlarını əks etdirən bütöv sistemi ilə millətə çevrilən xalqın mədəniyyətindəki dil və nitq dəyişmələri prosesini əhatə edir, dialektik inkişafda olan mürəkkəb və dinamik anlayışa çevrilir. Yusif Vəzirə görə öz ana dilinin saflığı uğrunda hər kəs mübarizə etməli, xüsusən ixtisasçılar dilimizin zənginliyinə əsas verən, xalqın ümumişlək malına çevrilmiş ən sadə, kütləvi hal alan sözlərin geniş işlənməsinə israr etməlidirlər. Müəllif dillə daha çox maraqlanmağı, bu sahədəki problemləri üzə çıxarmağı tövsiyə edirdi: «Camaatımızın anlamadığı, başa düşmədiyi bir dildə yazanların sayı gündən-günə artır. Bircə bunu bilməli ki, bu yazıçıların qəliz ibarələr işlətməkdə fikirləri nədir? Bu məsələ məni artıq dərəcədə həvəsləndirir. Çünki camaatımızın gələcəyi üçün bu da lazımlı və həlli vacib işlərdən biridir. Buna görə də qələm sahiblərinə rast gəldikdə bu məsələ barəsində söhbət açıram, rəylərini bilmək istəyirəm. Belə söhbətlərin nəticəsi olaraq düşünürsən ki, qəliz ibarə işlədənlərin və osmanlı dili ilə yazanların çoxusu əqidə və məsləklə iş görmürlər. Məhz belə yazıblar, yazırlar, biz də onlara baxıb «yazırıq» demək xahişindədirlər. Bir çoxları «türk dilini birləşdirmək istəyirlər. Buna görə də osmanlı dilini ümumi bir dil çayırlar və jurnallar yazıb Azərbaycan

türklərinə verirlər. Halbuki, bunların özlərinə məxsus gözəl asan və möhkəm dilləri var» [43, s.173].

Üzeyir Hacıbəyovun 1906-cı ildə «Irşad» qəzetində dərc olunmuş «Hansı vasitələr ilə dilimizi öyrənib kəsbi-maarif etməliyik» məqaləsində məhz həmin məsələyə toxunulur. Müəllif dilimiz deyərkən ədəbi dilimizi nəzərdə tutur. Danışıqlarında «mən hələ obed eləməmişdim, vizitni kartoçka gəldi ki, madam Pankova səni veçerə priqlasit eləyir. Gəlməsən «obijatsa olar» tipli ifadələr işlədilib ana dilini belə «savadlı», «ədəbi hala» salanlara Üzeyir Hacıbəyov Avropa alimi və filosoflarının fikrini dəlil gətirir və deyir ki, «bizim türk lisanımız ən vəs'i və kamil bir dildir, onun vasitəsilə insan ən ali fikirlərini və ən dəqiq hisslərini bəyanə qadirdir». Belə bir zəngin lisanın sahibi olub da onunla istifadə etməməyin özü böyük bir bədbəxtlikdir. [62, s.23].

N.Nərimanov Azərbaycan dilinin ərəb-fars mənşəli sözlərlə daha da zənginləşməsini. Bunun ənənəvi işlənməsini qanuniləşmiş bir hal hesab edirdi. Ancaq əsas etirazı bu idi ki, əndazənin itirilməsinə yol verib ana dilini korlamaq dərəcəsində əcnəbi sözlər işlədilməsin.

Üzeyirin də, Nərimanovun da dil məsələsində obyektiv mövqeləri Yusif Vəzir publisistikasının bu cəhətdən mütərəqqi fikirləri aktual problemləri ilə uzlaşan günün ən zəruri məsələlərinin xalqa vaxtında çatdırılmasının ənənəvi bir forması və metodudur. Dil məsələsi içərisində, şübhəsiz,

ən aktualı qızğın polemikalar doğuranı, ən kütləvisi milli ədəbi dilin norma təşəkkülündə xalq dilinin iştirakı, ədəbi dillə ana dilinin münasibətidir. Ədib yazırdı: «Dil öz kökü üstə bitər, qalxar, qol-qanad açar və bu asudəlik sayəsində də belə gözəl və geniş bir hala gələr ki, hamını heyran qoyar. Dilin kökü camaatımızın yaratdığı el ədəbiyyatındadır, gərək onlar toplansın, əzbərlənsin. Dil axtaran gərək camaatımızın arasında gəzsin, öyrənə bilsin. Əsl dilimiz bazarlarda, xalqın toplandığı yerlərdə, tərəkəmə elinin içində danışılmaqdadır» [43, s.174]. Bəzən də xalqın içində olub xalqın anlamadığı qəliz ibarələr işlətməklə savadlarını nümayiş etdirmək istəyən yazıçılara, qələm sahiblərinə Yusif Vəzir irad tutur, onları ən sadə dildə danışıb xalqın dilini, onun zəngin lüğət fondunu öyrənməyi tövsiyə edirdi: «Hərgah yazıçılıq etməkdən məqsəd fars və ərəb sözləri işlədib bilik almaq isə, bu ayrı məsələdir. Yoxsa camaatın mənfəəti də mülahizə olunursa, gərək o camaatın başa düşdüyü bir dildə yazılsın ki, o da oxuyub bundan bir hissə götürsün» [43, s.174].

Milli ədəbi dilin təşəkkülündə demokratik cəbhə xalq dilinə əsaslanmağı qanuni və zəruri sayır. Ancaq əks qütbdən olan qüvvələr ədəbi dil normasının müəyyənləşməsində, xalq dilinə müraciətin qəti əleyhinə gedir, ədəbi dillə ana dilinin təmasını antielmi hesab edirdilər. Ədəbi dilin saflığını korlayanlar vahid mənbə üzərində dayanmır, üç qola ayrılırdılar: bir qrup ərəb-fars mənşəyinə, ikinci qrup türk, osmanlı, üçüncü qrup rus-Avropa dillərinə meyl edirdi. Mirzə

Cəlilin «Bizim obrazovannılar», «Papaslar», felyetonları və «Anamın kitabı» pyesində, «Molla Nəsrəddin» və «Füyuzat»ın polemikasında dövrün ədəbi-bədii dil ətrafındakı ixtilafları yuxarıdakıların daha aydın görünməsinə əsas verir. Fikrini əsaslandırmağa imkan verən misallarla Yusif Vəzir xalqın gözünü açmaq, doğma dili sevmək və sevdirməyi təlqin edir, camaatı qaranlıq mühitdən çıxaran təmiz, pak doğma dili qiymətləndirirdi: «Ay qardaş, uşaqlarını məktəbə qoy, əkin yerlərini satma, gözü açıq ol… Bunları hansı dillə danışmalı ki, başa düşsün? Əvvəlcə camaatın öz dili ilə, Azərbaycan türkcəsində. Osmanlı dilini bunlar bilməzlər» [43, s.175].

Yusif Vəzirin arzuladığı və hazırda gerçəkliyə çevrilən müasir Azərbaycan ədəbi dili heç də birdən-birə yox, uzun tarixi mərhələlərdən keçərək püxtələşmiş, ədəbi dil normalarını qoruyub saxlamışdır.

Məlum olduğu kimi, ədəbi dil normasının müəyyənləşməsi dildaxili və dilxarici faktorların qarşılıqlı əlaqəsi prosesində baş verir. XIX əsrin əvvəllərinə qədər eyni ictimai-siyasi, mədəni inkişaf şəraitində Azərbaycan dili vahid normalı ədəbi dil rolunu oynayırdı. Bundan sonra başlanan dövlət, ərazi ayrılığı Azərbaycan ədəbi dilinin normasında ikiləşmə üçün zəmin hazırlayırdı. XIX əsrdə görkəmli söz ustalarının, söz sənətinə yenilik gətirən böyük yazıçı və şairlərin hamısı Şimali Azərbaycanda yetişir. XIX əsr ədəbi dilimizin nailiyyətlərindən sayılan publisist üslub da məhz burada start götürür

və həm müxbir, həm də oxucu kütləsi, əsasən, Şimali Azərbaycan hüdudları ilə bağlanır.

Ədəbi dil normasının müəyyənləşməsinə nəzəri müdaxilə, elmi dilçilik fikrinin meydana gəlməsi və dil fəaliyyətini nəzarət altına alınması XIX əsrlə bağlıdır. Bu işdə bilavasitə M.Kazımbəy, M.F.Axundov, N.Zərdabi, N.Nərimanov, C.Məmmədquluzadə və başqaları tarixi-müqayisəli dilçiliyin vətənlərindən biri olan rus elmi mühitinin yetişdirmələri idi. Bu şəxsiyyətlər ya bilavasitə dilin praktik və nəzəri məsələləri ilə məşğul olur, ya da ümumi maarifçilik fəaliyyətlərinin tərkib hissəsi kimi dil məsələlərinə diqqət yetirirdilər.

Azərbaycanda Demokratik Cümhuriyyət yaradıldığı illərdə milli məsələnin müxtəlif sahələrində, o cümlədən, milli dil üzrə kütləvi işlərin planı əsasında milli Dövlət səviyyəsində işlərin aparılmasına macal çatmamış Azərbaycanda sovet hakimiyyətinin bərqərar olması rəsmiləşir. Azərbaycan Sovet Sosialist Respublikasının Konstitusiyası ilə Azərbaycan dili dövlət dili elan olunur və onun Konstitusiya hüquqları təsbit olunur. Azərbaycanda 2 dəfə əlifba dəyişikliyi aparılır. Birinci dəfəki əlifba islahatı çox qanuni və vaxtında düşünülmüş bir tədbir idi. Deməli, əski ərəb əlifbasından latın qrafikasına keçmək tədbiri 1928-ci ilin iyulundan 1939-cu ilin mayına kimi davam etdi. Lakin bir çox ruspərəst dilçilərin və dövlət məmurlarının yanlış mövqeyi nəticəsində dilimizin əlifbası yenidən dəyişilərək rus əlifbasının qrafikasını qəbul etmək məcburiyyətində qaldı.

1940-cı ildən başlayaraq ta 1996-cı ilə kimi təqribən 56-60 il rus qrafikasında yazıb-yaratmaq qüvvədə qaldı. 1991-ci ilin avqustundan sovet hakimiyyəti ləğv edildikdən sonra Azərbaycan

müstəqil bir milli dövlət kimi öz Konstitusiyasını yenidən qəbul etdi. Azərbaycan dili dövlət dili olmaqla yenidən 1928-ci ildə qəbul etdiyi latın qrafikalı Azərbaycan əlifbasına qayıtmağı zəruri hesab edir. Artıq Azərbaycan Dövlət müstəqilliyinin 10-cu ilində bütün idarələrdə, nəşriyatlarda, məktəblər, təhsil ocaqları və diplomatik idarələrdə və s. öz işlərini yeni latın əlifbası ilə aparır ki, bu da indiki nəslin gələcək inkişafına müsbət təsirini göstərəcəkdir. Hazırda məktəblilər, ali məktəb tələbələri doğma dilinin yeni latın əlifbası vasitəsilə həm ingilis dilinə, həm də müasir dövrün nəbzi sayılan kompüter, Internetdə işləməyə daha çox yaxın və bələd olurlar.

Azərbaycan milli ədəbi dilinin hazırki inkişafı əsrlər boyu davam edən təbii axını ilə gedir, həm də ictimai-mədəni təsirləri özündə daha intensiv şəkildə əks etdirərək zənginləşir. Müəyyən vaxtlarda ərəb, fars, rus dili sözlərinə üstünlük verilib, sonradan onlardan əl çəkilməsi isə inkişafın tədriciliyini pozmur, çünki bu cür təbəddülatlar lüğət tərkibinin daxili ehtiyacından deyil, mədəni-ictimai mühitin özyndə subyektiv təsirlərin güclənməsindən irəli gəlir, ədəbi dilin təbii sabitliyi isə əvvəl-axır belə ifrat meylləri üstələyir.

Ümummilli lider Heydər Əliyevin milli dilimizə hədsiz hörmət və ehtiram nümunəsi kimi tarixə bir daha səs salan 2001-ci ilin iyul fərmanı bu dilin avqust ayından etibarən latın qrafikası əsasında işlənməsi və həyatımızın müxtəlif sahələrində tətbiq olunmasına tam təminat verən günün ən zəruri və aktual sənədidir. Bu, artıq bizim üçün bir fəxrdir ki, dünya sivil ölkələri içərisində latın əlifbası ilə işləyənlərdən biri də Azərbaycan xalqıdır. Azərbaycan xalqı bununla öz əvvəlki əlindən çıxmış mövqeyini

bərpa etdi, bununla Böyük türk qardaşının dilinə, qəlbinə inkişaf edib çiçəklənən mədəniyyətinə, maarifinə birbaşa yol açdı.

Deməli, XX əsrin sonu Azərbaycan mədəniyyətinin yeni keyfiyyətləri üzə çıxır: milli ideya, özünüdərk, özünümüdafiə etmə keyfiyyətləri yaranır, vətənimiz özünün müstəqilliyini bərpa edir. Unudulmuş M.Ə.Rəsulzadə, Əlibəy Hüseynzadə, Almas Ildırım kimi nəhəng fikir sahibləri sivilizasiyamızın üfüqlərini genişləndirir.

XX əsr Azərbaycan dili zənginləşir. O, dövlət dili statusu qazanır. Milli ədəbi dil olmaqla bütün sahələrdə geniş işlənmə imkanları əldə edir. Dilimizi adi ünsiyyət vasitəsi saymaq olmaz. O, qədim tarixi, zəngin mədəniyyəti, müasir dünyada öz mövqeyi olan bir xalqın mənəviyyatıdır. Xalqımızın milli mənliyi, əxlaqi mahiyyəti, həyatı qiymətləndirmək qabiliyyətidir. Milli «özgələşmə» məhz dilimizi, mənəviyyatımızı bilməməkdən, dərk etməməkdən irəli gəlir. Ona görə də Azərbaycan dili milli dəyər kimi qiymətləndirilməlidir. Düşüncə tərzi, fikri ifadəetmə qabiliyyəti bu dilin zənginliyindən irəli gəlir. Təsadüfi deyildir ki, Səlim Cəfərov, Muxtar Hüseynzadə, Əlövsət Abdullayev, Yusif Seyidov, Ağamusa Axundov, Ağamalı Həsənov, Fərhad Zeynalov, Nəsir Məmmədovun müasir Azərbaycan dilinə aid olan elmi tədqiqat əsərləri və dərslikləri Dövlət mükafatına layiq görülmüşdür. Ümumilli liderimiz H.Əliyev məsləhət və tövsiyyə üçün demişdir: «Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini – dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var. Bəlkə də biz bu dildə danışdığımıza görə öz dilimizin zənginliyni və gözəlliyini hələ tam dərk edə bilməmişik. Ancaq bilin ki, bu həqiqətdir. Ona görə də bunu heç bir dilə dəyişmək olmaz» [53, s.59].

# III FƏSİL

# Y.V.ÇƏMƏNZƏMİNLİ VƏ MİLLİ MƏSƏLƏ

## 3.1. Dövrün milli-etnik mənzərəsinə münasibət

XIX əsrin sonu və XX əsrin əvvəllərində milli müqəddərat və milli varlığımızın vəziyyti ilə bağlı mütəfəkkirlərin siyasi baxışlarnda müxtəliflik olsa da, mahiyyət etibarilə bu baxışlar xalqın mənafeyi naminə millət üçün dörd əsas əlamət irəli sürməyi özündə əks etdirir: ərazi birliyi, dil birliyi, iqtisadi həyat birliyi, mədəniyyət ümumiliyində təzahür edən mənəviyyat birliyi.

Azərbaycan xaldqının görkəmli siyasi xadimləri M.Ə.Rəsulzadə və N.Nərimanov da millət haqda müəyyən nəzəri müddəalarla çıxış etmişlər. 1914-cü ildə nəşr edilən «Birlik» jurnalının 1-ci nömrəsində M.Ə.Rəsulzadə yazırdı ki, millət dil birliyi, adət birliyi, ənənə birliyi, etiqad din birliklərinin məcmusudur. M.Ə.Rəsulzadənin lider olduğu «Müsavat» Partiyasının 1919-cu ildə qəbul etdiyi proqramında deyilir: «Millətin mənəviyyat və ruhiyyat cəhətindən başqa maddiyyat cəhəti də var: millət siniflərdən ibarətdr. Əksəriyyəti təşkil edən sinif zəhmətkeşlər sinfidir.

Bu etibarla millət demək xalq demokratiyası deməkdir. Həqiqi millətpərəstlər həmin xalqpərvərlərdir. Çünki millətin qüvvəsi, xalqın qüvvəsi deməkdir. Bir milli hökumət ancaq o zaman həqiqi milli hökumət olar ki, ondakı əsaslar imtiyazlı sinfi deyil, ümumi cəmiyyəti gözləsin, onların halını islaha yarasın» [87, s.125].

N.Nərimanov qeyd edirdi ki, «millətin dilini bilməmiş onun dərdinə dava etmək çətindir». Din birliyinin millət üçün xüsusi əhəmiyyət kəsb etdiyini yaxşı dərk edən Nərimanov millətin xüsusi əlaməti olmasa da, dini milli şüurun tərkib hissəsi kimi qəbul edir. Bu mənada islamın etik normalarını müsəlman xalqlarının dillərində geniş təbliğ etmək yolu ilə milli birliyin möhkəmlənməsinə böyük təkan ola biləcəyinə şübhə etmirdi. Milli məsələ haqqında V.I.Lenin də bir neçə əsər yazmışdır. Lakin milli məsələyə dair bütün əsərlərində o, sinfi mənafeyə üstünlük vermiş və milli məsələnin «proletar həlli» istiqamətini əsas götürmüşdür [87, s.126].

Y.V.Çəmənzəminli milli məsələyə milli münasibətlərin siyasi aspektlərindən qabarıq şəkildə üzə çıxan bir problem kimi yanaşmışdır. Milli münasibətlərin idarə edilməsi sahəsində dövlətin həyata keçirdiyi konkret fəaliyyət milli siyasətdir. Milli məsələ hər şeydən əvvəl milli hüquq bərabərsizliyi, millətlərin imtiyazlı və natamam hüquqlu millətlərə bölünməsi, onların inkişafının qeyri-bəRabərliyi deməkdir. Bunlara öz sosial-siyasi görüşlərində diqqətlə yanaşıb münasibət bildirən Yusif Vəzirə görə kon-

kret tarixi xarakter daşıyan milli məsələ müvafiq bir ölkənin, məsələn, Azərbaycanın bu və ya başqa inkişaf səviyyəsində mövcud olan milli problemlərini əks etdirir. O, yaxşı başa düşürdü ki, milli məsələ birdəfəlik və qəti həll edilə bilməz. Milli məsələ millətlər və xalqlar arasında dövlətdaxili və dövlətlərarası ünsiyyətdə üzə çıxan siyasi, iqtisadi, hüquqi, ideoloji, coğrafi və s. problemlərin məcmusudur. Çəmənzəminli AXC-nin Ukraynada səfiri olduğu zaman burada öyrənib əsaslandırdığı milli məsələni demokratik yolla tənzim etməyin əsas siyasi-hüquqi prinsipi olan millətlərin öz milli müqəddəratlarını təyin etməsi hüququ kimi qələmə verirdi. «Müsavat» Partiyası liderlərinin, o cümlədən, Y.V.Çəmənzəminlinin AXC milli siyasətinin əsasını başa düşməkdən ötrü millət və milli məsələ, milli siyasət, millət və sinif, millətçilik və beynəlmiləlçilik və s. haqqında olan nəzəri müddəaları nəzərdən keirmək zəruridir. Prof. Ə.M.Tağıyev AXC dövründə ictimai fikrin millətə verilən tərif üzrə iki böyük qütbə ayrıldığını şərh edir. Bunlardan biri millətin materialist və ya iqtisadi-siyasi izahı, ikincisi isə idealist və ya mənəvi-psixoloji şərhi idi. «Müsavatçılar 2-ci müddəanı müdafiə edirdilər. Müsavatçıların yeri gəldikcə millət anlamının dəqiq sərhədini müəyyən etmək çətin idi. Onlar bu məsələdə çox zaman dinçilərlə, bəzən isə materialistlərlə birləşirdilər» [145, s.31].

Y.V.Çəmənzəminli də ilk əvvəl M.Rəsulzadə kimi çıxış edir, milli muxtariyyət tələblərindən olan çıxışlarını da

məhz bu dövlət qurumunun çərçivəsində olmağı üstün tutmaqla qururdu. «Müsavat»çılar federasiyanın unitar dövlət tipindən fərqini müəyyən prinsip əsasında izah edirdilər. Lakin ictimai-siyasi hadisələrin kəskinləşdiyi bir dövrdə mərkəziyyət prinsipi ilə bütün irili-xırdalı etnik qrupları öz ətrafında birləşdirməyə gücü çatmayan bir ölkənin – Rusiyanın əvvəlki əzəmətinə xələl gəlməyə başlayırdı. Çünki hakimiyyəti ədəmi-mərkəziyyət prinsipi ilə idarə edib əldə saxlamaq çox zəruri idi. Hakimiyyəti çöl tərəfdən, ölkənin sərhəd hüdudlarından başlayaraq möhkəmləndirməyə bütün güc və bacarıqları sərf etmək lazım gəlirdi. Lakin artıq gec idi. Federalizm tərəfdarları kimi çıxış edən M.Ə.Rəsulzadə, Y.V.Çəmənzəminli və «Müsavat»ın digər rəhbər işçiləri artıq istiqlalçılıq kimi müstəqillik şüarı ilə çıxış edərək ADC-nin yaradılmasında iştirak etdilər. ADC-nin meydana gəlməsi və yaşaması səbəblərindən birini də məhz «azərbaycanlı milli mənlik» şüurunun formalaşması və «azərbaycanlı ideyası» təşkil edirdi [145, s.33].

Türkçülüyü və islamçılığı inkar etməyən bu ideya milli dövlət quruculuğunun yaradılmasında mühüm rol oynamışdır.

Y.V.Çəmənzəminlinin dövrü qeyd olunduğu kimi, çox ziddiyyətli və mürəkkəb tarixi hadisələrlə zəngindir. O, gələcək cəmiyyət haqqında fikirlərini siyasətin və hakimiyyətin sosial əsasları kontekstində açıqlamağa çalışmışdır. Onun «Biz kimik və istədiyimiz nədir?» əsəri ilə

dünyagörüşünün düzgün başa düşülməsinə imkan verən ictimai-siyasi görüşlərinin mühüm tərkib hissələrindən biri kimi milli dövlətçilik və idarəçilikdə dövrün milli etnik qruplarının mövqeyini və vəziyyətini müəyyənləşdirməkdə məqsədi dövrü üçün dəyişməz bir prinsip yeridən mövcud dövlətin, siyasi rejimin və ədalətin təcəssümü olması haqqında fikrin əsaslandırılması cəhdinə nail olmaqdır. Çəmənzəminli çarizm üsul-idarəsinə qarşı yüksələn azadlıq hərəkatı ilə bağlı əmisi Haşımbəy Vəzirovun çıxışlarına, bəzi qadağan olunmuş kitablara sonsuz inam və tələbkarlıqla yanaşmış, Ukrayna və Rusiyada, Qafqazda və xüsusən Azərbaycanda hakim və məhkum xalqlar arasında ayrı-seçkiliyin kiçik etnosların, xüsusən də Krım tatarlarının talelərinə biganəliyin, Rusiyada azadlıq hərəkatının artmasına, onun iştirakçılarına qarşı çarizmin əl atdığı amansız tədbirlərin acınacaqlı mənzərəsinə etiraz səsini ucaldırdı.

Bəzən bizi belə bir sual düşündürür: «Insan necə yaşamalı və işləməlidir ki, onun həyatı mənalı keçsin?» Bu sualın cavabını isə insan özündə axtarıb tapmalıdır. Bunun üçün birinci növbədə hər bir adam insanlığa xidmət etməli, dünyada yaxşı iz qoyub getməlidir. O, son dərəcə xeyirxah olmalıdır. Insanın mübariz olması onun şər qüvvələrə qarşı ardıcıl mübarizə aparması sayəsində mümkündür. Mustafa Kamal Atatürkün sözü ilə desək «millətə əfəndilik yoxdur, xidmət etmək vardır. Bu millətə xidmət edən onun zəka işi olur» [157, s.115]. Məhz insan amili baxımından millətinin,

xalqının xeyri üçün lazım olan işlərin, problemlərin həllinə girişməyi zəruri hesab edən Yusif Vəzir həm də məqsədli olması zərurətindən çıxış edir. Azərbaycanın tərəqqisinə, onun mədəniyyətinə öz töhfəsini verməyi əsirgəməyən mütəfəkkir milli məsələ ilə bağlı xalqının, millətinin və ümumən ölkəsinin vətəndaşlarının hüquq bərabərliyinin təmin edilməsində sosial sistemin – milli dövlət quruluşunda demokratik cəmiyyət üçün yararlı müəyyən optimal formaların rolundan, mahiyyətindən danışır. Dünya ölkələrinin təcrübəsi milli məsələnin həllinin siyasi prinsiplərini işləyib hazırlamaqda Yusif Vəzirə böyük imkan vermişdir.

O, müəyyən milli zəminədə insan cəmiyyətinin tərəqqisi üçün, onların təkamülü inkişafını sürətləndirən vəzifələr və metodları tətbiq edən Ukrayna Dövlət Radasının qəbul etdiyi qanunları izləyir, bunların xalqa, millətə nə dərəcədə dəyərli olduqlarına əmin olur, humanistlik baxımından, obyektivliyi əks etdirən bu qanunları müəyyən mənada Rusiya Dövlət Dumasının qanunlarına qarşı qoyurdu. Çünki Rusiyanın nəzarəti altına aldığı böyük bir ərazidə çoxlu etnik qrupların olmasına baxmayaraq, onların hər birinin milli müqəddəratının həlli istiqamətində müəyyən addımların atılmasında dövlətin rolu və təşəbbüsü hiss olunmurdu. Halbuki hər bir etnos böyüklüyündən və xırdalığından asılı olmayaraq müəyyən bir icmanın, cəmiyyətin yaradıcısıdır. Belə bir cəmiyyətin də aydındır ki,

düşünən, düşündürən aparıcı qüvvələri olmalıdır. Yusif Vəzir onlardan biri olan Krım tatarlarının adını çəkir və yazır: «Krımlılar bizim qan qardaşlarımızdır. Onların səadəti bizim səadətimiz, fəlakəti bizim fəlakətimizdir. Biz hər bir xüsusda krımlı qardaşlarımızı hürr və sərbəst görmək istəyiriz. Lakin burası da etiraf edilməlidir ki, Krımın qüvvəsi çox azdır. 150 ildir ki, onlar Rusiya mədəniyyətindən layiqincə istifadə edə bilməmişlər. Krımda yalnız bir nəfər mühəndis, iki nəfər hüquqşünas və beş nəfər doktor vardır ki, müstəqil yaşamaq istəyən bir millət üçün bu qayət az bir şeydir. Millət və məmləkəti idarə etmək üçün Yevropa elmləri ilə müchəz (təchiz, bəhrələnən) ziyalılar lazımdır» [33, s.37].

Göründüyü kimi, Yusif Vəzir Azərbaycan maarifçilərinin yolu ilə gedərək idrakda insanın xarici aləmə fəal təsiredici münasibətini duymuş, dünyanın dərk edilməsi proesində insanın özünün də formalaşması, bilik dairəsini genişləndirməsi, nəticədə yaşayış üçün yararlı şərait qura bildiyini əsaslandırmışdır. Deməli, insan hər şeydə təvəkkülə və taleyə yox, idrakın gücünə əsaslanmalıdır. Təsadüfi deyil ki, vaxtiləA.Bakıxanov «Təhzibül əxlaq» («Əxlaqın təmizliyi») əsərində «dünyadakı şeylərin hamısının yaranmışların ən şərəflisi olan insan üçün yaradıldığını, insana elm və bilik vasitəsilə örtülü sirlərdən xəbərdar olmaq bacarığı verildiyini söyləmişdir. [20, s.36].

Maarifçi mütəfəkkirlər kimi Yusif Vəzir Çəmənzəminli də hər yerdə insan ağlını, elmi biliyi, təhsil və

mədəniyyəti ön plana çəkmiş, dünyəvi elmlərin idraki əhəmiyyətini yüksək qiymətləndirmişdir. Yusif Vəzirin gəldiyi nəticədən aydınlaşır ki, Rusiya, Ukrayna və digər Avropa ölkələrinin tərəqqi tapmalarında, güclü inkişaf etmələrinin əsas səbəbi elm, maarif və mədəniyyətə daha çox üstünlük verilməsindədir.

Kiçik etnosların da bir-birinə oxşar tale yaxınlığında ən böyük problem Rusiya daxilində sərbəst və azad yaşaya bilməmələridir. Belə yaşayışın digər optimal yaşayışla əvəz olunması üçün elmin müxtəlif sahələrindən bəhrələnmiş çoxlu ixtisasçılara: müəllimlər, həkimlər, hüquqşünaslar, mühəndis kadrlarına malik olmaq və bunlardan xalqın səadəti üçün istifadə etmək, milləti və məmləkəti idarə etmək üçün, milli dövlət orqanlarında çalışmaq üçün irəli çəkmək zəruridir.

Krımda bir müddət xanlığı bərpa etmək fikri ilə işə başlamaq istəyənlər peyda olmuşdu. Yusif Vəzir onlara üz tutub deyirdi: «Məqsədim hər xüsusda sizə kömək etməkdir. Lakin sizdə qüvvə yoxdur. Xanlıq fikrini təqib etməklə yalnız siz başqalarını öz əleyhinəzə qaldırırsınız. Krımın o zamankı rəhbərlərindən biri Ismayıl bəy Qaspirinski öz vətənini mədəni ölkələr kimi təsəvvür edib bütün şüuru ilə Krımda özünə bir çox tərəfdar deyil, əleyhdar qazanmışdı. O, turançılıq ideyası ilə işə başlamaq, krımlıları Turan dün-yasının xırda bir parçası kimi şüar edərək nəinki krımlıları Turanla birləşdirə bildi, bəlkə onları tatarlıqdan da u-

zaqlaşdırdı. Halbuki krımlılarda qızğın bir tatar cərəyanı var. Bü xüsusda onların bir çox yazıları və mənzumələri də olmuşdur». [33, s.37].Yusif Vəzir həmin tatar şairlərindən birinin adını çəkməsə də, mənzuməsində şairin həyəcanlı fikirlərini aydın ifadə edərək yazırdı: «Əgər məni cəhənnəmə də sürüyüb salsanız, mən yenə tataram» [33, s.37 - 38].

Yusif Vəzir Krım müdiriyyətində sabiq Istanbul səfiri Çarıqovun maarif işinə baxan bir nümayəndə olmasından daha çox, onun tamamilə xarici siyasətlə məşğul olmasından söhbət açır. Onun Sazanovun fikrinə qarşı ədəmi-mərkəziyyət fikrini irəli sürməsi, Rusiyanı ədəmi-mərkəziyyət üsulu ilə idarə etmək istəyi səhv bir mövqe idi. Çünki artıq Rusiyada yaşayan bütün qeyri-ruslar Rusiyadan ayrılmaqda və onunla birləşmək istəməməkdə idilər. Çarıqov bunları yalnız ədəmi-mərkəziyyət üsulu ilə əski Rusiyanı ehtiva etmək (əhatə etmək, ayağa qaldırmaq) fikrinə düşmüşdü. Bununla bərabər, Rusiyanın paytaxtını da Petroqraddan Kiyevə köçürmək niyyətində idi. Bununla da Ukraynada tam şiddətlə qaynamaqda olan milliyyət fikrinin əleyhinə çıxmaq istəyirdi.

Deyilənlərdən belə bir nəticə çıxır ki, istər o zamankı türk, tatar, istərsə də rus və qeyri-rus rəhbərləri və başçılarında «millət» fikrinə qarşı «ədəmi-mərkəziyyət» fikrinin yaranması Rusiyada o vaxt yeridilən siyasətin yeni təzahür forması idi. Əvvələn, bu «ədəmi-mərkəziyyət» fikri nədir? Rusiyada «federasiya», yaxud «imperiya» tərəfdarlarının azlıq təşkil edən kiçik, xırda xalqlardan

başlamış iri xalqlara qədər hamısını vahid bir ailədə birləşdirib onların milli varlıqlarını bir qəlibə, bir çərçivə daxilinə salmaq fikirlərində əsas siyasət bu idi ki, Rusiyanın hegemonluğunu gücləndirsinlər, vahid xalq yaradıb, vahid bir dildə maarif, mədəniyyət məsələlərini həll etsinlər. Siyasətdən digər məna bu idi ki, Rusiya öz xarici siyasətində istənilən bir dövlətə həmlə etmək, onu özündən asılı bir vəziyyətə salmaq üçün qeyri-rus millətlərdən, xüsusən müsəlmanlardan ibarət çoxlu qoşun düzəltmək, ordusunu nizamlamaq, döyüşə hazırlığını möhkəmləndirmək bacarığını əlində saxlamaq idi.

«Ədəmiyyət» ərəb sözü olub yoxluq, olmamaqlıq deməkdir. Deməli, «ədəmi-mərkəziyyət» «mərkəziyyətsizlik», «mərkəziyyətin olmaması» mənasında işlənir. Bəzi qatı millətçilər «ədəmi-mərkəziyyət» fikrini irəli sürərkən öz milliyyətinin danışıq, dil yaxınlığına görə qohum olan digər millətlərlə müəyyən bir mərkəz çərçivəsində mərkəz ətrafında birləşib vahid bir xalq yaratmaq istəyi kimi qələmə verirdi. Məsələn, Türkiyənin bütün türk dünyası ilə vahid bir ailədə birləşməsinin tərəfdarları, Rusiyanın bütün velikorus xalqları ilə müəyyən bir mərkəz ətrafında birləşməsi ideyasının tərəfdarları, bütün dünya müsəlmanlarını birləşməyə çağırıb vahid bir müsəlman dövləti təşkil etmək istəyənlər, yaxud dünya xristianlarının birləşməsi ideyasını irəli sürənlərin hamısının mövqeləri yanlış və səhv idi. Belə bir mövqe Yusif Vəzir anlamında

qeyri-humanist, mənfur, xəbis niyyətlərlə bağlı siyasət idi. Yusif Vəzir yazırdı: «Sazanov, Çarıqov kimi siyasətbazlar Rusiyanı bütün əzəmət və həqiqətlə yenidən əhya etmək istəyirdilər. Qəribədir ki, bunu da hər kəsdən artıq Rusiyada milliyyət cəhətincə əzilib təzyiq edilməkdə olan tatarların və müsəlmanların əli ilə yapmaq istəyirlər. Lakin Krım müdiriyyəti çağırılan qurultayda açıqdan-açığa ona etimad bəsləyənləri alqışlayıb əsgərliyə adam yığmaqdan imtina etmişdir. Denikin hiddətlənərək qurultayın əleyhinə çıxışlar edir, Rusiyada baş verən inqilabları təsadüfi bir şey hesab edir, öz çıxışları ilə əslində Rusiyada zühur edən milliyyət məhsullarının qabağını almaq istəyirdi» [33, s.38].

Bu bir tarixi sübutdur ki, Oktyabr inqilabının bayrağı altında 15 müttəfiq respublikalarla birləşib sovet imperiyası yaradan Rusiya özü də daxil olmaqla həmin respublikalarda yaşayan xalqlardan ibarət yeni bir qurum «sovet xalqı» məfhumunu irəli atdı. Bu qurumla nəfəs alan, 70 il hökmranlıq edən sovet imperiyası, nəhayət ki, saxtakarlığa, qondarma rejimə dözməyib içəridən laxlanmağa başladı. Bu da xalqların öz müstəqilliyinə, istiqlaliyyətinə geniş meydan açdı.

Yusif Vəzirin məruzəsindəki hər bir abzas, məqalələrindəki hər bir sətir gələcəyə belə bir inam yaratmışdı ki, xalqın əsrlərlə beyninə və ürəyinə yol tapmış, nəsildən nəsilə keçmiş adət-ənənələri, dini ayinləri bayram və mərasimləri ləğv etmək olmaz. Xalqın iradəsinə, xalqın arzu

və istəyinə zidd getmək olmaz. Iki min illik tarixdən çox yaşı olan adət-ənənələrimizin kökünü kəsmək, onları digər qondarma adətlərlə əvəz etmək istəyi arzudan doğmamış, təkid, zor gücünə mümkün olmuşdur.

Dövrünün olduqca mürəkkəb olan milli-etnik mənzərəsinə özünün şəxsi münasibətini bildirən Yusif Vəzir başa düşürdü ki, böyük dövlətlər nə qədər cəhd göstərsələr də, öz tərkibində müəyyən tarixi-coğrafi bütövlüyü qoruyub saxlayan kiçik xalqların və millətlərin, milli istiqlal sədasını susdura bilməyəcək, buna heç onların haqqı da yoxdur. Odur ki, vaxtilə Osmanlı imperiyası daxilində ermənilər, bolqarlar, rumlar, yunanlar, serblər və başqaları milli və dini məsələlərində azad olduqları üçün ümumi məmləkət mədəniyyətindən ayrılıb öz milli mədəniyyətlərinin inkişafına çalışdılar. Eləcə də Rusiyanın da ərazisində milli tarixi-coğrafi mövqelərə malik xalqlar yaşadıqlarından onların bir çoxu artıq milli istiqlaliyyət qazanmış, milli muxtariyyət, milli mahal və s. milli qurum haqqında fəaliyyətlərinə davam edirlər.

Böyük demokrat sonrakı diplomatiyasında bunu əsas tuturdu ki, hər hansı güclü təcavüzkar dövlətdən qorunmaq üçün daha güclü, lakin sülhsevər iri dövlətlərə sığınmaq, onlarla dostluq əlaqələrimiz bizə qarşı təcavüz etmək istəyən digər dövlətləri həmin addımdan çəkindirərdi.

Təsadüfi deyil ki, Türkiyə özünü keçmiş SSRI-dən qorumaq üçün ən etibarlı dayağı digər daha güclü təşkilatda

və ölkədə, NATO-da və ABŞ-da tapdı. Odur ki, diplomatik addımlarımızda bu cür faktlardan bəhrələnməyi bacarmalıyıq. Avropa dövlətlər birliyində də əsas məqsəd birləşmiş dövlətlərin ən çətin şəraitdə iqtisadi, siyasi, mədəni həyatlarının bütün anlarında bir-birinə yardımçı olmaq, bir-birinin şərəf və ləyaqətini qorumaqdır.

Çəmənzəminli onu da qeyd edir ki, türk idarələrində ən qədimdən bəri ərazisində məskun olunmuş millətlərə qarşı ədalətlə münasibət bəslənmiş, onların daxili işinə qarışılmamışdır. On ikinci əsrdə Qərbə doğru axıb gələn tatar qüvvələrinə nə qədər vəhşilik isnad etsələr də, onların idarəsinin ədalətli olduğunu söyləyənlər çox olmuşdur. Necə əsr Rusiyanı hökmü altında saxlayan tatarlar rus millətinin daxili işlərinə qarışmamışdı, dini və milli məsələlər tatar hakimiyyətindən kənarda qalmışdı. Eyni halı Osmanlı idarəsində də görürük. Ermənilər, bolqarlar, rumlar, qreklər, serblər və başqaları milli və dini məsələlərində asudə idilər. Ancaq Türkiyə Amerika kimi güclü və qüvvətli bir mədəniyyətə malik olmadığı üçün əlinin altındakı millətləri saxlaya bilmədi. Türkiyədə sakin olmuş bütün millətlər ümumi məmləkət mədəniyyətindən ayrılıb, öz milli mədəniyyətlərinin inkişafına çalışdılar.

Məlumdur ki, keçmiş Rusiya dövləti də çoxlu millətlərdən ibarət olub. Burada əksəriyyət təşkil edən velikoruslardan başqa finlər, estonlar, latışlar, litvalılar, polyaklar, beloruslar, malo ivanlar, ukraynalılar, gürcülər,

ermənilər, türk, tatarlar və yəhudilər də var idi. Rusiya ən fəna bir idarəyə malik idi. Velikoruslardan hesab edilən Rusiya öz din və milliyyətini məhkum millətlərə zorla qəbul etdirmək istəyirdi. Məhkum millətlər özlərinin daim asılı vəziyyətdə olub güzəranlarının hakim millətlərdən qat-qat aşağı olmasını duyaraq rus mədəniyyətinə alışmaqdan çəkinirdilər. Beləliklə, məhkumlarla hakimlər arasında daimi bir uçurum yaranmaqda davam edirdi. Çəmənzəminli uçurumun bir tayında bu Azərbaycanın taleyini diqqətlə izləyirdi. On ikinci əsrdə hökmranlıq edən Atabəy Şəmsəddin Eldəgiz indiki Qafqaz və Iran Azərbaycanını birləşdirdi, onları bir ölkə şəklinə saldı. Atabəy Nəsrəddin Əbubəkr ibn cahan Pəhləvan aranda, yəni indiki Qafqaz Azərbaycanında və əsl Cənubi Azərbaycanda iyirmi il səltənət başında oturubdur. Bugünkü Azərbaycan ən sağlam vücuda malikdir. Burada tam əksəriyyəti təşkil edən Azərbaycan türkləridir.

Azərbaycan türkləri digər xırda xalqlar və azlıq təşkil edən etnoslarla birlikdə Azərbaycan xalqını təşkil edir ki, bunların da milliyəti hazırda azərbaycanlılardır. Azərbaycanlıların özünəməxsus mədəniyyəti var. Bu mədəniyyət onun ərazisində yaşayan və qonşu xalqların mədəniyyətini öz təsiri altında saxlamaqdadır. «Qüvvətli istiqlal» məqaləsinin son səhifəsinin 3-cü abzasında ədib yazır: «Dilimiz Qafqazda, Xəzər arxasında və şimali Iranda ümumi bir dildir. Bu dildə Dağıstan qövmləri, ermənilər, bir çox teatromuzdan

qonşularımız da faydalanırlar. Milli operamız vətəndən dışarılarda da şöhrət tapmağa başladı» [33, s.44].

Bu hallar mədəniyyətimizin qüvvətliliyinə dəlalət edir. «Indiyə kibi biz məhkum idik, lakin mədəniyyətimiz hakim idi. Yəni qeyri-məcburi olaraq qonşularımız arasında yayılırdı. Bundan sonra ehya olunmuş istiqlaliyyətimiz sayəsində mədəniyyətimiz geniş meydan olacaqdır» [33, s.45].

Yusif Vəzirin böyüklüyü ondadır ki, qəlbən dərin milli hisslərlə bağlı olduğu Vətəninin – Azərbaycan Xalq Cümhuriyyətinin indisini və xoşbəxt sabahını əbədiləşdirmək istəyənlərdən olmuşdur.

Y.V.Çəmənzəminli belə bir faciəli mənzərənin canlı şahidi olmuşdur ki, keçmiş Rusiyanın nüfuz və şöhrətinə xələl gəlməməsi üçün hegemonluğun qanadları altında məzlum xalqların müqavimətsiz, daimi yaşamasını təmin etmək üçün rus siyasətbazları, mücərrəd nəzəriyyəçiləri və məmləkətçiləri dəridən dırnaqdan çıxırdılar. Çarizmin iflasa uğradığı bir ərəfədə rus fəhlələri yəqin etdilər ki, Rusiyanı tənəzzüldən qurtarmaq, bir növ onu «ehya etmək» olmayacaq. Kerenskinin mücərrəd nəzəriyyəsinin tərəfdarı da buna heç cürköməklik göstərə bilmədilər. «Denikin qorxusu» məqaləsində Yusif Vəzir yazırdı ki, «Rusiyanın köhnə şəklinə salmaq üçün orada sakin olan başqa millətlərdən istifadə edilməlidir. Bu millətlər arasında sadiq və cəsurluğu ilə məlum olan Rusiya müsəlmanları da nəzəri cəlb

eləyirdi… «Birinci müsəlman ordusu»nun Ukrayna hökuməti nəzdindəki komissarı, miralay Tuqan Baranovski ilə olan müsahibəmlə anladım ki, Don fəhlələri «Müsəlman ordusu»na böyük ümidlər bəsləyirlər» [33, s.60].

Rusiya ehyaçılarının canfəşanlıqları Yusif Vəzirin məqaləsində aydın və məcazi şəkildə təsvir olunur: «Xülasə, avam dili ilə danışaraq deyə bilərik ki, köhnə Rusiya üçün qaynayan bir qazanın altına bizi odun əvəzinə atmaq istəyirlər. Məsələ aydındır: Denikinə odun lazımdır ki, Rusiya qazanını qaynatsın, başımıza bəla etsin. Deməli, bizim yağımız ilə bizi qovurmaq istəyirlər. Bunu cəmi müsəlman bu gün anlayıbdır. Odur ki, Krım müsəlmanları Denikinə əsgər vermədilər və bu səbəbdəndir ki, inquş qardaşlarımız əllərinə silah alaraq ölmək istəyirlər, namuslarını satmaq istəmirlər» [33, s.61].

Iki yüz əlli ildən çoxdur ki, Rusiyadan Azərbaycana demək olar ki, xeyir gəlməmişdir. Əgər savad, mədəniyyətimiz, maarif, təhsil, elmdə irəliləyişimiz olubsa da, əvəzində hissə-hissə torpaqlarımız, sərvətlərimiz, neftimiz qurban gedib. Azərbaycanı Iranın bir tərkib hissəsi sayan Rusiya bu torpaqlara özünün işğal zonası kimi baxmış, burada yaşayan Azərbaycan türklərinin milli heysiyyətinə daim qara kölgə salmışdır. Rusiya şovinistlərinə qarşı mübarizədə daim sayıq dayanmağı tövsiyə edən Yusif Vəzir daha sonra yazırdı: «Hökumətimizin ciddi tədbirləri Denikin qorxusunu vətənimizdən uzaqlaşdırır. Bu yolda xalqımızın geniş dairəsi

hökumətimizə kömək etməlidir. Xalq anlamalıdır ki, Denikin gəlsə, vətənimiz alt-üst olacaqdır. Əvvəla, daxildə zidd qüvvələr bizə qarşı çıxacaq, ikincisi, bolşeviklik meydan alacaqdır. Təcrübə göstərdi ki, Denikin ayağını basan yerlər bolşevik olur. Çünki «dükan yanarsa, siçan da yanar». Bu baxımdan Denikin siçanlarını öldürmək məqsədilə bütün dükanı yaxmaq (yandırmaq) lazım gəlir. Bu müsibətlər vətənimizə üz verməmək üçün Denikinin qara qüvvəsilə həmişə mübarizəyə hazır olmalıdır» [33, s.61].

Rusiyanı bürüməkdə olan böyük bir inqilab tüğyan edib aclıq çəkən milyon-milyon məzlum və məhkum insanların fəryad, ah-naləsinin, müharibələrdə zor gücünə əzəli torpaqlarından didərgin salınmış millətlərin ərşə yüksələn nifrət sədaları idi. 1916 - 17-ci illərdə Rusiyanın xırda burjua ictimai-siyasi təbəqələri fəhlə sinfinin, var-yoxdan çıxmış xırda sahibkarların, kəndlilərin guya mənafeyinin ifadəçiləri kimi çıxış edərək Bakunin kimi anarxiya tərəfdarlarını irəli çəkdilər. Şəxsiyyətin azadlığı və hüquqları naminə onlar dövləti ictimai bəlanın, ictimai ədalətsizliyin möhnətindən xilas etmək üçün üçün terrora, terrorçuluğa əl atır, kimin artıq nəyi varsa, zor gücünə əlindən alıb miskin vəziyyətə salırdılar. Bakunin özünün anarxist nəzəriyyəsini irəli sürərək «Bolşevik qorxusu» məqaləsində Yusif Vəzirin yazdığı kimi söyləmişdir: «Yıxıcılığın şirinliyində yaradıcılıq ləzzəti var. Iştə Bakunin şüarı! Bakunin kimi beynəlmiləl inqilabçını rus xalqı yetirib. Bu xalq bir çox

hakimiyyət tanımayan məzhəblər ilə əsrlərdən bəri mübarizə edə-edə gəlmədədir. Bizim Qafqaza mühacir surətində gələn malakan, duxabur və başqaları da sürgün olaraq gəlmişlər. Rusiyadakı məzhəblərin əksəriyyəti müharibəni inkar edən, hakimiyyəti tanımayan və kommuna şəklində yaşamağı sevən qüvvələrdir» [33, s.62].

«Keçmiş səhvlərin mənfi nəticələri!». Görəsən, bu hansı səhvlərdir ki, özünün mənfi nəticələrini doğurmuşdur. Tarixdən bizə məlumdur ki, saysız-hesabsız mənasız müharibələr girdabında əzilən xalqlar, var-yoxdan çıxan məhkum və məzlum xalqların başına gətirilən min-min fəlakətlər onları hansı məhrumiyyətlərə düçar etməmişdir? Millətindən, dinindən, ərazisindən asılı olmayaraq yeridilən səhv siyasət üzündən əzilən millətlərin acı fəryadları üçün nəhayət bir sonluq olmalı idi. Elə bir sonluq ki, burada aclıq çəkən, dilənçi kökündə olan, günlərlə, həftələrlə çörək tapmayan, boş vədlərlə yatızdırılan, ümidlə yaşamağa təhrik edilən, hirsindən acınacaqlı taledən gözlərinə qan daman bir xalqın haqsızlığına, hərc-mərcliyə son qoya bilən bir mübarizə, düzgün yeridilən hər cür dövlət siyasəti «bolşevik qorxusu»na gətirib çıxarmazdı. «Bolşevik» sözü çoxluq olduğu üçün aclıqdan, dilənçilikdən məhrumiyyətə düçar olanların sayı Rusiyada istər XIX əsrin sonu, istərsə də XX əsrin əvvəllərində artmaqda idi. Demək olar ki, əhalinin böyük əksəriyyəti aclıq çəkir, zülmün yuvasını çar istibdadında görürdü. Bu cəhəti hiss edən Yusif Vəzirin

anlamında aclıq çəkənlərin «intiqamlar»ı meydana çıxdı, hərc-mərclik geniş Rusiyanı ağzına aldı. Dinə hörmətsizlik, allahı unutmaq halları bir qrup varlı təbəqəli adamların, rus aristokratiyasının, müharibələr aparmaqla torpaq işğal edən çar rejiminin faciəli sonluğu ilə nəticələndi… Yaxşı yaşamaq yollarını göstərməyən, yaşamaq üçün yaxşı şərait yaratmayan hər hansı bir ölkənin gələcək taleyi sual altındadır. «Keçmiş səhvlərin mənfi nəticələri» ictimai ədalətsizliyə gətirib çıxarır. Harada yaşayışın, dolanışığın mənəvi yüksəlişin tarazlığı pozulursa, orada birinin digərinə qarşı azlıqda qalanlara qarşı intiqamı, mübarizə alovu genişlənir. Daha sonra Yusif Vəzir yazırdı: «Yaxmaq, yıxmaq və öldürmək» şüarı hər yerdə hökm-fərmadır. Bu gün etiraf edəriksə, Şərq dəxi bolşevikliyə alışmaqdadır [33, s.63].

«Bolşevik qorxusu» məqaləsi Rusiyada Oktyabr inqilabının qələbəsindən bir il sonra qələmə alınmışdır. «Bolşevizm» haqqında onun mahiyyətinin bütün aydınlığı ilə açılması heç şübhəsiz ki, Azərbaycan ziyalılarının daim diqqət mərkəzində olmuşdur. Bir çox illər bolşevizmin yeritdiyi mənfur siyasəti qarşısında çaşqın qalan millətlər az qala dinlərini, milli varlıqlarını, xalqın milli-adət-ənənələrinə xas olan ən bariz nümunələri belə unutmuşdular. Oktyabr inqilabı daha sonra Qafqazda, bütün ərazilərdə yaradılan süni inqilablar xalqı istəsə, istəməsə də zorla Oktyabrı alqışlamağa səsləyirdi. Ədalətsiz toxumu səpmiş bolşevizm zor gücünə yaratdığı cəmiyyəti axıra qədər əlində saxlaya bilməyəcəkdi.

Ictimai ədalətsizlik, haqsızlıq, «bir nəfərin hamı üçün, hamının bir nəfər üçün» prinsipi ilə işə başlamağın son həddi yenə inqilab və inqilabdır. Inqilab isə təkamülün əksidir. Ictimai inqilab – ictimai və siyasi quruluşda ictimai məhsuldar qüvvələrin və istehsal münasibətlərin inkişafında əsaslı çevrilişdir.

Sovet imperiyasının 70 ildən sonra dinc yolla dağılması prosesi labüd idi. Bu prosesin dağılma proqnozları haqqında ümummilli lider Heydər Əliyev hələ SSRI hökumətində yüksək vəzifələrdə işlədiyi vaxt öyrənmiş, uzaqgörənliklə söyləmişdir [53, s.84].

Yusif Vəzirin bolşevizm haqqında son mülahizələri bizi bir daha sayıq olmağa, Vətənimizin müstəqilliyinin əbədi təminatı üçün birliyimizi möhkəmləndirməyə sövq edir. Müəllif yazırdı: «Azərbaycanda asayişin təmini üçün torpaq və əmələ məsələlərinin həllini təxirə salmamalıdır. Kağıza yazılanlar iş ilə nəticələnməlidir. Sonra idarəmizin tənziminə çalışılmalıdır. Ədalətsizlik ilə qəti surətdə mübarizə etməlidir. Məmləkətimizin hər nöqtəsinə təftiş heyətləri göndərilməlidir. Idarələrimizi sağlamlaşdırmalıdır. Əminik ki, ədaləti təmin etdirsək, acıq və intiqama yer qalmaz və bolşeviklik qorxusundan vətənimizi mühafizə etməyə müqtədir olarıq» [33, s.63].

Müstəqilliyimizin və istiqlaliyyətimizin indiki bərpa dövründə Yusif Vəzirin hamımızda oyatdığı fəallıq

müstəqilliyimizin təminatını əbədiləşdirən milli dövlətimizin ətrafında sıx birləşməyə bir çağırışdır.

Rus tufanından həmişə zərər görmüş ölkələrdən biri də Irandır. Yusif Vəzir öz görüşlərində Irana da müəyyən yer ayırmışdır. Onun «Iran və biz» məqaləsində Rusiyanın Iran ərazisində törətdikləri vəhşilikləri, Iranın daxili işlərinə daim qarışmasını, Iranın mədəni abidələrinə, dininə dəyən rus zərbəsindən məzlum xalqın göz aça bilməməsini ürək yanğısı ilə qeyd edir: «Daima ölkənin heysiyyəti ayaqlar altında tapdanmaqda idi. Təbrizdə müctəhidlərin asılması, məşhəddə Imam Rza qəbri-şərifinin təhqir olunması hamının yadındadır. Biçarə Iran rus zərbəsindən göz aça bilmirdi ki, ölkənin rahat və tərəqqisinə çalışsın. Rus yıxıldı. Rus ilə Iran arasında Azərbaycan dövləti təşkil edildi. Rus qorxusuna qarşı Qafqaz dövlətləri döşlərini sipər edərək durdular və duracaqlardır. Iran da asudə nəfəs almağa başladı...» [33, s.55]. Azərbaycan dövlətinin yaranması Iran üçün həm əlverişli, həm də islam aləmində yeni bir tərəqqinin baş verməsi baxımdan əhəmiyyətlidir. Artıq Iran özü ilə Rusiya arasında Azərbaycanın hesabına bir sipər qazanmış, Rusiyaya layiqli bir cavab verməyə hər cür imkan qazanmışdır. Islama əsaslanan iki ölkənin mehriban qonşuluq şəraitində dostluq etmələri, istiqlaliyyətdən qarşılıqlı şəkildə faydalanmaları onları düşmən məkrindən uzaqlaşdıracaqdır. Iranda hər cür daxili rahatlıq, islahatların keçirilməsi bizim rahatlığımız və tərəqqimiz olardı. Rus rəqabəti Iranı iqtisadi cəhətdən həmişə

əzmişdir. Yusif Vəzir yazırdı: «Biz istərdik ki, Iranın iqtisadi qüvvələri artsın. Çünki məmləkətin məhsulları Azərbaycan yolu ilə başqa məmləkətlərə nəql olunacaqdır. Iqtisadca tərəqqi etmiş Iranın alıcıları artar və biz də oraya artıq mal yeritməyə müvəffəq olarıq. Müstəqil yaşayan Iranın yolları çoxlaşacaq, nəqliyyə vasitələri gözəlləşəcək, insanların asayişi təmin olunacaq və bunların sayəsində də bizimlə Iran arasında alış-veriş yüngüllük ilə yola gedəcəkdir» [33, s.56].

Iran barədə Yusif Vəzirin mülahizələrinə əsaslanıb bunu demək olar ki, XX əsrin əvvəllərindən ta 70-ci illərə qədər Iranda milli-azadlıq hərəkatının ayrı-ayrı mərhələlərdə şah rejiminə qarşı kəskin hal alması mövcud quruluşla, rejimlə barışmazlığın əyani sübutu olmuşdur. Iran xalqı öz milli-azadlıq hərəkatında sabit bir yol seçərək dönməz olmuş, çoxlu inqilab mücahidləri yetirmişdir. Bu mücahidlərin başında ağıllı sərkərdələr durmuşdur. Səttarxan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri kimi sərkərdələrin rəhbərliyi altında baş vermiş milli-azadlıq hərəkatları Iran şah rejiminin qəddar cəza tədbirləri nəticəsində dayandırılmış, bu inqilabların, hərəkatların başçılarına divan tutulmuşdur. Xalqın haqq səsini susdura bilməyən bir rejim, nəhayət ki, Islam dininin sosial ədalət prinsipləri qarşısında dözməyib təslim oldu. 1979-cu ilin fevralında Ayətullah Xomeyninin rəhbərliyi ilə Iran Islam Respublikası yarandı.

70 ildən sonra sovet imperiyasının dağılması Azərbaycana əvvəlki müstəqilliyinin bərpası üçün yeni imkanlar açdı. Azərbaycan hazırda müstəqillik yollarında irəliyə doğru addımladıqca öz yaxın, dost qonşusu ilə – Iranda daim mehriban qarşılıqlı sülh şəraitində yaşamağı başlıca amil hesab edir. Beynəlxalq Islam Şurasına daxil olan Azərbaycan müstəqil müsəlman dövlətləri içərisində gələcəyə inamla baxan bir dövlətdir.

Bunu Y.V.Çəmənzəminli də səmimi-qəlbdən arzu etmişdir. Onun qonşu Gürcüstanla əlaqəmizin hər iki tərəfə fayda verəcəyinə, respublikalar arasında dostluq, əməkdaşlığın genişlənməsinə, heç bir tərəfdən maneə olmayacağına inanırdı. «Gürcüstan və biz» məqaləsində azərbaycanlılarla gürcülərin dostluğuna ədib ən təbii bir hal kimi baxırdı. Şimaldan rus qorxusuna qarşı iki qonşu xalqın kip dostluğunu vacib sayırdı. Hər iki dövlət müdafiə məqsədilə dinc məqsədlər üçün əsrin demək olar ki, çox illərində birləşmiş, müstəqil yaşamaq istəmişlər. Azərbaycan da, Gürcüstan da bilirlər ki, bir qorxu baş verərsə də, onun xətəri hər iki tərəfə sirayət edəcəkdir. Məqalənin birində Y.Vəzir yazır: «Gürcüstan ilə aramızda qovğalı bir məsələmiz yoxdur. Acar məsələsi aramızda soyuqluq doğura bilməz. Bu məsələnin iki dövlətin faydasına uyan bir şəkildə həll olunmasına əminik. Ümumi fayda üçün Gürcüstana maddi köməkdə bulunmalıyıq» [33, s.53].

Y.V.Çəmənzəminli uzaqgörənliyini təsdiq edən qabaqcıl ideyalar çağdaş həyatımızın bu günündə də qiymətli və zəngin bir xəzinə kimi cəlbedici və maraqlıdır. Azərbaycan və Gürcüstan respublikalarının həmrəyliyinə, dost niyyətlərinə, bir-birinə qarşı mehriban, qarşılıqlı əməkdaşlıq əlaqələrinə ürəkdən sevinən milyonlarla gürcü və azərbaycanlılar üçün Yusif Vəzir humanizmi, milli-mənəvi sərvətlərimizin mənbəyidir. Azərbaycan hazırda Gürcüstan və Ukrayna dövlətləri ilə birlikdə qədim ipək yolunun təşkili ilə əlaqədar əldə olunmuş razılıq əsasında Azərbaycandan Gürcüstana, oradan da gəmi vasitəsilə Ukraynaya daşınan neft, neftdən hazırlanmış digər məhsulların, habelə qazın nəql olunmasına dair layihə həyata keçirilir. 1999-cu ilin 16 aprelində Gürcüstanın Poti gəmi limanından Bakı – Subsa, Ceyhan neft və qaz kəmərlərinin Türkiyə, Ukrayna və digər Avropa ölkələrinə nəql olunmasının açılışı keçirilmişdir.

Tarixi hadisələr göstərir ki, Azərbaycan və Gürcüstan birgə siyasət aparanda, onların gücləri birləşdiriləndə heç kəs bu dövlətləri əzməyə cürət etməyib. Bu gün də belədir. Gürcüstanla Azərbaycanın həmrəylikdən başqa çarəsi yoxdur. Çeçenlərlə müharibə göstərdi ki, rus Vanya daha bu xalqlarla yumruqla danışa bilməz. 1918-ci ildə ermənilərlə gürcülər arasında olan müharibəni də ruslar saldılar, çünki dünyada elə bir möcüzə olmayıb ki, balaca bir xalq böyük əraziləri ələ keçirmək istəsin. Bu əraziləri «fəth» etməyi ermənilərin qulağına ruslar oxuyurdular. Yaxşı məlumdur ki,

Abxaziyada gürcülərə qarşı vuruşan Baqramyanın briqadası olub. Ermənilərin bədbəxtliyi ondadır kiqatı millətçi, içləri boş olsa da, özlərinə aludədirlər. Bu isə çox qorxulu şeydir, bunun sonu məhv olmaqla nəticələnə bilər. Bu gün Azərbaycandan və Gürcüstandan torpaq iddiası etməklə onlar özlərini bütün dünyada acgöz kimi tanıtdılar. Istər siyasətdə, istərsə də qonşuluq münasibətlərində uduzurlar.

Keçmiş SSRI-də xalqların bir-birini sevməsi təlqin olunurdu. Məsələn, Gürcüstan Xakasiyanı, Azərbaycan isə Komini sevməli idi. Amma indi dövr dəyişib. Kimin kimi sevməsi özümüzdən asılıdır.

Yusif Vəzirin «Əfkari-ümumiyyə», «Ermənistan və biz», «Ingiltərə ilə dostluq» məqalələri də müasirlik baxımından çox maraqlı və aktualdır. «Əfkari-ümumiyyə» (ictimaiyyətin fikri) məqaləsində o, ictimaiyyətin fikrini topdan, tüfəngdən, zirehlərdən də qüvvətli hesab edir. Hakim və məzlum millət olmasından asılı olmayaraq, hamıda rəsmi qəzetlər nəşr etmək, teleqraflar ilə əfkari-ümumiyyəni öz tərəfinə çəkmək meyli vardır. Məhkum millətlər bu yolda çox çalışırlar. Əfkari-ümumiyyəni qazanmaq üçün bəzən məhkum millətlərin hərəkətində məhkum hallar meydana çıxır. Məsələn, ədib məqalənin bir yerində yazır ki, «Avropa şəhərlərindən birində olarkən bir erməninin cocuğa güllə atdığını qəzetdə oxumuşdur. Ermənidən cinayətin səbəbini soruşduqda demişdi: «Bu cinayət ilə erməni cocuqlarının halından sizi xəbərdar eləyirəm, onları Osmanlıda qırırlar»

[33, s.52]. Belə qəribə informasiyalarla bütün dünya ictimaiyyətini öz tərəflərinə çəkən ermənilər çox şeylərə nail ola bilirlər. Müəllif məqalənin ikinci səhifəsində yazır: «Neçə il əvvəl içəri Rusiyada dəmiryol ilə gedərkən başqa bir məmləkətə rast gəldim; bir bolqar cocuğu stansiyanın birində vaqona minib bütün miniklərə kağızlar yayırdı. Məzmunu təqribən bu idi: «Vəhşi türklər dilimi kəsdiyi üçün danışa bilmirəm. Təvəqqe edirəm bana kömək edəsiniz». Bu işin doğru olub-olmadığını kimsə təhqiq etmirdi. Lakin rəğbətini Bolqar məsələsi qazanırdı və türklərə də nifrət qalırdı» [33, s.52]. Beynəlxalq aləmdə «əfkari-ümumiyyə»nin öz tərəfinə həllini təmin etmək məqsədilə erməni hoqqabazlarına züy tutanlar belə güman edirlər ki, nə qədər ki, bir çox məhkum millət «qəflət» yuxusundan oyanmayıb, onların mövcud hallarında öz xeyirlərinə istifadə etməyə girişmək lazımdır. Təsadüfi deyil ki, bir çox mənbələr içərisində türklər haqqında bayağı, xoşagəlməz ifadələrə də rast gəlinir. Bunları yayanlar dünya ictimaiyyətinin fikrini azdırmaq, ürəkləri mərhəmət hissi ilə dolu xeyirxahlıq, mərdlik, comərdlik keyfiyyətlərinə görə heç də dünyanın sivil millətlərindən geri qalmayan türklərin mövqeyini kölgəyə almaqdır. Lakin millət ayılmışdır. Azərbaycan əhalisinin sayına görə kifayət qədər instituta, universitet, akademiya və digər özəl təhsil müəssisələrinə malikdir. Dünya ictimaiyyətinin fikrini yalan və böhtan xarakterli informasiyalarla azdırmaq istəyənlərə cavab verənlərimiz içərisində kifayət qədər istedadlı, xalq

cəbhəsindən çıxış edən qeyrətli oğul və qızlarımız vardır. Onlar hiss etmişlər ki, yaşamaq naminə dərdlərini söyləməli, səslərini çıxarmalıdırlar.

«Əfkari-ümumiyyə»ni cəlb etmək üçün yuxarıda göstərilən ifrat vasitələrdən başqa bir də adi yollar var ki, Yusif Vəzir bunları sadə bir dillə ifadə etmişdir: «Hanki millət yaşamaq istərsə, öz dərdini söyləməlidir, səsini çıxarmalıdır. Səsini çıxarmağı bilməyən və bağırmağı bacarmayan bir millət həmişə əzilər. Səs vasitəsi də qəzetlər və məcmuələrdir. Qonşularımızdan bağırmaları ilə məşhur ermənidir. Bu millət dərdini və tələbini bildirməkdə böyük istedad sahibidir. Dünyada elə bir qəzetə yoxdur ki, erməni məsələsini yazmasın. Bundan başqa özlərinə məxsus bir çox qəzetə və məcmuələri var. Müharibə əsnasında Moskvada rus dilində «Armyanski vestnik» məcmuəsi verilirdi. Bu məcmuə başdan-başa erməniliyi təqdir və tərvic (işə salmaq) etmək ilə məşğul idi. Məcmuənin fikri ermənini ən mədəni bir millət şəklində Avropaya tanıtmaq idi. Odessada dəxi eyni fikirdə bir qəzetə çıxırdı. Bu gün Istanbulda fransızca qəzetələri var. Tələblərini Avropanın qulağına söyləməkdən çəkinmirlər» [33, s.52].

Göründüyü kimi, milçəyi fil boyda edən ermənilər hər sahədə özlərinin üstün olmalarına çalışırlar. Bəzən yalanı elə həqiqətləşdirirlər ki, kənardan baxan buna gerçəklik kimi baxır. Yusif Vəzirin bu məqaləni hələ yazdığı ildə, yəni

1919-cu ildə ermənilərin milli məsələ ilə bağlı doqquz yüz əsər çap etdirdiklərinə dair məlumatı olmuşdur [33, s.27].

Məqalənin sonunda Yusif Vəzir yazır ki, «müttəfiqlər Istanbula girdikdə romalılar ev və mağazalarını milli bayraqlarla bəzəyib və çalışıblar ki, Istanbulun zahiri görünüşünə yunan rəngi versinlər. Burada oxumaq lazım deyil. Hər kəs gözü ilə görür və bilir» [33, s.52].

Mənbələrdən məlumdur ki, yunanlar Istanbulu almaq iddiasında olmuşlar. Buna ixtiyarları çatdığını, haqlı olduqlarını sübut etmək üçün hər bir vasitəyə müraciət etmişlər. Yunanların, ermənilərin beynəlxalq aləmdə türkləri hörmətdən salmaq üçün əl atdıqları vasitələrdən birini çox gözəl təsvir edən böyük demokrat yazır: «Türklərin rəvayətinə görə, yunanlar Bəyoğlunda və qələlədə küçələri çox zibilli saxlayırlar. Hər nə əllərinə gəlir küçəyə tullayırlar. Səbəbi bu imiş ki, avropalılar türklərin «idarəsizliyini» görsünlər. Baxınız, nümayiş nə şəkil alır. Istanbulda bir ayrı nümayişə dair söylədilər. Bir neçə yüz erməni uşağı cırıq-cındır libasda şəhəri dolanmışlar. Məqsəd erməni qaçqınlarının halını bəyan etmək imiş»[33, s.52 - 53].

Avropa aləmində, Ermənistanda əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün dəridən, dırnaqdan çıxan millətlərin bu sahədə topladıqları təcrübəni dönə-dönə bəyan etməkdə böyük demokratın məqsədi öz xalqının, millətinin halı ilə maraqlananların çox az olduğunu təəssüf hissi ilə qeyd etməsidir. Məqalənin son abzasında ədib yazır»: «Bizim

müsəlman aləmində əfkari-ümumiyyənin rəğbətini qazanmaq üçün az çalışılır. Onun üçün dərdlərimiz kimsəyə bəlli olmur və biz ilə maraqlanan az olur. Son səyahətim zamanında bir çox Avropa siyasiyunla görüşdükdə, təəssüf ki, əcaib hallar gördüm. Bizim Azərbaycanın nərədə olduğunu çoxları bilməyirmişlər. Siyasi adamlar məmləkətimizdən xəbərsiz olduqda, biz ermənilərdən də çox çalışmalıyıq ki, özümüzü tanıdaq. Bu yolda birinci addımları səfirlər ilə konsullarımız atmalıdırlar. Gürcü konsulxanalarında bir mətbuat şöbəsi var. Bunun vasitəsilə məhəlli qəzetlərdə Gürcüstana dair məlumat verilir. Biz də eynini düzəltməliyik, tariximizi, məmləkətdə sayımızı və iqtisadi qüvvəmizi aləmə bildirməliyik» [33, s.53].

Sovet imperiyası məngənəsində özünü əməlli-başlı tanıda bilməyən, daha doğrusu, özünün tanınmasına əngəl törədən bir sıra amillər istisna edilməklə, demək olar ki, Azərbaycana, azərbaycanlılara digər millətlərə nisbətən ögey münasibət bəslənilmiş, onun varlığına demək olar ki, pərdə çəkilmişdir. Bizim haqq səsimizi bəyan edənlərin bir çoxu repressiya qurbanı olduğundan bir çoxumuz da gizli-gizli, çox etibarlı yerlərdə bu günahsız, dərdli millətin başına nə kimi oyunların nəyə görə gətirilməsinin səbəblərini gizlətmirdilər. Necə olur ki, yeraltı və yerüstü sərvətlərimiz özgə respublikalara gecə-gündüz daşınmaqda və axıdılmaqda ikən bu millət üçün ayrılmış, azacıq paya qane olmuşuq. Başqa dırnaqarası «qardaş» respublikaların halına yanmışıq,

öz halımıza yanmağı unutmuşuq. Nə yaxşı ki, Bəxtiyar Vahabzadə, Söhrab Tahir, Xəlli Rza Ulutürk kimi Vətən yanğısı ilə yaşayan şairlərimiz Yusif Vəzir, Əhməd Cavad, Almas Ildırım və başqa sələflərinin yolu ilə gedərək millətin bugünkü taleyüklü məsələlərin həlli yoluna düşdülər. Gənclərimizi inandırdılar ki, rus şovinizmi və erməni məkrinin hər cür fəsadlarından qorunmaqla yanaşı buna qarşı siyasi hazırlıqlarını nümayiş etdirsinlər.

«Əfkari-ümumiyyə»nin rəğbətini qazanmaqda görülən işlər hazırda sovet dövründəkindən bir neçə dəfə çoxdur. Dünya azərbaycanlılarının həmrəylik günü olan 31 dekabr hər il bayram edilməklə bu hal daha geniş vüsət almaqdadır. Beynəlxalq alyanslar keçirməklə bu günün nə qədər aktual, tərbiyəvi əhəmiyyət kəsb etdiyinin şahidi oluruq. Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır.

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı da tarixin açılmamış səhifələrindən biridir. Bu barədə Yusif Vəzirin «Ermənistan və biz» məqaləsinin təhlilindən sonra danışacağıq.

Avropada aparılan saysız-hesabsız müharibələr xırda millətlərin nə qədər qüvvətsiz və böyük hadisələr qarşısında qüdrətsiz olduqlarını göstərdi. Yusif Vəzirin anlamında bu millətləri «siyasi tufanlar yuyar, götürər». «Siyasi tufanlar» qarşısında qüvvətli dayanmaq üçün xırda millətlərə böyük bir ölkədən dost qazanmaq vacibdir. Böyük bir ölkədən xırda millətlərə dost qazanmaq təcrübəsi artıq tarixin süzcəgindən keçmiş, hansı böyük ölkənin kimə nə dərəcədə dost olması göz qabağındadır. Böyükdən kiçiyə qədər hamıya bəlli olmuşdur ki, rus qoşunlarının Qafqazda hökmranlıq etməsindən ermənilər qazanmışlar. Deməli, vaxtilə xalqımıza həqiqi dost sifəti ilə yanaşıb, onun «siyasi tufanlar» qarşısında qüdrətli olmasını təmin etməkdə Türkiyə, Ingiltərə və Almaniya kimi

dövlətlər az rol oynamamışlar. Azərbaycan təkcə müstəqilliyə qədəm basdığı bir vaxtda, yenidən imperiya tərkibinə daxil olmağa məcbur oldu. 70 il ərzində Azərbaycan yalnız mədəniyyət və maarif sahəsində tərəqqi etmiş, çoxlu ziyalılar yetişdirmişdir. Öz daxili problemlərimizi həll etməyə artıq kifayət qədər kadrlarımız vardır.

Rusiya ilə Qərbin rəqabəti sayəsində Balkan millətləri qazandılar. Bütün beynəlmiləl əlaqələr qarşılıqlı fayda üzərində möhkəmlənir. Azərbaycanın inkişaf yollarının tənzimlənməsində, «Ingiltərə ilə dostluğ»un faydasına əsaslanan Yusif Vəzir yazırdı: «Bu nöqtələrdən baxdıqda Azərbaycanın coğrafi vəziyyəti çox gözəldir. Bir tərəfdən böyük rus tufanı, o biri tərəfdən Ingiltərə faydası. Rus tufanı iki yüz ildən bəri gözünü cənuba, Hindistan yollarına dikməkdədir. Iki əsrdir ki, addım-addım Hindistana yavuqlaşır. Bu yolu kəsmək üçün, rus tufanını dayandırmaq məqsədilə Azərbaycan ilə Gürcüstan istiqlaliyyətini danımaq icab (zərurət) edəcək. Bu dövlətlərin təşkili doğrudan-doğruya Ingiltərə faydası ilə mərbutdur. Bizim üçün də əlverişlidir. Çünki Rusiyadan ayrılıb hürr yaşamaq gürcülər və bizlər üçün tarixi bir məqsəd, həm də müqəddəs bir məqsəd idi. Gec-tez rus axını, rus mühacirliyi tapdağı olub, məhv olmağımızı bilirdik. Ingiltərə isə bizi öz faydası üçün tutmaq məcburiyyətində olacaqdır. Bu məmləkətdən bizə zərər gəlməz. Ingilislər bizdən faydalanmaq istədiyi kimi, biz də onlardan faydalanacağıq. Onlar ilə bizim aramızda şübhə doğuran bir fayda yoxdur ki, ortalıqda soyuqluğa səbəb olsun. Biz bir xırda millətik, hürr yaşamaq istəyirik» [33, s.54].

Azərbaycanın ağır vaxtlarında imdadına yetişən Türkiyədən başqa, Ingiltərənin də adını çəkmək yerinə düşərdi. Vaxtilə 1904–1905-ci illərdə Bakıda Azərbaycan və erməni xalqları arasında salınmış konfliktlər böyük qırğına səbəb olmuş, köməyə gələn ingilisləri Azərbaycanlılara düşmən kimi tanıtmaq istəyirdilər. Guya Azərbaycana ingilislər yox, xalqın dilində desək, «yalnız ruslar çörək verməyə» qabildir. Ingilislər dünya siyasətində həmişə böyük rol oynayıb və

oynayacaqdır. Yusif Vəzir Ingiltərənin tərəfində dayanmaqla bu millətdən faydalanmağı da lazım bilirdi: «Bu gün ingilislər Qafqazdan çəkilib yerinə italyanlar da gəlsə, genə Ingiltərə dostluğundan çəkinməməliyik. Bu millət dünya siyasətində həmişə böyük rol oynayıb və oynayacaqlar. Millətlər hüququna riayət etmədə, onların istirahətini təmin etmədə, millətləri tərəqqi yoluna götürmədə Avropada birincilik qazanıbdır. Əminəm ki, ingilis qonşuluğu bizi asudə yola çıxaracaqdır. Çünki iki millətin də faydası bunu istəyir» [33, s.55].

Məqalədə «panislamizm» və «pantürkizm» kimi xülyapərvər fikirlər də yaddan çıxmamışdır. «Panislamizmin» mövqeyindən çıxış edib bütün dünya müsəlmanlarını bir dövlət timsalında birləşdirib mübarizə aparanlar da, «pantürkizm» mövqeyində dayanıb, bütün türk dövlətlərinin vahid bir dövlət halında birləşmələrinə çalışanlar da səhv etmişlər. Belə olmasaydı, Osmanlı imperiyası, ərəb xilafəti, «sovet xalqı» qurumu yaradan SSRI imperiyası yaşamaqda davam edərdi. Tarixi həqiqətlər və təcrübə göstərir ki, dövlətlər arasında yalnız mədəni və iqtisadi əlaqələrdən başqa, digər əlaqələr daimi ola bilməz. Məqalənin maraq doğuran bir yerini yada salaq: «Ittihadi-islam və türk ittihadı kimi xülyapərvər fikirlər gözümüzün önündə qoca bir osmanlı dövlətini yıxdı. Bunun səbəbini xalqın geniş sinfi belə duyub anladı. Ziyalılarımız isə bunu çoxdan etiraf edib durmaqdadırlar. Bizim bütün məqsəd və amalımız Azərbaycanımızdır. Bu yolda kim bizi tutarsa, biz də ona rəğbət və meyl göstərərik» [33, s.55].

Rusiya himayədarlığına sığınmaq ermənilərə hava, su kimi lazımdır. Çünki onlar öz zəif nöqtələrini yaxşı bilirlər. Bilirlər ki, tarixdə erməni dövləti olmayıb. Ona görə də əksər erməni

tarixçiləri erməni dövlətinin deyil, erməni xalqının tarixini yazıb. Çünki söhbət dövlətdən getdiyi yerdə gərək onun sərhədlərini göstərəsən. Ermənilər isə tarixən gəzəyən xalq olduğundan onların məskunlaşdığı ərazinin sabit sərhədi olmayıb. Bax, elə bu səbəbdən də erməni alimləri erməni dövlətinin tarixini yazmaqdan yan keçməklə diqqəti erməni dalqının tarixinə dair qalaq-qalaq kitablar yazmağa yönəldiblər.

Birinci Dünya müharibəsində əvvəl ermənilər öz məsələlərini yenə də siyasət səhnəsinə çıxartdılar. Iki yüz illik bir tarix göstərdi ki, dindaşlıq naminə olunan müraciətlərin hamısı erməni qırğını ilə nəticələnmişdir. Çünki Yusif Vəzirin anlamında «siyasətdə hissiyyat ola bilməz. Siyasət nə din, nə millət, nə insanpərvərlik – heç bir şey tanımaz. Siyasətin əsl əsası faydadır» [33, s.57].

Bu bir məlum həqiqətdir ki, hər hansı bir siyasətdən fayda hasil olmasa, göz yaşı tökən, şivən qoparan, qan axıdan bir millətin harayına etinasızlıq göstərilər. Erməni istiqlaliyyətinin avropalılara heç bir fayda gətirməyəcəyini zənn edənlər yanılmadılar. Ancaq ermənilər əl çəkməyib böyük iddialara əl atmağa başladılar. Yusif Vəzir bu iddiaları çox sadə dillə belə ifadə edir: «Böyük Ermənistan xəritəsini gördüm. Üç dəniz arasında təşəkkül edəcək imiş: Ağ, Qara və Xəzər dənizləri arasında. Xəritədə Gəncə, Lənkəran, Salyan, Təbriz, Marağa və başqa şəhərlər də Ermənistana daxil edilmişdir.

Əgər bu xəritə erməni milli amalının şəklisə, onda erməni məsələsi genə bir çox münaqişə və mücadiləyə səbəb olacaq və həlli genə kağız üzərində qalacaqdır. Halbuki Qafqazda asayişin təmini məsələsinin etnoqrafi dairədə həll olunması ilə mərbutdur.

Uzun bir təcrübə göstərdi ki, dindaşlıq ilə siyasət arasında böyük bir uçurum var» [33, s.58].

Böyük demokrat erməni ilə Azərbaycan xalqlarının təbiətində bir çox ümumi nöqtələrində də oxşarlığın olmasını qeyd edərək göstərir ki, «ermənilər bizim dil və adətləri gözəlcəsinə bilirlər, bizim mədəniyyətimizi təqdir edirlər; musiqi və teatromuzdan həzz alırlar. Söz arasında «türksala» deyə bizim məsəlləri işlətməyə alışmışlar. Çox vaxt türkcə danışırlar» [33, s.58].

Tarixi təcrübə göstərir ki, dindaşlıq ilə siyasət arasında böyük bir uçurum olduğu üçün bu amillərdən çıxış etməyin xeyri yoxdur. Qafqazda sakin üç əsas millətin: azəri türkü, erməni və gürcülərin hamısı üçün ortaq olan cəhətlərə istinadən dil tapa bilmək çağdaş dünyamızın daxili tələb və təbiətindən irəli gələn məziyyətlərə üstünlük vermək lazımdır. Eyni zamanda çox mühüm qüvvə olan beynəlxalq ictimai fikrin öz xeyrimizə yönəldilməsi əməli iş görməyimiz vacibdir. Təsadüfi deyil ki, müasir gənclik, xalqımızın orta nəsli Yusif Vəzirin vətəndaş fəallığından, diplomatiya səriştəsindən, müdrik məsləhətlərindən bəhrələnib millətimizin bugünkü istiqlaliyyətinin, müstəqilliyi yolunda önəmli mübarizə aparırlar.

Göründüyü kimi, Yusif Vəzir harada olur-olsun, milli təəssübkeşlik hisslərindən uzaq olmamış, ən çətin, ən ağır anlarında belə öz sözünü milli qeyrət baxımından elmi dəlillərlə söyləyə bilmişdir.

## 3.2. Bütöv Azərbaycan idealı

«Azərbaycan», «azərbaycançılıq», «Azərbaycan və sərhədi», «türkçülük» kimi problemlər Yusif Vəzir Çəmənzəminlini daim düşündürən və məşğul edən məsələlərdən olmuşdur. «Biz kimik» məqaləsində Azərbaycan tarixinin yazılması tələbini irəli sürürdü. Bu ondan irəli gəlirdi ki, hələ o zaman Kiyev Imperator Universitetində oxuyarkən Azərbaycan dilində kitablar buraxmağa başlamış, ana dilini bilməyənlər üçün kurs təşkil etməklə mühazirələr oxumuşdur. Yusif Vəzir hələ o zamanlar qarşısına qoyduğu məqsədi tam dərk edərək slavyan xalqlarından əxz etdiyi milli qurumlar halında birləşməyin, optimal yollarını müəyyən milli ideologiya ilə bağlılığın əsasında, xalqın ümummilli dəyərlərinin və sərvətlərinin inkişaf etdirilməsi və bütövlükdə milli maraqları ifadə edən milli siyasətin, milli şüurun yüksək səviyyəsində görürdü.

1917-ci ildə Ukraynanın bütün şiddət və həyəcanla doğulan milli hərəkatı bütün Rusiya daxilində yaşayan qeyri-rus millətlərə nümunə oldu. Çəmənzəminlinin təşəbbüsü ilə 1917-ci ilin noyabrında Türk Ədəmi Mərkəziyyət firqəsi «Müsavatın Kiyev şöbəsini» yaratmışlar. AXC və milli istiqlaliyyət elan olunduqdan sonra Azərbaycanın Ukraynada siyasi nümayəndəliyi təsis edilmiş və «Müsavatın Kiyev

şöbəsi»ndə konsulxana vəzifəsini yerinə yetirməyə başlamışdır. Şöbənin sədri Y.V.Çəmənzəminli isə eyni zamanda ADC-nın Ukraynada səfiri olmuşdur.

Bu illərdə Ukraynada milli hərəkat güclənmişdi. Imperiya zülmünə və siyasətinə son qoymaq üçün kiçik millətləri öz ətrafında birləşdirməyə çalışan Ukrayna milli hərəkat rəhbərləri «millətlər qurultayı» çağırmaq qərarına gəlmiş və bu münasibətlə icraiyyə komitəsi yaratmışdılar. Xüsusi jurnal nəşr edən komitədə Azərbaycanın dörd nəfərdən ibarət nümayəndə heyəti fəaliyyət göstərmişdir. Yusif Vəzir yazırdı ki, «biz bu jurnalda fəal iştirak edirdik. O vaxtlar Rusiyada Azərbaycanı tanımazdılar. Bakı bir şəhər, paytaxt kimi tanınsa da, Azərbaycan tanınmırdı. Azərbaycanı yalnız Iranın bir hissəsi kimi tanıyırdılar. Bizim vəzifəmiz və qayəmiz bu oldu ki, birinci olacaq Rusiya əfkari-ümumiyyəsinə Azərbaycanı tanıdaq». [33, s.16].

Bu gün üçün də aktuallıq kəsb edən Azərbaycanı tanıtmaq, onun haqqında əfkari-ümumiyyə doğurmaq ideyası o illərin ziyalıları içərisində ən çox Çəmənzəminlini narahat və məşğul etmişdir. Onun məruzələrinin birində oxuyuruq: «Bir Azərbaycan xəritəsi cızdıq. O zamandan Azərbaycan haqqında, onun tarixi, ədəbiyyatı, mədəniyyəti, ticarət və iqtisadiyyatı barəsində bir çox məsələlər yazdıq. Yavaş-yavaş Azərbaycan şöhrət tapmağa başladı»[33, s.34]. Məruzədən öyrənirik ki, bundan sonra Ukrayna milli hökuməti Azərbaycana xüsusi əhəmiyyət vermiş, onu təmsil edən

nümayəndəliyinin hər xahişinə xüsusi diqqətlə yanaşmış, müxtəlif köməkliklər vəd olunmuşdur.

Y.V.Çəmənzəminli 1917–1919-cu illərdə Azərbaycanı öyrənib onu tanıtmaq haqqında geniş ictimai rəy doğurmaq sahəsində xeyli əmək sərf etmişdi. Onun Bakıda çap olunan «Azərbaycan muxtariyyəti», «Biz kimik və istədiyimiz nədir?» kitabları, 1918-ci ildə «Millət» qəzetində çıxan «Azərbaycan və azərbaycanlılar» və sair silsilə məqalələrini məhz bu məqsədlə yazmışdır.

Böyük mütəfəkkir «Qüvvətli istiqlal» adlı məqaləsində dövlətin təşkilinin üç amilini göstərir: torpaq, millət və hakimiyyət. Bu gün Azərbaycanda bu üç amil mövcud olduğu üçün Azərbaycan müstəqil məmləkətdir, - deyən müəllif bütün silsilədə milli istiqlalı qüvvətləndirən cəhətlərdən, xüsusilə də Azərbaycan Cümhuriyyətinin xarici siyasətinin əsas istiqamətlərindən geniş bəhs edir.

Türkiyədə yaşadığı illərdə özünün yazdığı kimi «Azərbaycan və azərbaycanlılar» silsilə məqalələrinin hər bölməsinə dair daha geniş və müfəssəl tədqiqat aparmış, «Azərbaycan və azərbaycanlılar» adlı böyük bir əsər yazmaq fikrində olmuşdur.

Belə bir böyük kitabın daxilində «Azərbaycan ədəbiyyatına bir nəzər», «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabları, «Azərbaycan və azərbaycanlılar» silsilə məqalələri olmalı imiş.

Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti illərində Yusif vəziri ən çox narahat edən Azərbaycanın faktik, həqiqi milli sərhədlərinin qorunub saxlanmasına millətdəki təəssübkeşliyin kifayət qədər olmamasıdır. Çəmənzəminlişünas, professor T.Hüseynoğlunun üzə çıxarıb tədqiq etdiyi «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» adlı əsərlə tanış olarkən milli məsələnin mühüm tərkib hissələrindən biri kimi milli ərazimizə xüsusi təqdimat aspektindən yanaşan Çəmənzəminlinin həqiqi vətəndaşlıq mövqeyi, vətənpərvərlik duyğuları, azərbaycançılıq ideyaları ilə üzləşir, bunlarla təmasda oluruq. Müasir həyatımız üçün bu sanballı mənbənin bir daha əhəmiyyəti ondadır ki, əzəli torpaqlarımızın, yurdumuzun ərazi bütövlüyünü bir daha təsdiqləyən növbəti bir əşyayi-dəlilin, arqumentin meydana çıxmasına sübut olmuşdur. Kitabın birinci hissəsində verilmiş məlumatlar Azərbaycan sərhədi ilə bağlıdır. Yusif Vəzirin qələmində A.Bakıxanovun «Gülüstani-Irəm» tariximizə həsr olunmuş əsər kimi qiymətləndirilsə də, burada bütöv Azərbaycan yox, yalnız Şirvan tarixinin verilməsi önəmə çəkilib. «Gülüstani-Irəm» Şirvan tarixindən ibarət olub, məsələni bizim təsəvvür etdiyimiz nöqtədən tənvir eləmir (aydınlaşdırmır). Oxucularıma təqdim etdiyim «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» əsl tariximizə müqəddimə təşkil edə biləcək zənnindəyəm. Bu əsər bir projerdir ki, tariximiz o dairədə yazılıb, meydana çıxacaq, vətəndaşlarımın milli tarixmizə olan həvəsinə bu risalə ilə

kiçicik bir xidmət edə bilsəm, məqsədimə nail olacağam, zənnindəyəm». [24, s.12].

Kitabın müqəddimə hissəsində «Azərbaycan Şərq ilə Qərb arasında körpü təşkil edən bir ölkə olduğu bildirilir. Ən qədim zamanlardan bu körpüdən müxtəlif irqlərə mənsub millətlərin keçib getdikləri, bunlardan məmləkətimizə yerləşib, kök salanların da olmasından söhbət açılır. Təbiidir ki, gəlmələr ilə yerlilər arasında uzun mucadilə və mübarizənin sayəsində qanlar qarışıb, din və dinlər dəyişilib və nəticədə başqa bir mədəniyyətə malik, ayrıca bir millət vücuda gəlib. Bu millət azəri türkləridir». [24, s.11]. Deməli, qədim azərilərlə eyni və yaxın kökə, mənşəyə malik kiçik etnos halında formalaşmış xalqlarla gəlmə türklərin qarışığından azəri türkləri yaranmışdır ki, hazırda bunlar Azərbaycanlı olmaqla əhalinin böyük əksəriyyətini təşkil edir. Ancaq unutmamalı ki, əhalinin hər 10 ildən bir siyahıyaalınmasında bəzi saxtakarlıqlara yol verilib. Əhalinin siyahıya alınmasında ərazisi Azərbaycan sayılan doğma diyarımızda kiçik etnosların mənşəyi və kökü unudulmamalıdır.

Qabaqcıl təcrübəli böyük ölkələrin: ABŞ, Italiya, Fransa, Almaniya və başqa dövlətlərin əhalisinin sayı və etnik tərkibləri xalqların milli mənşə və kökləri əsasında müəyyənləşdirilərək, «milliyyət» kimi formalaşmışdır.

Fəlsəfə elmləri doktoru, professor Əlikram Tağıyev özünün «Milli ideya və milli ideologiya: problemlər və

onların şərhi» kitabında çox sanballı və etibarlı mənbələrə əsaslanaraq azərbaycanlılığın, azəri türklərinin yaranması və formalaşmasında Azərbaycan milli ideya və ideologiyasının ümumdövlət mənafelərinə uyğun siyasi xətti əvəz etməli olan doktrinanın təmsilçisi kimi xidmət göstərməsini, onun müxtəlif milli, etnik ideyaların məcmusundan təşəkkül tapmasını qeyd edərək belə əsaslandırmışdır: «Bizdəki millətçiliyi bütün Azərbaycanlıların – Azərbaycandakı türkdilli, irandilli və Qafqazdilli xalqların vahid və bölünməz Azərbaycan vətəni hissilə birləşdirilməsi təşkil etməlidir» [154, s.35].

«Azərbaycan» anlayışının vətənpərvərliyin baş mövzusu olmaq etibarilə M.P.Vaqif, Q.B.Zakir, A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, C.Məmmədquluzadə, H.B.Vəzirov, Ə.B.Haqverdiyev, M.Rəsulzadə, Y.V.Çəmənzəminli və onlarca başqalarının bu ideya, bu amal uğrunda çarpışmaları artıq utopizmdən və xəyalpərvərlikdən qaçmağa əsas verir. Ürəyi bütöv Azərbaycan idealı ilə çırpınan və Azərbaycan vətənpərvərliyini yüksəkliyə qaldıran Y.V.Çəmənzəminli yazırdı ki, «Bizim bütün məqsəd və amalımız Azərbaycandır. Kim bizi tutarsa, biz də ona rəğbət və meyl göstərərik». [33, s.16].

Y.V.Çəmənzəminli öz problemlərini bir yana qoyub bütün türk-islam dünyasının müxtəlif məsələlərini bir göz qırpımında həll etməyə girişən qələm sahiblərini ciddi tənqid

edib yazırdı ki, yeni açılan qəzetlər Misirdən, Hindistandan öncə özümüzdən yazmalıdırlar.

H.B.Vəzirovun, Ə.B.Haqverdiyevin, H.B.Zərdabinin, C.Məmmədquluzadənin, Y.V.Çəmənzəminlinin və digər mütəfəkkirlərin ictimai-siyasi fəaliyyətləri Azərbaycan vətənpərvərliyi yolunda sonrakı nəsillər üçün də bir örnək olmuşdur. N.B.Vəzirov yazırdı ki, dünyada Azərbaycan kimi bağlı-bağçalı, saf suyu və durna gözlü bulaqları, yaşıl ormanları və çəmənləri, bərəkətli çölləri olan ikinci bir ölkə yoxdur. Lakin belə gözəl vətəni olan bizləri dünyanın hər yeri maraqlandırdığı halda, doğma Azərbaycan nədənsə maraqlandırmır. O, bizlər tərəfindən artıq tamamilə unudulmuşdur. [144, s.39-40].

XX əsrin əvvəllərində azərbaycanlıların özünəməxsus, təmiz, sırf yerli xarakter daşıyan dövlətçilik və millətçilik, demokratizm və azərbaycançılıq ideyaları artıq türkçülüyü və islamçılığı da özündə birləşdirərək yeni bir xətt götürüb Azərbaycan müstəqilliyini elan etmək yoluna keçir.

Millətçilik ideyası M.Ə.Rəsulzadənin demokratizm və azərbaycançılıq ideyası isə C.Məmmədquluzadə, Y.V.Çəmənzəminli kimi böyük şəxsiyyətlərin adı ilə bağlı olduğundan azərbaycan maarifçiliyinin xalqa aşıladığı milli mənəvi dəyərlər və sərvətlər sisteminin məcmusunda xüsusi xidmətləri olduqları qeyd edilmişdir.

AXC-nin məcburi olaraq yerini sovet hakimiyyətinə verməsindən sonra Sovet imperiyası dövründə azərbaycanlı

milli ideyası nəinki sönmüş, əksinə, özünün ən yüksək inkişaf nöqtəsinə çatmışdır. Sovet imperiya siyasəti azərbaycanlılara qonşu hər bir xalqın və millətin ayrıca inkişafı məsələsini qoyurdu. Bu da əslində azərbaycanıların bir millət kimi formalaşmasında əhəmiyyətli rol oynadı.

Sovet imperiya idarəsinin ömrü isə 71 ilə qədər çəkdi. 1991-ci ildən yenidən müstəqillik qazanan Azərbaycan həqiqi demokratik milli idarə forması yoluna düşmüş, öz milli ərazisinin bütövlüyünü məlum səbəblər üzündən tam qoruya bilməsə də, yeridilən müdrik diplomatik siyasət nəticəsində ermənilərin Rusia gücünə işğal etdiyi əzəli torpaqlarımızı geri alacaq, müstəqil Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarda, xüsusən Avropa Şurasında nəyə layiq olduğunu sübut edəcəkdir.

Vahid və bütöv Azərbaycan idealına sığınan böyük demokrat bu diyarın sərhədlərinin tarixən geniş əraziləri əhatə etdiyi barədə Labun Əbu əhlica Əlrəvadinin «Tarixi-Azərbaycan» və Əlbərdəinin «Tarixi-Aran» kitablarından məlumatı «Kəşfül-zünun» (Düşüncələr, fikirlərin kəşfi) mənbəyindən öyrəndiyini bəyan edir. Lakin həmin kitabların əldə edilə bilməməsindən təəssüflənərək özünə bəlli olan real məlumatlar əsasında Azərbaycan ərazisindəki şəhər və şəhər tipli qəsəbələrin, kəndlərin adını çəkir, onların tarixi haqqında məlumat verir. Milli etnik ziddiyyətlərin yaranması və genişlənməsi ilə yanaşı digər prosesləri dil və mədəniyyət etibarilə bir-birinə yaxın və eyni bir məkanda yaşayan kiçik

etnosların bir-birinə yaxınlaşması və hətta qaynayıb-qarışması prosesi indi olduğu kimi Yusif Vəzirin yaşadığı dövrdə də olmuşdur. Bəzən iri etnoslara məxsus siyasətçilərin sağlam olmayan siyasətləri nəticəsində kiçik etnoslara etinasızlığı, yuxarıdan aşağı baxmaq halları yerliçiliyə, məhəlləçiliyə gətirir, bütöv ərazi parçalanma qorxusu qarşısında qalır. Belə olan yerdə din ayrı düşmənlər fürsətdən istifadə edib Azərbaycanı bir neçə hissəyə parçalamaq planı çəkməli olurlar ki, bu da Yusif Vəzir kimi mütəfəkkiri düşündürməyə bilməzdi. O, uzun axtarışların və apardığı səmərəli tədqiqatların nəticəsində məmləkətimizin adını tarixi məxəzlərdən çox düzgün mənalandırmış, 30-cu illərdə «Azərbaycan sözü ətrafında», «Tariximiz ətrafında» adlı məqalələrini yazmışdır. Indiyədək çap edilməyən bu məqalələr Y.V.Çəmənzəminlinin Respublika Əlzyazmaları Institutundakı arxivində saxlanılır. «Azərbaycan»ın tarixən «Azərbaykan», «Azərabadqan», «Azərbiycan», kimi səslənməsi şərq müəlliflərinə çoxdan məlum olduğunu bildirən yazıçı, qədim yunan və Roma müvərrixlərinin (tarixçilərinin) bu diyarı «Atropaten» adlandırdıqlarını söyləyir. Digər rəvayətə görə «Azər» pəhləvicə «Od», «Bay-kan» «saxlayan» mənalarında olduqda «Azərbaycan» – Atəşxana və «Atəşgədə» mənalarına gəlib çıxır. [24, s.13].Tarixçi Təbəri Iranın ən böyük atəşgədələrinin Azərbaycanda olduğunu, Bakı civarında (ətrafında) Suraxanı adlı yerdə atəşpərəstlər məbədlərinin olmasını, XX əsrin

əvvəllərinə qədər bu atəşgədələrin Hindistandan belə özünə ziyarətçilər dəvət etdiklərindən xəbər verir. Yusif Vəzir kitabında daha sonra yazır: «Azərbaycan qədim zamanlarda geniş bir ölkə imiş. Lakin, sərhədi haqqında rəvayətlər müxtəlifdirlər. Tarixçi Təbəriyə görə «Həmədan həddinin ibtidasından ta Zəncana və Ohərə və axır Dərbəndi-Xəzərə çıxınca bunlara Azərbaycan «deyirlər». [24, s.13].

Yusif Vəzir növbəti mənbələrdən biri olan «Səhayefül əxbarül-münəccimbaşı»ya (münəccimbaşının xəbərlərindən səhifələr) istinad edir və bildirir ki, burada «Azərbaycanın Aran və Ərməniyyə ilə müxtələt (qarışmış) olduğu qeyd edilir və sərhədi belə təsvir edilir: «Şərqdə Deyləm və bəzi cəbəl (dağ) şəhərləri; cənubda Iraq və bəzi cəzirə (ada) şəhərləri; qərbdə Ərməniyyə və bəzi Ruml məmləkəti; şimalda Aran və Bəhri-Xəzərə müntəhi olur (bitir). Paytaxtları Ərdəbil, Şirvan və Təbriz imiş. Azərbaycana məxsus şəhərlər bunlar imiş: Xosrov, Səlmaz, Cəzə, Naxçıvan, Berdənc, Xoy, Xoyənh, Urmiyyə, Marağa, Ucan, Məyanıc, Mərənd, Muğan, Bərzənd, Bərdə, Sultaniyyə. Bundan əlavə ərəb «coğrafiyunları» Əl-Müqəddəsi, Ibn Hövqəl, Ismail əbu Əlfida da Azərbaycanın Ərməniyyə və Aran ilə müxtələt (qarışmış) olduğunu iddia edirlər». [24, s.13].

Deməli, bizə məlum olur ki, indiki Ermənistan Azərbaycanın tərkibində imiş və bu Azərbaycan məmləkəti haqqında bütün müəlliflərin həmrəy olduqları kitabda qeyd edilmişdir.

Yuxarıda adları çəkilən şəhər, şəhərtipli yerlər, kəndlər milli ərazimizin qədimliyindən xəbər verir, burada yaşayanların təbiətləri barədə maraqlı məlumatlar alim axtarışlarının bariz nümunələri kimi qiymətləndirilir.

Azərbaycanın abadanlığı haqqında bütün müəlliflər həmrəydilər, bağ-baxça, abad kənd və şəhərlər hər kəsin nəzərini özünə cəlb eləyir. Bu bolluqdan dolayı Əl-Müqəddəsi Azərbaycanı «Əlrəhab» (məkan) deyə təsmiyə eləyir: (qərar verir). Azərilər haqqında Yaqut Həməvinin rəyi şayani-diqqətdir. «Əhalisi yumşaq təbiətli, hüsn-müamilə (rəftar gözəlliyi) sahibi olub, yalnız təbiətlərinə bəxl (paxıl, simic) qalib gəlmişdir, yəni bir az bəxldirlər, - deyir» [29, s.14].

Y.V.Çəmənzəminlinin kitabında təsvir edilən Azərbaycan ərazisinin, onun sərhədlərinin hüdudlarındakı şəhərlər, qonşu Iran, Iraq, Türkiyə ərazisinin müəyyən hissəsi, Ermənistan və Qara dənizdəki bəzi adalar da daxil olmaqla vahid və bütöv Azərbaycan idealı uğrunda mübarizə bunu deməyə əsas verir ki, haçansa bir gün doğacaq, Şimali Azərbaycanla Cənubinin birləşməsinə real şərait yaranacaq. Artıq bu bir tarixi faktdır ki, Şərqi Almaniya ilə Qərbi Almaniyanın, hər iki Vyetnamın birləşməsi, hazırda Koreya dövlətinin birləşmək üzrə səyləri və bunlara bənzər digər intiqrasiyalara doğru tarixi inkişaf meylləri olduğu kimi, Cənubi Azərbaycanla Şimali Azərbaycanın gələcək inteqrasiyası da reallıq olacaqdır.

Indiyənə kimi, həm Irandakı daxili rejim, həm də bir sıra xarici ölkələr hər iki Azərbaycanın birləşməsinin əleyhinə olmuşlar.

Azərbaycan üçün indiki şəraitdə xalqının qarşısında əsas strateji xətt hər vasitə ilə Şimali Azərbaycanın müstəqilliyini və vəhdətini inkişaf etdirib möhkəmlətmək və cənub ilə birləşmək üçün əlverişli tarixi şəraitin yetişməsini gözləməkdən ibarətdir. Cənubun özündə şimalla birləşməyə can atan qüvvələr az deyildir. Lakin səbəblər çoxluğu üzündən hər iki Azərbaycanın bu tezliklə birləşə biləcəyini zənn etmək sadəcə sadəlövhlükdən başqa bir şey deyildir. Tarixi şəraitin yetişməsi sayəsində biz yeni, bütöv və müstəqil Azərbaycanın tarix səhnəsinə çıxmasının şahidi və iştirakçısı ola bilərik [144, s.86].

## 3.3. Milli məsələnin qoyuluşu və həlli yolları

Yaşadığı dövrün canlı şahidi kimi, Y.V.Çəmənzəminli oxuduğu çoxsaylı, fəlsəfi-etik, siyasi və iqtisadi məsələlərlə bağlı əsərlərdən də nəzəri cəhətdən dərk etmişdir ki, zəhmətkeş insanların hüquqları getdikcə amansız şəkildə tapdalanır, heç kəs öz hüquq və vəzifələrini tanımır, bir sözlə, istər şəhərlərdə, istərsə də kəndlərdə tam özbaşınalıq hökm sürür. Bu özbaşınalıq ən çox Rusiyanın hakim dairələri tərəfindən hökumət dairələrinin əli ilə törədilir. Xalqların

milli heysiyyətini, şərəf və ləyaqətini tapdalamaq istəyənlərin, həddini aşanların qabağını milli müqəddərat naminə aparılan kəskin mübarizə ilə açmaq olar. Ancaq bu mübarizəni «bolşevik vulkanı» ilə yox, ağılla, sülhü və əmin-amanlığı uca tutan milli siyasətin düzgün yeridilməsi yolu ilə aparmaq zəruridir. Milli məsələ ilə bağlı dövlətin milli siyasətinə öz layiqli töhfələrini, milli məsələ ilə bağlı konsepsiyalarını bəxş edən Yusif Vəzir Çəmənzəminli bir maarifçi-demokrat kimi öz sabit mövqeyində dayanmışdır.

O özünün 1931-ci ildə çap etdirdiyi «Studentlər», «Qızlar bulağı», «Biz kimik və istədiyimiz nədir?», «Bir cavanın dəftəri» əsərlərində, həmçinin «Bizə ciddi mətbuat çoxdan lazım idi» və «Dil məsələsi» publisistik məqalələrində yaşadığı çağadş dünyasında böyük həqiqəti dərk edib milli mənafe naminə mövqeyi, milli müəyyənliyin müxtəlif mübahisəli məsələlərinə dair elmi-nəzəri münasibətləri açıqlamışdır. O, milli ərazimizin, dilin, dinin, adət-ənənələrimizin milli müəyyənliyin atributik əlamətləri olması istiqamətində apardığı ciddi araşdırmalardan çıxardığı nəticələrdə sübut etmişdir ki, müasir demokratik inkişaf yolu keçən çoxlu dövlətlərin, eləcə də Azərbaycanımızın tərəqqisi yolunda bunlar böyük əhəmiyyət kəsb etmiş və edəcəkdir.

Adamların etnik birlik formaları barədə mütəfəkkirin fəlsəfi düşüncələri və yüksələn xətlə inkişaf edən təkamül ideyaları birdən-birə yaranmamış, uzun tarixi prosesin, saysız-hesabsız mənbələrə istinad edilməyin uzun bir həyat

təcrübəsi keçməyin nəticəsi və yaradıcılıq məhsulu olmuşdur. Marksizmə görə, insanların tarixi birliyi olmaq etibarilə xalq ən çox quldarlıq və feodalizm cəmiyyətləri üçün xarakterikdir.

Müəyyən bir xalqa mənsub olan adamları bir-biri ilə birləşdirən əlaqə vasitəsi daha qohumluq əlaqəsi deyildi; bunda adamlara xas olan ümumi cəhətlərin (dil, ərazi və mədəniyyət birliyinin) ictimai-tarixi mənşəyi vardır. Lakin xalq birliyi də hələ çox sabit birlik deyildir. Quldarlıq və feodalizm quruluşu şəraitində möhkəm ərazi birliyi və sabit mədəniyyət ümumiliyi üçün vacib şərt olan iqtisadi həyat birliyi ola bilməzdi. Yalnız vahid milli bazar yaranmasına gətirib çıxaran kapitalizmin təşəkkül tapması dövründə xalqların millətə çevrilməsi üçün lazımi ilkin şərait əmələ gəlir. Eyni bir irqə müxtəlif millətlər mənsub ola bilməzlər. Marksist ədəbiyyatda millət məfhumuna adətən verilən mənaya görə, millət – insanın tarixən əmələ gəlmiş sabit birliyidir ki, bu da dil, ərazi, iqtisadi həyat birliyi, mədəniyyət ümumiliyində təzahür edən mənəviyyat birliyi zəminində meydana çıxmışdır. Milli birlik millətin daxilində sinfi fərqləri ləğv edə bilməz. Əksinə bu fərqlər millətin bütün həyatında aydın təzahür olunur, onları mənafecə fərqli hissələrə parçalayır. Sovet dövrünün tədqiqatlarında Çəmənzəminlinin sosial-etik görüşlərindən bəhs edilərkən, o dövrün ideoloji təsirləri altında düzgün olmayan belə bir fikir irəli sürülür ki, guya Yusif Vəzir «millət, mədəniyyət və milli

məsələ» problemlərinin həllində büdrəmiş, «mədəniyyətin sinfiliyi», xalqın istedadlı olmasında tarixi şəraitin rolu, millətin öz müqəddəratını təyin etmək kimi məsələləri proletariatın sinfi mübarizəsi ilə bağlamadığından yanlışlığa yuvarlanmışdır. Halbuki, Çəmənzəminlinin yuxarıda adları çəkilən məlum problemlərin qoyuluşu və həlli istiqamətində irəli sürdüyü nəzəri müddəaları Azərbaycan Xalq Cümhuriyyətinin qısa müddətli hakimiyyətinin praktikasında öz layiqli əksini tapmışdır. Y.V.Çəmənzəminliyə bəlli idi ki, milli məsələ hər şeydən əvvəl milli hüquq bərabərsizliyidir, millətlərin imtiyazlı və natamam hüquqlu millətlərə bölünməsi, hakim və məzlum millətin olması onların inkişafının qeyri-bərabərliyidir. Yusif Vəziri narahat edən cəmiyyətin inkişafına əngəllik törədən bir sıra problemlərin hələ də həllini tapa bilməməsidir. Bütün həyatı boyu onu düşündürən, fikrini bir nöqtəyə istiqamətləndirən həmin problem milli məsələ idi. Bu günün oxucularına üzünü tutub dediklərində bu problem bir mütərəqqi ideya kimi əsas götürülür: «Bilirsən, səninlə səmimi olaraq danışmasam, sonra vicdanım məni incidər. Mühitinmi, aldığım tərbiyəninmi sayəsində olaraq, dürüst bilmirəm, məndə ölməz bir milli ruh var. Mədəniyyət bütün vücuduma, bütün maddi və mənəvi varlığıma hakimdir» [40, s.219].

Yusif Vəzir «Studentlər» romanında həqiqi və yalançı millətpərəstlik məsələlərinə toxunur. O, milli məsələnin bütün problemlər üzrə həllində yalnız həqiqi millətpərəstliyə

malik insanları təqdir edir, bu sahədə praqmatikləri, yalançı millətpərəstləri cəmiyyətdə formalaşan milləti, xalqı, dini əlində oyuncağa çevirən «lotular» kimi qələmə verir.

Cəlalla Rüstəmbəy millətpərəstlikdən söhbət salanda onu da qeyd edirlər ki, «millətpərəstlik bir pərdədir ki, bütün lotuluqlar onun dalında olur. Din və millət adı daşıyan cəmiyyət və müəssisələrimizi al. –«Islamiyyə mehmanxanası», «Islamiyyə limonadı», «Milli papiros»… Bunlar lotuluq deyilmi? Tacir pul qazanıb kef çəkmək üçün din və milləti əlində oyuncaq edir. Bakıda qoçular evlərində tələbə yurdu açır, hərəsi beş-on tələbəyə aylıq verir. Bu əxlaqsızlıqdır, yoxsa millətpərəstlik? Yoxsul gənclərin maddi vəziyyətindən istifadə edilərək namusları ləkələnir. Bu rüsvayçılıqlara millətpərəstlik deyirlər…»[40, s.46].

Cəlalın yalançı «millətpərəstliyə» aid söylədiyi bütün xüsusiyyətlər məhz student Quluya aid olduğu üçün Rüstəmbəyin daxili əsəblərinin oyanıb güclənməsinə səbəb olurdu. Yusif Vəzir yalançı millətpərəstlərin iç üzünü böyük ustalıqla aça bilmiş və qeyd etmişdir ki, onların fəaliyyəti yalnız şəxsi ambisiyaların tələbinə müvafiq olaraq, mənfəət güdmək, şəxsi ehtiyaclarının qayğısı naminə hər cür fırıldağa, kələyə siyasi don geyindirməklə iş görməyə əsaslanır. Məsələn, Ağabəy kimi bir Bakı qoçusu «Difai» adlı bir təşkilat yaparaq «Hidayət» cəmiyyəti təşkil edir və burada Azərbaycana müxtariyyət tələb edən komitə ilə birlikdə qoçuluğu qaldırmağa cəhd göstərirdi. Ağabəy sünnilərlə

şiələri barışdırmaq məqsədilə Şəkiyə gəldikdə şəhərin bütün əhalisi onu qarşılamağa çıxmış və «La ilahə-illəllah, Ağabəy rəsulillah» deyə bağırmışlar.

Əsərin qəhrəmanı Rüstəmbəy dostu Çinqizə Ağabəyin pis mövqe tutmasından danışaraq izahat verir: «Qoçaqlığına qoçaq idi, ancaq tutulan yol düz deyildi. Əvvəla, Ağabəy itti-hadi-islam məfkurəsi daşıyırdı. Nə qədər boş bir məfkurə! Ikinci «Daşnaksütyun»a qarşı «Difai» ilə çıxmaq qanı qanla yumaq demək idi. Madam ki, avtonomiya üçün etnoqrafi hüdud məsələsi meydana çıxırdı, bunu bir erməni-türk müşavirəsi çağırıb sülhlə həll etmək olmazdımı?» [40, s.48].

Romanın 2-ci hissəsi Rüstəmbəyin bəhai Əbülfərəcə yazdığı məktubla başlanır. Həmin məktubdan Rüstəmbəyin, ümumiyyətlə, dinə, «təzə din»ə münasibətindəki fərdiliyi di-nin siyasətlə bir araya sığışmaması barədə israrlı mövqeyi diqqəti cəlb edir. Bəhailiyin proqramındakı təzəliklə bağlı, əslində, heç bir şeyin olmadığı fikrində möhkəm dayanır. Məktubda deyilir: «Möhtərəm əfəndi, ikinci məktubunuzda əvvəlki məsləhətinizi təkrar edirsiniz, məni bəhai dininə dəvət etməkdən çəkinmirsiniz, təzə din deyə bəhailiyi mədh edirsiniz, bəhailik zəmanəyə müvafiq bir dindir və i.a. Bu sözləri çox bəhailərdən eşitmişəm, lakin bircə iş var: din bir o qədər zəruri şeydirmi? Onun yolunda bu qədər çalışmağa dəyərmi? Zənnimizcə, dindən uca, ondan zəruri bir ayrı bir şey var. Onun adına həyat və yaşayış deyirlər. Biz həyatı sevsək, onu yüngülləşdirsək, ən həqiqi mömünlüyə çatarıq…

Bu fikirləri keçən məktublarımda cənabınıza məlum eləmişdim. Artıq təkrara lüzum yoxdur» [40, s.78].

Əsas mətləbə keçməzdən əvvəl böyük demokratın bir fikri barədə mülahizəmizi bildirmək istərdik. Yusif Vəzirin istər gündəliyindən, istərsə də həyat müşahidələrindən məlumdur ki, o, dinə qazanc mənbəyi kimi baxanlara xalqın ictimai-tarixi həyatında nadanlığın kök atdığı keçmiş təfəkkür tərzi mənəviyyatı və psixologiyaya istinad edənlərə tənqidi yanaşmış, bildirmişdir ki, onlar xalqdan, millətdən gizli şəxsi mənafe naminə qazandıqları uğurları ilə əbədilik iddiası»na düşürlər: «Dinə təzə demək olmaz. Din həmişə köhnədir. Səbəb budur ki, hər bir din əbədilik iddiasına düşür, bir din qanun, bir qayda təşkil etdikdə ədəbi ola bilməz. Bəhailik bu gün təzə görünsə də, bir ildən, beş ildən sonra təzəliyini mütləq itirəcəkdir, çünki ədəbi təzəlik yoxdur, zaman belə təzəliklərin düşmənidir. Bu nöqteyi-nəzərdən həyat zamanla təzəliyin mübarizəsindən ibarətdir. Bu mübarizə şiddətini yox etdikdə həyat da mənasını itirir. Deməli, din və ya başqa bir qanun sabit bir halda ədəbi hökmranlıq etdikdə həyat ruhunu qaib edir. Insanın meyl və həvəsi məhdud bir dairəyə düşərək sönür. Dirilik əvəzinə yuxu və yarımcanlıq əmələ gəlir. Bu hal cəmi dinlərdə görünmüş, bununla mübarizə etmək üçün qanlı inqilablar doğmuş və nəticədə dünyəvi qanunlar qələbə çalmışdır. Bəhai dini də bu qanlı pillələrdən keçəcək» [40, s.78].

Müəllif insan təbiətində ictimai şüurun bütün formaları kimi dinin də spesifik rolunu keçmiş təcrübənin əxlaq normaları ilə bağlı açıb göstərmiş və dinin milli müəyyənlik çərçivəsindən kənara çıxmamasını vacib hesab etmişdir.

Yusif Vəzirə görə, hər dinin öz ictimai-tarixi yaranma dövrü olduğu üçün onun uğrunda mübarizə edənlərin məsləkinə, dünyagörüşünə təsir göstərib, başqa «yeni dinə» çəkib aparmağın heç bir xeyri ola bilməz. Bütün dünya üçün, bəşər üçün eyni sayılan bir «din quruluşu», «kosmopolit din» mümkün deyil. Əgər sözdə mümkün olsa belə, əbədilik qazanmayacaq. Hər bir dinə vahid bir din mövqeyindən yanaşmaq idealı bəşəriyyət üçün «əlçatmaz» bir zirvədir. Təkallahlığa əsaslanıb ayrı-ayrı adlarda yaşayan dinlər üçün ümumi sayılan cəhətlər çoxdur, bunlar qarşılıqlı hörmət, ehtiram çərçivəsində, humanizm və beynəlmiləlliyi təbliğ baxımından əhəmiyyətli və şərafətlidir.

Milli-azadlıq hərəkatının bir çox məsələlərində Rüstəmbəy kələfin ucunu itirir, o, inqilabın qurbanlar tələb etməsi fikri ilə heç cür barışa bilmir, azad cəmiyyət uğrunda mübarizədə insan qanı tökülməsi onda ikrah hissi oyadır, bu hərəkətlərə lüzum varmı?» – deyə dəhşətə gəlir. Onun inqilaba münasibətində və ümumiyyətlə, fəaliyyətində ardıcıllıq yoxdur. Inqilabi mübarizəyə qoşulmaqda O, nədən ehtiyat edir? Buna onun öz sözləri ilə cavab vermək olar: «Deyirəm camaatımıza rəhbər lazımdır, rəhbər olacaq adamları da

həbsə aldıqdan sonra camaat rəhbərsiz qala bilər. Mənim qorxum budur! Bir də bir dəstə həbs olundumu, ataların gözləri qorxacaq, bir də buralara tələbə göndərməyəcəklər» [40, s.230].

Firqələrə münasibət məsələsində Rüstəmbəy heç cür qəti qərara gələ bilmir. Vanyanın dediyi kimi, o monarxist deyil, çarlığa düşməndir. Hürriyyəti səmimi olaraq istəyir. Budur onun bolşeviklərə münasibəti haqqında verdiyi cavab: «Mən məhkum millətə mənsub olduğum üçün federasiyadan başqa yol tanımıram. Bolşeviklər federasiyanı tanıyırlarsa, gec-tez qol-qola gedəcəyimə əmin ol» [40, s.118].

Rüstəmbəydə dinlərə olan münasibətdə ziddiyyətli, yad görüşlər də nəzərdən yayınmır. O, bir tərəfdən polyak mədəniyyəti ilə katolikliyin arasında ayrı-qeyrilik görünmədiyini söyləyir. Digər tərəfdən də dinlərin hamısının tərəqqiyə zidd olmasını iqrar edir. Yeri gəlmişkən onu da deyək ki, bugünkü xristian aləmini «mədəniyyətin beşiyi», islam aləmini isə cəhlin mənbəyi hesab edir.

Yusif Vəzir Çəmənzəminlini «Müsavat» firqəsinin proqramında təsbit edilmiş bir sıra qanunlar razı salmır, bu ondan irəli gəlir ki, «Müsavat» adı altında qeyri müsavat, zülm, istibdad və dərəbəylik kimi halların geri dönməsi təsəvvür olunur, əsl mahiyyət, məntiq inkar edilir.

Yusif Vəzirə müyəssər olmuşdu ki, müqəddiməsi Ziya Göyalpın «Islamlıq, müasirlik və türklük» şüarından ibarət fəlsəfədən və mündərəcəsi Kadet Partiyasından alınmış

«Müsavat»ın proqramının təkmilləşməyə ehtiyacı vardır. Əvvələn, «Kadetlər» çar Rusiyasında imperialist burjuaziyanın başlıca partiyası olub çarizmi konstitusiyalı monarxiya şəklində saxlamağa çalışan liberal-monarxist burjuaziya nümayəndələrindən ibarət olaraq 1905-ci ildə meydana gəlmişdi. Kadetlər 1914–1918-ci illərdəki Birinci Dünya müharibəsi zamanı fəal imperialist siyasəti yeridirdilər. Onlar çar mütləqiyyətini devirdikdən sonra burjua müvəqqəti hökumətində fəal rol oynayırdılar, xalqın ən qəddar düşmənləri, irticanın başlıca dayağı idilər. «Deməli, «Müsavat» öz proqramında istismarçı dövlətlərdə idarə forması olan konstitusiyalı monarxiyaya məxsus monarxla yanaşı, nümayəndəli idarələrin mövcudluğunu təbii bir iş kimi qəbul etmişdi. Torpaq məsələsindən də aydın olur ki, «Müsavat» kəndlilər üçün torpağın bəylərdən satın alınması tələbi ilə çıxış etmiş və narazılığın yaranmasına səbəb olmuşdur.

«Studentlər» romanında Rüstəmbəyin dostu Xəlildən aldığı məktub «Rusiyada müsəlmanlıq adlı bir firqənin avamları aldatmaq üçün dini əldə oyuncağa çevirib «kin», küdurət və rəyasətpərəstlik» üçün fəaliyyət göstərdiyindən xəbər verir. Yusif Vəzirə görə xalqı avam yerinə qoyub aldatmaqda davam edən bir partiyanın aqibəti məlumdur: «Avamları aldatmaq üçün dini əldə oyuncaq edən bir firqənin də «Müsavat» kimi xalq arasında heç bir nüfuzu yoxdur…» [40, s.289].

Eyni zamanda Rüstəmbəy başa düşür ki, tarixi inkişafda geriyə yol yoxdur: «Bolşeviklər müvəffəqiyyət qazanar da, monarxistlər qazanmaz… Xalqın canı boğazına yığılmışdır. Torpağa susayan kəndli, inqilab yolunda qan tökən işçi, milli muxtariyyət tələb edən xalqlar təkrar monarxiya zəncirini boğazına keçirərmi?» [40, s.195].

Bununla belə, uzun zaman mütaliə edib ideya axtarışları aparan, siyasi cərəyanlarla və firqələrin proqramları ilə tanış olan Rüstəmbəy müəyyən aydın bir nəticəyə gələ bilmir; kimlə gedəcəyini, hansı firqəyə qoşulacağını qət edə bilmir, Söhbətlərinin birində o, deyir: «Sosialistlərin hər şeyini qəbul edirəm, milli məsələdə yolumuz ayrılır… Beynəlmiləl ola bilmirəm».(40, s.195). Lakin Rüstəmbəy gələcəyə ümidlə baxır. O yəqin edir ki, nə isə yaxşı bir gün, xoş bir gələcəyin müjdəçisi olacaqdır.

Yusif Vəzir Çəmənzəminli milli məsələdən biri kimi hürriyyət ideyalarını təbliğ edir. Öyrədirdi ki, milliliyin təzahür xüsusiyyətlərindən biri dövlətin və xalqın müstəqilliyi ilə əlaqədardır. O, milli, silki və hakim, məhkum, ağa – asılı münasibətlərinə ciddi etiraz edirdi. Zadəgan zümrənin fikrincə, guya, mujik hürriyyətin mənasını başa düşə bilməz, o, qoyun kimi bir şeydir, yıxıb dağıtmaqdan başqa bir şeyə qadir deyil. «Yıxıb dağıtmaq, yıxıcılıq bolşeviklərin devizi kimi ilk hakimiyyətə gəldikləri günlərdə baş alıb gedən ictimai bəla kimi Yusif Vəzirin diqqətindən yayınmamışdı. Burjua inqilabı ərəfəsində belə bir fikir

yaranmışdı ki, guya, zadəganlar olmasa, «mujik» acından ölər, ölkə çarsız yaşaya bilməz. Mujikə elə bir qorxu və təlaş lazımdır ki, o, ətrafda baş verənlərin mənasını dərk etməsin. Rüstəmbəy sosial-siyasi fikirlərində proletar beynəlmiləlçiliyi, islamçılıq, türkçülük baxışlarına fərdi yanaşır. O, ideoloji nəzəriyyəsinə uyğun federasion dövlət yaratması arzusundadır. Məqsəd isə budur ki, Azərbaycana muxtariyyət, müstəqillik qazandırmaq mümkün olsun.

Mündərəcəyə gəldikdə Müsavatın torpaq məsələsinin həlli də Rüstəmbəyi qane etmir: «Torpağı kəndli bəydən satın alacaqmış – deyilir. Bu, bəylərin faydası deməkdir. Torpaq məccani olaraq kəndlilərə verilməlidir. Torpaq əkinçinindir. Torpaq bilavasitə üzərində işləyənindir. Bizim şüarımız bu olmalıdır». [40, s.262].Doğrudan da, Rüstəmbəyin mülahizələrində həqiqət də var, qeyri-həqiqət də. O dini siyasətdən ayrı hesab edirdi. Din müqəddəs kitabların nəsihətlər və Allah kəlamlarından bəhrələnib, paklıq, təmizlik, hidayət yoluna tapınanlar üçün zülməti yaran bir nurdur. Siyasətlə dini bir araya sığışdırmaq Yusif Vəzirin anlamında «səfsətə»dən başqa bir şey deyildir.

XX əsrin istər başlanğıcı, istərsə də ortalarında cəmiyyətin bir qrup insanlarının siyasi, mədəni, bədii səviyyəsi yüksək olduğundan, xalqın istedadı bir şəxsiyyətdə cəmlənmir, onun savadlı, elmli üzvləri arasında paylanır. Birinə çox, birinə az düşsə də, qeyri-adilik, fövqəladəlik baş vermir. Yusif Vəzirin şəxsiyyətində milli təbiətin, dilin,

xarakterin üzə çıxması əlamətdar bir hadisədir. Rüstəmbəy ictimai-iqtisadi və coğrafi şəraitlə əlaqədar millətlərin öz hüquq və yaşayış tərzinə münasibətlərindən doğan ciddi məsələlərə, ictimai təşkilatların laqeyd münasibətini tənqid edir, çar hökümətini dirçəltmək üçün panislamizm meyllərinə sədaqət nümayiş etdirənlərin açıq səhvə yol verdiyini ğörürdü. Əsərin sonuna yaxın Rüstəmbəy hiss edir ki, panislamizm və pantürkizm məfkurəsinin, ümumiyyətlə, Turan nəzəriyyəsinin xəyalı ilə yaşamaq «səfsətə»dir, sonu olmayan bir reallıqdır. Dil, adət, xarakter ayrılığı, bunları doğuran ictimai və iqtisadi şəraitin başqa-başqa olması Rüstəmbəylə mövhum Turan arasında bir sədd təşkil etməyə başladı. Bununla belə, onların bir-birinə yabançı milli zövq və mədəniyyətə malik olduqlarına qane olan Rüstəmbəy Turançılıq nəzəriyyəsinin təsirindən uzaqlaşdı.

Rüstəmbəy və həmfikirlərinin ən böyük bəlalarından biri onların milli zəminədən kənarda, uzaqda olmalarıdır. Onlar haqqında düşündükləri, müqəddəratının həllini özlərinin doğma işi saydıqları, gecə-gündüz taleyi üçün narahat olduqları xalqın içərisində, doğma Azərbaycan torpağında deyillər. Onldarın bu dövrdəki Azərbaycan haqqında təsəvvürləri oxuduqlarına və eşitdiklərinə əsaslanır. Bu da daha çox müəllifin özünün həmin illərdə Azərbaycanda az olması, buradakı real ictimai hadisələrlə qaynayıb-qarışa bilməməsi ilə əlaqədardır.

Doğma Azərbaycan xalqından, onun azadlıq mübarizəsindən uzaqda qalan Rüstəmbəy və onun həmfikirlərinin bütün Rusiya müsəlmanlarını birləşdirmək və onların nicatı yolunda çalışmaq fikrinə düşərək, bu xülyapərvər, macəraçı gənclərin siyasi dünyagörüşünün ən zəif, ən yaralı cəhətidir. Iş bu yerə gəlib çatanda bütün studentlərin xülyasının da, mübarizə və fəaliyyətinin də nə qədər əsassız olduğu meydana çıxır. Bu məsələdə də Rüstəmbəy və onun həmfikirləri qüvvələrini boş xülyalara sərf edirlər. Odur ki, onların ayrı-ayrı mütərəqqi meylləri, mədəni arzuları, ictimai islahat ideyaları da ən son nəticədə boş söz olaraq qalır.

Bütün bu mübahisə və mübarizələrdə müxtəlif görüşlü adamlar qarşılaşır. Bunların əksəriyyəti, müəllifin dediyi kimi, bitərəflərdir. Onlar heç bir firqəyə mənsub deyillər, milli hərəkatda mövqeləri hələ müəyyənləşməmişdir. Rüstəmbəy özü milləti bir dildə danışan, bir ənənəsi olan, bir torpaqda yaşayan və bir ideal daşıyan yeknəsəq kütlə kimi təsəvvür edir, bir kökə malik dillərdəki ayrılıqları isə şivə və provinsializm hesab edərək, vahid ədəbi dilin şivələrə qələbə çalacağına qanedir. Onun idealı da olsa, millət üçün görmək istədiyi milli mənəviyyatımızla bağlı problemlərə təəssüf ki, münasibətlər müxtəlif cürdür. Millət adından danışanların bir çoxu siyasi arenaya yalnız xüsusi niyyətlə gəlirlər ki, bu da tələbə yoldaşı Xəlilin Rüstəmbəyə məktubundan aydınlaşır: «Xülasə buradakı bütün qovğalar cib və sədarət üstündədir. Bütün milli təşkilatlar bu iki amil yolunda çarpışırlar. Məslək

böhranı hər yeri qaplamış. Burada baş verənləri görsən «milli» sözünə qarşı üsyan edərsən…

Nə deyim, milli komitədən məyus olacaqsan. Bundan şübhə etmirəm, ancaq bir az məyus olman daha əlverişlidir» [40, s.290].

Mədəniyyət, şəxsiyyətin rolu, millətlərin spesifik xüsusiyyətləri haqqında Rüstəmbəyin qəribə, ziddiyytli fikirləri var. Rüstəmbəyin fikrincə, bəzi millətlər istedadlı, digərləri isə istedadsız olur. Xəlil haqlı olaraq ona etiraz edib deyir ki, tarixi, iqtisadi və ictimai şəraiti əlverişli olan millətin tarixi inkişafda rolu da başqa olur. Bütün bunlarla yanaşı, Rüstəmbəyin bu məsələ ilə əlaqədar mülahizələrinin əsasında millətlərin azad yaşaması arzusu, öz müqəddəratlarını özlərinin təyin etməsi ideyası dururdu. Rüstəmbəy milli hərəkata, firqələrə, inqilaba da bu nöqteyi-nəzərdən yanaşır. Onların doğru yolda olub-olmamasını bu meyarla ölçür. Rüstəmbəy birinci növbədə milli zülmə qarşı çıxır, ucqarlardakı bütün mühüm, mütərəqqi mədəni təşəbbüsləri amansızcasına boğan mütləqiyyətə, çarizmin mürtəce milli siyasətinə düşməndir. Onda milli şüur nə qədər güclüdürsə, sinfi şüur bir o qədər zəifdir.

Professor Tofiq Hüseynoğlu diqqətimizi «Qan içində» romanındakı bayram süfrəsinin təsvirinə yönəldərək yazır: «Qələmkar süfrənin üstünə lacivərd saxsı qablarda noğul, paxlava, şəkərçörəyi, qorabiyə, açıq narıncı rəngli Mazandaran nabatı, quru yemiş qoyulmuşdu. Süfrənin ortasında bir

neçə boşqab, göy səməni düzülmüş kənarlarındakı mətrətlərdə də şərbət vardı» [26, s.279].

Belə süfrənin müxtəlif ailələrdə imkanlı və imkansızlıqdan asılı olaraq müxtəlif cür açılması da müasirlərimizdə bir güzgü kimi dövrün iki üzünü, bir-birinə zidd olan iki yaşayış tərzini – varlıların firavan və tox, kasıbların isə getdikcə daha da yoxsullaşan ağır həyatını əks etdirir. Milli müqəddəratımızın həllində bu ikili yaşayış tərzinə imkan verilməməsini arzulayan Yusif Vəzir ideoloji mübarizədə sayıqlığa daha çox üstünlük verməyi tövsiyə edir.

Xalqımızın elmə, maarifə olan ehtiyacını hərtərəfli başa düşən Yusif Vəzir ötən əsrlərin ən ağır problemi kimi bu sahəyə laqeydliyi hər şeydən qabaq cəhalətdə, gerilikdə görürdü. Bilik, elm olan yerdə hər cür çətinliyin qarşısında durmaq asandır, - fikrində olmuşdur.

Azərbaycan xalqının milli adət-ənənələri içərisində yadda qalan nümunələrdən biri də günahkarın hansı bir millətdən olursa-olsun, cavandırsa, cavanlığına, qocadırsa qocalığına görə məzəmmət olunub bağışlanmasıdır.

Millətin ümumi yaşayış tərzinə, onun siyasi, iqtisadi və coğrafi vəziyyətini tam aydın şəkildə qavrayan Yusif Vəzir hiss edir ki, siyasi bataqlıqdan, çirkabdan çıxmağın yeganə yolu savaddır, maarifçilikdir. Yalnız bu yolla xalqın milli mentalitetinə, milli mədəniyyətinə sığınaraq digər ölkələrə, dünyaya dərdimizi, iradımızı bildirmək mümkündür. Özümüz qadir olduğumuz bir halda, ermənilərə Rusiya

kimi iri ölkələrə öz hallarını bəyan etməyə kim imkan yaratmışdır? .

Y.V.Çəmənzəminli əsərlərində sanki bütöv xalqının təmsilçisi rolunu oynayır. Onun sərrast cavabları, siyasi, coğrafi məsələlərə polemik müzakirə aspektindən yanaşması diplomatik əlaqələr üçün sevindirici haldır. Onun milli sərvət, milli varlığımızın ən dəyərli nümunələrinə malik ölkəsinin ərazicə kiçik olsa da, qat-qat ondan böyük ölkələrə boyun əyməməsinə, ondan asılı olmamasına çalışan qəhrəmanları hiss edir ki, dostluq çərçivəsində yaşamaq, qonşu ölkələrlə bir-birinin ərazisinə hörmətlə yanaşmaq prinsipi əsasında dostluq, mehribanlıq, əməkdaşlıq etmək, bir-birindən faydalanmaq mümkündür. Bundan xalqına daha çox fayda gələ bilər. Çox təəssüflər olsun ki, Vaqifin aşıb-daşan arzularının heç də onun istədiyi kimi həyata keçməsi mümkün olmur. Xanlığın ətrafında toplaşan bir çox qüvvələrin, dairələrin siyasi baxışlarında bir-birinə zidd fikirlər, siyasi hakimiyyətdən ötrü bir-birini didib parçalamaq meyli, riyakarlıq, yaltaqlıq, məddahlıq kimi mənfur və iyrənc xüsusiyyətlər çoxdur.

Cəhalətin avam millətə, tayfaya gətirdiyi məhrumiyyətlərə dözə bilməyən Yusif Vəzir bunun yüksək həddə çatmasına təəssüf edir. Tanrının insan üçün müəyyənləşdirdiyi alın yazısı, qismət payı müqabilində ölə bilən adamların bir-birini öldürməsinə tamaşa etmək, həzz almaq kafirlikdir, Allahdan üz döndərmək, onun qoyduğu hökmlərə

qarşı çıxmaqdır. El içində pis hal almış bəzi ənənələr Yusif Vəzirin həmişə narahatçılığına səbəb olmuşdur.

Qeyd edilməlidir ki, cəmiyyət inkişaf etdikcə onun müəyyən qanunları kontekstində fəaliyyət göstərən adamlar bu qanun, qaydalara hörmətlə yanaşmağı üstün tutur, müqəddəs kəlamlar, saf dini ayinlər, bəşəri ideallarla formalaşan müxtəlif mədəniyyətlərin təsirinə düşərək zənginləşirlər.

Yusif Vəzir Azərbaycan xanlıqlarında hakimiyyət uğrunda baş verən çarpışmalarda nəyin bahasına olursa-olsun, yer tutmaq, vəzifə əldə etmək, qənimət, sərvət toplamaqdan ötrü vurub öldürmək, qan tökməyi humanizmdən kənar mühitdə mübarizənin zəruri amili hesab edir. O, fanatikliyi, avamlığı da xalqın maarifdən, təhsildən kənarda qalması, geriliyi ilə əlaqələndirir.

Milli müəyynlik, milli dil, adət-ənənə, tarixi gerçəklik və psixologiya ilə bağlı olan Y.Vəzirin «Həzrəti-Şəhriyar» komediyasındakı müsbət qəhrəmanı Bəcihədir. Onun milləti, haqqı, ədaləti əks etdirən əhatə dairəsi ğenişdir. Milli mühitin vacib mətləblərini, xalqı düşündürən ictimai-siyasi və əxlaqi məsələləri, xalqın tarixi həyat yolunu, mənəvi dünyasını sənət aləmində ləyaqətlə təcəssüm etdirən Y.V.Çəmənzəminli eyni zamanda yalançı millətçiliyi, fırıldaqçılığı, kələkbazlığı, xalqın adına hörmətsizlik gətirən hər cür riyakar sifətləri qamçılayır, bunu bütöv bir millət üçün təhqir hesab edir.

Bir para adamlar öz qazancları naminə lazımsız müharibələr, eləcə də Avropa müharibələrinə meydan vermək, xalqın qəflətdən oyanmış nümayəndələrini cəzalandırmaq, onları vətənə həsrət qoymaq prinsipləri ilə yaşadıqlarından Yusif Vəzir bir yazıçı kimi hiddətlənir, milli ləyaqət hissini itirən, vicdanı pula, qazanca satanları, dırnaqarası «millət» adından iftixarla danışan yalançı millətçiləri, lotuluqları ilə meydanı daraldan hoqqabazlarıə qamçılayır və bütün hiylələrin, fitnə-fəsadların bolluğundan əziyyət çəkən etnik qrupların, kiçik xalqların milli müqəddəratını düşünür, bunlara laqeyd münasibətləri pisləyir.

Y.V.Çəmənzəminlinin bütün yaradıcılığı boyu milli müəyyənliklə bağlı məsələlərə real baxışları araşdırılmış və qeyd edilmişdir ki, onun milli mövqe üstünlüyü xalqın, elm, savad, təhsil, mədəniyyət və dini müəyyənliyinin yüksək səviyyəsi ilə izah edilir. Bu mənada milli ölməz ruhla yaşayıb xalqın, millətin milli müqəddəratının komponentlərinə müəyyənlik kriteriyası ilə yanaşmaq, bu amal, ideallar uğrunda mübarizənin zəruriliyi qarşıya bir məqsəd kimi qoyulmuşdur.

Həqiqi millətpərəstliklə yalançı millətpərəstliyin müqayisəli təhlili, millətçiliyə xas olmayan qeyri-insani hərəkətlər, maşennikliyin iflası, dinə qazanc mənbəyi kimi baxıb keçmiş təfəkkür tərzi və mənəviyyata, keçmiş psixologiyaya istinad edənlərin tənqidi, həyatın zamanla təzəliyin mübarizəsindən ibarət olması fikirləri Çəmənzəminlinin

rassional düşüncələrinin məhsulu olmuşdur. Yeni din yaratmaq iddiası ilə yaşayanların, bütün dünya üçün kosmopolit din yaratmağa cəhd göstərənlərin heç nəyə nail olmayacağını əsaslandıran mütəfəkkir, əbədi bir quruma heç bir əsas olmadığı kimi dində edilən dəyişikliyin də nisbi olduğunu dönə-dönə xatırlatmış və ondan siyasət kimi istifadə edənləri pisləmişdir. Böyük demokratın «sözümüzün əqidəmizə tərcüman olması», istəyi müqəddəs bildiyi qanunlarımızın aliliyinə dərin hörmətinin ifadəsidir. Onun xalqın milli müstəqillik müəyyənliyinə sadiqliyi, «Müsavat» firqəsinin proqramında torpaq məsələsinə dair hakim siniflərin bəzi imtiyazlarına qarşı bəzi düzəlişlər etməsi, torpağın kəndliyə «məccani» verilməsi tələbini irəli sürməsi və digər mənəvi-əxlaqi axtarışlar aparmasından məqsəd millətin, xalqın milli müqəddərat müəyyənliyinin həlli yollarında bitkin bir nəticəyə gəlməkdir.

Ukraynadakı ictimai-siyasi və mədəni hadisələrin qonşu və yaxın ölkə xalqlarının məlum hadisə ilə təmasını təqdim etmək, ictimai-iqtisadi, coğrafi şəraitlə əlaqədar millətlərin, xırda etnik qrupların öz hüquq və yaşayış tərzinə münasibətlərindən doğan ciddi məsələlərə laqeydliyin, xüsusi məqsədlər üçün «panislamizm» və «pantürkizm» dini-siyasi cərəyanlara sədaqət nümayiş etdirmək, «velikorus» xülyası ilə bütöv Rusiyanı bir daha «ehya etmək» nəzəriyyələri ilə aparılan mübarizənin səfsəfədən başqa bir şey olmadığı aydınlaşır.

Milli məsələdə hələ mövqelərinin müəyyənləşmədiyi, əksəriyyətinin bitərəf olduğu adamlarla qarşılıqlı ünsiyyətdə müxtəlif görüşlərin mövcudluğunu, millətlərin bəzilərinin istedadlı və istedadsız olaraq iki qismə bölünməsinə ciddi etirazın müəyyənləşməsini, bunların əsas səbəblərinin bəzi tarixi, iqtisadi və ictimai şəraitin xalqlar üçün əlverişli olub olmaması ilə müəyyənləşdirən Çəmənzəminli millətinin azad, müstəqil yaşayışını təmin edən milli idarənin fəaliyyətinə yüksək ideallardan yanaşmışdır.

Cəmiyyətin sosial-siyasi inkişafında milli məsələnin tənzimlənməsi ilə bağlı müsbət əxlaqi keyfiyyətlərin, fəzilətin rolunu anlamaynlara qarşı çıxan Yusif Vəzir «həyatda heç bir mənəvi amil yoxdur. Əsrlərin mədəniyyti ibtidai cismaniyyətə bir hərf belə artırmamışdır. Ehtiras bütün çılpaqlığı ilə yaşayır və yaşayacaq… Insan təbiətin quludur, libasına baxmayaraq təbiət kimi çılpaq və vəhşidir… Insan vəhşiliyini daima etiraf etmiş və buna qarşı din və dövlət kimi zəncirlər icad etmiş. Lakin insan vəhşətinə qarşı bunlar da acizdir» [40,c.179] deyənlərin əleyhinə olaraq yazmışdır: «Bir dəstə salamat və tərbiyəli övlad valideyni olmaq nə böyük fəxrdir». Yəni nə qədər arvad mədəni olsa, nə qədər onun elm-təhsili mükəmməl, ağıl dairəsi geniş, əri ilə hüquq və ixtiyaratda müsavi olsa, bir o qədər o arvad tərbiyəli, övlad bəsləməyə müqtədir olar. Tərbiyəli övladlardan da gələcəkdə tərbiyəli və fəal adamlar çıxıb, millət xidmətində olarlar» [43, s.179].

Məqsədsiz, niyyətsiz, əxlaqi idealsız yaşayan adamı heyvan kimi bir şey sayan Yusif Vəzir təsadüfi deyildir ki, istismarın yaşama səbəblərindən birini xalqın əxlaqi geriliyində görürdü. Mütəfəkkir alim bu əqidədə idi ki, namus, vicdan və başqa əxlaq anlayışlarına köhnə münasibət dəyişilməlidir, əks təqdirdə köhnə əxlaqın özünü dəyişdirmək çətin olar. Belə hallarda milli problemlərin həllində fəallığın zəifliyi, hakim və imtiyazlı siniflərin mənafeyinə dözümlü münasibətlər milli müqəddəratımızın reallığına əngəl törədə bilər. Yusif Vəzir insanların azadlığının əxlaqca təkmilləşib möhkəm əqidəli, dünyapərvər olmasını istəyirdi. O hesab edirdi ki, adamlar öz hüquqlarını başa düşsələr, öz ləyaqətlərini anlasalar geriliyin daşını ata biləcəklər.

Onun milliliklə, müstəqilliklə və demokratik cəmiyyət quruculuğu ilə bağlı olan fikirləri, arzu və istəkləri bu gün reallıq və həqiqət olmuşdur.

Yusif Vəzirin istiqlal görüşləri gələcəyə belə bir inam ifadə edir ki, böyük dövlətlər nə qədər cəhd göstərsələr də, öz tərkibində müəyyən tarixi, coğrafi bütövlüyü saxlayan kiçik xalqların və millətlərin milli istiqlal sədasını susdura bilməyəcəklər. Vaxtilə Osmanlı imperiyası daxilində ermənilər, bolqarlar, rumınlar, qreklər, serblər və başqaları milli və dini məsələlərdə azad olduqları üçün ümumi məmləkət mədəniyyətindən ayrılıb öz milli mədəniyyətlərinin inkişafına çalışdıqları kimi Rusiya imperiyası tərkibində də

belə bir prosesin baş verməsi və hər bir muxtariyyət qazanmış respublikanın milli mədəniyytlərinin inkişafı labüddür.

Müasir gənclik, xalqımızın orta nəsli Yusif Vəzirin vətəndaş fəallığından, diplomatiya səriştəsindən, müdrik ağsaqqal məsləhətlərindən bəhrələnib millətimizin bugünkü istiqlaliyyətinin qorunması, onun ağrılı, taleyüklü problemlərinin həlli yolunda mübarizədən çəkinmir və çəkinməməlidirlər.

Y.Vəzir Çəmənzəminlinin çoxcəhətli yaradıcılığının elmi-nəzəri müddəaları həm də onun tarixi müasirlik, ictimai-siyasi məzmunu və milli-bəşəri məziyyətləri ilə fərdiləşir. Müəllif milliliyin milli müəyyənlik, milli dil, milli tarixi gerçəklik, milli ənənə və milli psixologiya ilə bağlı amillərini, bunların təzahür xüsusiyyətlərini «Qan içində» romanında əks etdirdiyi XVIII əsr Azərbaycan həyatının ictimai-siyasi hadisələri və bu cür tarixi hadisələr içərisində erməni-Azərbaycan münasibətlərini milli təəssübkeşliklə oxucu diqqətinə yönəltmiş, milli mənlik şüurunda tarixi oyanmanı canlandırmışdır. Romanda hadisələrin baş verməsinin təzahür xüsusiyyətlərinə, həm də bununla bağlı ictimai-siyasi həyata yazıçı münasibəti vardır. Həm də belə münasibət ilkin münasibət mövqeyidir. Erməni millətçisi Yusif Əmin Londondan Qarabağa gəlir, ermənilər içərisində millətçilik təbliğatı aparır, sonra da onları milli ayrı-seçkiliyə, nifaqa səsləyir. Bütün bu təbliğata görə, Yusif Əmin nəinki ümumən müsəlman əhalisi tərəfindən, habelə xanlıq

tərəfindən cəzalandırılmalı olduğu halda, Ibrahim xan onu cavanlığına görə bağışlayır. Yusif Vəzir həmin bağışlanma, unutqanlıq fəlsəfəsinə etiraz edir. Rusiya himayədarlığı və ermənipərəstlik mövqeyinin tarixən Azərbaycanın milli siyasətinin inkişafına öz təsirini göstərməsini faktlarla açıqlayan Yusif Vəzir romanda həm də dilə münasibətdə həssas olmuş, dilin milli-xəlqi təbiətini əsas götürmüş, sadəliyə və reallığa üstünlük vermişdir.

Şəxsiyyətini öz milli varlığında hiss etdirən mütəfəkkir yaradıcılığında özünün obrazlı təfəkkürünün xalq ruhuna nə qədər yaxın olmasından xəbər verir.

Yusif Vəzir «Azərbaycan muxtariyyəti» adlı ictimai-siyasi məzmunlu silsilə məqalələrində, «Arvadlarımızın halı», «Ana və analıq», «Qız məktəbi açmalı», «Dil məsələsi», «Bizə ciddi mətbuat çoxdan lazım idi» publisistik əsərlərində əsl milliliyi Azərbaycan türklərinin dili, həyatı, təbiəti, arzu-istəkləri, problemləri, eləcə də bədii təfəkkürü, mədəni irsi ilə sıx bağlılığı və vəhdətində axtarırdı. Yusif Vəzir Çəmənzəminlinin təməli Azərbaycanda Sovet hakimiyyəti illərində qoyulan arzuladığı ideal azad qadın obrazının real nümunəsi öz milli və qabaqcıl ölkələrin mədəniyyət dəyərləri ilə təmasda götürülərək çox çətin və ağır mübarizələrin bəhrəsi olmuşdur.

Y.V.Çəmənzəminli milli məsələnin həlli yollarına, eyni zamanda milli idarəçiliyin konsepsiyalarından yanaşmış və belə hesab etmişdir ki, ədalət və bərabərlik üzərində quru-

lan bütün xalq mülkiyyətinə xor baxmaq olmaz, xalqı istismar etmək, onun hüquqlarını əlindən almaq olmaz. Milli idarəçiliyimizdə bütün səylərin, gücün xalqın gündəlik həyat səviyyəsinin yüksəlməsinə, haqsızlıq və ədalətsizliyin aradan qaldırılmasına yönəltməklə mütəfəkkir alim millət vəkillərinin yazdığı qanunların aliliyinə hörmətlə yanaşmağı və həmin qanunların ədalətcəsinə tətbiqinin tərəfdarı olmuşdur. O, Islama, ümumiyyətlə, dinə münasibətdə çox ehtiyatlı və obyektiv olmaqla baxışlarda səthi münasibətləri rədd etmiş, rasional düşüncələrə əsaslanmaqla şəriət ehkamlarına şübhə ilə yanaşmış, Islam dinindən sui-istifadə hallarını pisləmişdir.

Böyük mütəfəkkir sübut etmişdir ki, məntiqə sığmayan bəzi qondarma sənət qanunlarının Qurani-Kərimlə heç bir bağlılığı olmamış, şəriət bir növ bəzi fırıldaqçı, üzdəniraq din nümayəndələrinin əlində oyuncağa çevrilmişdir. Milli idarənin təkcə mərkəzdə yox, həm də ölkənin ucqarlarında, sərhəd zolaqlarında, kəndlərdə, qəsəbələrdə düzgün, ədalətli fəaliyyətini təmin etmək, insanların qədr-qiymətini, hörmətini əksildən, tamahkarlığı, insafsızlığı, natəmizliyi tənqid etməklə Yusif Vəzir haqqı, ədaləti, əmin-amanlığı, vicdanı əldə möhkəm saxlamağı, onu batil etməməyi tövsiyə etmişdir.

Bununla belə, Yusif Vəzir təzə mətbuat orqanlarının yaradılmasına yüksək tələbkarlıqla yanaşır, ləyaqətli qəzet və jurnallar nəşr etdirilməsinə, bunlarda gedən hər cür yazıların təmiz, saf, ana dilinin ali normalarına uyğun yazılıb çap

olunmasına sanballı tövsiyələr vermiş, hər şeydən qabaq bunların milliliklə bağlanmasının tərəfdarı kimi çıxış edirdi. Milli ədəbi dilin təşəkkülündə demokratik cəbhənin xalq dilinə əsaslanmağı qanuni və zəruri sayan Yusif Vəzir əks cəbhədən olan qüvvələrin ədəbi dil normasının müəyyənləşməsində xalq dilinə olan etinasızlığı, antielmi baxışları tənqid edir, ana dilini vətən, xalq, ana dilimizin tənəzzülünü millətimizin tənəzzülü kimi qələmə verir, bu dildə danışmağı milləti və xalqı üçün iftixar və şöhrət sayırdı.

# NƏTİCƏ

Aparılan tədqiqatlardan belə bir qənaətə gəlmək olar ki, Azərbaycanda milli özünüdərk probleminin mənşəyi və mahiyyəti milli fəlsəfə elmimizə, siyasətşünaslığın ən aktual və yeni problemlərindəndir. Həm də əsaslandırılmışdır ki, bu problem təkcə Azərbaycan üçün deyil, mürəkkəb milli müəyyənlik yolu keçmiş digər xalqlar və etnik qruplar üçün də səciyyəvi olmuşdur.

Azərbaycan xalqının bir çox görkəmli şəxsiyyətləri kimi Yusif Vəzir də doğma vətənindən didərgin salınmış repressiya qurbanlarından biridir, ictimai-siyasi fikir tariximiz, ədəbiyyat və mədəniyyət aləmində milli və bəşəri ideallar carçısı kimi tanınmışdır. Dövrün bütün sosial-siyasi, fəlsəfi-etik məsələlərinə dolğun münasibəti mütəfəkkir alimin «Fəlsəfə ilə dürüst tanış olmaq» istəyindən yaranmışdır.

Qədim yunan alimlərinin yaradıcılığı və klassik alman fəlsəfəsi ilə dərindən tanışlığı Avropa və rus maarifçi mütəfəkkirlərinin əsərlərindən bəhrələnməsi onun fəlsəfi-etik, sosial-siyasi baxışlarının, dünyagörüşünün formalaşmasına zəmin yaratmışdır. Demokrit, Aristotel, Sokrat, Herodot, Horatsi, Rlutarx, Meterlinq, Siciliyalı Diodori, Höte, Bayron, Molyer, Volter, J.J.Russo, Şekspir, Nitşe, Kant, Bartold, Ogyust Kont, Raffi, Kautski, Jores, K.Marks, F.Engels,

V.Lenin və başqaları onun zəngin dünyagörüşündə cəmləşən fəlsəfi-etik, sosial-siyasi, iqtisadi, həmçinin hüquqi məsələlərə yeni aspektlərdən yanaşmaq və münasibət bildirməkdə böyük xidmətləri olmuşdur..

Çəmənzəminlinin kainatın yaradıcısı və bu yaradanın kürreyi-ərzimizdə yaratdığı bütün canlı-cansızların hamısına «etidali-dəm»lə (zaman bərabərliyi) yanaşması haqqında çox maraqlı elmi fəlsəfi mülahizələri oxuduğu, elmi-nəzəri mənbələrə, gündəlik həyat praktikasına əsaslanan ictimai-siyasi görüşlərinin bəhrəsidir.

Azərbaycanın bir çox inqilabçı-demokratları, maarifçi mütəfəkkirləri kimi Y.V.Çəmənzəminli də elm, mədəniyyət və tarixin inkişafını ön plana çəkmiş, vətən və xalq işi uğrunda mübarizəni hər bir şəxsin cəmiyyət qarşısında müqəddəs borcu, əxlaqi və davranış üçün yüksək meyar saymışdır.

Bir maarifçi kimi o, siyasi azadlığın əldə edilməsini ictimai quruluşun dəyişməsində görmüş və bunun müqabilində milli azadlığın mümkünlüyünü zərurət hesab etmişdir.

Y.V.Çəmənzəminli sosial ədalətin bərqərar olmasında insanların asudə, firavan yaşayışının təminində hərtərəfli, düzgün siyasət yeridən milli idarənin olmasını zəruri hesab etməklə bir dinli, bir qanlı, bir adətli və bir tarixli Azərbaycan xalqının, Azərbaycan millətinin formalaşmasında, onun mənasının artmasında bu xalqa möhkəm söykənməyi vacib bilmişdir. O, bütün həyatı boyu fəaliyyətində müqəddəs bil-

diyi bir yola – müsavilik, bərabərlik, ədalət yoluna etiqad bəsləməklə humanizmi hər şeydən üstün tutmuşdur. Mütəfəkkir alim dövlət orqanlarında çalışanların əqidəcə təmiz, insaflı, namuslu və savadlı adamlardan ibarət olmasını, xalqla ədalətli davranmalarını, onların hüquqlarına ötkəm münasibətlərdən uzaq olmağı tövsiyə etmişdir.

Çəmənzəminli məktəb və təhsil problemlərinin həlli istiqamətində dünyəvi elmlərin öyrənilməsi və bunların asan mənimsənilməsi yollarında Azəri türk dilinin əhəmiyyətindən yazmaqla bərabər, xırda etnosları da yaddan çıxarmamış, məktəblərdə onlara öz dillərində dərs saatlarının verilməsini vacib hesab etmişdir. Onun «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabında təsvir edilən Azərbaycan ərazisinin, onun sərhədlərinin hüdudlarındakı şəhərlər, qonşu Iran, Iraq, Türkiyə ərazisinin müəyyən hissəsi, Ermənistan və Qara dənizdəki bəzi adalar, Rusiyadakı Dərbənd də daxil olmaqla bütöv Azərbaycan idealı mütəfəkkirlərin və tarixçilərin qabaqcıl fikir və nəzəriyyələrindən irəli gələrək belə bir inam yaradır ki, haçansa bir günün doğacağı, Şimali Azərbaycanla Cənubinin vəhdəti, bütöv Azərbaycan idealının reallığı mümkün olacaqdır.

Y.V.Çəmənzəminli millilik, müstəqillik və demokratik cəmiyyət quruculuğu ilə bağlı fikirləri, vətəndaş fəallığı, diplomatiya səriştəsi, müdrik ağsaqqal məsləhətləri millətə, xalqa, millət kimi yaşamaq istəyi, öz dərdini söyləməyi, səsini çıxarmağı bacarmaq əzmi millətimizin,

bugünkü istiqlaliyyətinin, müstəqilliyinin bərpası, onun ağrılı problemlərinin həlli yolunda mübarizə üçün dəyərli ideya mənbəyidir.

Deyilənləri ümumiləşdirərək aşağıdakı nəticələrə gəlmək olar:

1. Yusif Vəzir Çəmənzəminlinin sosial-fəlsəfi və siyasi görüşləri orijinallığı və aktuallığı ilə diqqəti cəlb edir. Bu mövzunun öyrənilməsi müəllifin zəngin dünyagörüşündəki sosial-siyasi və iqtisadi, fəlsəfi-etik, milli idarəçilik və sosial ədalət, təhsil, milli mətbuat və milli dil problemləri, bütöv Azərbaycan idealı və milli müəyyənlik, millilik, müstəqillik və demokratiya ilə bağlı fikrimizin qaranlıq və az tədqiq olunmuş sahələrinin aşkarlanıb ortaya çıxarılması üçün elmi zəmin yaradır.

2. Yusif Vəzir də doğma vətənindən didərgin salınmış repressiya qurbanlarından olmuş, «Azərbaycan muxtariyyəti» silsiləsindən olan məqalələr məcmuəsində millətin, xalqın azad fikirlərinin, müstəqilliyinin əldə edilməsi yollarında güclü muxtariyyətə əsaslanan dövlət yaratmaq naminə Azəri türk xalqına, onun millətinə xitabən söylədikləri qeyri-normal həyat hadisələrinə qarşı coşqun mübarizə əzmi yaratmaq çağırışı üçün bir siyasi proqram əhəmiyyəti kəsb edir.

3. Milli sərvətimizdən xalqın mənafeyi naminə istifadə olunması Yusif Vəzirin müqəddəs istəklərindən olmuşdur. O, bu yolda məhz xalqın xoşbəxt gələcəyini görürdü. Buna isə dövlətçilik sayəsində nail olmağı mümkün sayılırdı.

4. Çəmənzəminlinin varlığı daimi inkişafda götürən mütəfəkkirlərin müddəalarına əsaslanması onun yeniliyə tam tərəfdar olması dəyərləndirilmişdir. Həyatı mövcudiyyət məhsulu kimi göstərməsi, həyat şəraitinin mövcudiyyət törətməsi, insanı öz varlığına bağlı tam bir məxluq kimi yaşamağa sövq edən amillərin maddi nemətlər istehsalına görə müəyyənləşməsini əsaslandıran mütəfəkkir realist mövqeyindən çıxış etmişdir.

5. Xalqın cəhalət və nadanlığının səbəbini onun bilik yoxsulluğunun nəticəsi kimi başa düşən Yusif Vəzir bilik uğrunda mübarizəni əxlaqi keyfiyyətlər uğrunda mübarizə tək başa düşmüşdür. Insanların mənəvi-əxlaqi təkmilləşməsinə təsir göstərən əsl gözəlliyi də estetik zövq mənbəyi kimi mövcud olan insanda, təbiət və sənətdə görməyi zəruri hesab etmişdir.

6. Çəmənzəminli sosial ədalətin bərqərar olunmasında, insanların asudə firavan yaşayışının təminində hərtərəfli düzgün siyasət yeridən milli idarənin olmasını, torpağımıza və xalqımıza söykənməyi başlıca amil kimi qiymətləndirmişdir.

7. Bütün həyatı boyu fəaliyyətində müqəddəs bildiyi bir yola müsavilik, müasirlik, bərabərlik və ədəalət yoluna etiqad bəsləyən mütəfəkkir humanizm prinsiplərini əsas götürmüşdür.

8. Y.V.Çəmənzəminli məktəb və təhsil problemlərinin həlli istiqamətində dünyəvi elmlərin öyrənilməsi və bunların asan mənimsənilməsi yollarında Azəri türk dilinin əhəmiyyətindən yazmaqla bərabər, kiçik etnosları da yaddan

çıxarmamış, məktəblərdə onlara öz dillərində dərs saatlarının verilməsini vacib saymışdır.

9. Yusif Vəzir Çəmənzəminlinin Azərbaycan Xalq Cümhuriyyətinin diplomatı kimi uzaqgörən siyasəti hazırda özünü təcrübədə doğrultmuş və əsaslandırılmışdır ki, hər hansı güclü və təcavüzkar dövlətdən qorunmaq üçün daha güclü, lakin sülhsevər iri dövlətlərlə əməkdaşlıq etmək, onlarla dostluq əlaqələri yaratmaq vacib amillərdəndir.

10. Əsərlərində fəhlə həyatının çoxsahəli təsviri fonunda mətbuat, dil, din və mədəniyyət məsələlərindən bütün bunların ehtiva etdiyi millilik müəyyənliyindən ətraflı söz açan Yusif Vəzir milli məsələni mücərrəd təqdimat nöqteyi-nəzərindən deyil, tarix, müxtəlif siyasi hadisələr və ideyalar zəminində müxtəlif dünyagörüşlü, düzgün diskussiya və tənqidi mübahisələr şəraitində inikas etdirmişdir. Bu əsərlər milli özünüdərk məsələlərinin müəyyənləşməsi və həyata keçirilməsində müasir gəncliyimiz və milli tərbiyəmiz üçün əhəmiyyətli elmi mənbə, milli mənafeyimiz üçün zəngin ideya, mübarizə qaynağı olmuşdur.

11. Çəmənzəminli dövlətin təşkili üçün üç amili: torpaq, millət və hakimiyyəti əsas götürməklə ərazimizin ilkin sərhədlərinin müəyyənləşdirilməsində, onun nəsillərin yaddaşında yaşanması naminə qonşu Iran, Iraq, Türkiyə, Ermənistan, Rusiya ərazisinin müəyyən hissəsi, Ermənistan və Qara dənizdəki bəzi adalar da daxil olmaqla bütöv Azərbaycan ideyasının şüurlara aşılanmasında ideoloji mübarizənin vacibliyini önəmli hesab etmişdir.

12. Yusif Vəzirin bütün yaradıcılığı üzrə milli müəyyənliklə bağlı məsələlərin təhlili göstərir ki, o, milli mövqe üstünlüyünü xalqın elm, savad, təhsil, mədəniyyət müəyyənliyinin yüksək səviyyəsi ilə izah edir, eyni zamanda yüksək elm və mədəniyyət sahibi olmaqla başqa xalqlarla yanaşı yaşaya bilməyin mümkünlüyündən bəhs edir, həmçinin qadınların üzünə maarif, mədəniyyət, elm ocaqlarının geniş açılmasına daim qayğının olmasını vacib sayır.

13. Çəmənzəminli milli dilin saflığı və təmizliyi uğrunda daha çox çalışmış, bu xüsusda öz tövsiyələrini mətbuatda bəyan etmişdir. Onun fikrincə öz ana dilinin saflığı uğrunda hər kəs mübarizə etməli, xüsusən, mütəxəssislər dilimizin zənginliyinə əsas verən, xalqın ümumişlək malına çevrilmiş ən sadə kütləvi hal alan sözlərin geniş işlənməsinə israr etməlidirlər. Camaatın öz dilində, Azərbaycan türkcəsində danışmağı şərəf, Azərbaycançılığın, Azərbaycan dilinin püxtələşib meydana çıxmasında misilsiz xidmətlər göstərməyi, yad sözlərə uymamağı vacib bilmiş, qəliz ibarələrdən çəkinməyi tələb etmişdir.

14. Y.V.Çəmənzəminlinin keçdiyi ideya təkamülü yolunda bəzi yanlış fikirlərə düşdüyü anları da qeyd etmək lazımdır. O, erməni məsələsinə münasibətdə o dövrün tələblərinə uyğun olaraq kompromis mövqe tutmağı, özünün ziyalı müasirləri kimi ehtiyatlı iş görməyi qət etmiş, nəticədə xalqımızda bir adət halına keçmiş unutqanlıq fəlsəfəsinə qapılmaq məcburiyyətində qalmışdır. O, yeri gəlmişkən, bütün dinlərin inkişafa və tərəqqiyə zidd olmasını iqrar etsə də, digər

tərəfdən xristian aləmini mədəniyyətin beşiyi, islam aləmini cəhlin mənbəyi hesab etmişdir. Bu cür bir-birinə zidd paradoksal fikirlərin yaranması mütəfəkkirin bütün həyatı və yaradıcılıq boyu müşahidələr aparması, ziddiyyətlərlə dolu yaşadığı dövrünü tərəddüdlərlə və nəhayət onun uzun ideya təkamülü yolu keçməsi ilə əlaqədar olmuşdur.

15. Bir müdrik şəxsiyyət kimi Y.V.Çəmənzəminli yolunda əzmkarlıq göstərdiyi doğma Azərbaycan xalqının xoşbəxt gələcəyini, milli-mədəni tərəqqisini onun müstəqil dövlətçiliyində görmüşdür. Bu da öz layiqli təcəssümünü bu-günkü müstəqil Azərbaycan Respublikası timsalında uğurla tapmaqdadır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

## Azərbaycan dilində

1. Abdulla A. Məqsədimiz tam müstəqillikdir. Y.Vəzirin «Biz kimik və istədiyimiz nədir?» əsəri haqqında. Ulduz, 1991, № 5, s.5.
2. Abdulla B.A. Y.V.Çəmənzəminli və folklor. B.: Elm, 1981.
3. Ağayev.M. Azərbaycan ictimai fikrində milli məsələ (1917-1920-ci illər). Namizədlik Dissertasiyası, Azərbaycan EA Fəlsəfə və Hüquq Institutu, B.:1991,161 s.
4. Ağayev M. Vaxtında atılmış addım. AXC və milli müstəqilliyin ideya-siyasi problemləri. AXC-nın 85 illiyinə həsr olunmuş elmi-nəzəri konfransın materialları. B.:2003, s.70.
5. Ağayev Ə. Azərbaycan maarifpərvərləri. Şəxsiyyət və onun formalaşması haqqında.B.: Elm, 1974,30 s.
6. Ağamirov M. Abdulla Şaiqin dünyagörüşü. B.: Maarif, 1983, 244 s.
7. Axundov.M.F. Əsərləri, III cild. B.: Elm, 1998, 387s.
8. Axundova M. Y.Vəzir yaradıcılığı haqqında. Ədəbiyyat və incəsənət, 1965, 17 iyul.
9. Axundova M. Yusif Vəzir Çəmənzəminli. B.: Yazıçı, 1981, 103 s.
10. Axundova M. Gözəl hekayələr ustası. «Azərbaycan» jurnalı, 1967 № 12, s.153-156.
11. Arzumanlı V. Mustafa Nazim. Tarixin qara sifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. B.: Qartal, 1998. s.94, 152 s.

12. Arzumanlı V.M. Tarix siyasətin, siyasət tarixin dili ilə. B.: Qartal, 1999, 366 s.
13. Arif M. Seçilmiş əsərləri, 3 cilddə, C.1. B.: Elm, 1967, 620 s.
14. Azərbaycan tarixi.Dərslik.B.: Azərnəşr,1994,687 s.
15. Azərbaycan sovet ədəbiyyatı. B.: Maarif, 1966, 434 s.
16. Azərbaycan ədəbi dili. Azərbaycan EA. B.: Elm, 1991, 283 s.
17. Bayramoğlu A. Istiqlal yollarında. Y.V.Çəmənzəminlinin «Müstəqilliyimizi istəyiriksə…» kitabına giriş məqalə. B.: Cənclik, 1994, s.3-7.
18. Bayramoğlu A. Y. V. Çəmənzəminli Istanbulda səfirliyin yaradılmasının əhəmiyyəti haqqında. «Bakı» qəzeti, 1992, 14 may.
19. Bayramov Q. Milli mənlik şüurunun ictimai komponenti kimi. Azərb.SSR EA Xəbərləri (tarix, fəlsəfə və hüquq seriyası). 1975, № 4.
20. Bakıxanov A. Seçilmiş əsərləri. Mənzum hekayələr. B.: Yazıçı, 1984, 474 s.
21. Bünyadov Z. Qırmızı terror. B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1993, 330 s.
22. Cəfər Ə. Gənclərin sevdiyi sənətkar. Y.V.Çəmənzəminli. 100 illiyi. Ədəbiyyat və incəsənət, 1987, 18 sentyabr, s.4.
23. Cəfərov N. Milli ictimai fikir tariximizdən. B.: Azərnəşr, 1983, 80 s.
24. Çəmənzəminli Y.V. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. B.: Universitet nəşriyyatı, 1993. 54 s.

25. Çəmənzəminli Y.V. Biz kimik və istədiyimiz nədir? B.: Universitet nəşriyyatı, 1993, 12 s.
26. Çəmənzəminli Y.V. Qan içində. B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1968, 243 s.
27. Çəmənzəminli Y.V. «Həzrəti-Şəhriyar» (yeddi şəkilli komediya). «Qobustan» jurnalı, 1980, № 4, s.80 – 93.
28. Çəmənzəminli Y.V. Aprelin birində. Azərbaycan dilində latın əlifbası ilə. Əlyazmalar Institutu. Arxiv 26. Q – 4 (87). B.: 1934. 13 vərəq.
29. Çəmənzəminli Y.V. Qulluq və əsirlik. Azərbaycan dilində ərəb əlifbası ilə. Avtoqraf. Aşqabat. 1914. Əlyazmalar Institutu, arxiv 26. Q – 3 (71).16 vərəq.
30. Çəmənzəminli Y.V. Qərb və Mirzə Fətəli (latın əlifbası ilə). Əlyazmalar Institutu. Arxiv 26. Q – 9 (160), 1935. 20 vərəq.
31. Çəmənzəminli Y.V. Iki cocuq. Azərbaycan dilində. Latın əlifbasında. Əlyazmalar Institutu. Arxiv 26. Q – 3 (69). B.: 1934. 5 vərəq
32. Çəmənzəminli Y.V. Yazmaq istəmirəm. Zahir və Batin. Felyetonlar. Ədəbiyyat və incəsənət, 1967, 9 sentyabr, s.13.
33. Çəmənzəminli Y.V. Müstəqilliyimizi istəyiriksə… B.: Gənclik, 1994, 72 s.
34. Çəmənzəminli Y.V. Neft və tarixi. «Ədəbiyyat» qəzeti, 1992, 20 mart, s.6.
35. Çəmənzəminli Y.V. Seçilmiş əsərləri. B.: Gənclik, 1976, 142 s.

36. Çəmənzəminli Y.V. Tətil (libretto). Azərbaycan dilində latın əlifbası ilə avtoqraf. Əlyazmalar Institutu, cəmi 6 vərəq. B.: 1933, may. Göy mürəkkəblə qəzetimiz çətin oxunur. Arxiv 26. Q – 5 (97).
37. Çəmənzəminli Y.V. Şəbehgərdanlıq. «Qobustan» jur., 1982, № 1, s.88-89.
38. Çəmənzəminli Y.V. Hekayələr. Son bahar. B.: Gənclik, 1968, 109 s.
39. Çəmənzəminli Y.V. Günah (roman). I hissə. Azərbaycan dilində, ərəb əlifbası ilə. Əlyazmalar Institutu. Arxiv 26. Q – 12 (196). 1914.
40. Çəmənzəminli Y V. Romanları. Azərbaycan SSR EA Nəşriyyatı. B.: 1968, 467 s.
41. Çəmənzəminli Y V. Əsərləri 3 cilddə. 1-ci cild. B.: Elm, 1966, 510 s.
42. Çəmənzəminli Y V. Əsərləri, 3 cilddə, 2-ci cild. B.: Elm, 1977.
43. Çəmənzəminli Y V. Əsərləri, 3 cilddə, 3-cü cild. B.: Elm, 1977, 328 s.
44. Dilbazi M. Y.V.Çəmənzəminlinin anadan olmasının 90 illiyi münasibətilə. Ədəbiyyat və incəsənət, 1977, 17 sentyabr, s.3.
45. Dəmirli D. Qan içində keçən həyat. Ədəbiyyat və incəsənət, 1968, 4 may, s.12.
46. Dəmirli D. Y.V.Çəmənzəminlinin etik görüşləri (dissertasiya). 1979, 176 s.
47. Dəmirli D. Yusif Vəzir demişkən «niyə belə deyirik». «Bakı» qəzeti, 1969, 15 aprel.

48. Dəmirli D. Çəmənzəminli və mətbuat. ADU-nun «Elmi əsərləri» yurnalının seriyası, 1974, № 1-2, s.72 – 73.
49. Dəmirli D. Çəmənzəminlinin əsərlərində əxlaq məsələləri. Azərbaycan müəllimi, 1969, 29 oktyabr.
50. Dəmirli D. Gəncləri sevən ədib. 90 illiyi münasibətilə. Azərbaycan gəncləri, 1977, 17 sentyabr.
51. Əziz Ş. Molla Nəsrəddin necə yarandı? B.: Azərnəşr, 1986, 394 s.
52. Əliyev H. Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. B.: Azərnəşr, I kitab, iyun 1997, 597 s.
53. Əliyev H. Müstəqillik yollarında. IV cilddə. C.1. B.: Azərbaycan., 1997, 558 s.
54. Əliyev H. Qoy ədalət zəfər çalsın (aktual müsahibə). «Literaturnaya qazeta»nın xüsusi müxbirinin suallarına cavab. B.: Azərnəşr, 1981. 36 s.
55. Əliyeva A. Y.V.Çəmənzəminlinin diplomatik fəaliyyəti. Ədəbiyyat və incəsənət, 1989, 13 oktyabr, s.1.
56. Əlioğlu M. «Qızlar bulağı» haqqında qeydlər. Ədəbiyyat və incəsənət, 1967, 11 may, s .5.
57. Əlioğlu M. Qüdrətli romançı və hekayələrimiz. Y.V.Çəmənzəminlinin anadan olmasının 80 illiyi. Azərbaycan gəncləri, 1967, 12 dekabr.
58. Əlioğlu M. Ədəbiyyatda yeni insan. B.: Azərnəşr, 1964. 222 s.
59. Ələkbərov F.Q XX əsrdə Azərbaycanın içtimai - siyasi və fəlsəfi fikir tarixində Məhəmməd Əmin Rəsulzadənin yeri

və rolu. Namizədlik dissertasiyası. AMEA, Fəlsəfə və Siyasi Hüquqi Tədqiqatlar Institutu. B.: 2005, 178 s.

60. Əsədov A.I. Təfəkkürün fəlsəfəsi.B.: Qanun,1997,250 s.
61. Əhmədov. R. «Əkinçi» qəzeti və milli maarifçilik. Namizədlik dissertasiyası. B.: 1995, 127 s.
62. Hacıbəyov Ü. Əsərləri.10 cilddə. 3-cü cild, B.: Elm, 1968, 307 s.
63. Hüseynzadə A. Seyid Hüseynin pedaqoji fəaliyyəti və maarifçilik görüşləri.. B.: Maarif, 1991, 184 s.
64. Hüseynov S.A. Həqiqət və ədalət carçısı. Bakı qəzeti 1988, 191 s.
65. Hüseynov A. Müxtəlifliyin birliyi. B.: Yazıçı, 1983, 216 s.
66. Hüseynov T, Həsənov Cəlil. Yarımhəqiqətdən tam həqiqətə (Y.V.Çəmənzəminli ömrünün keşməkeşli illəri, həbs edilməsi və vəfatı). Ulduz, 1989, № 8, s.72 – 80.
67. Hüseynov T. Y.V.Çəmənzəminli. Azərbaycan SSR «Bilik» Cəmiyyəti. Mühaziraçiyə kömək. B.: 1987, 84 s.
68. Hüseynov T. Mən ədəbiyyatla yaşayıram. B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1993.
69. Hüseynov T. Tarixi roman ustası. B.: Yazıçı, 1986, 168 s.
70. Hüseynov T. Ukrayna və Y.V.Çəmənzəminli. «Ədəbiyyat» qəzeti, 1993, 15 yanvar, s.1 – 2.
71. Hüseynov T. Çəmənzəminli ilə yeni görüş. Çəmənzəminlinin seçilmiş əsərlərinin çapdan çıxması haqqında. B.: 1976, 24 sentyabr.
72. Hüseynov T. Ədibin 3 cildliyinin çapdan çıxması münasibətilə. «Gülüstan», 1980, № 4, s.79.
73. Hüseynoğlu T. Söz tarixin yuvası. B.: 2000, 238 s.

74. Hüseynov T. «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabına bir nəzər. Y.V.Çəmənzəminli. Tarixi, coğrafi və iqtisadi Azərbaycan. B.: Universitet nəşriyyatı, 1993.
75. Hüseynov T. Bir daha Çəmənzəminli haqqında. «Elm» qəzeti, 30 avqust 2004-cü il.
76. Xaspoladov Ə. Y.V.Çəmənzəminli yaradıcılığında milli ideyanın əksi. «Elturan» jurnalı, № 1–2, 1998, s.35 – 38.
77. Xəlilov Q. Qiymətli tarixi roman. Ədəbiyyat və incəsənət qəzeti, 1961, 4 mart. «Qan içində» romanı haqqında.
78. Xəlilov P. Herodot tarixi və «Qızlar bulağı». Ədəbi qeydlər. Ədəbiyyat və incəsənət qəzeti, 1986, 20 iyul, s.6.
79. Xəlilov P. Gözəl yazıçı. Anadan olmasının 75 illiyi. Azərbaycan, 1962, № 9, s.173 – 179.
80. Xəlilov P. Ömrün şərəfi, qələmin qüdrəti (Y.V.Çəmənzəminlinin anadan olmasının 100 illiyi). Azərbaycan, 1987, № 9, s.152 – 155.
81. Ibrahimli Ə. Yusif Vəzir Çəmənzəminli və milli məsələ. B.: Qartal, 2002. – 151 s.
82. Ibrahimov Mirzə. Xəlqilik və realizm cəbhəsindən. B.: Azərnəşr, 1961. 524 s.
83. Ilkin Q. «Əli və Nino» romanının müəllifi Çəmənzəminlidir. Azərbaycan qəzeti, 1994, 21 iyun.
84. Ilkin Q. Bir daha «Əli və Nino» haqqında. Azərbaycan qəzeti, 1995, 1 sentyabr.
85. Isayev.N.M. XIX əsrin II yarısı XX əsrin əvvəllərində Azərbaycanda milli oyanış prosesi və demokratik dövlətçilik ideyasının təşəkkülü problemi. AMEA Sosial-Siyasi problemlər. X buraxılış, B.: 2004, s.26.

86. Islam. Qısa məlumat kitabı. Bakı Azərbaycan Dövlət Nəşriyyatı, 1985. 162 s.
87. Ismayılov I.Ə. Azərbaycanın XX əsrdə dövlətçilik siyasəti məsələləri. B.: ADNA, 1995, 198 s.
88. Kazımov N M. Ali məktəb pedaqogikası. B.: «Nicat» nəşriyyatı, 1999, 337 s.
89. Köçərli F.Q. Marksizm-Leninizm və Azərbaycanda demokratik ictimai fikir. B.: Azərnəşr, 1976, 236 s.
90. Göyüşov Z.B. Azərbaycan maarifçilərinin əsərlərində əxlaq məsələləri. B.: Azərnəşr, 1964, 191 s.
91. Göyüşov Z.B. Daxilə pəncərə (özünüdərketmə). Azərnəşr, B.:1978,197 s.
92. Qarayev Y. Meyar şəxsiyyətdir. B.: Yazıçı, 456 s.
93. Qarayev Y. Tənqid: problemlər, portretlər. B.: Azərnəşr, 1976,912 s.
94. Qasımzadə F.C. XIX əsr Azərbaycan ədəbiyyatı tarixi. B.: ADU nəşriyyatı, 1961, 556 s.
95. Qocatürk U. Atatürk. B.: Elm, 1956, 208 s.
96. Qasımzadə Q.Ədəbiyyatda millilik və beynəlmiləllik. B.: Elm, 1982, 274 s.
97. Qəhrəmanlı N. AXC dövründə Azərbaycanda etnosiyasi vəziyyət və milli özünüdərketmə prosesi. AXC. B.: Qartal, 1998, s.133.
98. Qəhrəmanov K. Realist hekayələr. Y.V.Çəmənzəminlinin «Cənnətin qəbzi» adlı hekayələr kitabı haqqında. Ədəbiyyat və incəsənət, 1958, 24 may.
99. Quliyev V. Qəlblərdə yaşayan sənətkar. Anadan olmasının 100 illiyi. B.: 1987, 21 sentyabr.

100. Quliyev H. «Əli və Nino»nun əsl müəllifi kimdir? «Azərbaycan XXI əsr» qəzeti, 2000, 8 – 14 may.
101. Quliyeva P. Y.V.Çəmənzəminlinin «Bir cavanın dəftəri» əsərinin janrı haqqında. Azərbaycan EA Xəbərləri. Dil, ədəbiyyat və incəsənət seriyası, 1986, № 3, s.12 – 16.
102. Qurban S. «Əli və Nino» romanı. B.: Yazıçı, 1993. 224 s.
103. Marksizmədək fəlsəfənin əsas inkişaf mərhələləri. Dərs vəsaiti. Azərbaycan Dövlət Tədris Pedaqoji Ədəbiyyatı nəşriyyatı. B.: 1962. 260 s.
104. Mirəhmədov Ə.M. Istedad və mədəniyyət (Çəmənzəminlinin anadan olmasının 90 illiyi). Kommunist, 1977. 14 sentyabr.
105. Muxtarov K. Əliyev R. XX əsrdə türk xalqlarının birliyi ideyası. B.: Qartal, 2002. 120 s.
106. Məlikova M.Məmmədquluzadə əsərləri, 2-ci cild «Dram əsərləri», B.: Azərnəşr, 1984. 196 s.
107. Məlikova M. F, Bayramov E.R. Azərbaycan siyasi-hüquqi nəzəriyyələr tarixi (oçerklər). B.: «Maarif» nəşriyyatı, 1984. 312 s.
108. Məmmədquluzadə C. Seçilmiş Əsərləri. B.: Maarif, 1987. 193 s.
109. Məmmədquluzadə C. Əsərləri, I c. B.: Azərnəşr, 1983. 348 s.
110. Məmmədov A. Istibdad əleyhinə 3 hekayə. Anadan olmasının 80 illiyi qarşısında. Kirovabad kommunisti, 1967, 24 oktyabr.

111. Məmmədov A. Çəmənzəminlinin hekayələrində fanatizm və nadanlığın tənqidi. Kirovabad kommunisti, 1967, 12 – 14 oktyabr.
112. Məmmədov A. Çəmənzəminlinin naməlum əsəri. Y.Vəzirin Kiyevdən «Günəş» qəzetinə göndərdiyi məktub haqqında. Ədəbiyyat və incəsənət, 1987, 25 sentyabr.
113. Məmmədov B. Yaradıcılıq dairəsi. Çəmənzəminlinin yaradıcılığı haqqında. Ədəbiyyat və incəsənət, 1987, 18 sentyabr, s.4.
114. Məmmədov K. Y.V.Çəmənzəminli. «Məşələ dönmüş həyat». B.: Azərnəşr, 1987. 269 s.
115. Məmmədov K. Y.V.Çəmənzəminlinin naməlum pyesi. Yazıçının Paris həyatından alınmış «Həzrəti-Şəhriyar» adlı komediyası haqqında. «Bakı» qəzeti, 1977, 30 avqust.
116. Məmmədov K. Yusif Vəzir Çəmənzəminli (Həyatı və yaradıcılıq yolu). Azərbaycan SSR Elmlər Akademiyası. B.: Elm, 1981. 263 s.
117. Məmmədov K. Sənətkarın çətin ömür yolu (Monoqrafik oçerk). Y.V.Çəmənzəminli yaradıcılığı haqqında. Azərbaycan, 1979, № 8, s.120-152; № 9, s.149.
118. Məmmədov M. «Qan içində» romanının müzakirəsi. «Araz». 1968, 25 iyul.
119. Məmmədov F. Y.V.Çəmənzəminli. «Qızlar bulağı». Romanda əmək tərbiyəsi məsələləri. Ədəbiyyat və incəsənət, 1985, 23 avqust, s.8.
120. Yazıçı və xalq hikməti (Y.V.Çəmənzəminlinin yaradıcılığı haqqında). Ulduz, 1977, s.59-61.

121. Məmmədov Z. Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri. B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1986. 64 s.
122. Məmmədov Z. Azərbaycan fəlsəfəsi tarixi. B.: Irşad, 1994. 340 s.
123. Məcidqızı Seyla. Y.V.Çəmənzəminli və rus mədəniyyəti. 151 s.
124. Nağıyeva C. Yusif Vəzir Çəmənzəminli arxivinin təsviri. Azərbaycan Elmlər Akademiyası Əlyazmalar Institutu. B.: Örnək, 1999, 200 s.
125. Nizami G. Isgəndərnamə («Iqbalnamə»). Azərbaycan SSR EA Nəşriyyatı, B.: 1967. 279 s.
126. Nicat Ə. Yusif Vəzirə özgəsinin əsəri gərək deyil (Lev Nissenbaumun (Qurban Səid) «Əli və Nino» romanının Y.V.Çəmənzəminliyə aid olmaması haqqında). Azərbaycanın səsi, 1995, 10 iyun.
127. Nəbiyev B. Tənqid və ədəbi proses. B.: Azərnəşr, 1976. 186 s.
128. Nərimanov N. Məqalələr və nitqlər. Iki cilddə. 1 cild. B.: Azərbaycan Dövlət Nəşriyyatı, 1971, 265 s.
129. Ramazanov F.F. Insan və təbiət. Azərb SSR. «Bilik» cəmiyyəti. B.: 1977, 59 s.
130. Rəsulzadə M Ə. Əsərləri. Birinci cild. 1903 – 1909. Azərbaycan Dövlət Nəşriyyatı. B.: 1992. – 460 s.
131. Rəsulzadə M Ə. Azərbaycan Cümhuriyyəti. B.: Elm, 1990, 112 s.
132. Rəsulzadə M Ə. Azərbaycan şairi Nizami. B.: Elm, 1991, 232 s.

133. Rüstəmov I.Ə. Həsənbəy Zərdabi. B.: Gənclik, 1969, 187 s.
134. Rüstəmov I.Ə. XX əsrin əvvəllərində Azərbaycanda təbii-elmi və fəlsəfi fikrin vəhdəti. B.: Azərnəşr, 1992, 120 s.
135. Rüstəmov Y. Informasion cəmiyyət şəraitində qloballaşmanın bəzi sosial-fəlsəfi və iqtisadi aspektləri. Fəlsəfə və sosial-siyasi elmlər jurnalı № 2, B.: 2003.
136. Rüstəmov Y. Fəlsəfə. Dərslik. B.: Elm 2004, 474 s.
137. Rüstəmov Y.Beynəlxalq münasibətlər sistemində ABŞ-ın rolu(Z.Bjezinski ilə qiyabi dialoq) B.: «Elm»-2005, 187s.
138. Səfurə. «Burada bir məmur yaşayır, gedən ondan pul alaq» (Y.V.Çəmənzəminli əsərlərinin kiyevli yəhudi Əsəd bəy (Qurban Səid) tərəfindən mənimsənilməsi haqqında. «Əli və Nino» əsəri). Rezonans, 1998, 26-29 sentyabr, s.11.
139. Şəmsizadə N. Azərbaycan ideologiyası. B.: Sabah, 1996, 103 s.
140. Şərif H. Heyran olduğum insan (Anadan olmasının 100 illiyi). Azərbaycan, 1988, № 6, s.169 – 171.
141. Şükürov A M. Fəlsəfə. Ali məktəblər üçün dərs vəsaiti. B.: Elm, 1997, 384 s.
142. Şirəliyev H., Əhmədov Ə. Politologiya. Dərslik. B.:Təbib, 1997. 416 s.
143. Talıbzadə K. Tənqid və tənqidçilər. Yusif Vəziri xatırlayanda. B.: Yazıçı, 1989, s.423.
144. Tağıyev Ə.M. və b. Milli ideya və milli ideologiya. B.: Təbib, 2000, 192 s.
145. Tağıyev Ə.M. AXC – Azərbaycan milli ideyasının təcəssümüdür. AXC. B.:Qartal, 1998.

146. Türkel.Y. Demokratik cəmiyyətin milli – mənəvi problemləri. B.: Nurlan, 2002, 180 s.
147. Füzuli M. Əsərləri, I c. Bakı, Azərb. SSR EA Nəşriyyatı. B.:1958. 465 s.
148. Füzuli M. Leyli və Məcnun. B.: Gənclik, 1977, 210 s.
149. Füzuli M. Seçilmiş əsərləri, B.: Yazıçı, 1984 272 s.
150. Fəlsəfə ensiklopedik lüğəti. «Azərbaycan ensiklopediyası» Nəşriyyatı birliyi. B.: 1997, 518 s.
151. Vurğun S. Böyük sənət uğrunda (seçilmiş məqalə, məruzə və çıxışlar). B.: Gənclik, 1970, 191 s.
152. Vəzirov O. Atam Yusif Vəzir Çəmənzəminli haqqında. B.: Azərnəşr, 1979, 120 s.
153. Vəzirova L O. Y.V.Çəmənzəminlinin publisistikası (dissertasiya). B.: 2002, 125 s.
154. Vəzirova F. Qiymətli tədqiqat əsəri (M.Axundovanın «Y.V.Çəmənzəminli» kitabı haqqında). Azərbaycan qadını, 1981, № 11, s.21.

## Türk dilində

155. Baykara Hüseyn. Çarlık Rusiyasının Azərbaycanda yapdığı istila savaşları. 6,5 s. 112 sifəlik dərgi. «Türk kulturu» dərgisi, 1964, sayı 19.
156. Caferoğlu Ahmed. prof. dr. Tarihin ilk türk cümhuriyyeti Azerbaycan. 6,5 s. «Türk kulturu» dərqisi, 1964, mayıs, sayı 19.
157. Kafesoğlu Ibrahim. prof.dr. Millet anlayışımız ve Azerbaycan. Türk kulturu. Türk kulturu Araşdırma Enstitüsü, 1964, mayıs, sayı 19. S. 6-7, 8-9.

## Rus dilində


1. Ахмедов Э. М.Философия азербайджанского Просвещения. Б.: Азернешр, 1982.
2. Агаев М. Национальный вопрос в общественной мысли Азербайджана (1917–1920 гг.). Автореферат канд. дисс. Б.: 1991. 22 с.
3. Алиев В.М. Ислам и азербайджанское Просвещение. Автореф. канд. дисс. Б.: 1984, 23 с.
4. Азимов К.А. Азербайджанские мыслители о человеке (Критика современ. западных интерпретации). Б.: Язычы, 1986. 205 с.
5. Бабаев Г. Межнациональные связи азербайджанской литературы (1920–1973).Библиография. Б.: 1978, с.
6. Борьев И. Личность – нация – человечество. В книге «Национальное и интернациональное в советской литературе ». М.: Наука 1972.
7. Балаев А. Азербайджанское национальное движение в 1917– 1918 гг, Б.: Элм. 1990, 280 с.
8. Гусейнов Г.Н. Из истории общественной философской мысли Азербайджана XIX века. Б.: Азернешр, второе издание 1958. 430 с.
9. Геюшов З.Б. Этическая мысль в Азербайджане. Б.: Гянджлик, 1968, 564 с.
10. Гаджиев А. А. Азербайджанский реализм: Проблемы истины и национальной типология. Б.: Язычы, 1984, 239 с.
11. Гамзатов Р. Мой Дагестан. М.: Политиздат, 1971, с.

12. История азербайджанской философии. Том I, Б.: Элм, 2002, 358 с.
13. Исаев Н.М. Философско–мировоззренческие идеи Азербайджанского Просвещения (Автореф.канд.дисс.). Б.: 1980, 23 с.
14. Ибрагимова Р. А. Социально – политические идеи Азербайджанского Просвещения Автореферат. Б.: 1984, 20 с.
15. Касумзаде Ф С. Очерки Азербайджанской литературы XIX века. Б.: Азернешр, 1962, 332 с.
16. Касумов М.М. Очерки по истории передовой философской и общественнополитической мысли Азербайджанского народа в XIX веке.Баку: Изд-во АГУ, 1959, 200 с.
17. Кулизаде З А. Теоретические проблемы истории культуры Востока и низамиведение. Б.: Элм, 1987.
18. Кулизаде З.А. Из истории азербайджанской философии VII – XVI в.в. Б.: Азернешр, 1992, 237 с.
19. Мамедов Ш.Ф. Основные этапы развития философской мысли в Азербайджане (автореф. докт.диссертации).М.: 1962, 36 с.
20. Нариманов Н. Избранные произведения в трех томах. Б.: Азернешр, 1989. С. 185, 766 с.
21. Рафиев С. В чем заблуждается Рустам Ибрагимбеков? Панорама, 1998, 24 октября.
22. Сеидзаде Д.Б. Общественно-политическая деятельность Азербайджанской буржуазии (Автореф. докт. дисс.). А.Н. Азербайджанна, Институт истории.

23. Талипов Н.А. Общественная мысль в Иране в XIX – начале XX века. М.: Наука, 1988. 291 с.

### İnternet saytları

24. www. rambler. ru – axtarış saytı

## SUMMARY

Of the author's abstract of A.I.Ibrahimov`s monography on a theme "Yusif Vezir Chemenzeminly`s philosophical and social-political ideas".

In the monography Y.V.Chemenzeminly`s philosophical and sosio-political ideas are investigated, the tendency of development of thinker's works are analyzed as a whole. In this work the attention is given to complex working out of the historical reasons of conditions of ideological development and scientific-cultural factors in author's work. In this work thinker's attitudes to the philosophical aspects in a sociopolitical context are examined.

The monography consists of introduction, three chapters, conclusion and bibliography. The first chapter is dedicated to the research of basic tendencies find trends associated with Y.V.Chemenzeminly`s epoch and activates and also his ethics philosophical and sosio-political views. It is substsntiated, that his scientific-

theoretical works developed on the basis of ideas of national revival that is one major problems in the modern world.

The second chapter is about thinker`s state and enlightenment ideals in the context of social justice of national press, at last problem of national language.

In the carried out researches the autor has come to a conclusion that Y.V.Chemenzeminly passed the long creative way of ideological perfection from enlightenment up to national independence. In his works he proposes? That the state should have the special program of general educational and cultural character to bring up the educated and skilled personnel.

In the third chapter the national affairs are examined in details. The autor proves, that in the history of socio-political thought for the first time Y.V.Chemenzeminly formed expression “all works for the benefit of a nation and people”as”national affairs”. Y.V.Chemenzeminly considered important in life of each people, nation the solution of a problem of national self-determination. Also he gave the great importance to people`s ideal-fight for united Azerbaijan.

## РЕЗЮМЕ

Монографии А.И.Ибрагимова по теме «Философские и социально-политические взгляды Юсифа Везира Чеменземинли».

В монографии исследованы философские и социально-политические воззрения Ю.В.Чеменземинли, анализированы тенденции развития творчества мыслителя в целом. В работе

уделяется внимание комплексной разработке исторических причин идейного развития и научно-культурных факторов в произведениях мыслителя. В монографии рассматриваются отношение мыслителя к философским аспектам в социално-политическом контексте.

Монография состоит из введения, трех глав, заключения и списка литературы.

Первая глава посвящается исследованию основных тенденций и направлений, связанных с эпохой и деятельностью Ю.В.Чеменземинли, а также его философским и социально-политическим взглядами. Обосновано, что его научно-теоретическое творчество сформировалось на базе идей национального возрождения, что является одной из важнейщих проблем в современном мире.

Во второй главе речь идет о государственных и просветительских идеях мыслителя в контексте социальной справедливости, национальной процессы, национального языка.

В проведенном исследовании автор пришел к выводу, что Ю.В.Чеменземинли прошел длительный творческий путь идейного совершенствования от просветительской до национальной независимости. В своих трудах он предлагает, что государство должно иметь специальную программу общеобразователного и културного характера, чтобы воспитать образованных и квалифицированных кадров.

В третьей главе обстоятельно рассматриваются национальные вопросы. Исследователь доказывает, что впервые в истории общественно-политической мысли Ю.В.Чеменземинли выражение «все в пользу нации и народа» сформулиро-

вал как «национальные вопросы». Чеменземинли считал важнее всего в жизни каждого народа, этноса решение вопроса национального самоопреления. Также он придавал большое значение идеалу народа – борьбе за единый Азербайджан.

✵☙ ✵ ❧✵

✵☙ ✵ ❧✵

# KİTABA VERİLƏN RƏYLƏR

Fəlsəfə elmləri namizədi İbrahimov Əli İmanqulu oğlunun «Yusif Vəzir Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda kitabına

## R Ə Y

Azərbaycan xalqının ictimai-siyasi, fəlsəfi, ədəbi fikir tarixində müstəsna yeri olan simalardan biri də Yusif Vəzir Çəmənzəminlidir. Zəngin tarixə malik Azərbaycan mədəniyyətinə, onun təşəkkül və inkişafına Y.V.Çəmənzəminlinin verdiyi töhfələr, onun göstərdiyi xidmətlər tədqiqatçılarımızın diqqətindən kənarda qalmamışdır. Azərbaycanda XIX və XX əsrin əvvəllərində ictimai-siyasi,

fəlsəfi, ədəbi fikir tarixinin elmi problemlərini araşdıranlar istər-istəməz Çəmənzəminli yaradıcılığına, onun elmi-ədəbi irsinə toxunmalı olmuşlar, bəzən də onun yaradıcılığı ilə bilavasitə bağlı olan, bəzən də ziddiyyətli məqamlara cavab verməkdə çətinliklərlə rastlaşmışlar. Bu da ondan irəli gəlirdi ki, Çəmənzəminli öz elmi-ədəbi yaradıcılığında çox müxtəlif fəaliyyət sahələrini birləşdirir. Əslində onun həyatı və yaradıcılığı çox zəngin və mürəkkəb bir sistem təşkil edir. Ona görə də tədqiqatçılar Çəmənzəminli ideyalarını ilk təşəbbüs və yanaşmadan əhatə etməyə qadir olmamışlar. Səbəb də sadəcə olaraq budur ki, Çəmənzəminli ali savadlı hüquqşünas, böyük ictimia-dövlət xadimi, Azərbaycan dövlətçilik və diplomatiya tarixində xüsusi xidmətləri olan səfir-diplomat, görkəmli ədib, qiymətli romanlar, ədəbi əsərlər müəllifi, çox nüfuzlu jurnalist-publisist, mütəfəkkir alim kimi tanınmışdır. Həmçinin nəzərə almaq lazımdır ki, Çəmənzəminlinin həyatı və yaradıcılığı tariximizin üç mürəkkəb və maraqlı mərhələlərində cərəyan etmişdir, yəni Cəmənzəminli Azərbaycan Xalq Cümhuriyyətinə qədərki dövrdə, Cümhuriyyət dövründə və Sovet hakimiyyəti illərində fəaliyyət göstərmişdir, həyatının müəyyən illəri Azərbaycanla yanaşı, Türkiyə, Ukrayna, Rusiya və Fransada keçmişdir.

Bu dediklərimiz baxımından Əli Ibrahimovun «Yusif Vəzir Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda monoqrafiyası çox yerinə düşür və Çə-

mənzəminlinin elmi irsinin fəlsəfi tədqiqi sahəsinə çox dəyərli töhfədir. Monoqrafiyada Çəmənzəminli ilə bağlı çox zəngin elmi informasiya verilmiş, Çəmənzəminlinin əsərlərindən, arxiv materiallarından dolğun, məzmunlu iqtibaslar gətirilmişdir. Cəsarətlə demək olar ki, bu monoqrafiya gələcək elmi tədqiqatçılarımız üçün dəyərli məxəz rolunu oynaya bilər.

Haqqında bəhs etdiyimiz monoqrafiya çox maraqla oxunur. Mövcud tələblərə uyğun olaraq tədqiqatın aktuallığı, indiyə qədər işlənilmə dərəcəsi, tədqiqat qarşısında duran başlıca vəzifələr lazımi səviyyədə, aydın şəkildə əsaslandırılır. Diqqəti bu da cəlb edir ki, müəllif özündən əvvəlki tədqiqatçılara və tədqiqat əsərlərinə çox diqqətlə, mən deyərdim, qədirbilənliklə yanaşır, Çəmənzəminlinin elmi irsinin tədqiqində hər bir kəsin xidmətini yerli-yerində göstərir. Bundan da hazırki monoqrafiya və onun müəllifi qazanır.

Monoqrafiyanın strukturu, o cümlədən paraqraflar üzrə bölgüsü ciddi etiraz doğurmur, yəni bütövlükdə qənaətləndiricidir. Əsərin «Girişi» mövcud tələblərə cavab verir. Monoqrafiyanın «Y.V.Çəmənzəminlinin dövrü və ictimai-siyasi görüşləri» adlanan I fəslində müəllif başlıca diqqəti mütəfəkkirin dünyagörüşünün formalaşdığı dövrün elmi təsviri və bununla əlaqədar olaraq aparıcı meyllər və istiqamətlərin təhlili üzərində cəmləşdirir, Çəmənzəminlinin fəlsəfi-etik görüşlərini şərh edir, mütəfəkkirin sosial-siyasi

ideyalarının təhlili üzərində xüsusi olaraq dayanır. Belə hesab edirik ki, tədqiqatçı burada qarşıya qoyduğu vəzifənin öhdəsindən gələ bilmiş, Çəmənzəminlinin fəlsəfi dünyagörüşü və ideyaları haqqında lazımi təsəvvür yarada bilir. Burada həmçinin dünyanın görkəmli filosofları, mütəfəkkirləri haqqında Çəmənzəminlinin fikirləri cəmləşdirilmiş və müəllif onları təhlil etməyə çalışmışdır. Yeri gəldikcə müəllif dialektik inkişaf konsepsiyası, məzmun və forma, müsbət əxlaqi keyfiyyətlər, eyni zamanda mənfi əxlaqi vərdişlər, davranışlar haqqında Çəmənzəminlinin fikirlərini tədqiqata cəlb edir. Bəhs etdiyimiz fəsil Çəmənzəminlinin sosial-siyasi görüşlərinin elmi təhlili ilə başa çatır. Çarizm üsul idarəçinin kəskin tənqidi, Səttarxan milli-azadlıq hərəkatına, 1904-1905-ci il rus-yapon müharibəsinə münasibət, gələcək cəmiyyət quruculuğu haqqında fikirlər, mövhumat və cəhalətə qarşı ardıcıl mübarizə məsələləri ilə əlaqədar mütəfəkkirlərin ictimai-siyasi duyumları, ideya və düşüncələri öz əksini tapmışdır. Bunları da biz qənaətləndirici hesab edirik.

Monoqrafiyanın II fəsli Çəmənzəminlinin dövlətçilik və maarifçilik ideyalarının təhlilinə həsr edilmişdir. Burada müəllif hər şeydən əvvəl ümumiyyətlə maarifçilik, o cümlədən Azərbaycanda maarifçilik hərəkatı haqqında maraqlı fikirlər söyləyir. Tədqiqatçı düzgün olaraq qeyd edir ki, maarifçilər xeyirxah olmağı, ədalətə xidmət etməyi, qüsurları pisləməyi təbliğ edirdilər. Çəmənzəminli də elm,

mədəniyyət və maarifin inkişafı məsələlərini ön plana çəkirdi. Müəllif burada mütəfəkkirin elmi irsindən kifayət qədər dolğun istifadə etmişdir.

Sosial ədalət və milli idarəçilik məsələlərinə dair Çəmənzəminlinin ideyalarının təhlilinə xüsusi yer verilir, təhsil, milli mətbuat və milli dil problemləri barədə Yusif Vəzirin fikirləri monoqrafiyada kifayət qədər dolğun şərh olunur.

Monoqrafiyanın III fəsli Çəmənzəminlinin milli məsələyə dair fikirlərinin təhlilinə həsr edilmişdir. Burada müəllif Çəmənzəminlinin dövrün milli-etnik mənzərəsinə münasibətinin təhlilini, bütöv Azərbaycan idealı məsələləsinə dair baxışlarını şərh edir, milli məsələnin qoyuluşu və onun həlli yolları barədə mütəfəkkirin fikirlərini tədqiqata cəlb edir. Bunlarla əlaqədar olaraq Çəmənzəminlinin əsərlərindən lazımi iqtibaslar gətirilir. Elmi təhlil bizi bütövlükdə qane edir.

Bütün yuxarıda deyilənləri də nəzərə almaqla deyə bilərik ki, Ə.Ibrahimovun təqdim etdiyi «Yusif Vəzir Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda monoqrafyia çox yaxşı təəssürat doğurur. Əsərin dili bütövlükdə aydın və səlisdir, məntiqi ardıcıllıq prinsiplərinə ciddi əməl edilir. Monoqrafyianın çap olunmasını məsləhət bilirəm.

*Fəlsəfə elmləri doktoru, professor:*
*İzzət Rüstəmov*

Fəlsəfə elmləri namizədi Ibrahimov Əli Imanqulu oğlunun Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda kitabına

**R Ə Y**

Azərbaycan xalqının ictimai-siyasi və fəlsəfi fikir tarixində görkəmli siyasi xadim, publisist, mütəfəkkir, millət fədaisi Yusif Vəzir Çəmənzəminlinin (1887-1943) həyatı, dövrü, zəngin yaradıcılığı və ictimai-siyasi ideyaları istər bəraət qazandığı sovet dövründə, istərsə də Sovetlər ittifaqı dağılandan sonra tədqiqatçıların diqqətini daha çox cəlb etməyə başlamışdır. Xüsusilə Y.V.Çəmənzəminlinin fəlsəfi irsinin araşdırılmasına az diqqət yetirilmişdir. Bu baxımdan Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşlərini tədqiq etməklə, həm də o dövrün ictimai-siyasi və fəlsəfi məsələlərinə də müəyyən dərəcədə aydınlıq gətirmək olar. Odur ki, Ibrahimov Əli Imanqulu oğlunun «Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda monoqrafyiası təqdirə layiqdir və görkəmli mütəfəkkirlərimizin fəlsəfi irsinin öyrənilməsi sahəsində, fəlsəfə tarixi yönündə yazılmış maraqlı əsərdir.

Monoqrafiya giriş, 3 fəsil, 8 paraqraf, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Girişdə mövzunun aktuallığı, işlənmə dərəcəsi, obyekti, ideya-nəzəri və metodoloji əsası, elmi praktik əhəmiyyəti əsaslandırılır.

Müəllif «Y.V.Çəmənzəminlinin dövrü və ictimai-siyasi görüşləri» adlı 1-ci fəslin «Dövrü və fəaliyyəti: aparıcı meyllər və istiqamətlər» adlanan birinci paraqrafında Yusif Vəzirin mənəvi dünyasının formalaşmasında XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda yaranmış sosial-siyasi şərait, başlanan milli oyanış prosesi, onun rolunu, əhəmiyyətini ilkin mənbələr və bu məsələyə dair yazılmış elmi əsərlərə istinad etməklə tədqiq etmişdir.

Tədqiqat işində Y.V.Çəmənzəminlinin Azərbaycan maarifçilərindən A.Bakıxanovun, M.Ş.Vazehin, M.F.Axundzadənin, H.Zərdabinin, N.B.Vəzirovun və başqalarının milli ideologiyaya dair düşüncələrindən faydalanması, milli şüurun oyanması, milli müəyyənlik, milli dil, ana dillli təhsil, milli mətbuat, milli istiqlal və s. zəmanəsinin ən vacib problemlərinin həllinə xüsusi əhəmiyyət verməklə ona xidmət etməsi kimi məsələlərin araşdırılaraq, ümumiləşdirilməsi təqdirəlayiqdir.

«Y.V.Çəmənzəminlinin fəlsəfi-etik görüşləri» adlı 2-ci paraqrafda müəllif mütəfəkkirin ictimai-siyasi, fəlsəfi, hüquqi, əxlaqi və s. mühüm əhəmiyyət kəsb edən və maarifçiliklə daha çox bağlı olan məsələləri geniş araşdırmağa cəhd göstərmiş, eyni zamanda bəşəriyyətə

mütərəqqi ideyaları və zəngin dünyagörüşləri ilə xidmət edən elm və zəka korifeylərinə Yusif Vəzirin xüsusi diqqətlə yanaşıb, onların fəlsəfəyə, ədəbiyyata, tarixə dair əsərlərinidən bəhrələnərək mütərəqqi fikirlərinə yiyələnməsini elmi əsaslarla düzgün qiymətləndirmişdir.

Tədqiqatçı göstərir ki, Y.V.Çəmənzəminli maddi və mənəvi, insan və dünya, həyat və ölüm kimi dünyagörüşü xarakterli məsələlərlə yanaşı, insan və cəmiyyət haqqında fikir və mülahizələrində də dərin hikməti ilə seçilir. Bu həm də onu deməyə əsas verir ki, o, özünün tarixi romanlarında insanı daim düşündürən məsələləri geniş təhlil obyektinə çevirərək insan-insan; insan cəmiyyət və s. baxımından izah etmişdir. Tədqiqatçı Çəmənəzəminlinin ifadəsində «yaşamaq öz-özlüyündə bir məqsəddir» fikrini fəlsəfi aspektdə açıqlamaqla insanın fərdi həyatını cəmiyyətdən kənarda təsəvvür etmədiyini, fərd ilə cəmiyyətin münasibətini təkcə ilə ümuminin münasibəti kimi qiymətləndirdiyini aşkar etmişdir. Müəllif eyni zamanda müqayisələr aparmaqla H.Zərdabinin və Y.V.Çəmənzəminlinin adət-ənənələrimizin bəzi məqamları barədə mülahizələrinə aydınlıq gətirmiş, onların əsərlərində bəşəri ideeyaları, mənəvi dəyərləri aşkar etmiş, onların bəşəri ideyalarla yaşamalarını əsərlərdən misallar gətirməklə təsdiq etmişdir.

Bütün bunlarla yanaşı, tədqiqatçı narahat zəmanəsindəki qadın bədbəxtliyinin əsas səbəbi olan ixtiyarsızlıq, hüquqsuzluğa qarşı Yusif Vəzirin etirazına

rəğmən təhsilli, savadlı qadın problemi üzərində düşüncələrinə aydınlıq gətirmişdir.

Birinci fəslin «Sosial-siyasi görüşləri» adlı üçüncü paraqrafında tədqiqatçı Y.V.Çəmənzəminlinin 1918-ci ildə Bakıda kitabça şəklində çapdan çıxmış «Azərbaycan muxtariyyəti» silsiləsindən olan məqalələr məcmuəsi əsasında dövrünün dərəbəylikləri, özbaşınalıqları, güclünün gücsüzə zor göstərməsinə son qoymaq əzmi uğrunda mübarizəyə çağırışlarını araşdırmış, onun ictimai-siyasi həyatla bağlı, yaşadığı mühitin tələblərindən doğan zəruri məsələlərə xalqımızın milli müqəddəratı, muxtariyyəti, yeraltı və yerüstü milli sərvətlərinə yüksək ədalət meyarından yanaşmağın formalaşmasında hamının, xüsusən dövlət məmurlarının iştirakının vacibliyi barədə fikirlərini elmi əsaslarla təhlil etmişdir.

«Y.V.Çəmənzəminlinin dövlətçilik və maarifçilik ideyaları» adlı 2-ci fəslinin «Sosial ədəalət və milli idarəçilik məsələləri» adlı 1-ci paraqrafında tədqiqatçı müəyyənləşdirir ki, Çəmənzəminli elm, mədəniyyət və maarifin inkişafını ön plana çəkməklə, vətən və xalq işi uğrunda mübarizəni hər bir şəxsin müqəddəs borcu, əxlaq və davranışı üçün yüksək meyar hesab etmişdir.

Ikinci fəslin «Təhsil, milli mətbuat və milli dil problemləri» adlı növbəti paraqrafında tədqiqatçı mütəfəkkirin fikirlərini açıqlayarkən onun təhsilin, maarifin cəmiyyət həyatında, milli tərəqqidə roluna dair

mülahizələrini, istək və arzularını ön planda verir. Müəyyən edir ki, Yusif Vəzirin nəzərində millət hamılıqla – kişili-qadınlı təhsilə cəlb edilməklə gerilikdən, nadanlıqdan və sadəlövhlükdən yaxa qurtara bilər. Çəmənzəminlinin məktəb-təhsil haqda layihə xarakterli təkliflərini çox düzgün açıqlayan müəllif, «Çəmənzəminli xalqın maariflənməsində milli mətbuatın inkişafına, dilimizin zənginliyinə əhəmiyyət verən, xalqın ümumişlək malına çevrilmiş ən sadə kütləvi hal alan sözlərin geniş işlənməsinə nail olmağın mümkünlüyünü əsaslandırmışdır» qənaətinə gəlir..

«Y.V.Çəmənzəminli və milli məsələ» fəslinin 1-ci paraqrafında «Dövrün milli etnik mənzərəsinə münasibət» problemi araşdırılır..

Tədqiqatçı 1905-ci il inqilabından sonra çoxmillətli Rusiya imperiyasında baş verən milli oyanış hərəkatının Y.V.Çəmənzəminli tərəfindən hərarətlə qarşılanması, onu yeni-yeni fəaliyyətlərə sövq etməsi, Rusiya daxilindəki türk və digər müsəlman xalqlar üçün məhəlli və milli muxtariyyət tələblərinə onun tərəfdar çıxdığını aşkar etmişdir.Çəmənzəminl cəmiyyətin milli-etnik mənzərəsinə, millətin öz müqəddəratını təiyn etmək hüquqları baxımından yanaşmağa səy göstərməsinə də münasibət bildirilmişdir. Müəllif Çəmənzəminlinin əsərlərinə əsasən o zamankı Rusiyada federasiya, yaxud imperiya tərəfdarlarının azlıq təşkil edən kiçik xalqlardan tutmuş çoxsaylı xalqlaradək hamının «vahid ailədə» birləşib yaşamasına imkan yaratmaqla

velikorus hegemonluğunu gücləndirmək naminə məqsədlərini açıqlamışdır.

«Bütöv Azərbaycan idealı» adlı ikinci paraqrafda müəllif mütəfəkkirin bu gün üçün xüsusi əhəmiyyət kəsb edən «Azərbaycan», «azərbaycançılıq», «Azərbaycan sərhədi», «Azərbaycan xalqı», «Azəri türkləri» kimi problemlər haqqında baxışlarını tədqiq edir. Tədqiqatçı «Tarixi, coğrafi və iqtisadi Azərbaycan» kitabının müqəddəməsində Azərbaycanın Şərq ilə Qərb arasında körpü təşkil edən mühüm bir ölkə kimi təqdim olunması, burada bütün kiçik xalqların birləşib «Azəri türkləri» adlı ayrıca bir millətin vücuda gəlməsi barədə Yusif Vəzirin məlumatlarını, yürütdüyü mülahizələri elmi-nəzəri sanbalılığına görə dəyərləndirir.

Üçüncü fəslin «Milli məsələnin qoyuluşu və həlli yolları»adlı sonuncu paraqrafında müəllif Y.V.Çəmənzəminlinin yaşadığı dövründə böyük həqiqətləri dərk edib milli mənafe naminə mövqeyini, onun milli müəyyənliyin müxtəlif mübahisəli məsələlərinə həm elmi-nəzəri, həm də etik-estetik baxımdan münasibətini açıqlamışdır. Ilkin mənbələr əsaısnda Yusif Vəzirin milli ərazinin, dilin, dinin, adət və ənənələrin milli müəyyənliyin atributik əlamətləri olması barədə ideyaları layiqincə araşdırılmışdır. Müasir Azərbaycan milli intibah ideyalarının gerçəklənməsi, xalqın öz müqəddəratını təyin etmək hüquqlarının müəyyənləşdirilməsi yolunda böyük demokratın mühüm xidmətləri nəzərdən keçirilərək

qiymətləndirilmişdir. Monoqrafiya ümumilikdə yüksək nəzəri səviyyədə, həm də fəlsəfi dildə yazıldığından çap olunmasını məsləhət bilirəm.

**Fəlsəfə elmləri namizəd, dosent: A.M.Bəşirov**

ƏLI IMANQULU OĞLU IBRAHIMOV

**Y.V.ÇƏMƏNZƏMINLININ FƏLSƏFI VƏ SOSIAL-SIYASI GÖRÜŞLƏRI**

АЛИ ИМАНГУЛУ ОГЛЫ ИБРАГИМОВ

**ФИЛОСОФСКИЕ И СОЦИАЛЬНО-ПОЛИТИЧЕСКИЕ ВЗГЛЯДЫ Ю.В.ЧЕМЕНЗЕМИНЛИ**

ALI IMANQULU OGLU IBRAHIMOV

**Y.V.CHEMENZEMINLI`S PHILOSOPHICAL AND SOSIAL-POLITIKAL IDEAS**

**B A K I - «NUPRLAN» - 2008**

**«NURLAN» Redaksiya-Nəşriyyat və Poliqrafiya Mərkəzi**

*«Nurlan» RNPM-nin mətbəəsində çap edilmişdir (Bakı, İstiqlaliyyət küç., 8).*



Əli İmanqulu oğlu İbrahimov 1946-cı ildə Azərbaycan Respublikası Astara rayonunun Artupa kəndində anadan olmuşdur. Səncərədi kənd yeddillik (1960), Astara şəhər 1 saylı orta onbirillik (1964) məktəbini bitirmişdir. 1964-1969-cu illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır. 1969-71-ci illərdə ordu sıralarında zabit olaraq siyasi rəhbər vəzifəsində xidmət etmişdir. 1971-74-cü illərdə Bakı şəhəri Hövsan qəsəbəsinin 196 saylı beynəlmiləl orta məktəbində hərbi rəhbər və dil-ədəbiyyat müəllimi işləmişdir. 1979-1981-ci illərdə Marksizim-leninizm Universitetində təhsil almışdır.1974-1996-cı illərdə Astara rayonunun Artupa və Ərçivan kənd orta məktəblərində təlim-tərbiyə işləri üzrə direktor müavini və təşkilatçı işləmiş, 1982-1987-ci illərdə sovet və partiya işlərində rəhbər vəzifələrdə çalışmışdır. 1997-ci ildən Azərbaycan MEA Milli Münasibətlər Institutunda elmi işçi vəzifəsində çalışmış, hazırda AMEA Fəlsəfə və Siyasi-hüquqi Tədqiqatlar Institutunun «Politologiya» şöbəsində böyük elmi işçidir. 2002-ci ildə «Y.V.Çəmənzəminli və milli məsələ» monoqrafiyası çapdan çıxmışdır. 2007-ci ildə «Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

50-ə yaxın elmi məqalənin müəllifdir. «Y.V.Çəmənzəminlinin fəlsəfi və sosial-siyasi görüşləri» onun üçüncü kitabıdır.